# UŞAQLAR, YENİYETMƏLƏR VƏ GƏNCLƏR

**Cənab Rəhbər Ayətullah Xamenei**

Tərtib edən: Əmirhüseyn Banki Purfərd və Əhməd Qumaşçı
Tərcümə edən: Cəlil İmanzadə

بسم الله الرحمن الرحيم

Kitabın adı:..............Uşaqlar, yeniyetmələr və gənclər
Tərcümə edən:.................................. Cəlil İmanzadə
Nəşr edən:...................................................................
Çap tarixi:............................................................2015
Çap növbəsi:...................................................Birinci
Tiraj:...................................................................3000

**Mündəricat**

*Birinci fəsil: Uşaqlar*......6

*Uşağın xüsusiyyətləri*......6

*Təhlükələr*......7

*Uşağın təlim-tərbiyəsi*......10

*İman və mənəviyyatın inkişafı*......12

*Uşaq və yeniyetmələri dərin imanla böyütmək lazımdır.*......12

*Quran əzbərləmək*......14

*Mənim fikrim budur ki, Quran əzbərləməyə uşaqlıqdan başlamaq lazımdır.*......14

*Uşaq tərbiyəsində məsul şəxslərin vəzifəsi*......15

*İkinci fəsil: Yeniyetmələr*......23

*Yeniyetməlik xüsusiyyətləri*......23

*Quruluşda yeniyetmələrin* rolu......24

*Yeniyetməliyin təhlükələri*......27

*Yeniyetmələrin təlim-tərbiyəsi*......29

*Yeniyetmələrin vəzifələri*......33

*Üçüncü fəsil: Gənclər*......37

*İman və inanc sahəsi*......37

*Əxlaq və mənəviyyat sahəsi*......58

*Təlim-tərbiyə sahəsi ...........................................................90*
*Siyasət və idarəçilik sahəsi.................................................106*
*Mədəniyyət və sivilizasiya sahəsi ........................................120*
*Ailə və nikah sahəsi..............................................................151*
*İnsani münasibətlər sahəsi .................................................159*
*İş və quruculuq sahəsi .......................................................174*
*Gənc nəsil işdə təşəbbüsçülüyün, düzgünlüyün və saflığın tərənnümüdür.......................................................................175*
*Bizim gənclərimizin səyi bu ölkəni tərəqqi və iftixarın zirvəsinə çatdıra bilər. ..........................................................180*
*Əməkdaşlıq və ictimai öhdəlik sahəsi.................................183*
*Elm sahəsi.............................................................................190*
*Yaradıcılıq sahəsi ................................................................192*
*İncəsənət və ədəbiyyat sahəsi..............................................201*
*İdman və bədən tərbiyəsi sahəsi ..........................................209*
*Əlavələr.................................................................................213*

**Əlavələr**

*Əlavə 1: Altı yaşdan aşağı uşaqların elm və təhsili seminarına müraciət (İslam Respublikası qəzeti, 1 iyun 1987)..................................................234*

*Əlavə 2: İslam İnqilabında Gənc və Yeniyetmə Məsələlərini Araşdırma Mərkəzinə müraciət (İslam Respublikası qəzeti, 8 iyun 1987)...................238*

*Əlavə 3: Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciət (Ettelaat qəzeti, 31 iyun 1988)............................................................................242*

*Əlavə 4: İnqilab rəhbərinin ölkə gəncləri ilə səmimi görüşü (Ettelaat qəzeti, 11 may 1998)...............................................................................245*

*Əlavə 5: İnqilabın Böyük Rəhbərinin İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşündəki çıxışı.....278 (Keyhan qəzeti, 28 fevral 2001)*

# Birinci fəsil: Uşaqlar

## *Uşağın xüsusiyyətləri*

**Pak və kamillik axtaran fitrət**

Uşaqlar həyat sərvətlərinin pak fitrət toxumundan ibarət olan ümidverici tumurcuqlardır.

Bütün uşaqlar pak və kamillik axtaran fitrətlə doğulurlar. [1]

**Taleyin təyin olunması**

Uşaqlıq dövrü başqa bir cəhətdən həssasdır. Mən bunu qəbul edirəm ki, əgər bizim tərəf-müqabillərimiz uşaqlar olsalar, işimiz ağır olmayacaq. Lakin uşaqlarda çox şeylər vardır; yəni gəncin yetkinlik dövründəki taleyi onun uşaqlıq dövründə təyin olunur.[2]

**Şəxsiyyətin formalaşması**

Şəxsiyyətin formalaşması - məntiq və dil istedadlarının inkişafı, emosional tarazlıq və ictimai əlaqələr qurmaq bacarığı üçün uşağın həyatının ilk altı ili böyük əhəmiyyətə malikdir. Demişlər ki, orta məktəb dövrünün sonundakı gəncin nailiyyətlərinin yarıdan çoxu onun məktəbə girməzdən qabaqkı illərinə aiddir.[3]

**Ən çox təsirlənən insan**

Uşaq həm gələcək məhsulların yeni ağacı, həm də müsbət və mənfi olmasından asılı olmayaraq təbii və mənəvi məsələlərdən ən çox təsirlənən insandır.[4]

**Uşağın güclü təsirlənməsi**

Uşağın güclü və həssas təsirlənməsi çox nəticəli və sonuclu bir təsirlənmədir. Yəni bu uşağın sonunda və aqibətində olan

---

[1] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

[2] Radionun Uşaq və yeniyetmə qrupu ilə görüşdəki çıxışdan; 1992

[3] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

[4] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1998

təsirləri olduqca çoxdur. Odur ki, bu məsələni nəzərə almaq lazımdır.[1]

**Fərdi fərqlər**

Təlim-tərbiyə məsələlərindən biri bu uşaqların fərdi fərqlərinə diqqət yetirməkdir. Uşaqlar genetik şərait, ailə vəziyyəti, valideynlərin peşə mövqeyi, ictimai vəziyyət, imkanlar, istedad və inkişafın digər müxtəlif cəhətləri baxımından bir-biri ilə fərqlənirlər.[2]

**Qiymətli varlıq**

Bu qiymətli varlıq valideynin əlində və nəhayət təlatümlü cəmiyyətdə zəif və müdafiəsiz bir əmanətdir.[3]

## *Təhlükələr*

**Fiziki təhlükələr**

**Uşaqların sağlamlığını təmin etmək dini vəzifə kimi**

Bizim fikrimizcə uşağın fiziki və psixoloji sağlamlığını təmin etmək bir vəzifədir. Analar öz körpələrinə süd verərkən din və şəriət vəzifəsinə əməl etdiklərini hiss etməlidirlər. Ölkədə uşaqların sağlamlığının təmin edilməsinə çalışan şəxslər və həkimlər də öz dini vəzifələrinə əməl etdiklərini duymalıdırlar.[4]

**Ana südündən məhrum olmaq**

Bu gün həkim və mütəxəssislər bu nəticəyə gəliblər ki, körpə üçün ən yaxşı dərman ana südüdür. Halbuki inqilabdan öncə bizi uşaqlarımızı quru südlə qidalandırmağa çağırırdılar

---

[1] Radionun Uşaq və yeniyetmə qrupu ilə görüşdəki çıxışdan; 1992

[2] Risalət qəzeti; 1994

[3] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1988

[4] Firuzgər xəstəxanasında Uşaqların sağlamlığı üçün səfərbərlik seminarında çıxışdan; 1988

və anaların öz övladlarına süd verməməsini mədəniyyət və sivilizasiyanın prinsiplərindən biri hesab edirdilər.[1]

**Vaksinləmə**

Mən cəmiyyətin bütün fərdlərinə, xüsusən də analara tövsiyə edirəm ki, uşaqların sağlamlığına və vaksin məsələsinə əhəmiyyət versinlər. Bir uşaq xəstələndikdə onu müalicə etdirdikləri kimi, uşaqların sağlamlığına və qabaqlayıcı tibbi tədbirlərə də xüsusi diqqət yetirməlidirlər.

Avropada və İranda geniş yayılmış bir məsələ olan uşaqlara süd verməmək məsələsi İslam tərəfindən qəbul olunmur, bəyənilmir və elm də bunu təsdiq etmir.[2]

**Vaksinləmə - bir dini məsələsi**

Qeyd etmək zəruridir ki, vaksinləmə dini bir məsələsidir. Çünki vaksinləmə xəstəlik, ölüm və əlillik təhlükəsini uşaqdan uzaqlaşdırır. Təhlükəni uzaqlaşdırmaq da İslama görə vacibdir.[3]

**Mühitin sağlamlığı**

Mühitin sağlamlığı, təhlükəsizlik, körpələrin xəstəlik əleyhinə vaksinlənməsi, uşaqların münasib və sağlam qidalanması İran İslam Respublikasında uşaq ölümünün azalmasına və doğuş zamanı həyata ümidin artmasına çalışmaq xüsusi prioritetə malikdir. Keçmiş işlərin nəticələrinin məsuliyyətli şəkildə dəyərləndirilməsi çatışmazlıq və nöqsanların aradan qaldırılmasında sürətin yaranmasına səbəb olacaq.[4]

**Aclıq**

---

[1] Firuzgər xəstəxanasında Uşaqların sağlamlığı üçün səfərbərlik seminarında çıxışdan; 1988

[2] Tehranın cümə namazı xütbələrindən; 1994

[3] Firuzgər xəstəxanasında Uşaqların sağlamlığı üçün səfərbərlik seminarında çıxışdan; 1988

[4] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1988

Lakin ehtiyatlı olmalısınız ki, bu gənc əldən çıxmasın. Bu yeniyetmə, bu uşaq, bu yetimlər! Məbada bunların aclıq çəkməsinə qoyasınız![1]

**Övlada qulluğun əhəmiyyəti**

Ana südü ilə qidalandırmaq, uşağın həyatına, sağlamlığına və tərbiyəsinə önəm vermək bizim həmişə təkid göstərdiyimiz əsas məsələdir. Bunun ən böyük və ən müqəddəs bir iş olduğunu düşünürük. Düşünürük ki, bu bir ailədə görülməsi lazım olan ən böyük və ən müqəddəs bir işdir. Odur ki, təhsilli xanımların əməli surətdə ölkə qadınlarına öz övladlarına qulluq etməyin əhəmiyyətini öyrətmələri zəruridir.[2]

**Mədəni təhlükələr**

**Uşaqların emosional və psixoloji sağlamlığı üçün səfərbərlik**

Bu gün biz uşaqların fiziki sağlamlığını təmin etmək üçün böyük və davamlı bir səfərbərliyə başlayırıq. Bu çox mühüm məsələdir. Lakin uşaqların emosional və psixoloji sağlamlığı üçün də səfərbərlik etməliyik. Bu iş ilk növbədə ata və anaların öhdəsinə düşür.[3]

**Atasızlıq**

Atasızlıq bir şəxsi, emosional və adi məsələ deyil. Atasını əldən vermiş bir övlad ən vacib ehtiyaclarından birini əldən vermiş insandır. Müsəlmanlar cəmiyyətdə yetimlərin yaşayış vəziyyətinə diqqət yetirməlidirlər ki, ac qalmasınlar və hörmətsizlik görməsinlər.[4]

**İmansızlıq - ən böyük bəla**

---

[1] Tehranın cümə namazı xütbələrindən; 1994

[2] Firuzgər xəstəxanasında Uşaqların sağlamlığı üçün səfərbərlik seminarında çıxışdan; 1988

[3] Firuzgər xəstəxanasında Uşaqların sağlamlığı üçün səfərbərlik seminarında çıxışdan; 1988

[4] Tehranın cümə namazı xütbələrindən; 1994

Uşaq və yeniyetmələri dərin imanla yetişdirmək lazımdır. İmansızlıq gənc nəsil üçün ən böyük bəladır.[1]

**Narkomaniya və əxlaq fəsadı**

Uşaqların ictimai təhlükəsizliyi haqqında çox danışılan cəmiyyətlərdə hər gün yeni fərdi və ictimai faciə və fəsadların şahidi oluruq.

Narkomaniya və əxlaq fəsadının, hətta cinsi fəsadın bəşər bağının pak qönçələrinə sirayət edib onlarda vaxtsız xəzan yaratması, necə deyərlər, mütərəqqi ölkələrin əlaltıları vasitəsi ilə yoxsul xalqların məsum körpələrinin alınıb-satılması və hətta təsəvvürü bizim xalqımız üçün dəhşətli olan daha vəhşi əməllər, misal üçün, bu günahsız körpələrin bədən üzvlərinin satılması böyük faciələrdir.[2]

## *Uşağın təlim-tərbiyəsi*

**Ləyaqəli, yaxud fəsadlı insan tərbiyəsi**

Nəzərə almalıyıq ki, bütün uşaqlar pak və kamillik axtaran fitrət əsasında doğulurlar. Onları uğurlu və ləyaqətli, yaxud ümidsiz və fəsadlı insanlara çevirən ailə və cəmiyyətin verdiyi tərbiyədir. Dünyada bütün öhdəlikli təlim-tərbiyə işçilərinin səyi bu Allah axtaran təbiət əsasında bacarıqlı, normal və qüsursuz nəslin tərbiyəsi ilə nəticələnib, cəmiyyətlər üçün ləyaqətli insani resursun təmin edilməsində aydın gələcəyə müjdəçi ola bilər.[3]

**Ailənin və cəmiyyətin uyğun və təsirli rolu**

Ailə və cəmiyyət bir-biri ilə uyğun olan təsirli tərbiyə qurumları kimi uşağın məktəbə getməsindən öncə onun ictimailəşməsi sahəsində - faydalı və qurucu adət-ənənələri qəbul etməsində və onda yaxşı əxlaqın formalaşmasında öz

---

[1] Ölkənin müşavirə qurumlarının və tərbiyəvi müavinlərinin keçirdiyi seminarın iştirakçıları ilə görüşdəki çıxışdan; 1985

[2] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

[3] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

rollarını ifa etməlidirlər. Bu mühüm vəzifələri təkcə peşəkar tərbiyəçilərə və müəllimlərə tapşırmasınlar.[1]

**Uşaqların tərbiyəsi və cəmiyyətin sərvətlərinin təmini**

Uşaq məsələsi mühüm məsələdir. Uşağın tərbiyəsi, təhsili və əxlaqı gələcəyin ən dəyərli sərvətlərini təmin edən amillərdir və uşaqların sağlamlığı bu sərvətlərin xalqın gələcəyi üçün qalmasına səbəb olur.[2]

**Uşağın sağlamlığını və paklığını qorumaq**

Mənim fikrimcə, biz uşağı fitrətən istedadlı və pak varlıq bilməli və bütün səyimizi onun sağlamlığının və paklığının qorunmasına yönəltməliyik. Bu, uşaqlar üçün görülməsi mümkün olan ən çox işdir.[3]

**Uşaq üçün ata və ananın varlığının hissi**

Əvvəlcə övladda valideynlərin varlığına hiss yaratmaq lazımdır. Əgər uşaq bunu hiss etsə, onun inkişafı və tərbiyəsi belə bir hissə malik olmayan uşaqdan tamamilə fərqli olacaq. Uşaq üçün mühüm olan onun beynində ilham qaynağı kimi ata və ananın varlığını hiss etməkdir.[4]

**Sağlam təlim-tərbiyənin təsiri**

Şübhəsiz, faydalı və sağlam təlim-tərbiyə münasib inkişaf şəraitində uşağın fitrət lövhəsinə gözəl naxış vurub onun təkamül şəraitini hazırlaya və bu yolla xalqlar üçün aydın gələcək təmin edə bilər.[5]

**Uşaqların əxlaqi tərbiyəsinin əhəmiyyəti**

Uşaq və yeniyetmələrin əxlaqi tərbiyəsi bütün ölkə və cəmiyyətlər üçün həqiqətən əhəmiyyətlidir. Lakin bizim üçün

---

[1] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

[2] Uşaqların sağlamlıq həftəsi seminarında çıxışdan; 1984

[3] Gələcəyi quranlar jurnalına müsahibədən; 1986

[4] Valideyn və Tərbiyəçilər Birliyinin Ali Şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1983

[5] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

daha artıq əhəmiyyətə malikdir. Daha artıq əhəmiyyəti ona görədir ki, İslam cəmiyyəti, yəni İslam təfəkkürü və hökmləri əsasında qurulan cəmiyyət öhdəsinə digər cəmiyyətlərin adi mübarizəsindən daha böyük mübarizə götürmüşdür.[1]

**Uşağın kamillik axtaran xislətini formalaşdırmaq**

Uşaqların tərbiyəsinin zəruri olması, onların ailə və cəmiyyətdə fikir, duyğu və ictimai inkişafı üçün münasib maddi, psixoloji və mədəni şərait yaratmağın lazım olmasına dair yekdil rəy mövcuddur. Mübahisəli və çox diqqətə ehtiyacı olan məsələ bu danılmaz prinsiplərin icra növü, uşağın kamal istəyən təbiətini formalaşdırmağın, aktivliyini, möhkəmliyini, psixoloji və mənəvi tarazlığını təmin etmək üçün onun inkişaf maneələrini ortadan götürməyin necəliyindədir. Bu hər bir cəmiyyətdə nəinki təlim-tərbiyə üzrə məsul şəxslərin və ekspertlərin, hətta hər bir quruluşun məsul şəxslərinin ən mühüm vəzifələrindəndir.[2]

## *İman və mənəviyyatın inkişafı*

**İman toxumu**

Çalışın uşaqları imanlı edin; Allaha imanlı, mütləq həqiqətə imanlı, İslama imanlı. Əgər bu uşaq imanlı tərbiyə olunsa və siz qəlbində iman toxumunu əkə bilsəniz, gələcəkdə ondan əzəmətli bir şəxsiyyət düzəltmək olacaq. O hər bir iş üçün münasib olacaq.[3]

**Mömin yetişdirmək**

Uşaq və yeniyetmələri dərin imanla böyütmək lazımdır.[4]

---

[1] Vilayətlərin maarif müdirlərinin tərbiyəvi işlər üzrə müavinləri ilə görüşdəki çıxışdan; 1995

[2] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

[3] Uşaq və Yeniyetmələrin Əqli İnkişafı Mərkəzinin məsul şəxsləri, sənət adamları və yazıçıları ilə görüşdəki çıxışdan; 1998

[4] Vilayətlərin tərbiyəvi müavinləri və müşavirə qurumları ilə görüşdəki çıxışdan; 1985

**Uşaq tərbiyəsində mənəviyyata xüsusi diqqət**

Materialist dünya haqlı olaraq mənəviyyatın təsirinin azlığından əziyyət və iztirab içindədir. Tərbiyəvi işlərdə həmin mənəvi amilə xüsusi diqqət yetirilməlidir. Uşaqların tərbiyəsində və dəyər məfhumlarının köçürülməsində bu, ən mühüm vəzifədir.[1]

**Mənəvi məsələləri öyrətmək**

İnanmalıyıq ki, bizim uşaqlarımız bir çox mənəvi məsələləri dərk edirlər və bu yaşda münasib üsulların köməyilə onlara öyrətmək nəinki mümkün və məntiqli, hətta vacib və əsaslıdır.[2]

**Uşağa uyğun mənəvi tərbiyə**

Uşaqlıq dövründə nə cismin, nə də ruhun lazımi tutumu olur. Əgər insana uşaqlıq dövründə uşaq bədəninə uyğun qida verilirsə, həmin zamanda ona ruhuna uyğun mənəviyyat da verilə bilər.

Bu gün sübut olunub və tərbiyə alimləri göstərmişlər ki, uşağı təvəllüdünün əvvəllərindən (bir neçə aylığından) tərbiyə işinin predmeti bilmək lazımdır. Çünki onun qavrayış imkanı var və hər şey onun üzərində təsir qoyur.[3]

**İlahi iman - uşaqların təhlükəsizlik amili**

Düzdür, düzgün təlim-tərbiyə üçün maddi imkanlar, ictimai və təhsil şəraiti, yaxud Ümumdünya Uşaq Hüquqları Konvensiyasında qeyd edildiyi kimi ictimai təhlükəsizlik lazımdır. Lakin unutmaq lazım deyil ki, bu təhlükəsizlik yalnız bəyanat və şüarla əldə edilmir. İlahi etiqada və məktəbə arxalanan inanc insanların, o cümlədən körpələrin daxili və xarici təhlükəsizliyini təmin edib onların şəxsiyyətinin sabitliyinə və aramlığına səbəb ola bilər. Əks təqdirdə,

[1] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987
[2] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987
[3] İdman jurnalına müsahibədən; 1987

uşaqların ictimai təhlükəsizliyindən ağız dolusu danışılan cəmiyyətlərdə baş verən faciələr arasında hər gün yeni fərdi və ictimai faciə və fəsadların şahidi də olacağıq.[1]

## *Quran əzbərləmək*

### Uşaqlıqdan Quran əzbərləmək

Mənim fikrim budur ki, Quran əzbərləməyə uşaqlıqdan başlamaq lazımdır.[2]

### Düşüncə təməllərinin möhkəmlənməsi ilə eyni zamanda Quran əzbərləmək

Gərək Quran öyrətməklə və əzbərlətməklə eyni zamanda Şəhid Mütəhhərinin və digər böyüklərin əsərləri vasitəsi ilə Quran öyrənənlərin düşüncə və məntiq təməlləri də möhkəmləndirilsin, bu uşaq və yeniyetmələr gələcəkdə İslama, Qurana və Əhli-beytə (ə) xidmət göstərə bilsinlər.[3]

### Quran əzbərləmək - İslam cəmiyyətinin inkişaf yolu

Lazım və faydalı olan mətləbləri, bizi Quranın dərkinə yaxınlaşdıran məsələləri bu uşaqlara öyrədin ki, daş üzərindəki naxış kimi ömrünün sonuna qədər yadında qalsın və faydalı işlərə bais olsun. Bizim İslam cəmiyyətimiz bu yolla inkişaf edəcək, möhkəmlənəcək, bu yolla öz müstəqilliyini təmin edəcək və İslamda özünün hidayət yolunu tapmaq üçün dünya müsəlmanlarının diqqətini cəlb edəcək.[4]

### Allaha yaxınlaşma vasitəsi

Deməkistədiyim son məsələ budur ki, Quran qiraəti əgər əzbərləməklə yanaşı olsa, ən yaxşı qiraət növüdür. Odur ki, yeniyetmələr, uşaqlar, həmçinin onların valideynləri və

---

[1] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

[2] Misirli qiraətçilərlə görüşdəki çıxışdan; 1992

[3] Quran hafizi və qiraətçisi olan yeniyetmələrlə görüşdəki çıxışdan; 2001

[4] Beynəlxalq Quran müsabiqələrinin iştirakçıları ilə görüşdəki çıxışdan; 1995

tərbiyəçiləri Quranı istedadlı və hazır beyinlərə yeritməyə çalışsınlar. Mən düşünürəm ki, əgər kimsə Quranı əzbərləsə və Quranla ünsiyyətdə olsa, İslam maarifini anlamağa bu ünsiyyətə malik olmayan şəxsdən qat-qat yaxın olacaq.

İnsan Quranla məşğul olduqda və bu sahədə işlədikdə Quran əzbərləməyin və Quranı mükəmməl bilməyin rolunun nə qədər çox olduğunu hiss edir. Mən yuxarı yaşlarımda və Quran əzbərləməyin daha asan olmadığı dövrdə dəfələrlə heyfsilənmişəm ki, nə üçün uşaqlıqda Quranı əzbərləmədim. Çox yaxşı olar ki, dini məktəblər yeni qəbul etdiyi tələbələr üçün müəyyən bir müddəti Quran əzbərləməyə ayırsınlar. Yaxud Quran əzbərləməyi dərs proqramlarına salsınlar və bir dini öyrənci 4-5 ildən sonra mütləq Quranı əzbərləmiş olsun. Həmçinin çox yaxşı olar ki, Quran əzbərləmək üçün yaxşı və hazırlıqlı zaman olan ibtidai məktəblərdə və 6-8-ci siniflərdə uşaq və yeniyetmələrin Quranı əzbərləyə bilmələri üçün proqramlar tənzim olunsun. Quranın bir hissəsini, yaxud hamısını əzbərləyənlər bunun qədrini bilsinlər. Bu çox böyük nemətdir. Heç bir nemət bunun yerini tutmur. Çünki Quran əzbərləmək neməti Allaha yaxınlıq və Allah sözünü dərk etmək üçün bir vasitədir. Odur ki, Quranın yaddan çıxmasına imkan verməsinlər.[1]

### *Uşaq tərbiyəsində məsul şəxslərin vəzifəsi*

**Uşaqları qorumaqda ümumi vəzifə**

Uşaq hər bir cəmiyyət üçün dəyərli ehtiyatdır. Cəmiyyətin bu ehtiyata əhəmiyyətsiz yanaşması ağıllı iş deyil. Odur ki, bir ailədə ata və anadan uşaqlarla daha artıq maraqlanmaq gözlənildiyi kimi, cəmiyyət səviyyəsində də məsul şəxslər, müdirlər və vəzifəli adamlar bu dəyərli xəzinəni qorumalı və sağlam saxlamalıdırlar.[2]

---

[1] Quran radiosunun açılışı münasibəti ilə müraciətdən; 1984

[2] Uşaqların sağlamlığı üçün səfərbərlik seminarında çıxışdan; 1988

**Ailənin təlimatlandırılması**

Uşaqlıq, yeniyetməlik və gənclik dövründə tərbiyənin təsiri daha dərin və daha uzunömürlü olur. İslam uşaqlıq və yeniyetməlik dövrü üçün bir neçə tərbiyə amili müəyyən etmişdir. Onların biri valideynlərin təlimləri və ailə mühitinin təsirləridir. Bu geniş bir mövzudur.

Tərbiyə dövrünün əvvəlində uşağın şəxsiyyətinin möhkəm bir özülə malik olması üçün ata-anaya və ailə mühitinə proqram verilmiş, ailə üçün şərait nəzərdə tutulmuşdur. Əgər biz onları təmin etməsək, uşağın tərbiyəsinin əsas bir sütunu ləngiyəcək.[1]

**İslam etiqadının və əməlinini dirçəldilməsi**

Mənim fikrimcə, bizim təlim-tərbiyə qurumlarımızda bu gün hər şeydən artıq diqqət yetirilməsi lazım olan məsələ şagirdlərdə İslam etiqadı və İslam əməlinin dirçəldilməsidir. Əgər İslam əməlinə və etiqadına qarşı laqeyd bir ailədən bir uşaq məktəbə gəlib təlim-tərbiyə qurumunun ixtiyarında olan mühitə daxil olduqda; yaxud İslam fikirlərinə və əməlinə qarşı etiqadı və diqqəti az olmayan, lakin valideynlərin savadsızlığı, düşüncə və ruhi cəhətdən qüsurlu olduğuna görə uşaq üzərində təsir qoymaq bacarığına malik olmayan bir ailədən bir uşaq gəldikdə, burada o çatışmazlıqlar düzəldilməlidir; yəni bu uşaq həm elm, həm əməl, həm etiqad, həm də rəftar və əməl baxımından dindar bir insana çevrilməlidir. Əlbəttə, bizim hamımız bilirik ki, bir İslam adamı təkcə İslam etiqadına malik olan və İslamın əməllərini yerinə yetirən adam deyil; İslam əxlaqı da əsas sütundur. Əgər düzgün İslam etiqadlarına, namaz, oruc və bu kimi məsələlər mənasında olan əməlləri yerinə yetirən, lakin paxıl, xəsis, bədxah, ruhiyyəsiz və iradəsiz bir insan olsa, o, müsəlman insan deyil. Müsəlman insan hər üç cəhətdə - həm tərbiyədə, həm elmdə, həm əməldə işləməlidir. Əlbəttə, bir cəhətdən bunların hər üçü

[1] Gələcəyi quranlar jurnalına müsahibədən; 1986

əməldir. Etiqad da bir növ əməldir; qəlb əməlidir. Hər halda, məqsəd aydındır. Məktəblərdə səy göstərilməlidir ki, bizim uşaqlarımız dini baxımdan – həm etiqadda, həm tərbiyə və əxlaqda, həm də əməli bəndəlikdə müsəlman insanlar kimi yetişsinlər.[1]

**İslamçı yetişdirmək**

Hər yerdə özümüzü hazırlamalıyıq. Bunun ən mühüm tədbirlərindən biri budur ki, biz bu məmləkətin gənclərini, yeniyetmələrini və uşaqlarını islamçı yetişdirək.[2]

**Təlim-tərbiyə qurumlarının əsas proqramı – uşaqları müsəlman yetişdirmək**

Məncə kitab tənzim etməkdə, müəllim yetişdirməkdə, təlim-tərbiyənin müxtəlif sahələrinin işinə nəzarətdə, müəllimlərin və məktəblərin daxilindəki işlərə nəzarətdə təlim-tərbiyə qurumunun proqramlarının əsası və başı bu olmalıdır ki, görsünlər İslam təfəkkürü köçürülür, yoxsa yox. Bu məktəblərdə İslam əsasında insan və uşaqları müsəlman yetişdirmək işi baş verir, yoxsa yox.[3]

**Təhsil mühitinin sağlamlığı**

Əgər biz uşağın əxlaqi və tərbiyəvi cəhətdən pis təlimlərə bulaşmaması üçün məktəblərdə sağlam mühiti qoruya bilsək, inqilab ab-havasının özü bu uşağı inkişaf etdirəcək və irəliyə aparacaq.[4]

**Ailə tərbiyəsi boşluğunun doldurulması**

Siz ailə tərbiyəsinin boş yerini doldurun. Uşaq üzərində ruhi və şəxsiyyət təsirləri baxımından çox təqsirli olan avam

---

[1] Təlim və Tərbiyə nazirinin müavinləri, müşavirləri və şöbə müdirləri ilə görüşdəki çıxışdan; 1992

[2] Təlim və Tərbiyə nazirinin müavinləri, müşavirləri və şöbə müdirləri ilə görüşdəki çıxışdan; 1992

[3] Gələcəyi quranlar jurnalına müsahibədən; 1986

[4] Gələcəyi quranlar jurnalına müsahibədən; 1986

ailələr var. Şəxsiyyətsiz uşaqlar yetişdirən şəxsiyyətsiz ata və analar var. Siz bu boşluqları doldurmalısınız. Uşaqda dözüm və səbir şəraiti, müxtəlif hadisələrlə rastlaşmaq bacarığı və dərin dindarlıq yaradın.[1]

**Qanunda uşaqların xüsusi məsələlərinə diqqət**

Qanunverici orqanlar, ictimai və mədəni qanun-qaydaları tənzim edənlər qanun qəbul edərkən müxtəlif yaşlarda olan uşaqların özəl emosional, psixoloji və təhsil məsələlərini nəzərə almalıdırlar ki, istedadların çiçəklənməsi üçün yolları açmaqla yanaşı, bu geniş və pak meydanı ələ keçirmək istəyən mənfəətpərəstlərin əli də kəsilsin.[2]

**Kitab və nəşriyyələrin və uşaqlara məxsus proqramların dəyərləndirilməsi**

Uşaqlara məxsus kitab və nəşriyyələr, eləcə də kütləvi informasiya vasitələrində uşaqlara dair proqramlar böyük əhəmiyyətə malikdir. Bu sahədə tərbiyəvi işlər üzrə mütəxəssislər elmi diqqətlə və yetərincə hövsələ ilə onların hamısını araşdırmaları, mənfi və müsbət cəhətlərini dəyərləndirməli, yanlış məqamları tapıb düzəltməlidirlər.[3]

**Uşaq tərbiyəsinə dair proqramlara yenidən hərtərəfli baxış**

Uşaqların tərbiyə və sağlamlıq işinə məsuliyyətli şəxslər bu bir neçə il boyunca ölkədə görülmüş işlərə hərtərəfli baxış keçirməli və inqilabdan sonra uşaqların tərbiyəsində və inkişafında İslam məqsədləri istiqamətində nə qədər irəlilədiyimizi bəlli etməlidirlər.

Beynəlxalq hegemonluğun mədəniyyət və təbliğat qurumlarının bizim yeni nəslimizi, əsasən də yeniyetmələri cəlb etməsi üçün uzunmüddətli planla xüsusi sərmayə

---

[1] Radionun Uşaq və yeniyetmə qrupu ilə görüşdəki çıxışdan; 1992
[2] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987
[3] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

qoyduqlarına görə, İslam Respublikasına uşaq və yeniyetmələrə məxsus proqramları tənzim etməyə məsuliyyətli qurumlar onların proqramlarına və sərmayə qoyuluşlarına qarşı və onları təsirsiz etmək üçün hansı işləri gördüklərini və hansı nəticələri əldə etdiklərini müəyyən etməlidirlər.[1]

## Ailə ocağına diqqət

Uşağın inkişafında ailənin sağlam dayaqlarının önəmli olmasından irəli gələrək, ailənin daha da möhkəmlənməsi və uşaqların başsız qalmasına bais olan talağın artmasının qarşısını almaq üçün ictimai və hüquqi sahələrdə hər növ anlaşmalar təmin edilməlidir. Xüsusilə tərbiyəvi məsələlərlə məşğul olan şəxslər uşağın tərbiyə üsulu, onun əhəmiyyəti və birinciliyi barəsində ailələrə davamlı təlimatı yaddan çıxarmamalıdırlar.[2]

## Radio və televiziyanın uşağın ruhiyyəsində təsiri

Radio və televiziya, kütləvi informasiya vasitələri və digər qurumlar bilməli və anlamalıdırlar ki, uşağın zərif hissi, beyni və qəlbi ilə nə iş görülür. Uşaq televiziya proqramlarına baxdıqda onun təsiri bu gün və sabah görünməyəcək; təsiri cazibələrdə, dafiələrdə, duyğularda, Allah axtarmaqda, Allah istəyində və Allahı istəməməkdə görünəcək.[3]

## Fars dilini öyrətməklə səmərəli şair və sənət adamı yetişdirmək

Xüsusən sənət üslubları ilə dil və ədəbiyyat üzərində çalışmalı olan mərkəzlərdən biri də sizin mərkəzinizdir. Siz elə bir nəsillə işləyirsiniz ki, o nəsil sizdən nə öyrənsə, onun üçün həmişəlik qalacaq.

---

[1] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1988

[2] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1988

[3] Təlim və Tərbiyə naziri və nazirliyin məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1983

Əgər bu gün bizim uşağımız fars dilini düzgün öyrənsə, fars sözünü lazım olan yerdə işlədə bilsə, əgər şair olsa, sənət adamı, natiq, prodüser, yaxud kitab yazan olsa, siz arxayın olacaqsınız.[1]

**Uşaq tərbiyəsində müəllimin rolu**

Siyasi və mədəni inkişafın təməlini müəllim qoyur. Siz öz məktəblərinizdə bu uşağı 7 yaşından təhvil alır, 18-19 yaşında universitetə təhvil verirsiniz. Bu uşağın ömrünün ən əsaslı və ən əhəmiyyətli dövrü siz müəllimlərlə keçir. Ölkə və cəmiyyət bu məsələnin əhəmiyyətini nəzərə almalıdır. Yaxşı əxlaq xüsusiyyətlərini uşaqda yarada bilən, yaxşı məlumatları uşağa öyrədə bilən, uşağa düşünməyi və fikir müstəqilliyini öyrədə bilən, batil qarşısında və haqq yolunda mücahidlikdə uşağa müqavimət aşılaya bilən şəxs müəllimdir.[2]

**Tərbiyəvi işlərlə məşğul olmaq**

Bu dəyərli və nəfis varlığın valideynlərin və nəhayət təlatümlü cəmiyyətin əlində zəif və müdafiəsiz əmanət olduğuna görə, xüsusən həyatın ilk illərində uşaqların tərbiyəvi, psixoloji və səhiyyə işləri ilə məşğul olmaq İslam Respublikası quruluşunun məsul şəxslərinin diqqət yetirdiyi humanitar məsələlərin başında durmalıdır.[3]

**Proqramların tənqidi**

Kütləvi informasiya vasitələrində uşaqlara məxsus proqramların, uşaq nəşriyyələrinin və kitablarının böyük əhəmiyyətini nəzərə alaraq, onların tənqidinə çox diqqət göstərilməlidir. Bununla faydalı və qurucu inqilabi proqram

---

[1] Uşaq və Yeniyetmələrin Əqli İnkişafı Mərkəzinin məsul şəxsləri, sənət adamları və yazıçıları ilə görüşdəki çıxışdan; 1998

[2] Müəllim və fəhlələrlə görüşdəki çıxışdan; 1999

[3] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1998

və əsərlərin həvəsləndirilməsi və istehsalı daha da artırılmalıdır.[1]

**Dəyərləndirmə**

Təkcə şüar verməklə və danışmaqla uşaqların problemləri həll olunmur. Bunun üçün işləmək və çalışmaq lazımdır. Bu sahədə icraçıların iradəsi, sədaqəti və qayğıkeşliyi əsasında ümumi iş dosyesi hazırlanmalı və dəyərləndirildikdən sonra gələcək işlərin gücləndirilməsi üçün ondan istifadə edilməlidir.[2]

**Din böyüklərinin davranışına diqqət yetirmək**

Tövsiyə edirəm ki, bu barədə yeni elmi və faydalı tədqiqat və araşdırmadan əlavə, zəngin İslam mədəniyyətinə, Quranın aydınlatmalarına və bu mədəniyyətin böyük övliyalarının davranışlarına daha artıq diqqət yetirilsin. Müşahidə olunsun ki, misal üçün, İslamın əziz Peyğəmbəri (s) və onun davamçıları necə ən kiçik tərbiyə nöqtələrini nəzərdən qaçırmamış və tarixdə ən böyük ictimai vəzifələrə malik olmaqla yanaşı, uşaqlarla səmimi söhbətləri yaddan çıxarmamışlar.[3]

**Nağılın təsiri**

Nağıl və hekayə çox yaxşı sənət növüdür. Yaxşı nağıllar uşağın şəxsiyyətini formalaşdırır. Çalışın bu nağılda və bu sənət işində bu uşaqda yaratdığınız ilk şey iman olsun; heç bir şey imanın qarşılığı deyil.[4]

**Ölkə məsələlərinə dair məlumat vermək**

---

[1] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1998

[2] Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciətdən; 1998

[3] Altı yaşdan aşağı uşaqların elm və təhsil seminarına müraciətdən; 1987

[4] Uşaq və Yeniyetmələrin Əqli İnkişafı Mərkəzinin məsul şəxsləri, sənət adamları və yazıçıları ilə görüşdəki çıxışdan; 1998

Ölkənin cari məsələləri haqda uşaq və yeniyetmələrə lazımi məlumatlar verilməlidir ki, onların zehinləri boşluqda qalmasın.[1]

[1] Quran hafizi və qiraətçisi olan yeniyetmələrlə görüşdəki çıxışdan; 2001

# İkinci fəsil: Yeniyetmələr

## *Yeniyetməlik xüsusiyyətləri*

### Yeniyetməlik - gələcəyin əsası

Yeniyetməlik hər bir fərdin gələcəyini formalaşdırmaq üçün həssas və təyinedici rola malik olan bir dövrdür. Bu mərhələdə mənəvi, elmi və düşüncə inkişafı ilə, işgüzarlıq və fiziki gücü ilə məşğul olan şəxslər özlərinin parlaq gələcəklərini təmin etmiş olacaqlar. Buna əsasən, cəmiyyətin bu təbəqəsinin, xüsusən də hərtərəfli maddi və mənəvi bir iş sayılan Bəsic (inqilabın könüllü keşikçiliyi) məsələsinin təlim-tərbiyə işi ilə məşğul olmaq çox əhəmiyyətə malikdir.[1]

### İslamda yeniyetmənin əhəmiyyəti

Nurlu İslam şəriətində gənc və yeniyetməyə hətta dünyanın müasir hüquq normalarından da artıq əhəmiyyət və dəyər göstərilmişdir.[2]

### Böyüklərin yeniyetməlik dövrü

Tarixin əzəmətli şəxsiyyətləri çox zaman gənclik və hətta yeniyetməlik dövründən bəzi xüsusiyyətlərə malik olmuş, yaxud bu xüsusiyyətləri özlərində yaratmışlar.[3]

### Ən xoşbəxt şəxslər

Siz yeniyetmələr yaxşı işləri öyrənmək üçün təmiz zehnə malik olduğunuzdan cəmiyyətin ən xoşbəxt fərdlərisiniz. Siz indi fəsadlı mühitdə təhsil almırsınız, Allaha imanı olan bir hökumətdə İslam əxlaqı ilə, bərabərliklə, sülh və səmimiyyət içərisində yaşayırsınız.[4]

---

[1] Şəhid Fəhmidənin xatirə komissiyasının üzvləri ilə görüşdəki çıxışdan; 1996

[2] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

[3] Tehran vilayətinin nümunə yeniyetmələri ilə görüşdəki çıxışdan; 1998

[4] Şəhid Bahünər məktəblərinin əlaçı şagirdləri ilə görüşdəki çıxışdan; 1982

**Həddi-büluğ yaşı - İslah etmək və islah olunmaq dövrü**

Ümumi təsəvvürün əksinə olaraq, həddi-büluğ yaşı nikah yaşı yox, fərdi yetkinlik yaşı, hüquqi şəxsiyyətə sahib olmaq və ictimai məsuliyyətləri qəbul etmək yaşıdır. Formalaşmağın və formalaşdırılmağın ən möhkəm və ən əsaslı dövrü olan bu yaşda gənc və yeniyetmə həm müstəqil şəkildə, həm də gələcəyə hazırlıq və sabaha hazırlıq mərhələlərindən biri kimi xüsusi hökmlərə, məsələlərə və vəziyyətlərə malikdir. Bunlar sosioloji və psixoloji baxımdan diqqətlə araşdırılmalıdır.[1]

### *Quruluşda yeniyetmələrin rolu*

**Quruluşun gələcəyi üçün yeniyetmələrin rolu**

Bizim ölkəmizin şagird nəsli tarix boyunca – ölkənin keçmişində və güman ki, gələcəyində olacaq ən həssas yeniyetmə nəsildir. Çünki həssas bir dövrdə öhdəsinə məsuliyyət götürəcəkdir.

İnqilabın qələbəsindən öncə bizim yeniyetmə nəslimizin vəzifələri bu qədər həssas deyildi. Lakin bizim yeniyetməmiz elə bir zamanda ölkənin idarəsi üçün məsuliyyət daşıyacaq ki, inqilab öz başlanğıcından uzaqlaşmış, inqilabın vücuda gətirdiyi nəslin sayı azalmış olacaq. Belə bir çətin dövrdə heç şübhəsiz, daxili və xarici qüvvələr tərəfindən törədilən təxribatlar və bəd əməllər bugünkündən daha artıq və daha fəal olacaq. Odur ki, şagirdlər üçün çox zəhmət çəkmək lazımdır.[2]

**Yeniyetmələr və inqilab**

İslam inqilabının qələbəsində bizim gənclərimizin və yeniyetmələrimizin əsaslı və təyinedici rolu olmuşdur. Məktəb uşaqları bizim xalqımızın izdihamı arasında, bir neçə

---

[1] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

[2] Mədəniyyət mənsubları ilə görüşdəki çıxışdan; 1987

milyonluq yürüşlərdə və inqilabın qanlı hadisələrində özlərinin fəal iştiraklarını sübuta yetirmişlər.

Bizim yeni nəslimiz istər inqilab dövründə, istər ondan sonrakı çətin hadisələrdə öz missiyasını yerinə yetirdi. İnqilab düşmənlərinin və münafiqlərin ölkə boyunca iğtişaş və fitnə törətdiyi zaman, eləcə də işğalçı düşmən tərəfindən və böyük beynəlxalq qüvvələrin himayəsi ilə məcburən qatıldığımız müharibə dövründə gənclərin inqilab amallarını müdafiədəki rolu yenə də dəyərli və mühüm rol idi. Gələcək sizə məxsusdur. Gərək bu müqəddəs inqilabın beynəlxalq düşmənləri ilə mübarizə üçün özünüzü düşüncə, ruh, iman və fiziki baxımdan hazırlayasınız, özünüzü, xalqınızı, ölkənizi və İslam inqilabını layiqli yerə ucalda biləsiniz və inşaallah dünyanın gənc və yeniyetmələri üçün örnək olasınız.[1]

**Təhsil mühitini İslama uyğunlaşdırmaq**

Bu gün özünüzü islah edin, universitetləri düzəldin, onu inqilabçı və islamçı mühit edin; liseyləri də həmçinin. Allah və inqilab yolunda birliyə xələl yetirən hər bir şeydən çəkinin ki, İranın sabahını təmin edən, İslam Respublikasının düşmən və bədxahlar, İran xalqını da dostlar və dünyanın ümidliləri qarşısında üzüağ edən bir universitet qura biləsiniz; liseylər də həmçinin.[2]

**Bütün səhnələrdə agah şəkildə iştirak etmək**

İslam inqilabının qələbəsində, sonra da inqilabın dəyərli nailiyyətlərini qorumaq məqsədi ilə agah şəkilli müqavimətdə ölkənin gənclərinin və şagirdlərinin təsirli və inkarolunmaz rolu heç kəsə sirr deyil. Bu əzəmətli rol xüsusən İraq rejiminin təcavüzündən və məcburi müharibənin başlanmasından sonra günbəgün daha da aşkarlandı. Qorxmazlıqla və başucalığı ilə

---

[1] İslam inqilabının ikinci onilliyinin başlanması münasibəti ilə şagirdlərə müraciətdən; 1989

[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1992

İslam inqilabını qələbəyə çatdıranlar, vətənin müdafiəsində, düşmənin təcavüzünü dəf etməkdə və İslam inqilabını qorumaqda da qəhrəmanlıqla müqavimət göstərdi və igidliklər yaratdı.

Həm xarici düşmənlə müharibədə, həm də daxildəki inqilab əleyhdarları ilə mübarizədə İslam inqilabının ümidi olan gənc şagirdlərin iştirakı agah şəkildə və özfəaliyyət olmuşdur və indi də belədir. Onlar ölkənin sərhədlərində xarici düşmənlə vuruşduqları zaman məktəbdə də inqilab əleyhdarı olan qüvvələrlə vuruşurdular. Haqqı və Allahı axtaran bu gənclərin bütün səhnələrdəki sayıqlığı İslamın və inqilabın düşmənlərinin planını pozmuşdur, Allahın qüdrət və qüvvəsi ilə bundan sonra da pozacaqdır.[1]

**Şəhidlik ruhiyyəsi**

Dünyada böyük döyüş sərkərdələrinin fəxri budur ki, bir planla düşmənin onlarla tankını tələyə salıb məhv etmişlər. Lakin bizim yeniyetmələrimiz özlərinin şəhidlik ruhiyyələri ilə dəfələrlə bu sahədə öz məharətlərini nümayiş etdirmişlər.[2]

**İnsani və inqilabi məfhumların dərki**

Bu gün şagird uşaq və yeniyetmələrlə danışmaq üçün bizim heç bir problemimiz yoxdur. Bu gün inqilab bizim yeniyetmələrimizi inkişaf etdirmişdir. Onlar bütün insani və inqilabi məfhumları yaxşı dərk edirlər.

Ey inqilab yolu şəhidinin əsgərləri və ey İslam Respublikasının əsas sahibləri! Gələcəkdə bu inqilabın təməllərini və xalqın özünütəminini möhkəmləndirməli olanlar siz şagirdlərsiniz. Siz elə bir nəsilsiniz ki, gələcəkdə dünya sizə baxacaq, azad, müttəfiq və qüdrətli bir İran siz əzizlərin əli ilə qurulacaq. [3]

---

[1] Mədəniyyət mənsubları ilə görüşdəki çıxışdan; 1987

[2] İsfahanın vəhdət karvanının üzvləri ilə görüşdəki çıxışdan; 1985

[3] Tehranın ən cənub nöqtəsində yerləşən məktəblərin birində yeni təhsil ilinin başlanması mərasimindəki çıxışdan; 1983

**Daxili zəiflik**

Düzdür, bir cəmiyyətin daxili zəifliyi düşmənin hücumuna şərait yaradır. Amma həmin zəifliyi də düşmən özünün imkan və vasitələri ilə sağlam bir cəmiyyətə məcburən yeridir. Odur ki, səhvə düçar olmamalıyıq.[1]

**Mənfi nəzəriyyələrin təlqin edilməsi**

Hər bir fərdin şəxsiyyətinin formalaşması əksər hallarda yeniyetməlik dövründə və həddi-büluğ illərində baş verir. Bu səbəbdən din və inqilab cəbhəsinin təhsil mərkəzlərində, o cümlədən 9-11-ci sinif liseylərində iştirakı olduqca lazımdır. Əks təqdirdə, düşmən gənc və yeniyetmələrin mərkəzlərinə girib bu yaşların xüsusiyyətlərindən, o cümlədən yeni fikirləri qəbul etməyə hazırlıq xüsusiyyətindən istifadə edərək özünün mənfi nəzəriyyələrini onlara təlqin edəcəkdir.[2]

**İmansızlıq ən böyük bəla kimi**

Uşaq və yeniyetmələri dərin imanla yetişdirmək lazımdır. İmansızlıq gənc nəsil üçün ən böyük bəladır.[3]

**Narkotik maddələr və pozğun şəkillər**

Düşmənlər bizim məktəb uşaqlarımızı - 9-11, hətta 6-8-ci sinif uşaqlarını belə fəsada çəkir. Bir nəfəri tapırlar. O, narkotik maddələri və pozğun şəkilləri məktəbə aparır və uşaqların arasında yayır.[4]

**Çürük mədəni məhsul**

---

[1] Alimlər, ruhanilər və məscid imamları ilə görüşdəki çıxışdan; 1992

[2] İslam Birlikləri İttifaqının Mərkəzi Şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1996

[3] Ölkənin müşavirə qurumlarının və tərbiyəvi müavinlərinin keçirdiyi seminarın iştirakçıları ilə görüşdəki çıxışdan; 1985

[4] Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışdan; 1992

Biz ölkə düşməni, xalq düşməni, yaxud ən azı maraqsız bir əcnəbi tərəfindən yayılan çürük mədəni bir məhsuldan danışdıqda bəziləri elə bilirlər ki, biz öz övladlarımızın imkanlarına narahat və nigaran oluruq, yaxud bundan şikayətimiz var. Deyirlər ki, cənab, gəncdirlər, qoyun anlasınlar. Sanki biz gəncimizin anlamamasını istəyirik. Biz əcnəbi əlinin öz övladımızın beyninə uzanmasından nigaranıq.[1]

**Müstəmləkəçi məqsədlərin təlqini**

Bu gün bizim nəinki yeniyetməmiz, hətta uşağımız da məlumatlı və sayıqdır. Bu, inqilab şəraitinin qəti nəticəsidir. Keçmişdə bu məsələlər, bu azadlıqlar, bu soruşmaq ruhu və bilmək istəyi yox idi.

Bəzi imkanlar da mövcuddur. Bunlar əslində bizim uşaqlarımızın mədəni bir mənbəyə əlinin çatması imkanı deyil, düzgün baxsaq, müstəmləkəçi məqsədlərin bizim uşağımıza təlqini üçün dünya boyunca mədəniyyəti yönəldən mərkəzlərin imkanıdır.[2]

**İslamdan yayınmaq**

Düşmən siz şagirdləri İslamdan yayındırmaq üçün bacardığı hər bir işi görəcək.

Bu inqilabın və İslam cəmiyyətinin sabahı sizin əlinizdədir. Düşmən ictimai və insani məsələlər üzərində dəqiq və dərin araşdırmasına əsasən bilir ki, əgər siz səmərəyə çatsanız, onun xəncəri daha kəsərli olmayacaq və inqilab zərər görməyəcək.[3]

**İşsizlik**

---

[1] Uşaq və Yeniyetmələrin Əqli İnkişafı Mərkəzinin məsul şəxsləri, sənət adamları və yazıçıları ilə görüşdəki çıxışdan; 1998

[2] Uşaq və Yeniyetmələrin Əqli İnkişafı Mərkəzinin məsul şəxsləri, sənət adamları və yazıçıları ilə görüşdəki çıxışdan; 1998

[3] Ölkə üzrə şagirdlərin İslam birliklərinin üzvləri ilə görüşdəki çıxışdan; 1982

Yayda da şagirdlərin vaxtının düzgün doldurulması proqramı olduqca əhəmiyyətlidir. Fəsadların əksəriyyəti bikarlıqdan qaynaqlanır. Bu bikarlıq insanın inkişafına səbəb olan daxili şövqünü və coşqusunu məhv edir, yaxud zəiflədir.[1]

## *Yeniyetmələrin təlim-tərbiyəsi*

### Şəhidlərin şücaət və paklıq dərsi

Şəhidlərin nur və paklıq haləsində olan müqəddəs simalarının təsviri bizim xalqımızın zehnində günbəgün daha əzəmətli, böyük qəhrəmanların əfsanəvi simaları kimi daha sevimli və daha uca olmalıdır. Onların adı və xatirəsi hamıya, xüsusən də gənc və yeniyetmələrə əzəmət, şücaət, təqva, saflıq və paklıq dərsini verməlidir və verəcək. Bu işin mühüm bir hissəsi yazıçıların və sənət adamlarının öhdəsinə düşür.[2]

### Müjdə vermək və qorxutmaq yolu ilə imanı gücləndirmək

Bu məsələyə (gənclərin siyasi fəaliyyətinə, siyasi dərk və təhlilinin gücləndirilməsinə) diqqətin lazım olmasına rəğmən, yeniyetmə və gənclərdə imanı gücləndirmək və möhkəmlətmək ən əsas işdir və birinci dərəcəli əhəmiyyətə malikdir. Bunun üçün səmavi dinlərin üsullarından istifadə etmək, dinləyiciləri ilahi savabla müjdələmək və ilahi əzabdan qorxutmaq lazımdır.[3]

### Əsaslı və sadə etiqadların təqdimi

Bu proqramların yanında yeniyetmələr bir qədər də etiqadlarla təchiz olunmalıdırlar. Sizin qurumunuzda mənim də bir uşağım olduğundan, işlərin keyfiyyətindən bir qədər xəbərdaram. Yəni bu az vaxtla evin daxilində övladlarımın vəziyyətinə nəzarətsiz qalmıram, onlarla bir qədər məşğul oluram, hansı mətləbləri mütaliə etdiklərinə və nə iş

---

[1] Tərbiyəvi işlər seminarında tərbiyə işçiləri ilə görüşdəki çıxışdan; 1983

[2] Hörmətli şəhid ailələrinə müraciətdən; 1991

[3] İslam Birlikləri İttifaqının Mərkəzi Şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1996

gördüklərinə baxıram. Bəzən etiqad məsələləri haqda mütaliə edirlər. Bəzən konfrans hazırlayırlar. Amma bunlardan daha lazımlı iş güclü və tamamən sadə, fəlsəfi və irfani dəlillərdən uzaq olan etiqadlar kursudur; özü də bu gəncin beyninin qəbul edəcəyi həddə. İndi gərək bu etiqadlar kursu olsun ki, burada olduqları bu dörd il ərzində bəzi hissələrini onlara təqdim etmək mümkün olsun.[1]

**Düşmən qarşısında müqavimət**

Bu gün inqilabın və quruluşun bu həssas, mühüm və təyinedici dövründə yaşayan, imamı görməyən, müharibəni görməyən, inqilabı görməyən bu yeniyetmə və gənci elə imanlı yetişdirməliyik ki, düşmənlərin tamahları qarşısında, əcnəbilərin təcavüzü qarşısında, Amerikanın istismarçılığı qarşısında, bu ölkəni və bu xalqı bir ömür talayıb öz oyuncağına çevirən müstəmləkəçi qüvvələrin təsirləri qarşısında möhkəm dağ kim dayana bilsin.[2]

**Dərs oxumaq, dərin düşüncə və düzgün xarakterlər**

Biz əgər bu inqilabın sabahına göz dikmişiksə, siz şagirdlərə ümidvar olduğumuza görədir. Siz təkcə dərs oxumaqla kifayətlənməməlisiniz. Dərs oxumaq sizin əsas işinizdir, lakin düzgün baxışın, dərin İslam düşüncəsinin, düzgün və dini ruhiyyələrin və xarakterlərin yanında olan dərs. Sizi gələcək üçün sözün həqiqi mənasında yetişdirən budur.[3]

**Quran təhsili və onun üzərində düşünmək**

---

[1] Şəhid Mütəhhəri adına İslam elmləri və İslam maarifi liseyinin müəllimləri və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1990

[2] Müəllim və fəhlələrlə görüşdəki çıxışdan; 1998

[3] Məktəblərin açılışı münasibəti ilə; 1985

Allahın kitabı xalqın həyatında həqiqətən təsirli olmalıdır. Onu öyrənmək, onun üzərində dərindən düşünmək hamı üçün, xüsusən də gənc və yeniyetmələr üçün adət olsun.[1]

**Quranın həyatverici şərbətini daddırmaq**

Hamı Qurana eşq və hörmət bəsləyir. Lakin az adamlar onu həmişə oxuyur və az adamlar onda təfəkkür edirlər. Mümkün bir iş olan bu nöqsanı aradan qaldırmaq üçün ilk növbədə gəncləri və yeniyetmələri Quranın mətni və tərcüməsi ilə tanış etmək, Quranın dadlı və həyatverici şərbətini onlara daddırmaq lazımdır.[2]

**Elmə sevgi ruhiyyəsinin gücləndirilməsi**

Əlbəttə, elmsevərlik ruhiyyəsi İslam tərbiyələrindəndir. Yəni əgər biz İslam əxlaqını yaymaq istəsək, onda bu da var. Elmi dərəcələr məsələsi də sizin əsas işlərinizdəndir. Ona diqqət yetirmək lazımdır. Elmlərin bölgüsü, prioritetləri təyin etmək və bu gün, bu dövrdə, bu on ildə, bu beş ildə şagirdlərin daha çox hansı elmlərə yönəldilməsi sizin ixtisaslı işlərinizdəndir. Onu daha yaxşı bilirsiniz.[3]

**Gənc nəslin təlim-tərbiyəsinin öncəki nəsillə bağlılığı**

Yaşlılar, atalar, analar, tərbiyəçilər və müəllimlər bilməlidirlər ki, bu nəslin təlim-tərbiyəsi nə yalnız rəsmi təlim-tərbiyədir, nə də ümumi təlim-tərbiyədən ayrıdır. Çünki bu iki nəsil bir-birinə bağlı və bir-birindən asılıdır. Yeni nəsil öncəki nəslin bütün siyasi, ictimai, iqtisadi və mədəni fəaliyyətlərinin təbii şərikidir.[4]

---

[1] İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən; 1990

[2] Doqquzuncu siniflərin Quran müəllimlərinin toplantısına müraciətdən; 1989

[3] Təlim və Tərbiyə naziri və nazir müavinləri ilə görüşdəki çıxışdan; 1992

[4] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

**Cəmiyyətdəki cərəyanların təsiri və onların fonunda durmaq**

Digər tərəfdən nəzərə almaq lazımdır ki, gənclərə diqqət yetirmək cəmiyyətin düzgün və səhv siyasi, iqtisadi və ictimai cərəyanlarının ümumi prosesindən ayrı olarsa, yanlış və əsassız olacaq. Bu iş üçün proqram yazanlar, o cümlədən gənc və yeniyetmələrin özləri adətən dayaz və ötəri olan hakim şəraitin təsirindən daha geniş formada öz mühüm və dəyərli işləri ilə məşğul olmalıdırlar.[1]

**Özünəinam ruhiyyəsinin gücləndirilməsi**

Çalışmalıyıq ki, məktəb dövründən bizim şagirdlərimiz və tələbə və yenicə işə başlayanlar özünəinam ruhiyyəsini, ölkə məsələlərini öz təhlilləri, maraqları və dərkləri ilə həll edə bilməyə inamı qoruyub gücləndirsinlər, misal üçün, İranın quruculuqda müvəffəq olması və iqtisadi problemi həll etməsi üçün filan yolu keçməsinin lazım olduğunu söyləyən filan xarici analitikə, yaxud filan qəzet yazarına etina etməsinlər. Düzdür, elmi məsələlər dünyanın harasında və kimin dilindən söylənilsə, diqqətlayiqdir; lakin qeyd-şərtsiz qəbul formasında yox.[2]

**Düşüncə, əxlaq və hərbi baxımdan özünüislah**

Ölkənin şagirdləri inqilab düşmənləri ilə uzunmüddətli mübarizə üçün özlərini hazırlamalı, məktəblərdə düşüncə, əxlaq və hərbi özünüislahla təchiz olunmalıdırlar. Bu gün düşmənlərin cinayətlərini öz gözlərinizlə görən siz uşaqlar bu nəsildən sonra düşmənlərlə mübarizə vəzifəsini öhdənizə götürəcəksiniz. Gərək sizə məxsus olan inqilabı qorumaq üçün özünüz bütün qüvvənizlə düşmənlə mübarizə aparasınız.

[1] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

[2] Dövlət Şurası ilə görüşdəki çıxışdan; 1996

İnqilabda şagirdlərin rolu olduqca çox və dünyanın heç bir yerində bənzəri yoxdur.[1]

**Bir yeniyetmənin təqvası**

Bir yeniyetmə özünün peşə və iş mühitinə və vəziyyətinə xas təqva olmadan dərs oxumaq məqsədinə nail ola bilməz. Səhvdən, nəfs meylindən, dəcəllikdən və onu öz fəaliyyətindən çəkindirən işlərlə məşğul olmaqdan çəkinməlidir. Bu onun təqvasıdır.[2]

**Dərsi ciddi saymaq**

Siz şagirdlər bu dəyərli günlərin, həftələrin və ayların qədrini bilin. Dərsi ciddi və əhəmiyyətli sayın.

Bu ölkənin və bu xalqın gələcəyi üçün sizin kimi dəyərli və faydalı uşaqların varlığı həyati əhəmiyyətlidir. Dərs sinifləri elm, bilik və maarif nuru ilə işıqlanmalıdır.[3]

## *Yeniyetmələrin vəzifələri*

**Elm və iman silahı ilə bütün dünyada gənc nəslin örnəyi olmaq**

Bu arada dünyanın müasir sənaye quruluşunda gənc və yeniyetmələrin üsyankarlığına işarə vurmaq və çox əhəmiyyətli olan bu məqamı qeyd etmək zəruridir ki, bizcə gənclərin üsyankarlığı xəstə qərb quruluşunda gənc və yeniyetmələrin amalçı, həqiqətçi və araşdırıcı ilahi fitrətlərinin reaksiyasıdır. Bu yanlış cığırlarla getsə də, kökü şərq və qərbin naz-nemət içərisində olan israfçı və zalım rəhbərlərinin azğınlıqları, zülmkarlıqları, şəhvətpərəstlikləri və sərvətpərəstlikləri qarşısında insani fitrətin qəzəbindədir.

Fəsadlı dünya quruluşu öz növbəsində gənc və yeniyetmələrin fitrət səsini boğmaq üçün onların boş

[1] Bəhbəhan şəhərinin cümə imamı, şagirdləri və İslam Şurası Məclisindəki nümayəndəsi ilə görüşdəki çıxışdan; 1983

[2] Tehranın cümə namazı xütbələrindən; 1991

[3] Yeni təhsil ilinin başlanması münasibəti ilə müraciətdən; 1984

vaxtlarını ona ticarət forması verməklə, cinsi həssaslıqdan bəhrələnməklə, əxlaqi azğınlıqları və aludəlikləri yaymaqla doldurur. Bu iş bu coşqun və uğurlu nəslin insani varlığına çox böyük xəyanətdir.

Burada İslam inqilabının yeni nəsli üzərində böyük bir vəzifə görünür. O, elm, kamal, iman, əxlaq, ixlas və fədakarlıq silahı ilə silahlanıb dünyanın hər bir yerində gənc nəslə nümunə olmalıdır.[1]

## Ölkəyə qarşı vəzifə hissi

Yaxşı və dəyərli istedadlar, istedadlı və ölkənin gələcəyi üçün faydalı ola bilən şəxslər gərək çox vəzifə və məsuliyyət hiss etsinlər. Həm də çox sevinməlidirlər ki, düşmənlərin istəyinə rəğmən, ölkələri və xalqları üçün faydalı ola bilirlər.[2]

## Nəhcül-bəlağəni öyrənmək

Əzizlər, Nəhcül-bəlağə ilə ünsiyyətdə olun. Nəhcül-bəlağə çox oyandırıcı, düşündürücü və düşünüləsidir. Toplantılarınızda Nəhcül-bəlağə ilə və Əmirəl-mömininin (ə) sözləri ilə ünsiyyət yaradın. Əgər Allah–Taala uğur versə və bir addım irəliyə getsəniz, o zaman zahiri baxımdan yalnız bir dua kitabı, lakin əslində, Nəhcül-bəlağə kimi dərs, hikmət, ibrət kitabı və insanın səadətli yaşayışının göstəricisi olan Səhifeyi-Səccadiyyə ilə rabitə yaradın [3].

## Təhsil mühitini İslama uyğunlaşdırmaq

Mən hər yerdə İslam birliklərini bəyənirəm, o cümlədən məktəblərdə; xüsusən də yuxarı siniflərdə. Məncə onların əsas vəzifəsi budur ki, məktəbi bir İslam mühiti etsinlər və bu daha çox yaxşı əxlaqla, ağıllı tədbirlə və İslam əlamətlərindən

---

[1] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

[2] Universitet mənsubları və elmi hövzə tələbələri ilə görüşdəki çıxışdan; 1989

[3] Şərif Sənaye Universitetindəki görüşdəki çıxışdan; 1999

istifadə etməklə mümkündür, zordan və acıdillilikdən istifadə etməklə yox.[1]

**Öz tərbiyəsinə çalışmaq**

Sizin sualınız budur ki, şagirdlər bu barədə hansı rolu ifa edə bilərlər. Biz tərbiyə predmetinin insan olduğunu biliriksə, deməli, şagird öz tərbiyəsində ən mühüm rola malik ola bilər. Əgər bir gül kolunun tərbiyəsi üçün su, gübrə və hava kimi münasib şəraiti təmin etsələr, ona lazımi buxarı versələr, öz istəyinin təsiri olmadan o inkişaf edəcək. Amma insan belə deyil. Heyvani cəhəti daha çox olan insan yalnız uşaqlıq dövründə öz istəyi olmadan tərbiyə olunur. Lakin ağıl və iradə əldə etdikdə, onun öz iradəsi və istəyi tərbiyə məqsədilə görülən iş və fəaliyyətlərə kömək edir və onu lazımi inkişafa çatdırır.

Buna əsasən, bir şagirdin öz tərbiyəsindəki rolu çox fövqəladə əhəmiyyətə malikdir. Bu sahədə onun vəzifələri budur ki, düşünsün, qulaq assın, öyrənsin, əməl etsin və hamısından mühümü, ona veriləni öyrənmək üçün iradə göstərsin. Bu iradə onda qavrayış, qulaq asmaq və düşünmək vücuda gətirir.[2]

**Böyük insanlar sırasında olmaq qərarı**

Biz bu gün cəmiyyətin, gələcəyin və tarixin şagirdlərimizə olan ehtiyacını nəzərə alaraq, onlardan hər şeydən çox, böyük insanlar olmağa qərar vermələrini istəyirik. Hər bir uşaq, yeniyetmə və ya gənc hər hansı bir mühitdə doğulmuş, hər hansı bir ailədə böyümüş olsa da, bu gün bir təhsil mərkəzində işləyir. O gərək özünə təlqin etməklə təkcə İranı və onun xalqını yox, bütün dünyanı öz iradəsinin təsiri altına sala biləcək dəyərli bir şəxsiyyət olacağına ümidvar olsun. Necə ki, bu gün dünya bizim rəhbərimizin hə və yox işarəsi üzərində

---

[1] Gələcəyi quranlar jurnalına müsahibədən; 1986

[2] Gələcəyi quranlar jurnalına müsahibədən; 1986

düşünür, bütün hərəkətləri beynəlxalq məsələlərə təsir göstərirsə, bu şəxsiyyət Xomeyn kəndlərinin birində orta səviyyəli bir ailədə dünyaya gəlmişdir. Bəlkə də heç kəs, o cümlədən özü də onu belə bir gələcəyin gözlədiyini güman etmirdi. Deməli, bütün uşaqlar belə bir gələcəyə ümidvar ola bilərlər. Biz onlardan istəyirik ki, iradə göstərsinlər və məqsədli şəkildə dəyərli bir şəxsiyyət olmağa çalışsınlar. Çünki bu niyyəti edib, sonra iradə ilə çalışsalar və buna hazır olsalar, o zaman öyrənmək, fikirləşmək, düşünmək, dərsi təkrarlamaq və vaxt qoymaq - bunların hamısı olacaq.[1]

**Dərs oxumağın yanında siyasi işlərdə iştirak etmək**

Siz əziz şagirdlər bu məqama diqqət yetirməlisiniz ki, sizin tərbiyə və təliminiz bu məmləkətin gələcək vəzifəsini müəyyənləşdirəcək. Siyasi işlərdə iştirak etməyin dərs oxumaqla və elmi inkişafla ziddiyyəti yoxdur.[2]

---

[1] Gələcəyi quranlar jurnalına müsahibədən; 1986

[2] İslam Respublikası Partiyasının Şagird Şöbəsi və şagirdlərin İslam Birlikləri İttifaqının nümayəndələri ilə görüşdəki çıxışdan; 1984

# Üçüncü fəsil: Gənclər

## *İman və inanc sahəsi*

### Allaha iman - məğlubedilməzlik amili

Deməli, hər şey buna qayıdır ki, əgər bir ölkənin gənclərinin və xalqının Allaha imanı, məqsədə imanı, məqsəd yolunda fədakarlıq hissi, özlərini hizbullahçı və Allah ordusundan bilmək hissi güclənsə, bu xalq məğlubedilməz olacaq.[1]

### İmanın gücləndirilməsi - arzulara çatmağın yolu

Mən deyirəm ki, siz həyatınız boyunca özünüz üçün hansı gələcəyi seçsəniz, ya arzu etsəniz (mümkündür biri həkim olmaq istəsin, biri müəllim, biri iqtisadi fəaliyyətlər göstərmək istəsin, biri siyasətçi olmaq istəsin, biri öndər olmaq istəsin. Hər bir şəxs özü üçün bir gələcəyi təsvir, tərif, yaxud ən azı arzu etmişdir), əgər bu gələcəyə çatmaq istəyirsinizsə, gərək imanı, özü də aydın imanı ürəyinizdə gücləndirəsiniz. İmanın hətta aydın olmayanı da faydalıdır. Məsələn adi avam bir insanın imanı var, lakin çox bilgisi yoxdur. Hətta o da möcüzə kimi təsir qoyur. Lakin əgər bu iman bilgi ilə birgə olsa, təsiri min qat olacaq və siz gənclər bunu bacararsınız. [2]

### İmanın əməllə gücləndirilməsi

Bu inqilabın gələcəyi, bu quruluşun gələcəyi, İslamın sayəsində bu ölkənin gələcəyi çox aydın və parlaq bir gələcəkdir. Bu gələcəyi yaradanlar əsasən siz gənclərsiniz. Əvvəla əməl etməklə İslam imanını özünüzdə dərinləşdirin. Bu, işin əsasıdır. İman bir kitaba və zehnə aid olan şey deyil. İman əməllə gücləndirilir. İnsan Allahı, Allah üçün cihad

---

[1] Beytül-müqəddəs əməliyyatının komandirləri və döyüşçüləri ilə görüşdəki çıxışdan; 1999

[2] Universitet məhəlləsi hadisəsində yaralanan tələbələrin bir qrupu ilə görüşdəki çıxışdan; 1999

meydanında daha yaxşı görür. Bu cihadın da müxtəlif səngərləri var; elm və quruculuq səngəri də onlardan biridir. Təqva ilə, Allah-Taala yanında təzimlə, ibadətlərinizi yerinə yetirməklə və haramlardan çəkinməklə imanı gücləndirin.[1]

## Agahlıqla yanaşı olan iman və saleh əməl – tərəddüdlərə və çıxılmaz yollara qələbə amili

İnsanın həyatında belə hadisələrdən çox olur. Bu hadisələr bəzən insanın yolunu dəyişdirir, ürəyində şölə yaradır, qarşısındakı yolları çıxılmaz göstərir. Əgər bu hadisələrdə belə olmasını istəmirsinizsə, həyatın düzgün yollarını davam etdirmək üçün heç zaman həvəsinizi, iradənizi, qüdrətinizi və möhkəm iradənizi itirməyin. Öz daxilinizdəki məlumatlı imanı gücləndirin; həm iman, həm məlumatlılıq. Məlumatlılığı kitabla, bilgi sahiblərini dinləməklə əldə edin. İmanı da mənim fikrimcə, indi malik olduğunuz iman mənbəyini işlətməklə artırın. Bu iman çox qəribə bir sərmayədir. Allaha həmd olsun ki, sizin hamınız mömin uşaqlarsınız, mömin ailələrdə tərbiyə almısınız. Siz indi əlinizdə olan imanınızı işlətsəniz, yəni ona saleh əməl əlavə etsəniz, günah etməsəniz, bacardığınız qədər savab işləri ən yaxşı şəkildə yerinə yetirsəniz və günahların arasında insanın xudpəsəndliyi ilə bağlı olan günahlardan daha çox çəkinsəniz, digərinə zülm etmək hesab olunan günahlardan daha çox çəkinsəniz, insanın bəzən deməsinin mümkün olduğu qeyri-uyğun sözlərdən çəkinsəniz, üstəlik öz zehninizi bəzi məsələlərdən uzaqlaşdırmağı bacarsanız, (daha yaxşıdır) bunlar daha saleh əməllərdir. Bu əməllər sözügedən iman mənbəyini artırır. Yəni iman belədir, əgər əməllə birgə olsa, o imanın özü günbəgün artacaq. İnsanın bilgi əhlindən, kitabdan və moizədən əldə etməli olduğunu söylədiyim məlumatlılıq da bu

---

[1] Amerikanın casus yuvasının tutulmasının ildönümü və Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibətilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1994

saleh əməllə birgə olsa, o da artacaq: “Kim Allahdan təqva etsə, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər”[1]. Allah onun qəlbini hidayət edəcək. Nəzərdə tutduğum ayə bu idi. Təqvanın özü insanın ürəyini hidayət və imanını möhkəm edir. [2]

## Dinşünaslıq və dindarlıq

### Peyğəmbərlərin ən yaxşı dinləyicisi

Ümmətlər müxtəlifdir, peyğəmbərlərin sözünün və missiyasının dinləyiciləri müxtəlifdirlər. Onların ən yaxşıları gənc olanlardır.[3]

### İranlı gənc – mömin və iffətli

Bəziləri iranlı gənc nəslə qarşı etiqad və iman baxımından ifratçı şəkildə səhv və yanlış mühakimələrə düçar olurlar. Mənim fikrim budur, araşdırmalar da göstərir ki, iranlı gənc mömin, iffətli, pak, olduqca güclü dini istedadlara malik olan və mənəvi cəhətlərə təmayüllü bir gəncdir. İranlı gənc – istər qız, istər oğlan həm ruhi, mənəvi və zehni imkanlar baxımından, həm də iman imkanları baxımından çox yaxşı səviyyədədir. Bu, məmurların üzərinə böyük vəzifə qoyur.[4]

### Həqiqi və mənəvi ucalıq

İranda gənc ehtiyacsız, başıuca, öz qəlbində dərin şadlıq hissinə, vəzifəni yerinə yetirmək hissinə, məqsədin aydın olması hissinə malik idi, nə iş gördüyünü və kimin üçün

---

[1] Talaq/2,3
[2] Universitet məhəlləsi hadisəsində yaralanan tələbələrin bir qrupu ilə görüşdəki çıxışdan; 1999
[3] Universitetdə fəqih rəhbərin nümayəndələri ilə görüşdəki çıxışdan; 1997
[4] Aşuraçı gənclərin toplantısındakı çıxışdan; 2000

işlədiyini bilirdi. O, Allahın lütfü ilə qalib və Allah-Taalanın ona verdiyi həqiqi və mənəvi yüksəlişə malikdir.[1]

**Gənclərin namazla gücləndirilməsi**

Mənim qüsurlu qələmimlə və az bilgimlə deyəcəyim budur ki, bizim xalqımız, bizim cəmiyyətimiz, xüsusən də bizim gənclərimiz - indi ağır əmanəti çiyinlərinə götürmüş gənclərimiz namazı tükənməz qüvvə qaynağı bilməli və bu gün bəşəriyyəti təhdid edən fəsad, ədalətsizlik və azğınlıq cəbhəsi qarşısında namazdan və Allahı yad etməkdən güc almalıdırlar.[2]

**Tələbələrin namazla tanışlığı**

Məktəb və universitetlərin dini dərslərində namaz dərsi öz yerini tapmalı, namazı yenidən öyrənməkdə biçimli sözlər və uca fikirlər hazırlanmalı, tələbə və şagirdlərin beyninə və qəlbinə təqdim olunmalıdır.[3]

**Gənclərin dindarlığının gücləndirilməsi**

Bu xalqın və bu ölkənin taleyi ilə maraqlanan hər bir şəxs bu xalqın imanının gücləndirilməsinə, gənclərin imanının gücləndirilməsinə, gənclərin dindarlığının gücləndirilməsinə, gənclərin İslam ideyaları ilə daha möhkəm bağlanmasına çalışmalıdırlar.

İslam İranının başucalığını istəyən şəxslər xalqın və gənclərin dini qeyrətini və onların boyun əyməsini günbəgün artırmalıdırlar.[4]

**Dinsizlik bəlası**

---

[1] Şagirdlərlə, tələbələrlə, sənət adamları ilə, idman çempionları və olimpiada qalibləri ilə görüşdəki çıxışdan; 1998

[2] Namazın bərpa edilməsi iclasına müraciətdən; 1991

[3] Namazın bərpa edilməsi iclasına müraciətdən; 1991

[4] Beytül-müqəddəs əməliyyatının komandirləri və döyüşçüləri ilə görüşdəki çıxışdan; 1999

Əgər Allah eləməmiş, gənc bir oğlan, yaxud qız dinsiz, laqeyd və din qanunlarına etinasız olsa, bunların eybi var, lakin məsələ təkcə bunlarla bitmir.[1]

**Düzgün təfəkkürə və məntiqli dünyagörüşə malik olmaq**

Bizim inqilabdan qorxmalarının ümdə səbəblərindən biri budur ki, bu inqilabın düzgün dünyagörüşünə və yaradılış aləminə dair məntiqli və möhkəm dərkə əsaslanan, düzgün tərif olunmuş bir təfəkkürü vardır.

Buna əsasən, bizdə hər bir şəxs bilir ki, dünyanın və yolun harasında yerləşir, hansı səmtə sarı hərəkət edir. Həyat da, mübarizə də məqsədyönlü olur. İslam təfəkkürünə görə, insan həyatının məqsədi təkamül zirvələrinə çatmaqdır; maddi gözəlliklə yanaşı olan mənəvi təkamülə, yəni necə deyərlər, dünyadan keçən axirətə; bir ədalətli cəmiyyət, mütərəqqi və mənəvi bir ölkə yaratmağa, eyni zamanda yüksək maddi qüdrətlərə, mənəvi istiqamətlərə, etikaya və həqiqi bəşəri hisslərə malik olan bir ölkə yaratmağa.

Görün nə qədər uca və gözəl bir məqsəddir! Qərblilərin belə bir şeyi yoxdur. Bir-birinin belinə mindirdikləri bütün bu sivilizasiya və bu yarış xudpəsəndliyə, şəxsi maraqlara dayanır. Buna görə də, bu yarışda bir yerdə qələbə əldə edirlər, amma başqa bir yerdə problemlə rastlaşırlar. Bu əxlaqi anormallıqlar, düşüncə boşluqları, cavanların sinir pozğunluğu, onların iztirabı və məqsədsizliyi sözügedən xudpəsəndlikdən, eqoistlikdən və şəxsi maraqların birinciliyindən qaynaqlanır.

İslam quruluşunda isə belə deyil. İslamın fəlsəfi təfəkkürü və İslam əsaslarının düzgün anlayışı insanın hər an harada, yolun harasında olmasını və hansı səmtə doğru hərəkət etməsini bilməsində ona kömək göstərir, hadisələri analiz etmək qabiliyyəti əldə edir və hər bir şəraitdə özünün vəzifəsini müəyyənləşdirir.

[1] Qum şəhərində ölkənin tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1995

Bu gün bizim cavanlarımız belə olmalıdırlar! Düzdür, düşmənin bundan xoşu gəlmir. Düşmən harada belə bir şey müşahidə etsə, bacardığı qədər ona qarşı mübarizə aparır [1].

**Allaha iman – ikitərəfli əlaqə**

Ümumiyyətlə insanı məhv edən ümidsizlikdir. Bu zaman insan addım ata bilmir. O, insanı məhv edir, onun bütün qüvvəsini sıradan çıxarır. İnsan əgər daha davam edə bilmədiyini duysa, evi yıxılmışdır. Sizin işinizin bitdiyini və xəttin axırına çatdığınızı duymanıza mane olan nədir? O bir başlanğıca və bir nöqtəyə olan imandır.

Bu nöqtə Allaha və qeybə iman ola bilər (bu ən yaxşısıdır), bəziləri üçün bir ideal insana iman da ola bilər, insani ideyaya iman da ola bilər. Dünyada bəziləri bir ideya və fikrə iman bəsləyirlər. O ideya tam ilahi olmaya da bilər. Baxmayaraq ki, yenə də mənəvi bir ideyadır, çünki zehnə və ruha aiddir, lakin Allahla bağlılığı yoxdur.

Allahla bağlı olan ideyanın gözəlliyi budur ki, insan özünün arxalandığı tərəflə alış-veriş edə bilər. O sizin qarşınızda olan bir varlıq və bir həqiqətdir. O, sizin sözünüzü eşidir, qarşılığında sizə deyəcək sözü də var. Mənim əzizlərim! Bunu bilin, əhəmiyyətli olan budur ki, ürəyində Allahla əlaqəsi olan hər bir şəxsin rabitəsi əsla birtərəfli deyil, ikitərəflidir. Bu, ilahi maarifdən və mənəvi əlaqələrdən uzaq olan bəzi şəxslərə çox qəribə görünə bilər: "Allah insanla necə danışa bilər?" Bəli, danışır. Siz bunu hiss edəcəksiniz. Siz bunu hiss edirsiniz, çox da uzaq deyil. Kim Allaha sarı getsə, O, çox yaxındır.[2]

**İmanı və öhdəliyi gəncin beynindən silmək**

---

[1] Könüllü keşikçilərdən (Bəsic üzvü) olan tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

[2] Universitet məhəlləsi hadisəsində yaralanan tələbələrin bir qrupu ilə görüşdəki çıxışdan; 1999

Bu gün İranın və İslamın düşmənləri tərəfindən ölkənin müstəqilliyinin, başucalığının və inkişafının səbəbkarını – yəni inqilabın prinsiplərinə inamı və öhdəliyi gənclərin beynindən və əməlindən silmək üçün geniş təbliğat fəaliyyəti aparılır. Dünyada hamı bilir ki, imperialist cəbhənin İslam inqilabı qarşısındakı tarixi məğlubiyyəti ən çox gənclərin sadiq imanından qaynaqlanmışdır. Düşmən min dillə, min vasitə ilə bu möhkəm səngərə sarı hücuma keçmişdir.[1]

**Daha möhkəm rabitə, daha artıq uğur**

Allahın lütfü ilə bu dövrdə paklıq və nuranilik mənbəyi olan gənclərimizin Allah evinə daha çox getməsinə bu qədər təkid göstərməyimiz (bu gün gənclərin vəziyyəti keçmişə nisbətən tamamilə dəyişmişdir. Bu gün daha çox paklıqları və mənəviyyatları vardır) ondan ötrüdür ki, Allahla rabitəni nə qədər möhkəm etsək, Allahın yardımları və hidayəti daha artıq olacaq və bizim qəlblərimiz daha da aydınlaşacaq.[2]

**İmanın bünövrəsini gücləndirmək**

Mən siz əziz xalqa, xüsusən də gənclərə deyirəm ki, dini məsələlərə boyun əyin, vaciblərin qədrini bilin, öz İslam inancınızı İslam əməli ilə birgə edin, əxlaq fəsadı və etiqad azğınlığı qarşısında dayanın, fiziki baxımdan, düşüncə, ruh və iman baxımından özünüzü günəbəgün gücləndirin.[3]

**Namazın ürəkdən qılınması**

Əziz gənclər namazın az dəqiqələrini yalnız namaz üçün ayırsınlar. Namaz əsnasında bacardıqları qədər fikirlərini toplamaqla və onu ürəkdən qılmaqla özlərinin ehtiyaclı canları və qəlbləri üçün zikrin və yalvarışın həyat bəxş edən mənbələrini əldə etsinlər.[4]

---

[1] İslam birliklərinin iclasına müraciətdən; 1998

[2] Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan; 1998

[3] Çahar-Mahal və Bəxtiyari vilayətinin əhalisi ilə görüşdəki çıxışdan; 1992

[4] İslam Respublikası qəzeti, 28 sentyabr 1997

**Allahla rabitəni ciddi saymaq**

Mənim əzizlərim! Allahla rabitəyə ciddi yanaşın. Siz gəncsiniz. Ona əhəmiyyət verin. Allahla danışın. Allahdan istəyin. Münacat, namaz, diqqətli namaz sizin üçün çox lazımdır. Bunları ikinci dərəcəli hesab etməyin [1].

**Dua və münacat – gənclərin günah və fəsad qarşısında möhkəmlənməsi**

Bizdə fərdi ibadətlər, ictimai ibadətlər və siyasi ibadətlər var. Xalis ibadətlərimiz gecə yarısına, dua və münacat zamanına, Allahla danışmaq və Allaha yalvarmaq zamanına məxsusdur. Bunların hər biri bir dərəcədir. Bunların hər biri sizi polad kimi möhkəm edir, bu gəncləri möhkəm, toxunulmaz, şeytanın, düşmənin və fəsad amillərinin təsiri və mədəni hücum qarşısında təhlükəsiz edir.[2]

**Bəndəliyin ağıllı və elmi fəaliyyətlərlə yanaşı olması**

Bəndəliyin əqli dəlillərlə, əqli məsələlərə təmayüllə, elmə inamla, elm, universitet və tələbə fəaliyyəti ilə heç bir ziddiyyəti yoxdur. Onların hamısı olmalıdır, bəndəlik də olmalıdır.[3]

**Paklığın, saflığın və nurluluğun artması**

Əziz gənclər! Bizim silahlı qüvvələrimizdə yaranmış bu misilsiz paklıq və saflıq halının sıradan çıxmasına imkan verməyin; nəyin bahasına olursa olsun, bunu qoruyun. Xüsusən elmi mərkəzlərdə olan siz gənclər, müəllimləriniz və komandirləriniz, ehtiyatlı olun, bu saflığı, nurluluğu və paklığı günbəgün artırın.[4]

---

[1] Tehran Universitetindəki sual-cavab toplantısındakı söhbətlərdən; 1998

[2] Qum Elmi Hövzəsinin tələbələri və Qum əhalisi ilə görüşdəki çıxışdan; 1997

[3] Qum şəhərində ölkənin tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1995

[4] Hərbi Hava Qüvvələrinin məzunları üçün keçirilən tədbirdəki çıxışdan; 2000

**Namaz - susuz ruhun doyurulması**

Bu gənclərin, qız və oğlanların istedadlı ruhları var. Bunları namazla tanış edin. Namaz insanın boynunda bir yük deyil, bir lütf və bir bacadır. Əgər Allah mənə və sizə onunla danışmaq icazəsi verməsəydi, biz nə edərdik? Əgər insanın dua və münacat etməsinə icazə verilməsəydi, nə edərdi? Özünün ac və susuz ruhunu necə doyura bilərdi? Allahla rabitədən başqa hansı bir şey insanın bu susuz ruhunu doyura bilər?!

Bəzi hədislərdə göstərildiyinə əsasən, əziz Peyğəmbərimiz (s) azan vaxtı yaxınlaşanda Bilala deyirdi: "Sərinləşdir, ey Bilal! Sərinləşdir, ey Bilal!"[1] Yaxşı yadımda deyil, Şeyx Bəhaidən, yaxud mərhum Nəraqidən görmüşəm. Bunun izahında deyir ki, bu söz barəsində bir neçə ehtimal mövcuddur. Ehtimalların biri budur ki, ey Bilal, ciyərim susuzluqdan yanır, bu gözəl suyu çatdır; yəni namaza giriş icazəsi olan azanın gözəl suyunu.[2]

**İlahi zikrin ləzzəti**

Təmiz qəlbi və hazır ruhu olmasına rəğmən, ümumiyyətlə Allah zikrinin ləzzətini dadmayan, namazdan həzz almayan, dua, zikr, təzim, ağlamaq, aləmin Rəbbi ilə ünsiyyət, varlıq həqiqətlərinin ən gözəli - yəni Allah-Taalanın müqəddəs varlığı ilə rabitədən uzaq olan bir gənc çox nöqsanlı, məhrum və qüsurludur. Sizin bu baxımdan da məsuliyyətiniz var. Siz ürəkləri aydınlaşdırmalı və Allahla tanış etməlisiniz. Allahla ünsiyyəti öyrədin və zikrin ləzzətini daddırın.

Əgər insan Allah zikrinin və Allahla rabitənin ləzzətini dadsa, bilin ki, başqa heç bir şey ona ləzzətli görünməyəcək. Dünyanın bütün ötəri ləzzətləri, hətta ən üstün ləzzətləri belə ona uşaq işi kimi görünəcək.[3]

---

[1] "Kəşkül", c. 1, səh. 195

[2] Tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1996

[3] Tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1996

**Dua və ixlasın möcüzəsi**

Sizin duanız və Allaha üz tutmanız, siz əziz gənclərin pak və işıqlı qəlblərində Allah zikri möcüzələr edir. Özünüzü indidən hazırlayın. Təkcə bu günlərdə yox, bütün ömrünüz boyu Allahla bu rabitə sizdə paklığı və ixlası gücləndirəcək. Paklıq və ixlas bütün işlərin açarıdır.[1]

**Dinin gənclərə özəl müraciəti**

Din tərəfindən gəncə müraciət həmişə özəl bir müraciətdir. İslam məfhumlarında və dini fəaliyyətlərdə gəncə çox müraciət olunmuşdur. Səbəbi də budur ki, gəncdə coşqu, eşq, paklıq və mənəviyyat gövhəri parlayır. Hər bir insanda bu gövhər var, lakin gəncdə və gənclik dövründə bu insani gövhər çox aydındır, işıq saçır və parlayır. Ondan istifadə etmək lazımdır.[2]

**İslam - müqavimət dini**

İslam gənclərə müqavimət və möhkəmlik verir. Bunu (amerikalılar) səkkizillik müharibədə və inqilabın özündə sınaqdan keçirdilər. Gördülər ki, İslama eşq gəncləri səhnədə necə möhkəm saxlayır, xalqı düşmənin zahirən sarsılmaz polad səddi qarşısında müqavimətə vadar edir və o səddi uçurur. Bunu gördülər. Odur ki, İslamla düşməndirlər, İslama qarşı çıxırlar.[3]

**Əhli-beytin (ə) şüarı - canlı və əsl İslamı yaymaq**

Əhli-beytin (ə) şüarı canlı, xalis, hamı üçün, hər bir məntiq və düşüncə əsası üçün başadüşülən olan İslamı yaymaqdır. Gənclər bu əsas üzərində öz düşüncə təməllərini möhkəmlətməlidirlər.[4]

---

[1] Bəsic həftəsi münasibəti ilə Bəsic üzvləri ilə görüşdəki çıxışdan; 1997
[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1997
[3] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1998
[4] Təlim və Tərbiyə Nazirliyinin məsul işçiləri və Əhli-beyt (ə) iclasında iştirak edən gənclərlə görüşdəki çıxışdan; 2000

**Gənclik ulduzu**

Gənclərlə olduqda, gənc mühitinə düşdükdə səhər havasında nəfəs alan bir şəxsin hissini keçirirəm, yenilik və təravət duyuram. Gənclərlə görüşəndə adətən yadıma düşən və dəfələrlə üzərində fikirləşdiyim məsələ budur ki, görəsən onların özləri alınlarında hansı ulduzun parladığını bilirlərmi? Mən bu ulduzu görürəm, görəsən özləri də görürlərmi? Gənclik ulduzu çox parlaq və bəxtəvər bir ulduzdur. Əgər gənclər bu qiymətli və bənzərsiz neməti öz vücudlarında hiss etsələr, düşünürəm ki, ondan yaxşı istifadə edəcəklər.[1]

**"Gənc hər şeydən həzz alır!"**

Gənclər bir yerə toplaşdıqda ürəkləri isti olduğundan – yəni təbiətlərində bir növ gümrahlıq və şadlıq olduğundan, hər şeydən ləzzət alırlar. Gənc xörəkdən ləzzət alır, danışmaqdan ləzzət alır, güzgüyə baxmaqdan ləzzət alır, istirahətdən ləzzət alır.[2]

**Enerji, ümid və yaradıcılıq**

Mən əsasən gənclərin malik olduğu bu mühüm xüsusiyyətlər arasında üçünün çox bariz olduğunu düşünürəm. Əgər onlar müəyyən olunsa və əgər onlar düzgün istiqamətə yönəldilsələr, belə nəzərə çarpır ki, sizin bu sualınıza (Bir cavan necə həyat yolunu keçib məqsədlərinə çata bilər?) cavab vermək olar. Həmin üç xüsusiyyət bundan ibarətdir: enerji, ümid, yaradıcılıq. Bunlar gəncdə olan üç qabarıq xüsusiyyətdir.[3]

**Örnək qəbul etmək**

---

[1] Şagirdlərlə, tələbələrlə, sənət adamları ilə, idman çempionları və olimpiada qalibləri ilə görüşdəki çıxışdan; 1998

[2] Şagirdlərlə, tələbələrlə, sənət adamları ilə, idman çempionları və olimpiada qalibləri ilə görüşdəki çıxışdan; 1998

[3] Şagirdlərlə, tələbələrlə, sənət adamları ilə, idman çempionları və olimpiada qalibləri ilə görüşdəki çıxışdan; 1998

Məncə müsəlman cavan üçün, xüsusən imamlarımızın, Peyğəmbər (s) ailəsinin və erkən İslam çağı müsəlmanlarının həyatı ilə tanış olan müsəlman üçün örnək və model tapmaq çətin olmaz. Belə örnəklər az deyil.

Bu, bir gənc üçün örnək ola bilməzmi: böhran zamanı tez məsuliyyət hiss edib, fəaliyyətə başlamaq, vücudunda olan əzəmətli potensialı xərcləmək, yaşı, misal üçün, 50-i ötmüş və təqribən qocalmış atasının üzündən qəm-kədəri silmək? Bu, bir cavan üçün nümunə ola bilməzmi?[1]

## Bugünkü gəncin müsəlmanlığı - Əbuzərin gəncliyinin müsəlmanlığı kimi

Allah yolunda müqavimət göstərən, möhkəm dayanan və mücahidlik edən bugünkü gənclərimizin müsəlmanlığı Əbuzər Qifarinin, Hənzələ Qəsil əl-məlaikənin və Müsəb ibn Ümeyrin gəncliyinin müsəlmanlığı kimidir. Bizim keçmişdəkilərimizin müsəlmanlığı kimi deyil ki, bir ömür yaxşı müsəlman olsunlar (Allah-Taala şübhəsiz onlara əcr də verəcək), namaz qılsınlar, ibadət etsinlər, ticarətlə məşğul olsunlar və öz işlərinin ardınca getsinlər, nə yaxşı işlərə dəvət və pis işlərdən çəkindirmək olsun, nə cihad olsun, nə Allah düşmənləri ilə mübarizə aparmaq. Bu hara, o hara?[2]

## İslam məntiqli və cazibəli din kimi

Dinə qarışdırılan və din adı ilə bəyan edilənlərə baxmayın. Din, dinin və İslam təlimlərinin əsası çox aydın, xoşagələn, həssas və araşdırmaçı beyinlər üçün tamamən məntiqlidir. Buna görə siz görürsünüz ki, bu gün İslam dini bütün dünyada

---

[1] Şagirdlərlə, tələbələrlə, sənət adamları ilə, idman çempionları və olimpiada qalibləri ilə görüşdəki çıxışdan; 1998

[2] Şəhidlərin, əlillərin, itkin düşənlərin, məsul şəxslərin və ruhanilərin ailələri ilə görüşdəki çıxışdan; 1989

araşdırmaçı olan bütün adamlar üçün cazibəlidir. Bu cazibə İslamın aydın təlimlərinə görədir. Bu dinin qədrini bilin.[1]

**İslam haqqında saxta düşüncələr təhlükəsi**

Xalis, qədim və düzgün düşüncələrin bəyanı boşluğu müşahidə olunduqda saxta və yalançı düşüncələr, qeyri-sağlam və qeyri-düzgün fikirlər bazara çıxır. Bu təbii haldır. Çünki müştəri həmişə dayanmışdır. Əgər təmiz, düzgün və yaxşı mal gətirib xalqa təqdim etsələr, bəllidir ki, xalq tanıdığı təqdirdə sağlam olmayan mala tərəf getməyəcək. Lakin bu yandan boşluq yaransa, saxta malların bazarı qızışacaq. Təəssüf ki, bu gün bizim cəmiyyətimizdə müşahidə olunan budur. Zahiri çox gözəl olan saxta qızıl sikkələr, zahiri çox gözəl olan saxta pullar əslində etibarsızdır, amma adi camaat bunu seçə bilmir.

İslam düşüncələri bazarında vəziyyət bu gün belədir. Hər tərəfdən bir nəfər qalxıb başa düşülməsinin və dərk olunmasının dini qaynaqlar üzərində elmi əsaslara ehtiyacı olan din məfhumları, uca İslam anlayışları haqda uyğun əsaslara malik olmadan fikir yürüdür və özlərindən danışırlar: İslam belə deyir; İslam elə deyir. O söhbətdə və o minbərdə bir kəs də yoxdur ki, ondan "İslam bu sözü harada deyir" - deyə soruşsun. Bütün bəşər məfhumlarını da İslamın baxışından izah edirlər; azadlığı izah edirlər, insanlığı izah edirlər, insan hüquqlarını izah edirlər, ədaləti izah edirlər. Haraya və hansı İslama istinad etdikləri də bəlli deyil.

Bu çox pis haldır. Bəzi insanlar lazımi səlahiyyətlərə malik olmadan elə sahəyə girir və fikir bildirirlər ki, o fikirlərin qərəz üzündən olmadığını fərz etsək, ən azı cahilanə fikirlərdir. Əgər onda siyasi qərəzlər, cinah maraqları və xəyanətkar məqsədlər olsa, daha pis olacaq. Bizim cəmiyyətimizdə mövcud olan bu hal çox pis haldır. Düzdür,

---

[1] Kəhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdəki çıxışdan; 1994

təkcə bu günə məxsus deyil, həmişə olmuşdur. Lakin bu gün keçmişə nisbətən bir özəlliyi var. Keçmişdə cahillər din haqqında fikir bildirirdilər, lakin məhdud avam çevrələrində. Fərz edin kimsə təbliğatçı, yaxud hər hansı bir adla dinə dair danışırdı və məhdud bir çevrədə olan avam insanlar onun sözünü qəbul edirdilər. Bu gün həmin zamanla fərqi budur ki, İslamın əsaslarına və elmi-dini təməllərə dair səhv sözlər avamcasına, lakin bəzəkli qəliblərdə, yeni fikir və elm qəlibində deyilir, halbuki elm deyil, halbuki səhvdir. Buna qarşı elmi tədbir görməyə ehtiyac var. Hökumətin tədbiri ayrıdır. Hər yerdə hökumətlər bu sahələrə girə bilməzlər və girmirlər. Düzgün də deyil, təsirli də deyil. Lakin elm sahəsi bu işdə fəal və aktiv olmalıdır.

Dinin özünə, dinin fəlsəfəsinə, etiqadi əsaslara, İslam Respublikasının maarifi qəlibində göstərilən İslam təlimlərinə - misal üçün, konstitusiyada və digər yerlərdə göstərilən məsələlərə dair, İslam fiqhinə dair, Peyğəmbərin (s) və imamların (ə) davranışına dair elə söhbətlər olur ki, nə tarixə əsaslanır, nə hədisə əsaslanır, nə Qurana əsaslanır, nə fiqhin metodologiyasına əsaslanır, nə bəlli dini əsaslara əsaslanır, nə də çox dərin və zərif bir fənn olan fəqahət üslubuna əsaslanır. Heç bir şeyə əsaslanmır. Ziyalılığa bənzər və elmiliyə bənzər qəliblərdə gözəl və rəngli təbirlərlə bəyan olunur. Bu işin dairəsində olanlar təəssüf ki, cəmiyyətin xüsusi insanlarının və görkəmli şəxslərinin bir qismidir. Keçmişlə fərqi budur. Onlar elmli insanlara zərbə vururlar, elmli insanların yolunu kəsirlər, görkəmli şəxslərin yolunu kəsirlər. Odur ki, buna qarşı tədbir görülməlidir. Qeyd etdim ki, belə yerlərdə tədbir düşüncə tədbiridir, elmi tədbirdir, mübahisə meydanında olan tədbirdir; amma şücaətlə. Əlbəttə, bəllidir ki, əgər biz bu işlərin arxasında siyasi maraqların durduğunu, Allah eləməmiş, xain məqsədlərin olduğunu, fəsad törədən məqsədlərin olduğunu qəbul etsək, o zaman siz elm meydanına girsəniz də qalmaqal

yaratmalarını, rüsvayçılıq etmələrini, qara yaxmalarını gözləmək lazımdır; amma etsinlər.[1]

**Dinin təhrifinə qarşı tədbir növü**

Din alimləri dinin təhrifi qarşısında sakit oturmamalıdırlar. Bu məsələlərə qarşı qeyri-elmi tədbir səhvdir; fəryad qoparaq ki, cənab, bu küfr dedi; təkfir edək və sair. Bunun faydası yoxdur. Çoxlarının bundan xoşu gəlir; bir söz danışılan kimi tez ittiham edək ki, İslama qarşı danışmışdır, yaxud dinin əleyhinə danışmışdır, yaxud vilayətin əleyhinə danışmışdır. Tez yapışırlar onlara, xoşları da gəlir. Ona görə ki, elmi tənqiddən kənarda qalırlar. Əgər elmi tənqid olsa, söz diqqətlə araşdırılar, sözün və söz sahibinin rüsvayçılığı aşkarlanar. Bu iş görülməlidir.

Əlbəttə, əgər kimsə fiqhdə mövcud olan meyarlarla uyğunlaşan və İslamda cəza nəzərdə tutulan bir söz danışsa, mən onu qadağan edib mane olmaq istəmirəm. Xeyr, o öz yerində. Lakin bu, alimlərin, elmi hövzələrin və din təbliğatçılarının görməli olduğu iş deyil. Bu, hökumətin işidir. Onlar öz vəzifələrini yerinə yetirməlidirlər. Onların da vəzifələri var və mütləq yerinə yetirməlidirlər. Lakin elm adamları, din başçıları və dinin bayraqdarları bu hadisələrdə elmi meydana girməli, sözü müzakirə etməli, araşdırmalı və eybini aydınlaşdırmalıdırlar ki, ardınca söz sahibinin eybi aydınlaşsın: “Hidayət yalnız azğınlığın yayıldığı cəhətdən yayılır”. Bu, mərhum Seyid Şərəfüddinin sözlərindəndir. Onlar azğınlığı necə yayırlarsa, hidayəti də həmin yolla yaymaq lazımdır. Həmin cahilin, yaxud qərəzli şəxsin (biz indi mühakimə yürütmürük, çünki hər ikisi mümkündür) meydana girib yanlış bilgiləri, zəif bilgiləri, köksüz və qeyri-peşəkar bilgiləri müxtəlif adlarla insanlara verdiyi kimi, elm və din adamları da meydana girib fundamental bilgiləri, xalis bilgiləri və o fikrin səhv olmasını bəyan etsinlər.

---

[1] Fiqhin ali ixtisas (xaric) dərsindən; 2000

Güman etmək olmaz ki, elmi hövzələrdə bu işləri görə bilən şəxslər yoxdur. Xeyr, Allaha həmd olsun ki, bizim bu gənclərimizin və alimlərimizin arasında beləları çoxdur. Bu işi görə bilənlər çoxdur. Düzdür, ola bilsin birinin tədqiqat bacarığı olsun, lakin bəyan etmək bacarığı olmasın. Bir nəfər araşdırma adamı olub o tədqiqatçının əldə edə bilmədiyi sözləri tapa bilsin. Bir nəfər dil bilsin, fərz edin bu sözün kökünü filan qərbli hüquqşünasın, yaxud qərbli filosofun yazısında tapsın, bu tədqiqatçı isə o dili bilməsin və bunu bacarmasın. Bunlar bir-birinə birləşdirilməlidir. Bunlar bir-birini təkmil də etməlidir, bir-birinə kömək edib bu düzgün fikri gözəl formada, güclü və möhkəm şəkildə deyə bilən şəxsin ixtiyarına qoyulmalıdır. Bu iş bu gün sizin vəzifələrinizdən olan bir işdir, elmi hövzələrin vəzifələrindəndir, din alimlərinin vəzifələrindəndir. Bunu yaddan çıxarmaq olmaz. Bu çox əhəmiyyətlidir.[1]

## Şübhələr qarşısında gənclərə yardım

Bu gün bizim gənclərimizin düşüncə baxımından yardıma ehtiyacları var; həm şübhə halında olanların, həm şübhənin təsirinə düşüb bu düzgün etiqadın əhatəsindən xaric olanların, həm də etiqadlı və inanclı olanların. Bunlarda düşüncəni dərinləşdirmək, onları gətirib şübhəni onlardan silmək lazımdır. İndi (sağlam) olanların da etiqadlarını dərinləşdirmək, onları möhkəmlətmək və qorumaq lazımdır.[2]

## Eklektizmlə mübarizə

Əvvəlcə Avropada filan ictimai, yaxud iqtisadi filosof tərəfindən irəli sürülən və misal üçün, müsəlman ölkələrində yayılan bir fikir təbii olaraq gəncin, yaxud bu fikirlə tanış olan şəxsin zehnində eklektizmə şərait yaradır. Odur ki, İslama etiqadlı və dindar gənc özünün etiqad bəslədiyi İslamı indi

---

[1] Fiqhin ali ixtisas (xaric) dərsindən; 2000
[2] Fiqhin ali ixtisas (xaric) dərsindən; 2000

bəyəndiyi və bayırdan gəlmiş bu fikirlə uyğunlaşdırmaq istəyir. Bu olur eklektizm. Deməli, əgər bir fəqih güclü və düzgün işləmək istəsə, gərək dünyada geniş yayılmış düşüncələrlə tanış olsun. Çünki İslam cəmiyyətində eklektik dalğalar bir çox hallarda yeni bir fikrin təbii təsiri formasında, həmin yeni fikirlə tanış olan bütün şəxslərin zehnində bayırdan idarə olunur.[1]

**Qapalılıqdan və xəyali aydınlıqlardan uzaq durmaq**

Bir tərəfdən yanlış anlamaq, məhdud baxış, mənasız təəssübkeşlik, dini dərk və təqdim etməkdə cahillik, bir tərəfdən də səhlənkarlıq, dini məsələlərdə xəyali aydınlıq, dini əsaslara etinasızlıq və İslam qaydalarına boyun əyməmək Şəhid Mütəhhərinin sözü ilə desək - əlbəttə, o başqa bir yerdə deyirdi - bir qayçının iki tiyəsi kimidir; ikisi birgə gəncin dindarlıq ipini kəsirlər. Heç birinin yaranmasına icazə verməməlisiniz. Gənclərə düzgün və aydın baxış verilməlidir.[2]

**Quranla ünsiyyət**

**Gənclərin Qurana marağı**

Əvvəla Allaha şükür edirəm ki, Qurana şövq və Quran oxunuşunu öyrənməyə həvəs siz əziz gənclərin arasında geniş yayılıb və günəbəgün daha da genişlənməkdədir. İkincisi isə, Quran işi ilə məşğul olan sizin hər birinizə, eləcə də məsul şəxslərə, ustadlara, müəllimlərə və bu yolda sizə kömək göstərən bütün şəxslərə səmimi şəkildə və ürəkdən təşəkkür edirəm.

Bu gün ölkə boyunca milyonlarla gənc sizin kimi Quranla əlaqədədirlər. Davamlı olaraq özlərini Qurana yaxınlaşdırırlar; bəziləri sürətlə, bəziləri yavaş, bəziləri isə sürünə-sürünə Quranla ünsiyyətə tərəf gedirlər.[3]

---

[1] Risalət qəzetinə müsahibədən; 1986
[2] Təlim və Tərbiyə Nazirliyinin məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2000
[3] Quran fəalları ilə görüşdəki çıxışdan; 1999

**Quran tilavətinin fəlsəfəsi**

Quran oxunuşuna diqqətin əsaslı bir fəlsəfəsi var. Belə deyil ki, məsələnin təkcə məharət cəhətinə diqqət göstərilsin, yaxud baş qarışdırmaq üçün bir vasitə olsun. Əgər Quranın, cəmiyyətin və ölkəmizin zehni arenasında yayılmasını, onun məfhumlarının fikir və düşüncələrdə yaşamasını və Quran adətinin cəmiyyətin beyninə hakim olmasını istəyiriksə (qeyd etməliyəm ki, bu, çox əhəmiyyətli bir məsələdir), cəmiyyətin bütün üzvləri Quranı mütləq düzgün oxuya bilməlidirlər. Onlar bununla Quranın ayələri üzərində düşünmək imkanı tapacaq və düşünməklə öz hədləri çərçivəsində, onun məfhumlarının və maarifinin dərinliklərinə yiyələnəcəklər.

Quranı gözəl oxuyan qarilər digərlərini də Quran oxumağa sövq edən bayraqdarlardırlar. Quranı gözəl və düzgün oxumağın bu xususiyyəti var.[1]

**Düzgün Quran oxunuşunun təsirləri**

Siz əgər düzgün və yaxşı şəkildə, tilavətin rəmzləri və zərif məharətləri ilə oxusanız, Quranla tanış olan hər bir adamı ona daha da həvəsləndirərsiniz, onun mənasını bilən şəxsi isə təfəkkürə vadar edərsiniz.[2]

**Quran mədəniyyətinin reallaşması üçün gənclərə ümid**

Quran məfhumları ilə ünsiyyət yolu bizim ölkəmizdə yeni başlanmışdır. Bu Quran adamlarını, bu gəncləri, bu gözəl ahəngləri və Allahın lütfü ilə həm gənc və həm ustad olan gənc ustadları müşahidə edib kimsə düşünməsin ki, bəli, Allahın lütfü ilə Quran fəaliyyəti nəticə verdi və bundan artığı lazım deyil.

Xeyr, belə deyil. Bizim çatışmazlığımız var. Biz uzun illər boyunca Qurandan uzaq qalmışıq, inqilabdan sonra Qurana yaxınlaşmışıq. Lakin bizim həyatımızda - istər əxlaqi

---

[1] Quran fəalları ilə görüşdəki çıxışdan; 1999

[2] Quran fəalları ilə görüşdəki çıxışdan; 1999

mühitimizdə, istər siyasi mühitimizdə hələ Quran mədəniyyəti hakim deyil.[1]

## Quran dərkinin yayılması

Quran xalq tərəfindən dərk edilməlidir. Gərək bizim cavanlarımız, qızlarımız, oğlanlarımız, ata və analarımız, rəsmi idarə işçiləri, ticarət adamları, əkinçilər, fəhlələr və cəmiyyətin müxtəlif təbəqələri, ictimai, siyasi, yaxud iqtisadi məsələlər barəsində düşünərkən zehinlərində Quran ayələrinə söykənən bilgilər toplusu əks olunsun. Görün nə qədər mühümdür!

Hər hansı bir cəmiyyət belə olsa, onun əksəriyyəti, yaxud böyük bir hissəsi bu vəziyyətdə olsalar, bu zaman İslamın yenilməz təməllərinin orada kök atmasına ümidvar olmaq olar. Biz bu məqsədə sarı hərəkət edirik. İndi biz və cəmiyyətimiz düşmənlərin gördüyü bütün mədəni işlərə rəğmən, bu səmtə sarı hərəkət edirik və yaxşı da hərəkət edirik.[2]

## Quran üzərində təfəkkürün mərhələləri

Mənim əzizlərim! Quranla tanışlığın ilk mərhələsi onun mətni ilə tanış olmaqdır. Bu mərhələni keçmək lazımdır. Sonrakı mərhələ isə Qurana bağlılıqdır. Quran oxumağı tərk etməyin. Əlbəttə, əgər kimsə bu zaman Quranı əzbərləsə, bir neçə addım irəli getmiş olacaq və qalan işlər onun üçün asanlaşacaq. Hər halda, sonrakı mərhələ Quran ayələri üzərində düşünməkdir. İnsan Quranın hər bir ayəsinə, kiminsə onunla ciddi danışığı kimi baxmalıdır. Əgər danışan ciddi və ölçülüb-biçilmiş danışırsa, biz onun sözlərini başa düşmək üçün diqqət göstərməyə məcburuq. Quranla belə rəftar edin. Onda sizinlə ciddi və biçimli şəkildə danışılıb.

Quranın bütün sözləri dərin mənalıdır. Amma hər bir ayənin dərinliyinə varıb onun mənasını əldə etməyə çalışmağa

---

[1] Quran qiraətçiləri və hafizləri ilə görüşdəki çıxışdan; 1999

[2] Quran fəalları ilə görüşdəki çıxışdan; 1999

lüzum yoxdur. Ayələrin tərcüməsi mütləq lazımdır. Yəni ayələrdə düşünmək və təfəkkür etmək istəyən şəxs Quranın mənasını bilməlidir. Bu, vacib bir mərhələdir. Siz əgər ayələrin tərcüməsini bilsəniz, onda ayələri diqqətlə oxuyacaqsınız və sizin üçün düşünmək imkanı yaranacaq. Siz Quranda düşünə biləcəksiniz [1].

**Quran məfhumları ilə ünsiyyət**

Siz indi Quranı asanlıqla əzbərləyə bilərsiniz. İndi bizim nə qədər Quran hafizimiz var. Sizin aranızda 1 cüz, 2 cüz, yaxud bütün Quranı əzbərləyənlər ola bilər. İndi cəmiyyətimizdə çoxdur. Bu böyük üstünlükdür. Sizin Quranı əzbərləməniz və onunla ünsiyyətdə olmanız (hər yerdə Qurandır, hər yerdə Quran səsi gəlir) Quran məfhumları ilə tanış olmaq üçün sizə daha artıq imkan yaradır. Bu imkanın qədrini bilin. Quran anlayışları ilə ünsiyyətdə olun.[2]

**Quranla ünsiyyət - problemlərin həlli**

Quran düşüncə problemlərini və düyünlərini, ruhi və duyğusal problemləri həll edir. İnsan yavaş-yavaş Quranla ünsiyyət qurduqca onun zehni duyğusal baxımdan (çünki zehin üzərində təsir qoyur), əxlaqi, yaxud fikir baxımından çıxılmaz vəziyyətə düşdükdə, qəfildən bir ulduzun parladığını görür, ona sarı gedir və görür ki, yol açıldı. Quran belədir.[3]

**Quranla ünsiyyət və ölkənin ümumi bilgisini yüksəltmək**

Quranla ünsiyyət bir ölkənin ümumi bilgisini yüksəldir. Quran bizim hər şeyimizdir, nurdur. Bizim bu gənclərimiz Quranla ünsiyyətdə olduqdan sonra vəziyyət çox dəyişdi. Bizdə səkkizillik müharibə dövründə top və tüfəng alovunun

---

[1] Quran müsabiqəsində iştirak edən tələbələrlə görüşdəki çıxışdan; 1999

[2] Quran müsabiqəsində iştirak edən tələbələrlə görüşdəki çıxışdan; 12 may 1999

[3] Quran müsabiqəsində iştirak edən tələbələrlə görüşdəki çıxışdan; 12 may 1999

altında cəbhələrdə elə gənclər var idi ki, yerə oturan və bir qədər boş vaxt tapan kimi Quranlarını açıb oxuyurdular. Yaxud misal üçün, əgər avtobusda və ya kamazda oturub getsəydilər, Quranlarını çıxarıb oxumağa başlayırdılar. Buna görə biz deyirik ki, Quran bizim hər şeyimiz olmuşdur. İndi də Quranın sayəsində ölkə inkişaf etməkdədir.[1]

### Quranla ünsiyyət üçün gənclərə bir tövsiyə

Tağut dövründə mənim Məşhəddə təfsir məclislərim və Quran dərslərim olurdu. Oraya gələn gənclərə deyirdim ki, sizin hər birinizin cibində bir Quran olsun. Əgər bir yerdə bir iş üçün gözləyirsinizsə və bir dəqiqə, iki dəqiqə, beş dəqiqə, yarım saat boşsunuzsa, Quranı açın və oxuyun. Bu kitabla ünsiyyət qurun. Buna əməl edənlər çox az olsalar da, hiss edirdim ki, əksəriyyəti ərəb dilini bilməsə də, İslam maarifinin dərki baxımından digərlərindən öndədirlər və onlardan çox fərqlənirlər.[2]

## Atribut və ənənələrə hörmət

### Gənclərin dini işləri

Əziz gənclər! Siz bilin ki, islamçı, inqilabçı, yaxud dini işlər gördüyünüzdə – dua məclislərində iştirak etdiyinizdə, etikaf etdiyinizdə, inqilabın qələbə gününün yürüşündə iştirak etdiyinizdə, Qüds günündə iştirak etdiyinizdə, ölkə məmurlarına, misal üçün, prezidentə və digərlərinə hörmət bildirdiyinizdə, dindarlığınızın və inqilaba sevginizin əlaməti olan hər bir hərəkətinizdə bu münafiqlər lərzəyə düşür və narahat olurlar.[3]

### Gənclərin dindarlığı

Elə bilirlər ki, gənclər dinsizdir. Gənclər bəzən atalarından da dindardırlar. Dini işlər kimi baş verən bu əzəmətli

---

[1] Misirli qiraətçilərlə görüşdəki çıxışdan; 1992
[2] Misirli qiraətçilərlə görüşdəki çıxışdan; 1992
[3] Aşuraçı gənclərin toplantısındakı çıxışdan; 2000

mitinqlər, bu əzəmətli dini məclislər, bu dualar gənclərin dindarlığının nişanəsidir.

Bu gənclərin, qız və oğlanların ürəkləri pak və işıqlıdır, Allahla tez və asanlıqla rabitə qururlar. Bunlar dinsizdirlərmi?! Xeyr, bizim gənclərimizin əksəriyyəti dindardır, xalq dinə və dini dəyərlərə sadiqdir.[1]

## *Əxlaq və mənəviyyat sahəsi*

### Nəfsi tanımaq

### Sağlam fitrətlər

Gənclərin qəlbi nurludur. Onların fitrətləri sağlam və təmizdir. Dünya bəzəklərinə və bulaşıqlarına çox az düçar olur, pul sevgisinin, sərvət sevgisinin, məqam və vəzifə sevgisinin insanı bağlayan möhkəm iplərinə çox az ilişirlər. Odur ki, gənclərdə əxlaqi dəyişiklik daha asandır. Gənclər ehtiras, həvəs və onları belə qəbahətlərə çağıran bütün işlər qarşısında müqavimət göstərməlidirlər.[2]

### İşıqlı qəlb və həqiqətin dərki

Gənc tez və asanlıqla qəbul edəndir. Çünki onun qəlbi işıqlıdır. Gənclərin qəlbində mənim kimi yaşı ötmüş şəxslərdəki qədər bulaşıqlıq yoxdur və çətin qəbul etmirlər. Onlar işıqlıdırlar, həqiqəti asanlıqla dərk edə, onu eşidə və qəbul edə bilirlər.[3]

### Gəncin dəyəri və ucalığı

Allah-Taaladan xeyir yolunda dayanmağı doğrudan da istəyin. Bu çox mühüm bir şeydir. Dayanmaq çox əhəmiyyətlidir. Xeyir yolunu davam etdirmək çox mühümdür. Bunu həqiqətən Allahdan istəyin. Allah-Taaladan kömək istəyin, Allah da kömək edəcək. Siz gəncsiniz, ürəkləriniz

---

[1] Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan; 2000
[2] Novruz bayramı münasibəti ilə müraciətdən; 1997
[3] Alimlər və din təbliğatçıları ilə görüşdəki çıxışdan; 1998

pakdır, təmizdir. Sizin birinizin qəlbi mənim kimisinin onuna dəyər. Çünki sizlər nurlusunuz. Bu gənclik çox dəyərli bir şeydir. Gəncliyin bir paklığı var, bir nurluluğu var, bir şəffaflığı var. Allaha həmd olsun ki, sizdə bu hallar var. Allah-Taaladan kömək istəyin. Allah həqiqət nurunu sizin qəlbinizə saçacaq, inşaallah xeyir görəcəksiniz.[1]

**Allahla rabitəni qorumaq**

Xüsusən gənclər! Allah-Taala ilə rabitə, münacat və diqqət halətini öz nurlu qəlblərinizlə il boyu qoruyun. Dünya və axirət nəfsin belə paklığı ilə insan üçün hasil olur.[2]

**Həssas və zərif ruh**

Gənclər cəmiyyətin ən zərif və ən həssas nöqtəsi olduqlarından cəmiyyətlərdə mövcud olan problemlər ən çox onlara təsir göstərir. Bir cəmiyyətdə mənəviyyatdan və mənəvi dəyərlərdən əsər-əlamət olmadıqda, ondan əziyyət çəkəcək adam, bu əziyyət və anormallığın görünəcəyi ilk nöqtə gənclərdir. Çünki əvvəla gənclər dərdləri tez hiss edirlər və sonra gənclərin hərəkətləri, fikirləri və mənlikləri o dərdləri əks etdirir.[3]

**Gənc - Allah lütfünün endiyi və ruh paklığının təzahür olunduğu yer**

Gənclər ölkələrin və xalqların tarixinin hər bir dövründə bir xalqın ən mühüm səadət mərkəzlərindən biri ola bilər. Səbəbi də budur ki, gənc saf, təmiz və düşüncə baxımından pakdır.

Gənc Allah lütfünün endiyi yerdir. Bir çox yerlərdə onun qəlbində Allahın xüsusi nəzəri cilvələnir. Gənclər bunun qədrini bilməlidirlər. İnsan ruhunun əldə edə biləcəyi, onunla

[1] Tehran Universiteti tələbələrinin İslam birliyinin üzvləri il görüşdəki çıxışdan; 1996
[2] Fitr bayramı namazının xütbələrindən; 2000
[3] Nümunə gənc seçimi barəsində Gənclər jurnalına müsahibədən; 1986

maddiyyat qatlarından, maddi problemlərdən, bulanıqlardan və çirkinliklərdən keçə biləcəyi və özünü pak saxlaya biləcəyi saflıq gənclərdə hamıdan çoxdur. Odur ki, bizim hədislərimizdə bəlkə də əziz Peyğəmbərin (s) dilindən belə söylənilmişdir: "Gənclərə əhəmiyyətli yanaşın!" Yəni bütün işlərdə gənclərə diqqət yetirsinlər; xüsusən də əgər gənclər elm, bilgi və düşüncə adamı olsalar. Bizim cəmiyyətimizdə tələbə və şagird təbəqəsi belədir.[1]

**İlahi sözün daha aydın dərki**

Əlbəttə, siz gənclər nurlusunuz, sizin işləriniz bizdən çox asandır. Siz Allahın sözünü daha tez və çox aydın dərk edirsiniz. Allah sizinlə danışır, sizə cavab verir və siz bu cavabları öz ürəklərinizdə hiss edirsiniz [2].

**Gəncin təbiəti - mənəviyyata meyl və hegemonluqla müxalifət**

Gəncin təbiəti mənəviyyata və səfalılığa meyllidir. Universitetin məscidlərində olan bu etikaflar gəncin təbiətindəndir. Hətta çox da ibadətçi olmayan və ürəyində mənəviyyata meyli olan gənc ömrünü günahda və müxtəlif həvəslərdə keçirən, qəlbi qaralmış və heç bir məhəbbət cazibəsi olmayan bir insandan fərqlənir.

Gənc belə deyil. Gəncin təbiəti paklıq və paklığa meyl, məhəbbət və məhəbbətə meyl, mənəviyyat və mənəviyyata meyl, aydınlıq və aydınlara meyldir. Gəncin təbiəti zorakılığa qarşı çıxmaqdır. Siz dünyanın heç bir yerində gənclər tərəfindən əcnəbilərin müdaxiləsini dəstəkləyən bir hərəkat təşkil olunduğunu tapa bilməzsiniz. Həmişə və dünyanın hər hansı bir yerində gənc hərəkatı təşkil olunmuşsa, əcnəbilərin müdaxiləsinin əleyhinə olmuşdur. Necə ola bilər ki, bir qrup

---

[1] İslam Respublikası qəzeti, 4 noyabr 1995

[2] Universitet məhəlləsi hadisəsində yaralanan tələbələrin bir qrupu ilə görüşdəki çıxışdan; 1999

gənc Amerikanın müdaxiləsinin, onun hakimliyinin, nüfuzunun və ağalığının xeyrinə bir yerə toplansın. Bu fikri yalnız təhlil bacarığı olmayan, bu nüfuzun necə və hansı yollardan idarə olunduğunu anlamayan bir gəncdə görmək olar.[1]

## Mənəvi saflaşma və təqva

### Gənclik təqvasının təzahürü - Yusifin təqvası

Bəzən öz-özümə fikirləşirəm ki, ömrünün ən gözəl zamanını yaşayan cavan özünün dünya və axirət uğuruna zəmanət verən bir amil əldə etmək istəsə, nə etməlidir? Çox əhəmiyyətli bir sualdır. Əvvəla söhbətin mövzusu dünya və axirət uğurudur: can və bədən, ürək və düşüncə. İkinci tərəfdən, bu sual cavanların xüsusi bir qrupuna aid deyil.

Mənim zehnimə gələn cavab da cavanların xüsusi bir qrupuna aid cavab deyil. Yəni belə deyil ki, bu cavabın tamamilə dindar cavanlara məxsus olduğunu fərz edək. Xeyr. Əgər ibadət və dindarlıq baxımından çox yuxarı dərəcədə olmayan bir cavanı da fərz etsək, yenə də bu cavab ona aid olur. Hətta əgər öz əqidələrində problemi olan bir cavanı da fərz etsək, yenə də bu cavab ona şamil ola bilər.

Mənim gəldiyim qənaət bu bir sözdür: təqva! Əgər cavan, cavanlıq dövründə çalışıb Quranda və dini ədəbiyyatda deyilən təqvanı əldə edə bilsə, həm dərsi üçün, həm islahedici fəaliyyətlər üçün, həm dünya izzəti, başucalığı və həm maddi nəticələr əldə etmək üçün və əgər mənəviyyat adamı olsa, həm də mənəviyyat üçün böyük bir sərmayə toplamışdır.

Təqva, hətta adətən orta səviyyəli adamların uzaq olduğu, çox ucqar və aydın üfüqlər üçün, ariflərin, böyüklərin, mənəvi eşq adamlarının işarə etdikləri irfani və mənəvi üfüqlərə çatmaq üçün də sərmayədir.

---

[1] Tehran şəhəri universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1999

Təqva nə deməkdir? Təqvanın mənası bu deyil ki, insan çoxlu ibadət etsin. Çoxlu ibadət etmək təqvanın nəticələrindən ola bilər, amma təqva bu deyil. Təqvanın mənası budur ki, insan hər bir işdə öz qərarına və əməlinə nəzarət etsin, nə etmək istədiyini, ayağını hara qoyduğunu düşünsün; mütaliə ilə, diqqətlə.

Bəzən insan məst halda, özündə olmadan, nə etdiyinə diqqət yetirmədən hərəkət edir, addım atır, qərar qəbul edir, hansısa bir işi yerinə yetirir, yaxud tərk edir. Bəzən də bütün bu işləri nə etdiyini bilərək yerinə yetirir. Bu, təqvadır.

Bizim keçmiş alimlərimizin sözlərində çox təkrar olunub ki, birindən “Təqva nədir?” – deyə soruşdular (Bəziləri bunun hədis olduğunu düşünür, bəziləri isə böyük alimlərin birinə mənsub olduğunu deyirlər). Cavab verdi ki, indiyədək tikanlı yerdə yol getmisən?

Siz bəzən asfalt üzərində yol gedirsiniz. Bu, bir növ yol getməkdir. Amma bəzən hər tərəf tikan kolları ilə dolu olan bir yerdə addımlayırsınız. Bu zaman elə addım atırsınız ki, tikan paltarınıza yapışmasın, ayağınızı yaralamasın. Təqva budur, yəni diqqətlə addım atmaq.

Buna əsasən, insan təqvalı olsa, imana çatacaq, təqvasız olsa, çatmayacaq.

Təqvasız adam odur ki, ona “gəl yaranış haqqında, varlığın məqsədi barəsində düşün”- dedikdə, cavab verir ki, get işinlə məşqul ol. Bu, təqvasızlıqdır. Təqvalı insan odur ki, varlıq aləminin məqsədi, Allah və qiyamət barəsində söhbət düşdükdə fikrə dalır, düşünür və nəhayət, doğru yolu tapır. Bu barədə düşünmək təqvadır.

İnsan mömin olanda bir zaman öz imanını ürəkdən bəyənir, amma öz hərəkətini və rəftarını onunla tənzimləmir. Bu təqvasızlıqdır. Bir zaman da tənzimləyir. Bu təqvadır.

Quranda təqva haqqında çox söhbət olunub. Siz gənclərin halına münasib olan misal həzrət Yusifdir. O, gənclik təqvasının təzahürudur. Yusifin əhvalatı Quranda bir surənin

təxminən hamısını əhatə edib və ən yaxşı əhvalat, dastan adlandırılıb. Burada "əhsən əl-Qəsəs"[1] təbiri işlədilib. Bu "qisəs" sözü ilə səhv salınmasın. "Qisəs" macəralar, əhvalatlar deməkdir. "Qəsəs" isə hər hansı bir əhvalata qoşulan, yəni əhvalatın özü yox, onun şifahi, yaxud yazılı dastanı.

Səbəb budur ki, siz həzrət Yusifin dastanında bir təqvanın kamil nümunəsini müşahidə edirsiniz. Bir ömür yaşayıb, həyatda müəyyən təcrübələr əldə etmiş insanın təqvası daha təbii görünür, nəinki gənclik məstliyində olan bir gəncin təqvası. Gəncliyin özündə məstlik var. Gənclərin hamısı bir növ məstlikdədirlər. Əlbəttə, bu məstliyin özü də bir nemətdir. Bu nemətdən yaxşı istifadə etmək olar. Belə bir məstlik halətində adı təqva olan bu sayıqlığı və diqqəti işlətmək əhəmiyyətlidir. Buna görə də Yusifin dastanı Quran dastanlarının hamısından yaxşıdır.

Yüsif peyğəmbərin məsələsi təkcə bir cinsi ləzzətdən imtina etmək deyil, bundan daha böyükdür. Siz tam kübar bir ailədə, evin xanımının xüsusi diqqət mərkəzində və evin kişisinin etimad olunduğu gözəl və ləyaqətli bir cavanı təsəvvür edin. Misir əzizinin evində hər cür insan mövcuddur: nökər, xidmətçi, işçi və sair. Şəxsiyyətli, ağıllı, gözüaçıq, nəcabətli, pak və olduqca gözəl olan bu cavan evin kişisi və qadını tərəfindən sevilir. Bu evin bütün üzvləri bu cavana hörmət edir və əmrlərinə itaət göstərirlər.

İndi bu gənc bir imtahanla qarşı-qarşıyadır. Bu imtahanın təfərrüatını, qadının vəsvəsəsini və bu cavanın imtahandan necə uğurla çıxdığını hamınız eşitmisiniz, bilirsiniz. Öz ehtirasına üstün gəlmək məsələnin kiçik bir tərəfidir. Görün Quran nə qədər zəngindir! Bu hələ məsələnin kiçik tərəfidir.

Mən Qərb mədəniyyətinin çirkinliklərini ona görə təkrarlayıram ki, müqayisə məqamında nur və zülmət, saflıq və çirkinlik qarşı-qarşıya dayanır.

---

[1] Yusuf/3

Tanınmış yazıçı Stendalın "Qırmızı və Qara" adlı məşhur hekayəsi yüz ildir bütün dillərə tərcümə edilib. Bu hekayə bir neçə il əvvəl fars dilinə də çevrilmişdir. Burada da oxşar vəziyyət var: Bir gənc evə daxil olur, əlbəttə, ev nisbətən kübardır, amma Misir əzizinin evi kimi deyil, bu cavan da Yusif kimi deyil, amma həmin hadisə baş verir. Yəni evin xanımı bu oğlana aşiq olur.

Bu qadınla gənc arasında baş verənlər cinsi murdarlığın, xəyanətin, alçaqlığın, əhdipozmanın, şəhvətpərəstliyin və nəfsi istəklərdə qərq olmanın bariz nümunəsidir. Stendal Qərb ədəbiyyatının şah əsərlərindən biridir. Bu kitabına görə onun adı Fransanın birinci dərəcəli roman yazan yazıçıları sırasında çəkilir. Bu əsər dünyanın birinci dərəcəli və ən məşhur on romanından biridir.

Baxın, belədir. O da dərsdir, romanı təkcə baş qarışdırmaq üçün yazmırlar, bunların mesajı var və bir mədəniyyətin göstəricisidir. Roman öz oxucusuna bir növ həyat dərsi verir.

Quran belə bir imtahan qarşısında Yusifi elə təsvir edir ki, insan bu əzəmətin qarşısında heyran qalır. Həssas bir şəraitdə bu qadın bu cavanı yaxalayır, amma cavan onun əlindən qaçır və dərhal müttəhim olunur. Bu zaman Misir əzizini otağın qarşısında görürlər.[1] Qadın ittiham barmağını tez bu cavana sarı uzadır və deyir bu idi. Sonra o, günahsız olduğuna görə xilas olur, onun (qadının) səhv etdiyinə dair əlamət tapılır. Bununla da əhvalat bitir.

Bəli, bu, böyük bir imtahandır. Elə bir imtahandır ki, onun hətta aşağı dərəcəsində belə minlərlə insandan biri də uğurla çıxmır. Burada Yusif paklığın və təqvanın simvoluna çevrilir, lakin bundan da üstünü sonra gəlir.

Misirdə söz-söhbət gəzir ki, əzizin xanımı öz xidmətçisinə aşiq olub. O, töhmətləri uzaqlaşdırmaq məqsədilə Misirin qadınlarını evinə dəvət edir və meyvə soymaq üçün hər birinin

---

[1] Yusuf/25

qarşısına bir bıçaq qoyur. Bunlar nağıl deyil, Qurandır, həqiqətin mətnidir. Müxtəlif məsələlərdə lazımsız məqamlardan yan keçən Quran burada məsələni təfərrüatı ilə çatdırır.

Qadın qonaqlarının hər biri üçün bir mütəkkə hazırlayır və sonra Yusifi bu qadınların gözü qarşısında məclisə daxil edir[1]. O özündən töhməti uzaqlaşdırmaq istəyir. Hansı töhməti? Bu cavana aşiq olmaq töhmətini? Yox, yersiz hərəkət töhmətini. Demək istəyir ki, mən yersiz hərəkət edən düşük qadın deyiləm. Yusif budur, kim belə bir gözəllikdən imtina etmək istəyirsə, buyursun.

Yusif məclisə daxil olur. Məclisin iştirakçıları Yusifin gözəlliyinə o qədər heyran olurlar ki, hamısı əllərini kəsirlər. "Qəttə`nə"[2] sözü ilə "qətə`nə" sözünün fərqi var. Qətə`nə - yəni kəsdilər. Qəttə`nə isə - yəni ciddi şəkildə yaraladılar. Şoka düşdüklərindən nə etdiklərini bilmirdilər. Onlar əllərini kəsib qana bulaşdırdılar.

Sonra Misir əzizinin xanımı dedi ki, o cavan budur. O and içdi ki, əgər mənim iradəmə təslim olmasa, onu həbsə salacağam. Yusif məsələnin nədən ibarət olduğunu bilir. Ona deyiblər. Deyir İlahi, həbs mənim üçün bu günahdan, bu həvəsbazlıqdan və bunların məni dəvət etdiklərindən yaxşıdır[3].

Burada artıq məsələ bir cinsi istəkdən imtina etmək məsələsi deyil, hər bir şeydən keçməkdir. Ağalıqdan, rahatlıqdan, onu sevən bir ailədə yaşamaqdan... Bu həyat onun üçün çox gözəl idi. Hər yerdə hörmət-ehtiram, təzim, parlaq gələcək, çoxlu pul, geniş imkanlar... Burada onun üçün istədiyi hər bir şey var idi. O, bütün bunlara göz yumur.

[1] Yusuf/31
[2] Yusuf/31
[3] Yusuf/33

Bu, təqvadır. Həbsə düşür, həbsi bir ay, iki ay, altı ay, bir il çəkmir, bunun ümumiyyətlə, zamanı yoxdur. O dövrün həbsi belə idi ki, həbsə düşən artıq əldən çıxmış sayılırdı. Bəzi hədislərə görə, o, 7 il, bəzilərinə görə isə 14 il həbsdə qaldıqdan sonra azad edilir və Allah-Taala ona mükafat verir.

Mənim əzizlərim! Mənim qız və oğullarım! Siz bunu da bilin, Allah-Taala sizin heç bir əziyyətinizə göz yummur. Çəkdiyiniz hər hansı bir əziyyətdə Allahı hesablamısınızsa, Allah-Taala onun artıq mükafatını sizə verəcək. Bəli, bəzən insan əziyyət çəkir, amma onda Allahı hesablamır. Allah da adama heç bir şey vermir. Bəlkə də bəzi ziyarətnamə və duaların mətnində görmüsünüz, yaxud eşitmisiniz ki, yazılıb "səbrən və ihtisabən". Bu, məsələn İmam Hüseynə (ə) müraciətlə deyilir. Yəni dözdün və hesab etdin. Yəni Allahın hesabına yazdın, Allahı hesabladın.

Etdiyin işin nəfs və günah üzündən deyil, Allaha görə olduğunu, yaxud Allahın narazı olmadığı bir məsələdən ötrü olduğunu bilsən, sənin bir an əziyyətin, ruhi və mənəvi cəhətdən sənə yüklənən bir anlıq təzyiq, bir fiziki təsir, aclıq, susuzluq, ayağa bir daş dəyməsi, qan gəlməsi, bir böhtan, bir söyüş, bir ədalətsizlik, bir haqsızlıq, qərəz üzündən yarım nömrə az balın verilməsi, kimdənsə gördüyün bir təhqir belə məhv olmayacaq, Allah yanında onun əcri var.

Allah-Taala tez hesab çəkəndir.[1]

**Pak qəlb və təmiz ruh**

Siz gənclər pak, təmiz qəlblərə və saf ruhlara maliksiniz. Sizin işiniz bizdən daha asandır. Bu yolu bizdən daha asan gedəcəksiniz.[2]

---

[1] Tehran şəhəri universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1999

[2] İslam İnqilabı Komitələrinin komandirlərinin və üzvlərinin beyət mərasimindən; 1989

**Gənclərin mənəvi hazırlığı**

Əgər xalqın gənclərinin (Bəsic xalqın gənclərindən ibarətdir) bütün meydanlardakı bu hazırlığı mənəvi, ruhi və daxili bir hazırlıq fomrasında olsa, onları bütün sahələrdə qalib edəcək ki, öz rollarını aktivləşdirsinlər... Bir xalqın əsas gücü və gülü gənclərdirlər. Onlar bu hazırlıqlara – istər hərbi hazırlıqlara, istər mədəni hazırlıqlara, istərsə də iqtisadi hazırlıqlara malik olduqda öz təsirlərini göstərə bilərlər.[1]

**Təqvanı qorumaq və vəzifəni bilmək**

Bilin ki, ramazan ayının, artması üçün əlverişli zaman olduğu təqva ehtiyatı hər bir fərdin və xalqın ən böyük sərvətidir. Bu ehtiyatı qoruyun. Xüsusən gənclər təqva halətini, Allahın razılığını düşünmək halətini, hər bir müsəlmanın Quranın və İslamın istədiyi vəzifəsini tanımaq halətini özlərində qorusunlar və ona çalışsınlar.[2]

**Düzgün dini əməllə nəfsi paklamaq**

Başqa bir xüsusiyyət də var. Əgər o sizdə olsa, həm sizin həyatınız dövründə faydalı olacaq, həm digərləri üçün faydalı olacaq, həm də axirət və ölümdən sonrakı əbədi dövr üçün faydalı olacaq. O, nəfsin paklığıdır. Özünüzü paklayın. Bizim əziz gənclərimiz dini maariflə, ilahi təlimlərlə, bəşər bilgiləri ilə və düzgün dini əməllə bu işi görə bilərlər. Bu gün ictimai məsələlər meydanı da dini məsələlər meydanıdır. İslam Respublikasında çox olan əzəmətli mərasimlərdə - cümə namazlarından tutmuş inqilabın qələbəsi gününün yürüşünə qədər bütün mərasimlərdə iştirak etmək həm də dini işdir.

Bu üsullarla və bu işlərlə öz nəfsinizi – özünüzün pak və nurlu qəlbinizi daha artıq möhkəmlədin.[3]

---

[1] İnqilabın ümidi jurnalına müsahibədən; 1987

[2] Fitr bayramı namazının xütbələrindən; 1989

[3] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

**Dini ixlasın və təqvanın gücləndirilməsi**

Siz gənc, təmiz və ixlaslısınız. Çalışın bacardığınız qədər öz iş və əməllərinizdə dini ruhiyyəni, ixlası və təqvanı gücləndirin.[1]

**Təqvalı gənc Allah yanında ən sevimli şəxs kimi**

Əlbəttə, ilahi yardımlar birinci şərtdir. Allahla səmimi rabitəni möhkəm qorumaq lazımdır. Bizim inqilabımızda mövcud və lazım olan təqva və mənəviyyat halını bərk qoruyun. Bu işdə xüsusən gənclər öncül olmalıdırlar. Çünki Allah yanında cəmiyyətin ən sevimli insanları təqvalı və mömin gənclərdirlər. Bu, Allahın bərəkətlərini cəlb edir və cəmiyyətdə İslam fəaliyyəti ruhiyyəsini canlı saxlayır. Allahla ürəkdən rabitəni və mənəvi əlaqəni qoruyun. Allah-Taala da öz lütfünü, mərhəmətini, yardımını və köməyini sizə nazil edəcək.[2]

**Tövbə və günahlardan bağış istəyi**

Gənclərə tövsiyə edirəm ki, bu ilahi rəhmət baharından istifadə edin, bağışlanmaq istəyin, Allahın qapısına gedin, bədənin, ruhun, fikrin və qəlbin günahlarından bağışlanmaq istəyin. Bu şəkildə Allahdan bağış istəyinin və Allaha qayıdışın yeri olan bir cəmiyyət nurlu cəmiyyət olacaq və o nurluluğun hesabına Allah-Taala xeyir-bərəkətlər nazil edəcək. Allahın rəhmətini qorumaq və cəlb etmək üçün Allahın qapısına getmək lazımdır.[3]

**Qəflətlə daimi mübarizə və mənəviyyat zirvəsinə ucalmaq**

İmperializmin peyk antenlərinin, filmlərinin və kitablarının vasitəsi ilə dünyaya hakim olan zəhərli şəraitə rəğmən, İslam Respublikasında bir gənc özünü mənəviyyatın zirvəsinə çatdırmaq gücündədir.

[1] Hərbi tələbələrlə görüşdəki çıxışdan; 1989
[2] Cümə imamları ilə görüşdəki çıxışdan; 1989
[3] Tehranın cümə namazı xütbələrindən; 1998

Müharibəni bütün vücudunuzla dərk edən siz gənclər həmişə qəflətlə mübarizə aparmalısınız. Çünki siz gənclərin sağlamlığı cəmiyyətin sağlamlığının rəhnidir.[1]

**Nəfsdən ehtiyatlı olmaq**

Quran bizə deyir ki, süst və zəif olmayın, qəmlənməyin, siz digərlərindən üstünsünüz. Bunun ardınca buyurur ki, əgər mömin olsanız.

Dediyim bu sözlərin hamısı o zamana aiddir ki, bizim Allahla rabitəmiz yaxşı olsun. Bu, siz əziz gənclərin təqvalı olduğu zamana aiddir, siz qadın və kişinin dini qorumağa, günahın şirinlikləri qarşısında təslim olmamağa, şeytan vəsvəsəsi qarşısında müqavimət göstərməyə çalışdığınız zamana aiddir; və siz bacararsınız. Biz sınamışıq ki, siz bacarırsınız. Şeytanın ən böyük vəsvəsələri canı qorumaq vəsvəsəsidir. Siz düşmənin ardıcıl atəşləri altında, düşmənin döyüş cəbhəsində bizim başımıza yağdırdığı atəşlər altında nə qədər irəlilədiniz, qorxmadınız. Dostunuzun pak və mübarək cəsədinin sizin yanınıza düşüb şəhid olduğunu gördünüz, amma eyni zamanda irəliyə getdiniz. Orada şeytanın vəsvəsəsi çox güclü olur, şeytan qorxudur. Şeytan sizi qorxuda bilmədi. Şeytan sizi ələ ala bilmədi. Günah qarşısında da ələ ala bilməyəcək.[2]

**Ehtirasların üzərinə ayaq qoymaq**

Bu gün dünyanın harasında nəfsi ehtiraslarının və maddiçiliyin üzərinə ayaq qoyub mənəviyyata sarı gedən gənclər tapılır? Düzdür, bəzən haradasa bir gənc, iki gənc, yaxud bir müstəsna adam var. Bu, dünyanın hər yerində tapılır. Lakin dünyanın harasında bir nəslin böyük bir hissəsi belədir? Heç bir yerdə, yalnız burada.[3]

---

[1] Döyüşçülərin toplantısındakı çıxışdan; 1988
[2] Çahar-Mahal və Bəxtiyari vilayətinin əhalisi ilə görüşdəki çıxışdan; 1992
[3] İslam Respublikası qəzeti, 15 dekabr 1997

**Təqva - yəni daim ehtiyatlı olmaq**

Bilin ki, bu gün ölüm oxuduğunuz düşmənlərin silahlarından biri sizin qarşısınızda günah toxumu səpməkdir. Bizim gənclərimizi cəlb etmək üçün günahın və fəsadın cazibəli toxumunu səpirlər.

Güclü nəfs dayanmalı, cazibələrə təslim olmamalıdır. Ehtiyatlı olun. Bizim Bəsic üzvü olan gəncimiz mömindir, pakdır. Lakin onların arasında güclü ruhiyyəsi olmayan, düşmənin və şeytanın hiylələrinə təslim olan şəxslər tapıla bilər. Burada təqva işə yarayır. Təqva odur ki, həmişə özümüzdən muğayat olaq və səhv etməyək.[1]

**Ruhi və qəlbi paklıq**

Əziz gənclər! Ruhi və qəlbi paklığı unutmayın. Xalqların, məmurların, böyüklərin və kiçiklərin bütün bədbəxtliklərinin təməli xudpəsəndlik, eqoistlik, özünü əsas etmək, tanrı etmək və öz daxilində fironluq yaratmaqdır. Bəzən insanın öz cismində, yəni zahirində heç bir fironluq əlaməti olmur, lakin qəlbində firondur. Xudpəsəndliklər, eqositliklər, özünü əsas bilmək, öz istəklərini, meyllərini, ehtiraslarını, marağını və mənafeyini əsas bilmək həyatın əksər fəsadlarının səbəbkarıdır. Odur ki, nəfsi paklamağa sarı hərəkət edin. Bu əsas hərəkətlər - istər ölkə quruculuğu istiqamətində olan hərəkətlər, istər müxtəlif mühitlərin quruculuğunda və qəlbin daxili quruculuğunda olan hərəkətlər bu gün bizim hamımızın öhdəsinə düşən vacib əməllərdir.[2]

**İnkişaf və özünüislah**

**Günahların təsirini silən namaz**

Baxın, mənim əzizlərim! İnsan müxtəlif səhvlər qarşısındadır. Böyük və kiçik, qoca və cavan olmasından asılı olmayaraq hər bir insan səhvlərə yol verir, bəzi günahlar edir.

---

[1] Çahar-Mahal və Bəxtiyari vilayətinin əhalisi ilə görüşdəki çıxışdan; 1992

[2] Əlli min Bəsic üzvü ilə görüşdəki çıxışdan; 1999

İnsan həyat yolunda müvəffəqiyyət qazanmaq istəsə, namaz ona böyük kömək göstərə bilər.

Quranın şərafətli ayəsində oxuyuruq ki, namazı günün hər iki tərəfində və gecənin bəzi hissəsində qılın. Çünki yaxşılıqlar pislikləri aradan qaldıra bilər. Namaz nurdur, zülmətləri aradan qaldırır, pislikləri məhv edir, günahların təsirini ürəkdən təmizləyir. İnsanın bəzi çirkli işlərə bulaşması və əl-ayağının səhvə yol verməsi mümkündür. Əgər namazda möhkəm olsanız, bu nurluluq sizdə qalacaq və günah sizin ruhunuza hopmağa imkan tapmayacaq.

Mən xahiş edirəm ki, namaz məsələsinə ciddi yanaşın. Əlbəttə, sizin hamınız namaz qılansınız, lakin çalışın namazı özünüz üçün yoruculuq və əzginlik halətindən çıxarın. Çünki namazı beləcə adət halına düşmüş və necə deyərlər, tutuquşuluq peşəsinə çevrilmiş bir iş halətindən çıxara bilməsək, yorucu bir şey olacaq. Yəni insan ayağa qalxıb dəstəmaz alacaq və nə olduğunu bilmədiyi bir işi görməyə başlayacaq. Əgər bu sözlərin mənalarını anlasaz, o zaman görəcəksiniz ki, namaz yorucu iş yox, ruh yüksəldən bir amildir. Bu zaman insan namaza tələsəcək və "həyyə ələs-səlah", yəni "namaza tələsin!" sözü gerçəkləşəcək.

Əlbəttə, mən demirəm ki, bütün namaz boyu onun mənalarını anlayın. Bu çox xüsusi insanların işidir. Bizlər də bəlkə o şəkildə anlaya bilməyək. Amma ən azı namazın bir hissəsini diqqətlə qılın, yəni kiminlə danışdığınızı bilin, dediyiniz sözlərin mənasını bilin. Mən hədisdə oxudum ki, namaz vaxtı yaxınlaşanda Peyğəmbər (s) Bilala deyirdi: "Bizi rahatlandır, ey Bilal!" Yəni bizə aramlıq bəxş et. Yəni azan çək; azan çək ki, namaz qılınsın. Hər halda, xahiş edirəm namaza bu diqqətiniz olsun. [1]

## Mütləq gözəlliyə eşqi gücləndirmək

---

[1] Böyük Rəhbərin cavanlarla sual-cavab toplantısındakı çıxışından; 1999

Mənim əzizlərim! Özünüzü hazırlığın olduğu bu gənlik dövründə mənəvi baxımdan islah edin. Sizin daxilinizdə olan bu eşqi və şövqü düzgün şəkildə, bu eşqin və vurğunluğun layiq olduğu mərkəzə və qütbə, yəni Haqqın və Allah-Taalanın mütləq gözəllik və mütləq həqiqət olan müqəddəs zatına yönəldin. Özünüzü o mərkəzə bağlayın və bacardığınız qədər Allahla rabitənizi gücləndirin. Həyatın bütün sahələrində bu sizin üçün əsas məsələdir.[1]

**Gənclikdə nəfsi paklamaq**

Elə bilirlər ki, insan qalıb qocalanda idadətlə və nəfsi paklamaqla məşğul olmalıdır. Halbuki o zaman nəfsi paklamaq çətin və bəzən qeyri-mümkün olur. Qocalıq dövründə nəfsi paklamaq çətindir, lakin sizin vaxtınızda – gənclik dövründə çox asandır.[2]

**Düşüncə və mənəviyyat cəhətindən özünüislah**

Bu ölkə İslam adı ilə və İslam bayrağı altında hər cəhətdən düzəldilməlidir; yəni insani quruculuq, maddi həyat quruculuğu, ölkə potensiallarının və mövcud qaynaqların dirçəldilməsi... İslam quruluşu din bayrağı ucaltmışdır. Bizim əziz gənclərimiz bu imkandan istifadə edib, dini etiqadları, imanı və dini öhdəliyi bacardıqları qədər gücləndirsinlər. Bu gələcəkdə onların hər birinin ayrı-ayrılıqda öz ölkələri və regionlarının inkişafında təsirli bir qüvvəyə çevrilməsinə kömək edəcək.[3]

**Allah-Taala ilə möhkəm rabitə**

Mənim əzizlərim! Hər bir nuraniliyin əsas səbəbi budur ki, Allah-Taala ilə öz rabitənizi möhkəm edin. Öz fərdi rabitələrinizi möhkəmləndirin ki, ictimai mühitdə İslamın sizdən istədiyi işi yaxşı yerinə yetirə biləsiniz. Harada

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1997
[2] Gənclərlə görüşdəki çıxışdan; 1998
[3] Bircənd əhalisinin toplantısındakı çıxışdan; 1999

olursunuzsa, olun, Allah-Taalaya diqqət yetirməklə, diqqətli namazla, Quran tilavətilə, Quran üzərində diqqətli təfəkkürlə və imamlarla münacatlarla öz mənəvi və şəxsi rabitənizi gücləndirin. Sizlər gəncsiniz, qəlbləriniz nurludur, əməlləriniz pakdır. Sizin vücudunuzda olan gənclik adlı bu parlaq ulduzun qədrini bilin, ondan maksimum yararlanın. Mən də sizi dua edəcəyəm. Siz də məni dua edin [1].

## Elmi və əxlaqi özünüislah - yolun ehtiyatı

Mənim əzizlərim! Mömin gənclər! Qəlbləri İslam üçün, İslam dəyərləri və İslam rəhbərləri üçün, bu ölkənin başucalığı və bu xalqın iqtidarı üçün döyünənlər! Özləri üçün müstəqillik, paklıq və saflıq yolunu seçən gənclər! Bacardığınız qədər özünüzü islah edin. Bacardığınız qədər özünüzü hazırlayın. Bilin ki, bu prosesin və bu yolun davam etməsi üçün dəyərli, möhkəm, imanlı və güclü şəxsiyyətlərə ehtiyac var [2].

## Özünüislah və daxili moizə

Birinci dərəcədə tələbə və şagird olan gənc özünü islah etməlidir. Özünüzü dini tərbiyə ilə düzəldin. Tərbiyəvi işlər yaxşıdır, tərbiyəvi müəllim yaxşıdır, tərbiyəvi natiq yaxşıdır, lakin öz daxilində nəsihət edəni[3] və tərbiyəçisi olmayan şəxs üçün bu tərbiyələr yararsızdır. Özünüzü düzəldin, nəfsinizlə mübarizə aparın. Öz şəxsi çərçivənizdə Allahın hökmünün icrasına əhəmiyyətli yanaşın. Namaza, Allaha diqqət göstərməyə, dua və təvəkkülə əhəmiyyətli yanaşın. Bu sizi polad kimi möhkəm edəcək.[4]

## Ruhani - gənclərin mənəvi təbibi

---

[1] Məşhəddə ölkə tələbələrindən bir qrupu ilə görüşdəki çıxışdan; 1998

[2] İmam Hüseyn (ə) Universitetində xüsusi hərbi tədbirdə çıxışdan; 1998

[3] Bax: "Vəsail əş-şiə", c. 12, səh. 25

[4] 4 Noyabr – Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

Gənc adam hiss və duyğular aləmidir. Onun beyni kimi ruhu da bir çox məsələlərdən təsirlənir. Özünü böyük bir ruhda, geniş bir ürəkdə, mehriban və xeyirxah bir nəfəsdə qorumaq üçün gəncin bir yerə ehtiyacı var. Bu geniş ürək, yüksək düşüncə və xeyirxah ruh - dərdləri və problemləri eşidən, lazımi tövsiyələri edən, mənəvi və ruhi cəhətdən təbiblik edən, dərdinə şərik olan bu ruhanidir [1].

## Davranış qaydaları

### Kobudluqdan çəkinmək

Xüsusən gənclərlə münasibətdə lazım olan, onlara deyilməsi və onların yönəldilməsi lazım olan məsələlərdən biri gəncləri düşünməyə, fikirləşməyə, İslam əxlaqına, səbirliliyə, işlərdə tələsməməyə, sərtlikdən və kobudluqdan uzaq durmağa sövq etməkdir.[2]

### Allahla danışıq üsulu

Tərcüməsini bildiyiniz bu namaz zikrlərinin mənalarını fərz edin. Əgər insan əvvəldən mənaya fikir verməklə, diqqəti daxildə, xaricdə, zehində və bayırda bir yerə yönəlmədən (necə ki, mən indi sizinlə danışıram, yəni sizinlə söhbət etdiyim müddətdə siz bir an da mənim zehnimdən çıxmırsınız, həmişə sizə müraciətlə danışıram) doğrudan da Allahla danışsa, yetər. Bu çox böyük bir şey deyil. Bizdən bundan artığını istəməyiblər.

Siz dostlarınızla, yaxud danışdığınız adi bir adamla danışanda həmişə diqqətiniz ondadır, sözlərinin mənasını anlayırsınız, ona nə dediyinizi bilirsiniz, sizin iradəniz onun üçün aydındır. Namazda Allahla danışdıqda da belə danışın. Əgər siz bir namaza belə başlasanız, bu halətin davam etdiyi ortalarda birdən hiss edəcəksiniz ki, qəlbiniz haradansa bir şey

---

[1] Fəqih rəhbərin universitetlərdəki nümayəndələrilə görüşdəki çıxışdan; 1996

[2] Alimlər və din təbliğatçıları ilə görüşdəki çıxışdan; 1998

alır. Hansısa bir yerdən bir hissi dərk edir, sizinlə danışılır, sizin qəlbiniz diqqət göstərəcək və məhz almalı olduğunuz cavabı alacaqsınız. Düzdür, bunun əvvəllərdə bir qədər analşılmaz qalması mümkündür [1].

## Fürsətdən istifadə

## Gənclik neməti və gəncliyin düşmənləri

Allah-Taaladan istəyirəm ki, sizin nurlu qəlblərinizi və pak canlarınızı özünün mənəvi lütfü, feyzi və hidayətilə daha nurlu etsin. Allah-Taala gözəllik baxımından zahiri insani məsələlər arasında bəlkə də gənclik kimi heç bir şey yaratmayıb.

İnsan həyatının maddi xüsusiyyətlərində həyat nemətindən sonra gənclik xüsusiyyəti çox mühüm xüsusiyyətdir. Buna görə də siz görürsünüz bizim hədislərimizdə təkrar-təkrar göstərilir ki, Allah-Taala qiyamət günü heç bir insanın bir addım belə atmasına izn verməyəcək. Ondan dörd məsələ barəsində soruşacaq. Onların biri gənclikdir: "Gəncliyi necə və harada sərf etdin?"

Gənclik adlı əzəmətli enerji və güc mənbəyi ömrün bir hissəsində bütün insanlara verilir. İstisnasız olaraq, hamı həyatın bu qızıl dövründən keçir. Allah-Taala bu dövrü səadətli həyat üçün ehtiyat toplamaqdan və möhkəm təməl qurmaqdan ötrü ayırıb. Bu dövrü adladıqdan sonra insanda böyük işlərə iradə azalır. Onun taqəti də azalır və insan fundamental işlər görə bilmir. Onun üçün şəxsiyyətini düzəltmək və özünü islah etmək çətinləşir.

Əlbəttə, Allah-Taala bəşərə verdiyi bu əzəmətli qüdrətlə onun üçün heç bir şeyi qeyri-mümkün etməyib. Hər halda, hər bir kəs ömrünün sonuna qədər müxtəlif böyük işlər görə bilər. Amma gənclik dövründən sonra işin çətinləşməsi bu dövrdə isə onun rahat və asan olması mühüm bir həqiqətdir.

---

[1] Universitet məhəlləsi hadisəsində yaralanan tələbələrin bir qrupu ilə görüşdəki çıxışdan; 1999

Dünya xalqlarından çoxu tarix boyu bu dövrdə zərərə düçar olurlar. Yəni tükənməz sərmayə olan gəncliyi xərcləyirlər, lakin onunla özlərinin gələcək həyatlarına mühüm işlər görmürlər. Bəziləri qəflət üzündən, bəziləri şəhvət üzündən, bəziləri bir sıra faydalı işlər üzündən, lakin özlərinin mənəvi və ruhi maraqlarına riayət etmədən onu xərcləyirlər.

İnqilabın, imam tərəfindən ən böyük fəth adlandırılan məharəti bu idi ki, maddiyyata bulaşmış dünyada, əxlaqi baxımdan bataqlıq dünyasında elə gənclər tərbiyə edə bildi ki, pak və möhkəm qərarlı insanlar oldular. Ağıllı və sayıq şəkildə bəşəriyyət böyüklərinin yolunu və bəşərin səadət yolunu seçdilər.

Hələ tezdir. Hələ o qədər zaman ötməyib ki, insan bu ölkənin gənclərinin nurlu simalarını bütün parlaqlığı ilə görsün. Amma uzaqdan görürlər. Uzaqdan və coğrafi fasilələrlə bizim gənclərimizin parıltısı İslam dünyasında ürəkləri tərpədib. Adı İslam olan, amma İslam təmayülündən və izzətindən heç bir əsər görünməyən ölkələrin qız və oğlanları İranı, iranlını, İranın imamını və iranlı gəncləri görmədən, bu gənclərin göndərdiyi nur dalğaları ilə çevrilmişlər.

Mənim özüm pozğun qərb mədəniyyətinin dəhşətli şəkildə təsiri altına düşmüş bir ərəb ölkəsindı gördüm. 80-ci illərin ortalarında oraya etdiyim səfərdə küçələrdə gördüm ki, qızların və oğlanların geyim tərzi bizim hizbullahçı gənclərimizin geyim tərzi kimidir. Halbuki onlar İrana gəlməmişdilər. Onlar televiziyalardan və bəzi xəbərlərdən iranlı gənci uzaqdan görmüş və onun əzəmətinin təsiri altına düşmüşlər.

İranlı gənc inqilab sayəsində onun həqiqi gözəllikləri saylanları özü üçün qorudu və onu daha da artırdı; məsələn, sayıqlığı, zirəngliyi, fəaliyyəti, cəldliyi, qorxmazlığı və s. Bunlar iranlı gəncindir. O, bir əsr və ondan artıq müddətdə fikir vasitələrilə müxtəlif iqtisadi, siyasi və müstəmləkə

vasitələrilə sırınan şeyləri buraxıb özündən uzaqlaşdıra bildi. Yanlış modalar və adətlər, öldürücü vərdişlər və olduqca zərərli adətlərdən ibarət olan bu vasitələr o gözəllikləri kölgə altında saxlamaqdan ötrü idi .

Bir gün İslam dünyasında bir gənc namazı qəza olmağa az qalanda qalxıb namaz qılmağa utanırdı. İranlı gənc elə bir iş gördü ki, dünyanın ən izdihamlı aeroportlarında, fəsad, pozğunçuluq və dinə etinasızlıq mərkəzlərində hər hansı bir məqsədlə orada olan 5-3hizbullahçı gənc ilk vaxtda azan deyirlər. Demirlər ki, son vaxtda Tehrana çatıb namazımızı qılarıq. Orada, aeroportda, ilk vaxtda namaza qalxır və hər tərəfdən ürəklərin təzimini və həqiqi hörməti özlərinə cəlb edirlər. Mən bunların bəzisini öz gözümlə gördüm. Bəzilərini də elə məlumatlardan danışıram ki, elə bil gözümlə görmüşəm. Müsəlman gənc şəxsiyyət qazandı.

82-83-cü illərə qədər tələbə, fəhlə və tacir gənclərin çoxu müqəddəs müdafiə meydanlarına gedir və şəhadətə qovuşurdular. Onların nurani simaları bu şəkillərdə görünür. Mən bir dəfə mədəni inqilab və universitetlərin məsələləri barəsində söhbət düşərkən Mədəni İnqilab Komitəsinin ozamankı üzvü olan dostlara dedim ki, hizbullah şəhidlərinin nurlu evlərinin içinə gedin. Deyin şəkil albomlarını gətirib sizə göstərsinlər; onların 4 il, 5 il bundan qabaqkı şəkillərini. Mən özüm bəziləri haqqında bu işi etmişəm; qəribə çöhrələr, müxtəlif saç düzümləri...

Dedim ki, bu gün din, təqva və mənəviyyat nümunəsi olan gənc o albomda şəkli görünəndir. 5-4il qabaq saç düzümü, baxışı və modası pozğun qərb mədəniyyətinə mütləq təqlid edən gənc kimidir; mənasız bir mövcud kimidir. İnsanın bir gəncdə görmək istədiyi insani parıltılardan heç bir əlamət yoxdur.

Dedim ki, bu inqilab zəhmətlə əldə edilən, lakin hər halda əldə edilən və bəzi filizlərə, məsələn misə vurulduqda onu

qızıla çevirən bir iksir kimidir. Misləri qızıl edir, filizləri dəyişdirir. İnqilab gənci belə idi.

Peyğəmbərimizin (s) ilkin İslam dövründə etdiyi iş baş verdi. Müsəb ibn Ümeyr Ühüd döyüşündə şəhid olanda Peyğəmbər (s) onun başı üzərinə gəldi və ağladı. Hədisdə və tarixdə belə göstərilir. O, səhabələrinə dedi ki, bu gənc müsəlman olmazdan əvvəl Məkkədə ən yaxşı, ən gözəl və ən fəxrli paltarları geyinirdi. Ən gözəl tipdə Məkkədə gəzirdi. Məkkənin bütün kişi və qadınları bu gəncə baxırdılar. Cahiliyyət dəyərlərinə uyğun və həmin dəyərlərdə qərq olan, o zaman bütün fikri-zikri gözəl paltar geyinmək və cəlbedici simaya malik olmaqdan ibarət olan bir gənc idi.

İslam bu gənci dəyişdirib bir qəhrəmana və mənalı insana çevirdi. Peyğəmbər (s) Məkkədən Mədinəyə təşrif buyurmazdan öncə, yəsriblilərin (mədinəlilərin) Quranı öyrənmələri üçün bu gənci göndərdi. Onun ətrafında qoca da vardı, amma bu gənci göndərdi. O, yəsriblilərin Quran müəllimi oldu və Ühüd döyüşündə şəhid edildi. Səhranın isti torpağı üzərinə düşmüşdü. Peyğəmbər (s) dayandı, onun pak cəsədinə baxdı və ağlamağa başladı.

Bu inqilabdır. Dəyərlərin inqilabı budur. Yəni bir gənc üçün mühüm olanları dəyişdirir. Bir gənc üçün mühüm o idi ki, filan ətri vursun, filan növ ayaqqabı geyinsin, saçını filan tərzdə bəzəsin və bir saat, iki saat filan xiyabanda yol yerisin. Nə ölkənin abadlığı və tərəqqisi fikrində idi, nə yoxsulların qarnını doyurmaq fikrində, nə ölkənin vəziyyətini bir qədər yaxşılaşdırmaq fikrində, nə də öz qəlbini islah etmək və nə bir qədər nurlaşdırmaq fikrində idi. O, maddi məsələlərdə qərq olmuşdu. Bunun zirvə nöqtəsi, məsələn bir şəhvətpərəstlik, cinsi işlərdə, yaxud yemək məsələsində şəhvətpərəstlik idi.

Mənim əzizlərim! Gənclik belə keçirdi. İnqilab onu dəyişdirdi. Sanki dəyərli bi gövhər bir qrup nadan uşağın əlinə düşür, küçə və xiyabanlarda onunla oynayırlar. Sonra birisi gəlib ona qiymət qoyur və münasib yerində sərf edir. Bu

gənclik keçmiş rejimin və mədəniyyətin əlində dəyərli gövhər kimi idi. O zamanın siyasətçilərinin marağında deyildi ki, gənclər düşünsünlər, bir şey anlasınlar və həqiqət yolunda, Allah yolunda və özlərini islah yolunda hərəkət etsinlər. Bu onlar üçün başağrısı idi. Buna görə də qərb mədəniyyətini kor-koranə şəkildə yamsılayaraq gənclərin fəsada üz tutmalarına yaxşı yanaşırdılar.

İnqilab gəlib o gövhəri gənclərə tanıtdırdı. Məcburi müdafiə dövrü də gənclərin vücudunda bu parlaq gövhərin cilvələnməsinə meydan açdı. Allaha həmd olsun ki, bu, müharibədən sonra da davam etmişdir. Mən sizi əmin edirəm ki, düşmən bu məqamı hədəf seçib. Əgər gəncləri nurlandırmaq və onları gəncliyi uca dəyərlər yolunda sərf etməyin əhəmiyyətinə yönəltmək inqilabın ən böyük fəthidirsə, imperializmin də ən böyük fəthi və onun əks hücumu budur ki, həmin məqamı gənclərdən alsın. Gəncləri yenə də fəsada, aludəçiliyə, yanlış düşüncəyə, arxasında heç bir həqiqət dayanmayan puç və əbəs fəlsəfəbazlığa qurşatsın. Onlar gəncləri yalnız danışmaq, mübahisə etmək, vaxt keçirmək, heç bir fayda əldə etmədən vaxt ötürmək, onları həqiqətdən, həyat yolundan, inqilabın amallarından, bu xalqın və inqilabın gənclərdən gözlədiklərindən qafil etməyə çalışırlar. İmperializm bunu bacarmayacaq. Amma əgər bacarsa, heç şübhəsiz, Allahın lütfü ilə bizim ölkəmizdə çox olan pak qəlblərin, qərarlı fikirlərin və güclü iradələrin düşmənə qalib gəlməsinə imkan verməyəcəklər. Bəzilərini əxlaqi aludəliklərə, bəzilərini zehni şübhələrə düçar edəcək, bəzilərini depressiya və ümidsizliyə uğradacaq. Hər kəsi bir növlə məşğul edəcək. Onlar inqilabın meydana gətirdiyi bu fəal gənc nəsli meydandan xaric etmək istəyirlər [1].

## Daxili dəyişikliyə çalışmaq

[1] Bəsic üzvü olan tələbələrlə görüşdəki çıxışdan; 1998

Mən Allahın lütfü ilə pak qəlbləri, hazırlıqlı və təmiz ruhları, daha çox hazırlıqları və daha az çirkləri olan əziz gənclərdən istəyirəm ki, zikrlə, dua ilə, xüsusən ixlasla öz daxili dəyişikliklərinə çalışsınlar. Bu yeni nəsil İslamın və İslam hökumətinin sayəsində öz daxilini İslama uyğunlaşdırmaq imkanına malik olan nəsildir. Keçmişdə bu imkan yox idi.[1]

**Müstəsna və tarixi bir imkan**

Siz gənclər bunu bilin ki, bizim ölkəmizin tarixində, ən azı son yeddi-on əsrdə heç zaman istedadlı və elmli cavanlar üçün bugünkü qədər imkan və şərait yaranmayıb.[2]

**Zamanın ehtiyacını təyin etmək və onun üçün çalışmaq**

Hər bir insan çalışıb anın ehtiyacını dərk və onu təmin etməlidir. Əgər tarixin bu anının ehtiyacını dərk və onu təmin etməsəniz, sabah bunu anlasanız, iş-işdən keçəcək və gec olacaqdır; öz hərəkətində olan, texnikləri, fəhlələri, mühəndisləri və mütəxəssisləri öz yerində olan bir istehsal xətti kimi. Bu alətlər sizin qarşınıza çıxdıqda əgər yerinə yetirməli olduğunuz işi görməsəniz, daha gec olacaq. Sonrakı vasitələr başqa bir şeydir. Tarix, zaman və cəmiyyətin ehtiyacları belədir. Bu, gəncin, xüsusən də tələbənin bacardığı, dərk və əməl edə bildiyi bir məsələdir. Çünki onun enerjisi var, fəaldır, gözü açıqdır, zehni açıqdır, gələcək də ona məxsusdur; həm də o özü üçün işləməkdədir[3].

**Gənclik dövründən istifadə**

Qısa, yaxud uzun bir dövr olan bu həyat nəhayət qısadır. Həyat bir saatdır. İnsan gənclik dövründə bunu hiss etmir, lakin həyatı tanıdıqda və yaş bir qədər yuxarıya getdikdə

---

[1] Qum əhalisi, alim və tələbələri ilə görüşdəki çıxışdan; 1992
[2] Hövzə və universitet tələbələri ilə görüşdəki çıxışdan; 1990
[3] Şərif Sənaye Universitetindəki görüşdəki çıxışdan; 1999

anlayır ki, insan bir saatdan artıq yaşamır və ötəridir. Bu bir saatdan maksimum istifadə etmək lazımdır.[1]

**Gənclikdən Allah yolunda istifadə etmək**

Dünyanı, ləzzətləri və gündəlik həyatı əsas bilənlər səhvdədirlər. Əlbəttə, bir gün öz səhvlərini anlayacaqlar. Lakin o zaman iş işdən keçmiş olacaq və bir iş görmək mümkün olmayacaq. Əgər bu yolda yaxşı hərəkət etmək, şövqlə hərəkət etmək, aşiqcəsinə hərəkət etmək istəsəniz, gəncliyinizdən istifadə etməli və özünüzü Allah-Taalaya yaxınlaşdırmalısınız.[2]

**Gənclik fürsətinin qədrini bilmək**

Bütün gəncləri bənzərsiz gənclik fürsətinin qədrini bilməyə, iffəti qorumağa və insan ömrünün bu bənzərsiz və parlaq çağında iş və fəaliyyətə çağırıram.[3]

**Özünü islah etmək üçün gəncliyin əlverişli fürsət olması**

Düşüncə, fiziki və ruhi özünüislah üçün gəncliyi əlverişli fürsət bilin, öz ölkənizi tanıyın, İranın və iranlının İslam inqilabının sayəsində dünyada, regionda və böyük İslam ümməti arasında əldə etdiyi uca məqamın qədrini bilin, özünüzü elmlə, inancla və zahidliklə təchiz edin. İnqilabın qələbəsi və müqəddəs müdafiə dövrünün gəncləri kimi özünüzü digər ölkələrin gəncləri üçün nümunə edin.[4]

**Gənclik - həyat üçün proqram hazırlamaq fürsəti**

İndi mənim müraciətim siz əziz gənclərədir. Sizin qarşınızda həyatın dəyərli ehtiyatı var. Gənc həyatın başlanğıcındadır.

---

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1997

[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1997

[3] Tehranın cümə namazı xütbələrindən; 1989

[4] Məmurlara, alimlərə, ziyalılara, siyasi qruplara və xalqa müraciətdən; 1999

Fərz edin əkinçi yenicə məhsulu yığıb; anbarı məhsulla doludur. Bu bol və sağlam məhsulla nə edəcək?

İki növ əməl edə bilər: Biri budur ki, ağıllı, sayıq və gələcəyi düşünən əkinçi bu məhsulu sağlam saxlamağa, səhlənkarlığa yol verməməyə, onları çürüməyə qoymamağa çalışır. Lazım olan qədərini özünün ehtiyacı üçün saxlayır. Lazım olan qədərini işlədir. Əkin üçün yararlı olanı seçir ki, növbəti illərdə əkinə istifadə etsin. Başqa bir nəfər də bu dolu anbarın qədrini bilməyə bilər. Elə düşünər ki, həmişə dolu qalacaq; nə onu qoruyub saxlamaq üçün, nə proqramlı şəkildə işlətmək üçün, nə də ehtiyacı olan günlər üçün bir iş görər. Bu ağılsızlıqdır.

...Siz gənclik dövründəsiniz. Bu anbar hələ doludur. Bu anbarın bir hissəsindən əkin üçün istifadə olunmalıdır. O hissə sizin bu gənclik illərinizə aiddir. Bu, gələcəyin toxumudur. Həyatınız üçün düzgün proqramınız olsun.[1]

**Gənclik - ucalıq üçün imkan**

Sizin ən böyük vəzifələrinizdən biri əxlaqi paklanmadır. Öz əxlaqınızı kamilləşdirin. Siz gənclərin bu imkanı var. Dövr sizin dövrünüzdür. Siz yaxşı dövrdə yaşayırsınız, Quran hökumətinin və İslam mədəniyyətinin sayəsində yaşayırsınız. Odur ki, ruhi və mənəvi baxımdan ucalmaq imkanınız var. Bu imkandan yaxşı istifadə edin.[2]

**Gəncliyin qədri**

Bu gəncliyin qədrini bilin. Saflıq, nurluluq, iman, Allaha sarı ucalmaq, ilahi olmaq - bunların hamısı bu gənclik dövründə asan əldə edilir. Dünyəvi nailiyyətlər də belədir; gənclik dövründə qocalıq dövründən daha asan əldə olunur. Mənəvi məqamlar da belədir. Bu gəncliyin qədrini bilin,

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[2] Şəhid ailələri, əlillər, xalqın müxtəlif təbəqələri və İncəsənət Universitetinin tələbə və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1991

hərəkət etdiyiniz düzgün yolda onu ixlaslı və sədaqətli şəkildə işlədin.[1]

**Təhsil, mənəvi paklıq və idman**

Əgər qısa bir cümlədə məndən "siz gəncdən nə istəyirsiniz?" – deyə soruşsalar, cavab verərəm ki, təhsil, mənəvi paklıq və idman. Düşünürəm ki, gənclər bu üç xüsusiyyətə malik olmalıdırlar. Təhsil tədqiqata və elmi işlərə də şamil olur. Gənclərdə bu qüvvə olduğundan elmi işdə çox çalışmalıdırlar.

Gənclikdə nə istəsəniz, etmək olar. Yəni hər üç sahədə - həm elm sahəsində, həm mənəvi paklıq sahəsində, həm də idman sahəsində gənclik dövründə işləyin. Hamı bilir ki, qocalıqda idmanın gənclik dövründəki qədər təsiri olmur. Lakin mənəvi paklıq barəsində əksərən bunu bilmirlər. Elə bilirlər ki, insan qalıb qocaldıqda ibadət etməli və mənəvi paklığa nail olmalıdır. Halbuki o zaman nəfsi paklamaq çətin, bəzən də qeyri-mümkün olur. Qocalıqda nəfsi paklamaq çətindir. Lakin sizin vaxtınızda - gənclikdə nəfsi paklamaq çox asandır. Hər halda, gənclər bu üç işə ciddi yanaşsınlar.[2]

**Gənclərə vəzifə tapşırmaq**

İnqilabın əvvəllərindən mənim səlahiyyətimdə olan işlərdə gənclərə məsuliyyət verirdim; həm silahlı qüvvələrdə, həm dövlət işlərində, həm prezidentlik dövründə. Mənim təcrübəm budur ki, əgər biz gəncə etimad göstərsək - sözsüz ki, ləyaqətli bildiyimiz və səlahiyyəti olan gəncə, hər bir gəncə və hər bir məsuliyyəti yox - işi gənc olmayandan daha yaxşı və daha məsuliyyətli yerinə yetirəcək; həm sürətlə yerinə yetirəcək, həm işi daha yeni və daha artıq yaradıcılıqla bizə təhvil verəcək. Yəni işdə inkişaf prosesi qorunacaq. Qeyri-gənc isə

---

[1] Keşikçilər Korpusunun komandirləri və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1997

[2] Şagirdlərlə, tələbələrlə, sənət adamları ilə, idman çempionları və olimpiada qalibləri ilə görüşdəki çıxışdan; 1998

belə deyil. O işi aktual olaraq yaxşı yerinə yetirə bilər, lakin onda inkişaf prosesi dayanacaq. Əksərən belədir.[1]

## Örnək və nümunələr

### Əmirəl-möminin (ə) - gənclərin ən böyük örnəyi

Siz Əmirəl-mömininə (ə) Məkkədəki 16-19 yaşlı, yaxud Mədinəyə daxil olduğu zaman iyirmidən bir qədər artıq yaşlı bir gənc kimi baxın. Müxtəlif dövrlərdə bu həzrətin ömrünə baxın, bu gəncin bütün zamanların ən yaxşı gəncləri üçün həqiqətən ən gözəl örnək olduğunu görün. O, gənlik ehtirasından, dünya ləzzətindən, gənclərin baxışında dəyər sayılan gözəlliklərdən heç bir şey istəmir. Yalnız əziz Peyğəmbərin (s) peyğəmbərlik səbəbi olan uca və ali məqsədi istəyir. Onun bütün varlığı bu məqsədə xidmət göstərir. Onun üçün hər şey ikinci dərəcəlidir. Bir gəncin bir anda dünyaya, dünyanın şirinliklərinə və ləzzətlərinə diqqət yetirməməsi, öz gəncliyini, qüvvəsini, fəallığını və ruhiyyəsini, yəni gəncdə olan təravətin, gözəlliyin və yeniliyin hamısını Allah yolunda işlətməsi çox möhtəşəm bir şeydir. Bu, uca həddidir. Bundan üstünü həqiqətən olmaz.[2]

### İmamın gənclik ruhiyyəsi

İmam bu mübarizələri 63 yaşında başladı. 63 yaşlı kişi gəncləri həvəsləndirirdi, onlara qüvvə və ruhiyyə verirdi. O, Tehrana daxil olanda təxminən 80 yaşlı bir kişi idi. Baxın, bir qocanın təqaüd, yorğunluq və bikarlıq zamanı olan bu yaşda belə gənclik ruhiyyəsi ilə meydana daxil oldu.[3]

### İmam Xomeyni - ibadət və təvəssül örnəyi

---

[1] Şagirdlərlə, tələbələrlə, sənət adamları ilə, idman çempionları və olimpiada qalibləri ilə görüşdəki çıxışdan; 1998

[2] Həzrət Əlinin (ə) doğum günü münasibəti ilə xalqla görüşdəki çıxışdan; 1996

[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

Siz Allahla məndən artıq rabitədə ola bilərsiniz; çünki gəncsiniz, ürəkləriniz təmiz və pakdır, vücudunuzun güzgüsü bizim güzgümüzdən daha şəffaf və daha ucadır. İxtiyarınızda belə yaxşı şərait varkən, imamın vücudunda olan və onun bütün uğurlarını təmin edən xüsusiyyəti özünüzdə gücləndirməyə çalışın. Yəni Allahla rabitəniz olsun, Onun qarşısında bəndəlik edin, günahdan, pis və çirkin işlərdən çəkinmək ruhiyyəsini özünüzdə daha da gücləndirin. Əgər belə olsanız, bütün işlər asan olacaq və məqsədlərə çatacaqsınız... Siz də təvəssülü, duanı və Allaha diqqəti unutmayın, Onunla rabitənizi möhkəm edin, daha artıq yaradıcılıqla və səylə ölkəni qurun.[1]

**İmam Xomeyni - din və xalq mübarizliyinin örnəyi**

İmamın qələbəsinin sirri də bu idi ki, bu böyük hünəri və böyük möcuzəni edə bildi, mübarizəni xalq səviyyəsinə gətirdi. Lakin səbəbi nə idi? Səbəblərin bəzisi Böyük İmamımızın şəxsi xüsusiyyətlərinə qayıdır; onları da deyəcəyəm. Lakin əsas səbəb imamın uca məqamlı və etimadlı bir ruhani mövqeyində durub İslamdan danışmasından ibarət idi. İslam xalqın ümumi inancı idi və indi də belədir. Bu, dini hərəkətin və dini məqsədin xüsusiyyətidir.

Dini məqsədlər maddi və partiya məqsədləri ilə fərqlənir. Maddi və partiya məqsədlərində daha çox hakimiyyət gəlmək məsələsi var. Mübarizəyə qoşulan şəxslərin hər biri özləri üçün bir mövqe və yer tərif edirlər: gələcək quruluşda biz nə etməliyik, hansı işdə çalışmalıyıq. Lakin dini hərəkətdə bunlar yoxdur. Hamı vəzifəsini yerinə yetirmək üçün qoşulur. İmam İslama arxalandı və İslamın ucalığını bəyan etdi. Xalq hərəkətinin dərinliyi buradan başlandı. Çünki bütün xalq öz imanı ilə mübarizəyə qoşulmuşdu. Siz görürdünüz ki, misal üçün, filan kənddə xalq hadisələrə reaksiya göstərir. İndi siz

---

[1] Quruculuq Cihadı mücahidlərinin beyət mərasimindən; 1989

görün bir siyasi partiya ucqar bir kəndin əhalisini öz tərəfdarı etmək istəsə, nə qədər çalışmalı və bunları bir-bir özünə cəlb etməlidir. İmam bu tipli işlər görmürdü, lakin müraciət etdiyində onlar inamla meydana qoşulurdular. Böyük şəhərlərdə də belə idi, paytaxt olan Tehranda da belə idi. Odur ki, əsas İslam məsələsi idi; yəni imam İslama arxalanırdı.

Düzdür, digər xüsusiyyətlər də vardı. İmam prinsipcə xalqdan olan bir şəxs idi və xalqa arxalanırdı. Mənim yadımdan çıxmır, bizim Böyük İmamımızın hələ o qədər də tanınmadığı və məşhur olmadığı 62-ci ildə Qumda tədris əsnasında etdiyi söhbətlərinin birində o dövrün hökumətinə müraciətlə demişdi ki, əgər misal üçün, filan rəftarınızı davam etdirsəniz, mən Qumun bu ucsuz-bucaqsız səhrasını xalqla dolduraram. Hamı təəccüb edirdi ki, imam Qumda bir məscidin küncündə oturub necə bu şəkildə xalqa arxalanır, inanır və xalq sarıdan arxayındır. Bir neçə aydan sonra, yəni 63-cü ildə imamın Feyziyyə mədrəsəsindəki bəlli çıxışından iki gün sonra Tehranda 15 xordad hadisəsi baş verdi. Xalq qana boyanmış halda tankların, avtomatların və tüfənglərin qarşısında dayandı.

Qeyd etdim ki, imamın şəxsi xüsusiyyətlərinin rolu çox idi. İmam sözün həqiqi mənasında əzmkar və polad iradəli bir kişi idi, öz yoluna yüz faiz imanı olan bir şəxs idi. Quranda göstərilir ki, Peyğəmbər (s) ona nazil olana iman gətirmişdir. Onun da öz yoluna tam inamı vardı, doğruçu və açıq danışan kişi idi, siyasətbaz adam deyildi, çox ağıllı və uzaqgörən idi. Sayıqlıq, uzaqgörənlik və sonrakı addımları bilmək qabiliyyəti imamda çox yüksək idi. O işgüzar və yorulmaz idi. Yada salmanız pis olmaz ki, imam bu mübarizələri 63 yaşında başladı. Xatırlayıram ki, o həmin 62-ci ildə öz çıxışında dedi ki, bu il mənim 63 yaşım var. Əgər məni öldürsələr, Peyğəmbərin (s) və Əmirəl-mömininin (ə) dünyadan köçdüyü yaşda dünyadan köçəcəyəm. 63 yaşlı kişi gəncləri həvəsləndirir, onlara qüvvə və ruhiyyə verirdi. O, Tehrana

daxil olduqda, 1 fevral hadisələrində və sonra inqilab baş verdikdə təxminən 80 yaşlı bir kişi idi. Təqaüd, yorğunluq və bikarlıq yaşında qoca bir kişi belə həvəslə, gənclərə məxsus belə ruhiyyə ilə meydana qoşulur. Buna əsasən, imamın şəxsi xüsusiyyətləri çox təsirli idi; İslama, dinə, imana arxalanmaq. Xalqa inam da mövcud idi.[1]

**İmam Xomeyni - rəhbərlik və kadr yetişdirmək örnəyi**

İmam mübarizəsini başlayanda mən deyə bilmərəm ki, misal üçün, 62 və 63-cü illərdə onun lazımi kadrları vardı. Lakin imam kadr yetişdirirdi. Siz bilirsiniz ki, o, Qum Elmi Hövzəsində görkəmli bir elmi şəxsiyyət idi. Onun ətrafını ləyaqətli və mömin gənclər əhatə etmişdi. Onun digər təbəqələrlə də əlaqəsi vardı. İmam öz müraciətləri, öz sözləri ilə sözün həqiqi mənasında insanları tərbiyə edib düzəldirdi; həm düşüncə tərbiyəsi, həm ruhi və əxlaqi tərbiyə. Dəyərli və layiqli bir kadr zəruri olaraq idarəçilik dərsi, yaxud siyasi elmlər kursunu keçmiş şəxs deyil, məqsədləri yaxşı anlayan, yolları yaxşı seçən, yaxşı qərar verib yaxşı addım ata bilən şəxslərdir. Bu davamlı tərbiyələrlə baş verir. İmamın ətrafında və onun vasitəsi ilə təbii şəkildə bu iş baş verirdi; xüsusi dərs sinfində yox, rəftarlarla, müraciətlərlə və davranışlarla. Lakin bundan əhəmiyyətlisi odur ki, imam xalq səviyyəsində kadrlar hazırladı. İmamın kadr hazırlaması da partiyaların kadr hazırlaması kimi deyildi. Partiyalar oturub xüsusi formada bəzi şəxsləri yetişdirirlər ki, misal üçün, filan vəzifəni və filan işi ona versinlər. Lakin imam gəncləri yetişdirirdi, onlarda özünəinam ruhiyyəsi yaradırdı. İmam əvvəldən gənclərin üzərində xüsusi təkid göstərirdi.

İnqilab qələbə çalandan sonra həm imamın ətrafında olan şəxslər, həm də onun ətrafından xaricdəki şəxslər gəlib işləri tutdular, tədricən baş verən dəyişiklik və islahatlarla işləri ələ aldılar. Lakin buna diqqət yetirin ki, imamın yolu aydın idi,

---

[1] Gənclərlə görüşdəki çıxışdan; 1999

üslubu aydın idi, nə istədiyini bilirdi. İmamın üslubu peyğəmbərlərin üslubundan ibarət idi; yəni öz tərəf-müqabillərinə agahlıqla, düşüncə və fikirlə yanaşı olan iman və dərin inam köçürmək. Bu üsul təbii olaraq istedadları çiçəkləndirir və kadrları yetişdirir. On il öncədən bir siyahı hazırlayıb filankəsi filan iş üçün istəməyə lüzum yox idi.[1]

**Quruluşun görkəmli elmi və mənəvi şəxsiyyətləri**

Bu gün bizim İslam quruluşumuz Allahın lütfü ilə fəxr edir ki, onda parlaq elmi və mənəvi şəxsiyyətlər mövcuddur. Əgər Allah-Taala bizim indiki nəslə Əllamə Təbatəbai, yaxud mərhum Şəhid Mütəhhəri kimi şəxsiyyətlərdən bəhrələnmək imkanı verməmişsə də, həmd olsun ki, bu əziz və əzəmətli şəxsiyyət (cənab Misbah) bizim dövrümüzdə o əzizlərin yerini tutub.[2]

**Özünü islah etmiş gənc - digərlərinin hidayət çırağı**

İslam birliklərindən olan siz əziz gənclərə də deyirəm: Sizin hər biriniz bir İslam qüvvəsisiniz. Özünüzü qoruyun, islah edin və inkişaf etdirin. Universitetə, yaxud hövzəyə və ondan sonra İslam Respublikası quruluşunda iş meydanına və cəmiyyətə girmək üçün özünüzü hazırlayın ki, işıq kimi parlaya biləsiniz. Bu ölkənin hər hansı bir yerində olan hər bir İslam birliyi bir səngərdir.

9-11-ci sinif şagirdləri düşmənin hiyləsini və hücumunu zərərsizləşdirmək üçün bu səngərdə dura bilməlidirlər. Bu bir mədəni və fikir səngəridir. Elə bir səngərdir ki, onda silah din, ağıl, elm, fikir və mədəniyyət silahıdır. Əgər bu səngərlər möhkəm olsa, düşmən nə hərbi hücumda, nə iqtisadi hücumda, nə siyasi hücumda, nə də bu hücumların ən təhlükəlisində - yəni mədəni hücumda bu ölkədə uğur

---

[1] Gənclərlə görüşdəki çıxışdan: 1999

[2] Könüllü keşikçilərdən olan (bəsici) tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

qazanmayacaq. Bu günə qədər də düşmənin uğursuzluqları və məğlubiyyətləri bu mömin və yaxşı gənclərin müxtəlif meydanlarda iştirakına görə olmuşdur. Bundan sonra da belə olacaq, günbəgün də genişlənəcək.

Sizin və şagirdlərin hər biri qərar verib özlərini elə düzəltsinlər ki, universitetə, hövzəyə, yaxud hər hansı bir mərkəzə daxil olan gün orada bir çıraq kimi digərlərini yönəltsinlər. Allah-Taala möminlərin dilindən buyurur ki, bizi təqvalılar üçün imam et. Hər bir insan özündə bu səlahiyyəti yaratmalıdır. Hər hansı bir yerdə olsa, digərləri ona iqtida edə bilməlidirlər; təkcə camaat namazında iqtida yox, hətta əməldə iqtida, fikirdə iqtida, rəftarda iqtida.[1]

## Könülləri almaq

### Gənclərin qəlbini ələ almaq

Gənclərin qəlbinin və hissiyyatının cəlb olunması üzərində təkid göstərməyimizin mənası bu deyil ki, gənclər nə desə, siz qulaq asmalısınız. Mən əsla bunu tövsiyə etmirəm. Gənclər ixlaslı, mömin və zərif qüvvələrdirlər. Biz onların məhəbbətini, saflığını və imanlarını qorumalıyıq. Mənası bu deyil ki, onların fənni və ixtisası olmayan, sizin ixtisasınız olan və onun səhv olaraq dediyi bir sözünü qəbul edəsiniz.

Təəssüf ki, bəzi yerlərdə belə hallar görünür. Bu onu göstərir ki, bəziləri şəraitin təsirinə düşür və şəraitin onlara diqtə etdiyini deyirlər. Hətta bəzən onu hiss edirlər. Bu böyük bəladır. Bir fikir, bir inam və bir üslub barəsində yaradılmış bir şərait sizin birbaşa zehniniz və üslubunuz üzərində təsir qoymamalıdır...

Təcrid etmək, rədd etmək, üz çevirmək və üz turşutmaq yaxşı deyil. Biz bu işlərə razı deyilik. Amma bununla da razı deyilik ki, bir elm adamı təyin etdiyinin, fiqhi əsaslarının və

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

fətvalarının əksinə, yaxud təqlid etdiyi müctəhidin fətvasının əksinə, yaxud onun üçün qəti olan məsələlərin əksinə bir fikir irəli sürsün. Bu günah şübhəsiz, Allah tərəfindən məqbul, əfv ediləsi və göz yumulası olmayacaq.[1]

### *Təlim-tərbiyə sahəsi*

## Təlim-tərbiyənin fəlsəfəsi

### Gənc nəsli - ən çətin işlərin ön xəttini tərbiyə etmək

Kadr yetişdirməyin, xüsusən də lisey müəllimi yetişdirməyin olduqca böyük əhəmiyyəti var. İndi bizim məktəblərimizdə inqilabın uşaqları olan milyonlarla gənc və yeniyetmə var. Yaxın gələcəkdə - 40 il sonra yox, 10 il, 15 il sonra şübhəsiz, ölkə onların əlində olacaq. Onların biri idarə işçisi, bir müdir, biri deputat, bir nazir olacaq. Məgər belə deyil?! Onlar öz dövrlərində ölkənin inqilab və İslam məqsədlərinə sarı bu prosesini daha uca mərhələdə və daha öndə irəliyə aparmağa borclu olacaqlar. Çünki dayanmaq və durğunluq olmamalıdır. Onlar gəldikdə bizdən də yaxşı və öndə hərəkət etməlidirlər.

Belədir. Onlar bugünkü məmurlardan yaxşı olmalı və öndə getməlidirlər. Halbuki onlar nə inqilabı görüblər, nə də inqilabın vəziyyəti ilə ondan öncəki dövrün vəziyyətini müqayisə etmək imkanları var. Çünki onu da görməyiblər. O zamanın fəsadı və tənəzzülü, o zamanın şəhvətpərəstliyi, rəzilliyi, təşəbbüssüzlüyü və asılılığı, o zaman bir iranlının fəxr hissi keçirməməsi... O zaman iranlı heç bir fəxr duymurdu, istifadə etdiyi məhsul xaricdən gəlirdi. Əgər daxildən olsaydı da, xaricin adına yazırdı. Bütün işlərdə xaricilərn ardıcılı idi. Dünya səviyyəsində heç bir təşəbbüsçülüyü yox idi. Odur ki, heç bir fəxr də hiss etmirdi.

Bu uşaqlar bunları görməyiblər, imamı görməyiblər, müharibəni və Tehranın bombalanmasını görməyiblər. Belə

---

[1] Mazandaran vilayətinin alim və ruhaniləri ilə görüşdəki çıxışdan; 1984

bir halda bunlar yetişib inqilabın bu əzəmətli karvanını bizim çatdırdığımız yerdə bizdən almaq və bir addım irəliyə aparmaq istəyirlər. Görün nə qədər çətindir! Bu işi kimlər görməlidir? Sizin tərbiyə etdikləriniz, bu lisey müəllimləri. Bacararlar, yoxsa yox?

Yəni siz öz işinizə bu gözlə baxın. Bu gün gənc nəslin təlim-tərbiyəsində rolu olan hər bir şəxs dünənki mübarizlərin inqilabdan öncə keçirdiyi hissləri yaşamalıdır; yəni ən çətin işlərin ön xəttində. Bu şəkildə və bu ruhiyyə ilə işləmək lazımdır. Hiss etməlidir ki, görməkdə olduğu işi görməsə, ümumi tələfat baş verəcək. Nə üçün? Çünki bunlar uşaqları tərbiyə etməlidirlər.

Əlbəttə, onlar məsələnin bir hissəsidir. Başqa bir hissəsi ruhanilik, başqa bir hissəsi radio və televiziya, başqa bir hissəsi mətbuat, siyasətçilər və ölkənin məmurlarıdır. Lakin çox həssas olan hissə sizin toplumunuzun və sizin qəbildən olan şəxslərin ixtiyarındadır; Pedaqoji Universitet və hər halda gənc nəsil üçün müəllim yetişdirən hər bir yer. Odur ki, işlərinizi bu həssaslıqla davam etdirin.[1]

## Gənclik dövrü tərbiyəsinin həssaslığı

Bəzən bu qatar xətti kimi görünür, kiçik bir hərəkət birdən-birə böyük bir bucaq icad edir və yoldəyişənin xətti dəyişməsilə misal üçün, şərqə sarı gedən qatarın yolu birdən-birə dəyişilir və qərbə sarı hərəkət edir. Gənclik dövründə də ictimai, ailəvi və tərbiyəvi hadisələrin yoldəyişəni bir xətti elə dəyişdirir ki, yol bütünlüklə əvəz olur. Yəni əgər şərqə sarı gedirdisə, qərbə sarı yola düşür. Gəncliyin bu xüsusi mərhələsi olduqca həssasdır. Bu dövrün həssaslığı ona görədir ki, həddi-büluğ dövründən nə qədər uzaqlaşb gəncliyin sonuna (deyildi ki, 24, yaxud 25 yaşa) yaxınlaşdıqca bir qədər püxtələşirlər.[2]

---

[1] Şəhid Rəcai Universitetinin idarə heyəti ilə görüşdəki çıxışdan; 1998

[2] Radionun Uşaq və yeniyetmə qrupu ilə görüşdəki çıxışdan; 1992

**Gənclik ulduzunu tərbiyə etmək üçün qurucu fəaliyyət**

Xülasə olaraq mənim gənc və gənclik haqda təsəvvürüm budur ki, bu dövr həyatın ən yaxşı və ən şirin dövrüdür. Bizim dəqiq və nizamlı proqramlarla bu dövrdən istifadə etməyimiz lazımdır.

Viktor Hüqo bir yerdə bir gəncə müraciətlə deyir ki, sən necə bir ulduzsan. Doğrudan da gənclik insan vücudunda bir ulduz kimi parlayır. Yəni əgər biz insanın bütün həyatını qaranlığın, alaqaranlığın və tutqunluğun mövcud olduğu bir fəzaya bənzətsək, orada adı gənclik olan hissə bir ulduz kimi parlayacaq. Bütün gözəlliklər o dövrdə insanda görünür və bacarıqlar orada formalaşır. Təcrübələrdən asılı olan püxtələşmə və yetkinləşmə gənclik dövründən sonraya aid olsa da, istedadın başlanması gənclik dövründəndir. Hətta əgər böyük mütəfəkkirlərə və filosoflara baxsaq, görəcəyik ki, ən kamil fikirləri gənclikdən sonraya aiddir, lakin ən çox qurucu fəaliyyətləri və nəhayət onları həmin fikirlərə çatdıran ən çox hazırlıq işləri gənclik dövrünə aiddir.[1]

**Gənc ruhunun zərifliyinə diqqət**

Tərbiyədə və bu sözün çatdırılmasında gəncin ruhunun zərifliyinə diqqət yetirmək lazımdır. Tərbiyəçilərin vasitəsi ilə söz və əməlin yanaşı olmasına da diqqət olunmalıdır. Tərbiyəçilərin üsulları, cazibə yaratmaları və şəxsi əməlləri, həmçinin ölkənin qayda-qanunlarının qorunması üzərində təkid göstərilməlidir.[2]

**İslamda gəncin dəyəri**

---

[1] Nümunə gənc seçimi barəsində Gənclər jurnalına müsahibədən; 1986

[2] Ölkənin müşavirə qurumlarının və tərbiyəvi müavinlərinin keçirdiyi seminarın iştirakçıları ilə görüşdəki çıxışdan; 1985

Qeyd etmək lazımdır ki, nurlu İslam şəriətində gənc və yeniyetməyə hətta dünyanın müasir hüquq normalarından da artıq əhəmiyyət və dəyər göstərilmişdir.[1]

**İslam quruluşunu qorumaq üçün pak gənclər yetişdirmək**

Bu universitetdə olan gənclərin hər biri - istər oğlanların, istər qızların hər biri əgər sizin diqqətsizliyiniz üzündən və etməli olduğunuz işi etməməniz, etməməli olduğunuz işi etməniz səbəbindən Allahın və dinin yolundan yayınsa, sabah sizin yaxanızı tutacaqlar. Allaha və qiyamətə etiqadı olan şəxs üçün görün nə baş verəcək! Yəni məsuliyyət çox ağırdır, ürək yandırmaq lazımdır. Bu pak-pakizə gənci bizə tapşırıblar ki, tərbiyə olunsun və sabah bu İslam quruluşunu saxlaya bilsin.[2]

**Gənci dindar saxlamaq**

Bu gün bizim inqilabımız təravət halındadır. Odur ki, bizim cəmiyyətimizdə gəncin xarakteri dindar təbiətlidir. Bu gənci dindar saxlamaq, düzgün din hökmləri ilə məlumatlandırmaq və əzəmətli qüvvəsini dinin xidmətində işlətmək olar. Bu gün hamının bu əzəmətli qüvvəyə ehtiyacı var.[3]

**Gənclərə proqram hazırlamaq və nəzarət etmək üçün münasib təşkilat yaratmağın zəruriliyi**

Gənclərin işlərinə nəzarət və onlar üçün proqram hazırlanmasından ötrü münasib təşkilat yaradılmalıdır. Sonrakı mərhələdə isə bu təşkilat gənc qız və oğlanların qərar verməsi və vəzifə qəbul etməsi üçün şərait hazırlamalıdır, onlar üçün faydalı istehsal peşələri yaratmalıdır, təhsil fənləri üçün, onların təhsil sahələri və gələcək peşələri ilə uyğun olan, onları veyilliyə və bikarlığa sürükləməyən tərzdə boş vaxtlarını keçirmək üçün çarə düşünməlidir, gənclərə məxsus

---

[1] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

[2] Universitet rektorları ilə görüşdəki çıxışdan; 1998

[3] Universitet rektorları ilə görüşdəki çıxışdan; 1998

problemlərin həlli üçün onların özlərindən kömək istəməlidir, onları kamilləşmiş ümumi qrup işlərinə sarı yönəltməlidir, onlara işin şərəfliliyini və dəyərini öyrətməlidir, onların yaradıcı qüvvəsini, incəsənət zövqünü, hər şeylə maraqlanmasını, həqiqət axtarmasını və yenilik istəməsini kamillik istiqamətinə yönəltməlidir, insan hüquqları və fərdi azadlıqlar barəsində söhbət və müzakirə məclisləri təşkil etməklə, incəsənət sərgiləri keçirməklə, elm, tədqiqat və istirahət ekskursiyaları təşkil etməklə, kollektiv iş və təcrübə mərkəzləri yaratmaqla, mədəni, dini, ictimai, işçi, yerli və idman birlikləri və klubları yaratmaqla, gənclərin həyatına camaat namazı, ümumi dua və münacat daxil etməklə, puçluq, tüfeylilik, fəsad və aludəliyə qarşı ən kəsərli silah kimi onların inkişafına və tərəqqisinə kömək etməlidir. Bu məsələlərə kütləvi informasiya vasitələrinin köməyi ilə indidən başlamaq lazımdır. Bu həyati işdə hər növ səhlənkarlıq və zəiflik inqilabı məhv etmək deməkdir.[1]

**Gəncin ağıllı, hikmətli, məhəbbətli və səmimi rəftarla hidayət olunması**

Gənc istedadla dolu və çoxlu hüquqa malik bir insandır: ata-ana üzərində, məktəb üzərində, hökumət üzərində, müxtəlif sahələrin məsul şəxsləri üzərində hüquqlara malikdir. Onun inkişaf və təkamül şəraitini hazırlamaq, düzgün yolu seçə bilməsi üçün ona kömək etmək lazımdır. Bu köməyin böyük bir qismi rəftarla və əməllə mümkün olur. Danışmağın və sözün həmişə təsiri olmur. Bəzən təsirli olması mümkündür, lakin bəzən əməl sözü korlayır. Gənclərlə işləyənlər - o cümlədən İslam birliklərində olan siz əziz gənclər, yaxud tərbiyəvi işlərlə məşğul olan əzizlər çalışıb öz rəftarlarını ağıllı, müdrik, xeyirxah, səmimi və məhəbbətlə dolu etsinlər. Bu, harada və necə olsalar, onların pak duyğuları

---

[1] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

üzərinə xəta külü oturmuş olsa belə, gənclərin qəlblərini təhlükədən xilas edə bilər.[1]

## Mömin və məlumatlı gənc yetişdirmək, etiqadlarda şübhənin qarşısını almaq

Tərbiyəvi işlərlə məşğul olan qardaşlara, bacılara və əzizlərə deyirəm: Sizin bütün səyiniz müsəlman, mömin və ayıq gənc yetişdirmək olmalıdır.

Allah Şəhid Rəcai və Şəhid Bahünərə rəhmət eləsin! Bu işi təlim-tərbiyə qurumlarında onlar başlayıblar. Xoşbəxtlikdən bu gün Təlim-və Tərbiyə Nazirliyinin yaxşı və imanlı müdiriyyəti var, bu məsələlərə əhəmiyyət göstərilir. Düzdür, bəziləri işləri pozurlar. Biz bunu görürük, xəbərsiz deyilik. Tərbiyəvi işlərlə məşğul olan siz əzizlərin məqsədi ilk növbədə gənci mömin, agah, dini məsələlərdə aydın, İslam maarifinə və İslam əməlinə sadiq yetişdirməkdir. Ölkənin gələcəyi belə təmin olunur. Gənclərin etiqadlarında şübhə yaratmaq istəyən düşmənlərin vəsvəsələrini ədavətli zümzümə sayın, işlərində uğur qazanmalarına qoymayan.[2]

## Gənclərə qarşı ifratçı və təfritçi təmayüllər

Gənclər barəsində ifratçı və təfritçi təmayüllər müşahidə olunur.

Bəziləri gəncin şəxsiyyətini, iradəsini, dərkini və tükənməz bacarıqlarını görməzdən gəlməyə adət etmişlər. Onu bilməməkdə, yaxud nəzərlərində bəyənilməz olan hər hansı bir məsələdə ittiham edirlər. Bu, səhv tərbiyədir. Gənc fəallığın təzahürü, istedadla dolu və dəyərli ehtiyata malikdir; yəni gənclik fəallığı, gənclik qüvvəsi, gənclik istedadı və gənclik səbri var. O, möcüzələr yarada bilər. Bu etinasızlıq səhv və azğın bir rəftar və təsəvvürdür.

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[2] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

Qarşı tərəfdə bəziləri gənci özlərinin siyasi maraqlarına və məqsədlərinə oyuncaq etməyə və onu alət kimi işlətməyə çalışırlar, onu incidə bilər deyə gənc üçün lazım olanı ona demirlər. Onu onlara qarşı nikbin edəni, onlardan razı salanı - əgər həqiqətin ziddinə olsa belə - ona deyirlər. Məqsəd siyasi və partiya işlərində müxtəlif və bəzən də müqəddəs olmayan məqsədlər üçün ordu düzəltməkdir. Bu da səhv, yanlış, xəyanət və ilahi neməti tələf etməkdir.[1]

**Təfəkkür və xatırlatma**

**Dindar və təfəkkürlü gənclər yetişdirmək**

Bu gəncləri dindar, məsuliyyətli, öhdəlikli, əxlaqlı və düşünməyə alışqan yetişdirməlisiniz. Gərək fikirləşməyə, ölçüb-biçməyə və təhlil etməyə vərdiş etsinlər.[2]

**İmamın vasitəsi ilə gənclərin düşüncə tərbiyəsi**

İmam öz müraciətləri, öz sözləri ilə sözün həqiqi mənasında insanları tərbiyə edib düzəldirdi; həm düşüncə tərbiyəsi, həm ruhi və əxlaqi tərbiyə... İmam gəncləri yetişdirirdi, onlarda özünəinam ruhiyyəsi yaradırdı. İmam əvvəldən gənclərin üzərində xüsusi təkid göstərirdi. [3]

**Gənclərin sağlam təfəkkürü və cəmiyyətin qurtuluşu**

Bir xalqın gənclərinin geniş miqyasında sağlam və xilasedici təfəkkür yayılsa və dərinləşsə, o cəmiyyətin və o xalqın xilası və qurtuluşu qəti və qaçılmaz olacaq.[4]

**Fikir və düşüncə gəncin üstünlüyü kimi**

Hər bir ölkənin ən yaxşı gəncləri fikir və düşüncə sahibi olan gənclərdir. Prinsip etibarilə tələbələr arasında belələri çox tapılır. Qeyri-tələbələrin arasında da belə yaxşı gənclər var.[1]

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[2] Universitet rektorları ilə görüşdəki çıxışdan; 1998

[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[4] Kərbəla yolunun şagirdliyi konfrasına müraciətdən; 1998

**Valideynin şəfqətli xatırlatmasına ehtiyac**

Ata və analardan övladlarına ümumiyyətlə xatırladıb xəbərdarlıq etməmələrini gözləməyin. Hər bir gənc öz ata və anasının fikir köməyinə ehtiyaclıdır. Düşünmək lazım deyil ki, onların fikir kömələri, ata və ana kimi şəfqətli dəvət və qadağaları gəncin yeniliyinin qarşısını alır. Xeyr, belə deyil.[2]

**Gözəl və məntiqli həyat**

**İşıqlı iranlı gənc**

Bu gün dünyada gənc nəsil günbəgün daha artıq fəsada sarı gedir, bizim gənclərimiz isə bu məmləkətdə günbəgün daha pak, daha təmiz və daha işıqlı olurlar. Lakin imperialist təbliğatı Allaha yaxınlaşmağa, özlərini İslam və İslam hökmləri ilə daha artıq uyğunlaşdırmağa çalışan bu ölkəni, bu gəncləri, bu universiteti, bu tələbəni, bu universitet müəllimini və xalqın müxtəlif təbəqələrini İslamdan uzaqlaşdığını göstərməyə çalışır.[3]

**Dünyaya bulaşmamaq**

Siz gəncsiniz, heyfdir ki, bu pak və işıqlı qəlbləriniz və istedadlı ruhlarınız Allahı xatırlamaqdan və ilahi məhəbbətdən qeyri bir şeyə bulansın. Dünyanı yalnız vasitə bilin. Dünya malı, onun imkanları, ev və yaşayış vasitədir, könül verməyə ləyaqətləri yoxdur. Könül verməyə layiq olan yalnız Allahın müqəddəs zatı və onun məhəbbət dairəsində olan şəxslərdir.[4]

**Gözəl həyat, dünya və axirətə malik olmaq**

Quranın şərafətli ayələrində yad olunmuş və biz İran xalqının həmişə diqqətdə saxlamalı olduğu əsaslı bir dini məsələ var. O, ilahi və dini gözəl həyata sarı hərəkətdir: “Ey

---

[1] Tehranın cümə namazı xütbələrindən; 1998

[2] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[3] Tehranın cümə namazı xütbələrindən; 1998

[4] Keşikçilər Korpusunun komandirləri və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1997

iman gətirənlər! Peyğəmbər sizi, sizləri dirildəcək bir şeyə (imana, haqqa) dəvət etdiyi zaman Allahın və Onun Peyğəmbərinin dəvətini qəbul edin!" Allah və Peyğəmbər (s) sizi gözəl və pak həyata dəvət edir. Pak həyat da yemək, ləzzət almaq və ehtirasları doyurmaq deyil. Bunun Allahın və Peyğəmbərin (s) dəvətinə ehtiyacı yoxdur. Hər bir insanın nəfsi onu heyvani yaşayışa dəvət edir. Bütün heyvanlar qidalanır və ehtiraslarını doyururlar, qarın üçün və bir saat artıq yaşamaq üçün mübarizə aparırlar. Gözəl həyat - bu yaşayışın Allah yolunda və uca məqsədlərə çatmaq üçün olmasından ibarətdir. İnsanın uca məqsədi təkcə bu deyil ki, hər hansı bir yolla qarnını doyursun. Bu, bir heyvanın özünə məqsəd seçə biləcəyi ən az istəkdir. İnsan üçün uca məqsəd haqqa qovuşmaqdan, Allah-Taalaya yaxınlaşmaqdan və ilahi əxlaqa yiyələnməkdən ibarətdir. Belə bir məqsədə çatmaq üçün insana maddi və mənəvi vasitələr lazımdır. Qida lazımdır, lakin insanın məqsədə sarı hərəkət etməsi üçün. Rahat yaşayış bəşər üçün lazım və zəruridir. İslam öz qanun və qaydaları ilə insanları rifaha və asayişə sarı aparır. Lakin bu asayiş öz-özlüyündə məqsəd deyil. Elə insanlar var ki, rahat yaşayışları var, qazanc, qarın və asayiş nigaranlıqları yoxdur. Lakin onlarda insaniyyətdən əsər-əlamət də yoxdur. Maddi sizilizasiyalar bəşəri belə həyata dəvət edirlər və sözsüz ki, yalan deyirlər.

İslam quruluşunda bir insan təkcə qarının doyması ilə xoşbəxt olmur. Onun maddi həyatının, rifahının və təhlükəsizliyinin təmin olunmasından əlavə, ruhu və qəlbi pak, təmiz və işıqlı, digər insanlara qarşı qardaşlıq və fədakarlıq hissi və Allah-Taalaya qarşı bəndəlik və ixlas hissi ilə yanaşı olması da lazımdır. İslam və ilahi dinlər xalqa bunu istəyirlər. Deməli, məqsəd maddiyyatdan üstündür. Lakin İslam ümumi xalq üçün maddiyyatı da təmin edir. Yəni İslam cəmiyyətində bütün insanların rifah, asayiş, təhlükəsizlik və rahatlıq üçün yetərli imkanları olmalıdır; yəni Qərbin maddi

sivilizasiyasında heç zaman olmamış və olmayacaq bir şey. Bu, sosialist və kommunist sivilizasiyasında və quruluşunda da olmamışdır. Onun hansı taleyə düçar olduğunu gördünüz. Nümunə erkən İslam çağıdır. O nümunəyə nail olmaq üçün ilahi və islami hökmlər kifayətdir.

Əgər biz İslam hökmlərinə əməl etsək, əgər İslam cəmiyyəti İslam inancını ilahi qayda-qanunlara əməl etməklə izləsə, bəşəriyyətin tarix boyu axtardığı yaranacaq; yəni mənəvi təkamüllə, inkişafla və yüksəlişlə yanaşı olan maddi rifah və asayiş. İnsan heyvan kimi deyil ki, qarşısına ot atasınız və onun üçün kifayət etsin. İnsan təmiz və işıqlı olmaq, işıqlılıqdan, təmizlikdən və Allaha bəndəlikdən ruhi ləzzət duymaq istəyir. Siz Allaha ibadət etdikdə, bir duanı ürəkdən oxuduqda, yaxud diqqətlə bir namaz qıldıqda və ya yoxsula kömək etdikdə bu işlərdən ləzzət alırsınız. Bu ləzzəti yeməklə almaq olmaz.

Allaha bəndəlik ləzzətini duyan insanlar (hər bir mömin insan üçün həyatda az-çox belə hallar yaranır) Allaha diqqət, Allaha ibadət, Allah qarşısında münacat və ağlamaq anında elə ləzzət duyurlar ki, bütün dünyanı və dünyada olanları verməklə o ləzzətin qalmasına razı olurlar. Əlbəttə, maddiyyat insanı o haldan xaric edir. O hal bəzən yaranır. Lakin Allahla və mənəvi məqsədlərlə tanış olmayan şəxslər o ləzzətin dadını duymurlar. Elə insanlar var ki, maddi quruluşların mübarək olmayan sayəsində bir ömür yaşayırlar, amma onlar üçün Allaha diqqət halı bir an da yaranmır və o mənəvi ləzzəti duymurlar. Onlar mənim və sizin nə dediyimizi anlamırlar. Amma İslam insanları elə yüksəltmək, qəlbləri elə işıqlandırmaq, mənim və sizin sinəmizdən pislikləri elə çıxarmaq istəyir ki, biz həmin mənəvi ləzzət halını təkcə ibadət mehrabında yox, həyatımızın bütün anlarında hiss edək; hətta işdə, dərsdə, müharibədə, tədris və təhsil zamanında və quruculuq vaxtında da. Deyiblər ki, həmişə namaz halında olanların xoş halına! Yəni iş və qazanc halında Allahla olmaq,

yemək və içmək halında Allahı yad etmək həyatı və dünyanı işıqlandırır. Əgər dünya belə insanlar tərbiyə edə bilsə, müharibələrin, zülmlərin, bərabərsizliklərin və çirkinliklərin kökü qazılacaq. Bu, haqqında danışılmış gözəl həyatdır. Deməli, gözəl həyatın mənası bu deyil ki, insanlar təkcə namaz qılsınlar, ibadət etsinlər, həyat və maddiyyat haqqında ümumiyyətlə düşünməsinlər. Əslində gözəl həyat dünya və axirətə, maddiyyat və mənəviyyata birgə malik olmaqdır. Xalqların gözəl həyatı budur ki, çalışıb yaratsınlar, sənayeni, ticarəti və əkinçiliyi zirvəyə çatdırsınlar. elm və texnika əldə etsinlər, hər cəhətdən müxtəlif inkişaflara nail olsunlar. Amma bütün bunlarda ürəkləri Allahla olsun və Allahı günbəgün daha artıq tanısınlar.[1]

## Məsuliyyət, iman və agahlıq - həyatda uğurun şərtləri

Mənim siz gənclərə edə biləcəyim tövsiyə budur ki, gənc əvvəla məsuliyyət hiss etməlidir. Yəni doğrudan da özünü vəzifəli bilməli, həyatı öz ayağı ilə irəliyə aparmalı, hərəkət etmək istəməli və hadisə dalğaları üzərində saman çöpü kimi olmamalıdır. İkincisi isə budur ki, imanla hərəkət etməlidir. İmanın bütün sahələrdə inkişafda, həmçinin bütün maneələr üzərində qələbədə çox əhəmiyyətli rolu var. Üçüncüsü isə bəsirət və agahlıq olmalıdır. Əgər gənclər özlərində bu üç xüsusiyyəti təmin etsələr (sözsüz ki, bu çox da asan iş deyil, amma çox mümkündür), mən düşünürəm ki, dünya hansı vəziyyətdə olsa, əlaqələr inkişaf etsə, müxtəlif sivilizasiyalar meydana çıxsa, böyük bir qüdrət dünyada sıradan çıxsa, yeni bir qüdrət vücuda gəlsə, İranın iqtisadi, siyasi və digər məsələlərdə digərləri ilə müxtəlif problemləri olsa, yaxud olmasa - bütün bu şəraitlərdə siz öz uğrunuzu təmin edə bilərsiniz. Çalışın mənim dediyim bu üç xüsusiyyəti özünüzdə yaradın. Baxın, mən "çalışın yaradın" deyirəmsə, fikrim budur ki, çalışmaqlar bir ölçüdə deyil və bir ölçüdə də müvəffəq

[1] Məşhəd əhalisi ilə görüşdəki çıxışdan; 1991

olmur. Başqa bir inamım da budur ki, kim çalışsa, nəhayət müvəffəqiyyət qazanacaq.

Mənim dediyim məsuliyyət hissi "əl çək" halətinin qarşı tərəfidir. Elə gənclər var ki, əgər "bu işi gör" deyilsə, "əl çək" deyə cavab verir. Misal üçün, qarşıda imtahanlar, yaxud başqa məsələlər var, deyir ki, əl çək. Bu "əl çək" gənclər üçün ən pis bəladır. Məsuliyyət hissi - bu "əl çək" halətini tərk etməkdir.

İman da odur ki, insan doğrudan da mömincəsinə meydana atılsın. İmanınızı gücləndirməyə çalışın. Allaha həmd olsun ki, sizin hamınızın ürəkləriniz pak və təmizdir. Sizin qəlblərinizdə iman parlayır. İnsan bunu hiss edə bilər. Eyni zamanda onu dərinləşdirməyə çalışın ki, hər bir hadisədə sarsılmasın. Yaxşı mütaliələrlə, uca insanlardan və yaxşı müəllimlərdən istifadə etməklə onu gücləndirin.

Özünüzdə agahlıq yaradın. Özünüzdə təhlil qabiliyyəti - cəmiyyətin reallıqlarından özünüz üçün bir ümumi nəticə almaq və bir şeyi tanımaq qüdrəti icad edin. Bu təhlil qabiliyyəti çox əhəmiyyətlidir. Tarix boyu biz müsəlmanlar nə zərbə görmüşüksə, təhlil qabliyyətinin zəifliyindən olmuşdur. Erkən İslam çağında gördüyümüz zərbələr də belə olmuşdur. İndi bunların çox izahlı söhbətləri var. Digər dövrlərdə də belə olmuşdur. Düşmənin bizim agah olmamağımızdan və məlumatsızlığımızdan istifadə edib həqiqəti əksinə göstərməyə imkan verməyin.[1]

## Biliyin yüksəldilməsi

### Elm öyrənmək və dərs oxumaq

Bəzi şeylər insanın ömrünün sonuna qədər faydalı olur. Bəzi şeylər isə insanın ömründən sonra, yəni sonrakı həyatda da faydalı olur. Bəzi şeylər insan üçün mühüm hadisələr zamanı faydalı olur. Siz on illərlə bu dünyada yaşayacaqsınız. Odur ki, özünüzü elm baxımından hazırlayın. Elm insan üçün

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

ömrün sonuna qədər faydalı olan məsələlərdəndir. Əgər bu elmin ardınca yaxşı və həmişəyaşar əməl də olsa, ölümdən sonra üçün də faydalı olacaq. Dərs oxumaq sizin üçün ən vacib əməldir.[1]

## Mütaliə mədəniyyəti

### Mütaliələrin lazım olması

Mən görürəm ki, mövcud dərslər həcm və məzmun baxımından çox da ağır olmasa da, bizim bəzi gənclərimiz əlavə mütaliələrə vaxt ayırmırlar. Vaxtınızı ciddi işlərə sərf edin. Bəzi işlər əlavə işlərdir, dərs oxumaq, mütaliə və idman etmək isə lazımi işlərdir.[2]

### Kitabla ünsiyyət

İndi din və elm hökumətindən irəli gələrək İranda bənzərsiz bir fürsət yaranmışdır. Bu ölkənin düşüncə və mədəni yüksəlişi üçün ondan istifadə etmək lazımdır. Bu gün kitab oxumaq və elm öyrənmək təkcə milli bir vəzifə yox, həm də dini baxımdan vacib əməldir. Hamıdan artıq gənc və yeniyetmələr vəzifə duymalıdırlar. Baxmayaraq ki, kitabla ünsiyyət yayıldıqda kitab oxumaq bir vəzifə yox, şirin bir iş, qaçılmaz ehtiyac, öz şəxsiyyətini zənginləşdirmək üçün bir vasitə hesab olunacaq və təkcə gənclər yox, bütün nəsillər və təbəqələr ona rəğbətlə üz tutacaqlar.[3]

## Fikir mübadiləsi

### Üslub fərqi və müxalif fikrə dözmək

Üslub fərqlərindən çox da qorxmaq lazım deyil. Üslub fərqləri pis bir şey deyil. İndi misal üçün, iki siyasi üslub

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[2] Kitab və mütaliə, c. 3, səh. 54

[3] Kitab həftəsinin başlanması münasibəti ilə müraciətdən; 1993

mövcuddursa, eybi yoxdur ki, bir gənc buna inansın, o biri gənc o birisinə.

Ayrısını inkar etmək haləti - yəni insanın ictimai məsələlərdə bir mövqe seçib "yüz faiz budur və bundan başqası düzgün deyil" – deməsi düzgün deyil.

Mənim fikrimcə, insan qarşı tərəfin fikirlərinə dözməli və öz fikrinin ondan təsirlənib-təsirlənməməsində müqayisə edib ölçməyi özünün meyarı seçməlidir. Əgər belə olsa, mənim fikrimcə, heç bir problem yaranmayacaq.[1]

**İxtilaflarla biçimli rəftar**

Üslub fərqlərindən çox da qorxmaq lazım deyil. Üslub fərqləri pis bir şey deyil... Zərərli olan fikir və mütaliəsiz addım atmaq, cəld qərarlar vermək, coşmaq və mütaliəsiz işləməkdir. Mən əziz gəncləri bundan çəkindirirəm.

Gənc biçimsiz iş də görə bilər, biçimli iş də; yəni tamamilə düşüncə və fikirlə işləyə bilər.[2]

**Siyasi baxışa malik olmaq**

Universitetin siyasi olması odur ki, tələbə dünya məsələlərindən, dünyada və öz ölkəsində baş verən hadisələrdən xəbərdar olsun, onlara dair baxışı olsun. Belə olmasa, ola bilsin bir nəfər elmin yüksək zirvəsinə də çatsın, çox da dindar olsun, amma düşmən gəlib onu çox ucuz qiymətə alar və öz qanadı altına salar [3].

**Söhbət etmək - fikrin təkamülü və anlaşılmazlığın aradan qaldırılması**

Çalışın sizin fikrinizlə kəskin müxalif olan şəxslə söhbət edin, fikir mübadiləsi ilə və dialoqla onunla anlaşın, onun zehninə kanal açın. Çox zaman anlaşılmazlıq ola bilər; bu

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[2] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[3] Kəhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdəki çıxışdan; 1994

aradan qaldırılsın. Çox zaman anlaşılmazlıq olmaya bilər, yəni əgər bədgümanlıq pis inama çevrilmişsə, onun üzərində təsir qoyun və qarşısını ala bilin.[1]

**Elm və dəyər**

**Elm səadət və ədalətin xidmətində**

Mənim əzizlərim, elm öyrənməkdə zərrə qədər də səhlənkarlıq etməyin, onun qədrini bilir. Elm sizin şəxsi həyatınızı, sizin xalqınızın həyatını və dünyanın həyatını gözəl formada düzəldə bilər. Necə ki, o, dünyanı viran da qoya bilər. Qərbin inkişaf etmiş elmi təəssüf ki, bu işi gördü və dünyanı müxtəlif formalarda xarabalığa çevirdi. Amma bu elm rifahın, səadətin və ədalətin səbəbi ola bilər. Nə yaxşı olar ki, ədalət tərəfdarı olan bir xalq kimi sizin elminiz olsun və ədalətin bayrağını ələ alasınız, elmlə ədaləti yüksəldəsiniz. Deməli, birincisi elmdir. Dərs oxuyun, işləyin, müxtəlif fənlərdə elmi baxımdan özünüzü hazırlayın.[2]

**Dinlə birgə elm öyrənmək**

Mənim əzizlərim! Çalışın dini ruhiyyənizi və imanınızı gücləndirin. Elm o zaman işə yarayacaq ki, dinlə yanaşı olsun. Sizin yaxşı dininiz var. Bu dində yaxşı mənəviyyat və paklıq var.[3]

**Dini və siyasi dərklə birgə elm öyrənmək**

Əziz gənclər! Gənclik dövrünün ən gözəl və ən faydalı fəsillərindən olan həyəcanlı təhsil səhnəsində iştirak etmək islami fəaliyyətlərlə, düzgün dini və siyasi dərk və biliyin

---

[1] Tehran Universiteti tələbələrinin İslam birliyinin üzvləri il görüşdəki çıxışdan; 1996

[2] Kəhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdəki çıxışdan; 1994

[3] Kəhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdəki çıxışdan; 1994

artırılması yolunda çalışmaqla birgə olduqda, ölkənin gənc nəsli üçün ən üstün mənəvi sərvətlərdən biri yaranacaq.[1]

**Elm öyrənmək və imanı artırmaq**

Siz öz həyatınızın bahar çağında elm öyrənməklə məşğulsunuz. Əvvəla bunu mühüm sayın və bacardığınız qədər ondan bəhrələnin. İkincisi isə imanı dərinləşdirməyə, dini inanca nail olmağa və qəlbin paklığını qorumağa çalışmaq da gənclikdə digər dövrlərdən daha asandır. Bunun üçün də lazımi səyinizi göstərin.[2]

**Gənclərin universitetdə etikafı**

İslam Respublikası quruluşu və İran xalqı üçün doğrudan da bir fəxrdir ki, rəcəb ayının ortasında İranın ən böyük universiteti olan Tehran Universitetinin məscidində tələbələr etikaf edirlər. Bu çox əhəmiyyətli bir məsələdir, çox möhtəşəm bir hadisədir. Mən eşidəndə doğrudan da heyrətə gəldim. Bilirsiniz o məscid haradadır və o universitet kimlərin əli ilə yaradılıb? Dindar tələbələrin o universitetdə, o məscidin içində etikaf etməsi onların qəbirdəki bədənlərini titrədir. Onlar elə bilirdilər ki, universitet gələcəkdə bütün İran xalqını dindən ayırmaq üçün yetər. İndi bu məsciddə gənc tələbələr oturur, üç gün oruc tutur və etikaf edirlər. Bu çox əhəmiyyətlidir. Bu işləri bacardığınız qədər daha da artırın [3].

**Əməllə yanaşı olan elmin hətta ölümdən sonra da faydalı olması**

Siz on illərlə bu dünyada yaşayacaqsınız. Odur ki, özünüzü elm baxımından hazırlayın. Elm insan üçün ömrün sonuna qədər faydalı olan məsələlərdəndir. Əgər bu elmin ardınca

---

[1] Tələbələrin İslam cəmiyyətinin ikinci konfransına müraciətdən; 1998

[2] Avropada təhsil alan iranlı tələbələrin İslam Birlikləri İttifaqının illik iclasına müraciətdən; 1999

[3] Qum şəhərində ölkənin bir çox tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1995

yaxşı və həmişəyaşar əməl də olsa, ölümdən sonra üçün də faydalı olacaq. Dərs oxumaq sizin üçün ən vacib əməldir.[1]

**Elm və imandan qaynaqlanan iradə**

Əzizlər! zaman ötdükcə bu həqiqət aşkarlanır ki, bizim xalqımızın və İslam vətənimizin gələcəyi elm və imandan qaynaqlanan iradələrdən asılıdır. Keçmiş zamanlarda bizim başımıza gələnlər bu üç amilin birinin olmamasından yaranmışdır: iman, elm və bu iki amilə söykənən əzmkarlıq və iradə. Siz öz həyatınızın bahar çağında elm öyrənməklə məşğulsunuz. Əvvəla bunu mühüm sayın və bacardığınız qədər ondan bəhrələnin. İkincisi isə imanı dərinləşdirməyə, dini inanca nail olmağa və qəlbin paklığını qorumağa çalışmaq da gənclikdə digər dövrlərdən daha asandır. Bunun üçün də lazımi səyinizi göstərin. Üçüncüsü isə öz vətəninizin vəziyyətini araşdırmaqdan və rəşadətli, mömin və aydın baxışlı xalqın məşğul olduğu böyük problemdən qafil olmayın. Bu zehni rabitə şübhəsiz, hər bir azad və şərafətli insanın İran xalqının uca gələcək qurmaq yolundakı böyük cihadına qoşulmaq əzmkarlığını möhkəm və sarsılmaz edəcək. Siz və gəlməkdə olan mömin və işgüzar gənc nəsil Allahın istəyi ilə İran İslam Respublikasının müstəqlliyini və azadlığını hədəf seçmiş bütün bədxah insanlara qələbə çalacaqsınız inşaallah. Sizin üçün Allahın uğurlarını və həzrət Bəqiyyətullahın (ə) duasını arzu edirəm.[2]

## *Siyasət və idarəçilik sahəsi*

**Vilayət və rəhbərlik**

**İmamın əsgərləri**

---

[1] Ölkə üzrə şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdəki çıxışdan; 2000

[2] Avropada təhsil alan iranlı tələbələrin İslam Birlikləri İttifaqının illik iclasına müraciətdən; 1999

Bütün xalq, xüsusən də əziz gənclər və yeniyetmələr özlərini sevimli imamlarının əsgəri bilsinlər. Allaha arxalanmaqla və Allahın böyük vəlisi olan həzrət Mehdidən (ə) yardım istəməklə, qüvvə və qüdrətlə imamlarının uca məqsədlərinə sarı hərəkət etsinlər və bilsinlər ki, son qələbə onlarındır.[1]

**Gənclərin və rəhbərin qarşılıqlı sevgisi**

Gənc çiçəklənməkdə olan yeni ağac və əksər yaxşılıqların, gözəlliklərin və nurluluqların cəm olduğu şəxsdir. Siz əziz gənclərdə müşahidə olunan bu paklıq və məhəbbətin qaynağı pak və nurlu gənclik qəlbidir. Mən sizə deyim ki, mənim əzizlərim, bu məhəbbət qarşılıqlıdır. Qoca atanız kimi mənim də ürəyim siz gənclərə məhəbbətlə doludur. [2]

**Gənc - rəhbərin əsas müraciət tərəfi**

Mənim əsas müraciət tərəfim gənc təbəqə və gənc təbəqə arasında alimlər, seçilmişlər, elm, mədəniyyət, maarif, tədqiqat, demək, anlamaq və irəliləmək adamlarıdır.[3]

**Gənclərin ürəyinin fəthi**

İmamın rəhbərliyi, xalqın çox böyük əksəriyyətinin dəstəyi və gənclərin canfəşanlığı ilə əzəmətli xalq qiyamı və dünyada bənzərsiz olan o hərəkət, yəni bizim İslam inqilabımız qələbəyə çatdı. Bu bir fəth idi. Həm imperializmlə mübarizə meydanının fəthi idi, həm də ondan üstünü, gənclərin qəlbinin fəthi idi. Bunu İslam, inqilab və imam etdi. Bu, fəthlər fəthi idi. İmamın ən böyük işi gəncləri belə yetişdirmək idi [4].

---

[1] İmam Xomeyninin vəfatının birinci ildönümü münasibəti ilə müraciətdən; 1990

[2] Ölkə üzrə şagirdlərin İslam Birlikləri İttifaqının üzvləri ilə görüşdəki çıxışdan; 2000

[3] Şərif Sənaye Universitetindəki görüşdəki çıxışdan; 1999

[4] 4 Noyabr - Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

## Siyasi baxış

### Gənclər inqilabın əsas təməlləri kimi

Siz tələbələr, şagirdlər və gənclər gələcək nəsil və sonrakı dövr üçün inqilabın əsas təməllərisiniz. Bu gün də sizin inqilabda çoxlu təsiriniz var, çünki gəncsiniz. Siz bu gün də siyasi, hərbi quruculuq və digər hər hansı bir sahədə iştirak etmək istəsəniz, inqilabın aktiv elementləri olarsınız. Siz sabah inqilabın təməlləri olacaqsınız. Bu gün təsirli elementlərsiniz, lakin sabah inqilabın sütunları olacaqsınız. Çalışın inqilabı köklü surətdə, onun elmi və məntiqi əsasları ilə düzgün tanıyın [1].

### İnqilab hadisələrinin və məfhumlarının dərki

Ölkənin taleyini düşünməyən, dünyada ölkəsi əleyhinə koordinasiya olunan hadisələri və düşmənçilikləri görməyən, onlara qarşı coşmayan bir gənc özünə inqilabçı bir xalqın gənc vətəndaşı adını qoymağa layiq deyil. Gəncin ruhu çətin dönəmlərdə ölkənin və xalqın dadına çatan və onları xilas edən aktiv ruhdur. Bugünkü nəslin gənci Rza xanın və Məhəmmədrza şahın qorxulu və qapalı qara dövründə yaşamadığı üçün bəxtəvərdir. O zamanın gənclərinin çəkdiyi çətinliklər heç zaman bugünkü gənclərin yadından çıxmamalıdır. Əlbəttə, bu fədakarlıq təkcə bizim millətə məxsus deyildir. Digər xalqların gəncləri və yeniyetmələri də ölkələrinin işğalı, yaxud xalqlarına hakim olan qapalı və qorxunc dövrdə fədakarlıq etmişlər. Bu gün siz gənclərin vəzifəsi budur ki, inqilabı bütün vücudunuzla, ruhunuzun dərinliklərinə qədər aparasınız. İnqilab anlayışını və onun fikir təməllərini dərindən dərk edəsiniz, bu xalqın ehtiyaclı olduğu və iki səhnədə mübarizə apardığı vaxt üçün özünüzdə saxlayasınız. Birinci səhnə inqilabı iqtisadi, hərbi və ya siyasi

---

[1] Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərin toplandığı görüşdəki çıxışdan; 1989

baxımdan təhdid edən səhnədir. Siz o ehtiyatı inqilabı və ölkəmizi, zamanın və mövqeyin tələblərinə uyğun şəkildə qorumaq üçün işlətməlisiniz. İkinci səhnə quruculuq səhnəsidir. Ən yaxşı qurucular inqilabçı qurucular. [1]

**Tələbələri qeyri-siyasi etmək**

Bizim gənc təbəqəmizi, bizim universitetimizi qeyri-siyasi yetişdirməyə çalışmış və indi də çalışan əllərə Allah lənət eləsin! Gənclərinin ümumiyyətlə siyasi məsələlərdən xəbəri olmayan, dünyanın siyasi hadisələrini və cərəyanlarını anlamayan və düzgün təhlil edə bilməyən bir ölkə məgər xalqa arxalanıb hökumət, hərəkət, mübarizə və cihad edə bilər?[2]

**Yanlış siyasi təfəkkürlər**

İnqilabın əvvəllərində bu ölkədə bir qrup gənc tapıldı. Onlar əllərinə silah götürüb şərqin və qərbin mübarizə apardığı inqilabçı dövlətlə vuruşdular. Düşmən bu yazıqların və uşaqların beyninə yanlış siyasi fikir yeritmişdi.

Bu Tehran Universitetində 1979-1980-ci illərdə tələbələr səngər düzəldib, silah götürüb inqilabçı dövlətə və xalqa atırdı. Bu iş hansı meyarla başadüşüləndir və inanılasıdır?! İnqilabın düşmənləri qarşısında sinəsini sipər etməli və bu inqilabın balasının siparinə çevrilməli olan bir tələbənin özü bu inqilabın canının bəlasına çevrilir. Bu ümumiyyətlə inanılası deyil. Lakin baş verdi.[3]

**Gəncin sayıqlığı, ağıllılığı və səbri - ölkənin abadlıq amili**

Bir kəlmə də siz gənclərə deyim. Əziz gənclər! Siz inqilabın və İslamın ümidlərisiniz. Sizin rəftarınız bu məmləkəti çiçəklənmək istiqamətində sürətlə irəliyə apara

---

[1] Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərin toplandığı görüşdəki çıxışdan; 1989

[2] Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1993

[3] Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərin toplandığı görüşdəki çıxışdan; 1989

bilər. Məmləkətin gənci ağıllı, sayıq, səbirli və mövqelərə diqqətlə danışsa, qərar versə və əməl etsə, ölkə gülüstana çevriləcək, kor həyəcanlar meydana girdikdə isə düşmən tez istifadə edəcək.[1]

**Fəal, iffətli və sayıq gənc - tarixi sığortalayan amil**

Aktiv, həvəskar, ümidli və iffətli gənc bir tarixi sığortalaya bilər. Məhz buna görə sionistlər, müstəmləkəçilər və dünyanın iri şirkət sahibləri illərlə dünya ölkələrinin gəncləri üzərində işləmiş və gənc nəsilləri fəsada uğratmağa çalışmışlar. Çalışmışlar ki, iradə və ümidi onlardan alsınlar, gələcəyi qaranlıq göstərib, onları məyus etsinlər, əsəbi və əxlaqi problemlərə düçar etsinlər. Dünyada gördükləriniz təsadüfi deyil. Bizim ölkəmizin əziz gənc və yeniyetmələri olan sizlər üçün də çox yuxular görüblər, çox planlar cızıblar. Lakin Allaha həmd olsun ki, bacarmayıblar. Əlbəttə, bacarmamaları sizin sayıqlığınıza görədir.[2]

**Siyasi dərkin zəruriliyi**

Ən savadlı alimlərin də əgər siyasi beyni və siyasi dərki olmasa, bir şirniyyatla düşmənə sarı gedib ona cəlb olunarlar. Bu incə məqamları bizim gənclərimiz dərk etməlidirlər.[3]

**Düzgün xəbərlərlə siyasi təhlil**

Mənim gənclərə tövsiyəm budur ki, qulaqları ümumiyyətlə bu cinah davalarında olmasın. Bizim fikrimizcə eyibli olan bəzi məsələlər barəsində biz tələbələr, biz gənclər, biz xüsusi toplum müzakirə aparaq, yoxsa aparmayaq? Xeyr, mən demirəm ki, müzakirə aparmayaq. Müzakirə aparın, lakin çalışın müzakirəniz obyektiv olsun, yəni zehni olmasın. Gənclər xüsusən universitetdə söhbət etsinlər, müzakirə aparsınlar, lakin çalışsınlar ki, onların təhlillərinə düzgün

---

[1] Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan; 1999
[2] Tehranın 1000-ci cümə namazı xütbələrindən; 1998
[3] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1996

xəbərlər və reallıqlar kölgə, yaxud daha yaxşı təbirlə desək, şüa salsın və təhlillər doğru olsun.[1]

**Siyasi baxışın olmaması - aldanmaq vasitəsi**

Amerikanın qorxduğu hətta siyasi çıxışlar da deyil. Əlbəttə, siz siyasi təhlil qabiliyyəti əldə etməlisiniz. Gənclərin və xalqın siyasi görüşü olmasa, aldanarlar, onları səhnədən çıxararlar və din aləti ilə onları kənara çəkərlər.[2]

**Siyasi məlumatı gücləndirmək**

Özünüzdə siyasi dərki gücləndirin ki, düşmənin təbliğatına aldanmayasınız. Bu da əsaslı bir sütundur. Buna göz yummaq olmaz. Elm öyrənməklə məşğul olan siz gənclər, özəlliklə xalqın birliyini və vəhdətini dəyərli bilin. Ehtiyatlı olun ki, sinif maraqları, partiya maraqları, qrup, üslub və istiqamət maraqları sizi bir kənara çəkməsin. Bunlar şeytanın işidir və böyük şeytanın çox xoşu gəlir.

Diqqətli olun ki, bu gün əgər kiminsə dilində təsadüfən müxalif hava çıxsa (nəinki kimsə bilərəkdən və diqqətlə bunu etsə), sabah beynəlxalq siqnallar onu yayacaq; kim olursa olsun. Nə üçün? Çünki onu deyənlə işləri yoxdur. Bu ölkədə müxalif havanın özü onlar üçün əhəmiyyətlidir.[3]

**"Dünya hegemonluğuna qarşı mübarizə"nin izahı**

Siz tam sayıq olmalısınız. Bu, bizim gənc nəsildən gözlədiyimizdir. "Hegemonluğa ölüm!", yaxud "Amerikaya ölüm!" deməklə kifayətlənməməliyik. Bu bir şüardır, lazımdır və var. Lakin məsələ bununla bitmir. Şüarla birgə lazım olduğunu dediyimiz əməllərdən biri də bu şüar əsasında işləməkdir. Siz gənclər bir yerdə əyləşin, bir-birinizlə söhbət

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[2] 4 Noyabr - Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

[3] Amerikanın casus yuvasının tutulmasının ildönümü və Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü ərəfəsindəki çıxışdan; 1994

edin. Mən universitetin və gənc mühitinin siyasi olmasını dedikdə bunu nəzərdə tuturam. Bu xalqın və bu ölkənin yolunu göstərən bir bayraq kimi olan bu məsələni, yəni beynəlxalq hegemonluqla mübarizəni bəyan edin və araşdırın.[1]

## Dindarlıq və siyasət

### Haqq və batilin qarışması və haqqı tanımaq üçün agahlığa ehtiyac

Hər bir inqilabın çətin dövrü onda haqq və batilin qarışdığı dövrdür. Əmirəl-möminin (ə) bundan nalə edir. Peyğəmbər (s) dövründə belə deyildi. Peyğəmbər (s) dövründə sıralar bəlli və aydın idi. O tərəfdə kafirlər, müşriklər və Məkkə əhalisi idi, mühacirlərin hər birisinin xatirəsi olan şəxslər idi: o, filan zaman məni vurdu, o məni zindana saldı, o mənim mallarımı qarət etdi... Buna əsasən, şübhə yox idi. Yəhudilər vardı. Bütün Mədinə əhalisinin – mühacir və ənsarın işləri ilə tanış olduğu təxribatçılar vardı. Bəni-Qüreyzə döyüşü baş verdi. Peyğəmbərin (s) əmrilə böyük bir hissənin boynu vuruldu. Heç kəs qaşını çatmadı və "nə üçün" demədi. Çünki səhnə aydın səhnə idi, onda toz-duman yox idi. Belə yerdə müharibə asandır, imanı qorumaq da asandır. Lakin Əmirəl-mömininin (ə) dövründə Əlinin (ə) qarşısında kimlər dayandılar? Elə bilirsiniz zarafatdır?! Elə bilirsiniz Abdullah ibn Məsud kimi böyük bir səhabənin, bəzilərinin nəql etdiyinə əsasən, Əmirəl-mömininin (ə) vilayətinə sadiq qalmaması və yoldan yayınmış sayılması asan idi?! Bu Rəbi ibn Xüseym və Siffeyn döyüşündə olanlar gəlib dedilər ki, biz bu müharibədən rahatsızıq, icazə ver sərhədlərə gedib müharibə edək. Rəvayətdə belə göstərilir: "Abdullah ibn Məsudun səhabələrindən". Belə yerdə məsələ çətinləşir.

---

[1] Tələbələr, şagirdlər, müəllimlər və nümayəndəlik başçıları ilə görüşdəki çıxışdan; 1996

Toz-duman kəskinləşəndə olur İmam Həsənin (ə) dövrü və siz nə baş verdiyini görürsünüz. Əmirəl-mömininin (ə) dövründə yenə də toz-duman bir qədər xəfif idi, Əmirəl-möminin (ə) cəbhəsinin böyük ifşaçısı olan Əmmar Yasir kimi şəxslər vardı. Harada bir hadisə baş versəydi, Əmmar Yasir və Peyğəmbərin (s) digər böyük səhabələri gedib danışır və izah edirdilər. Ən azı bəziləri üçün şübhələr aradan qalxırdı. Lakin İmam Həsənin (ə) dövründə belə də deyildi, o da yox idi. Şübhə dövründə, aydın bilinməyən kafirlə və şüarları öz məqsədlərinə tətbiq etməyi bacaran şəxslərlə müharibə çox-çox çətindir. Sayıq olmaq lazımdır.

Allaha həmd olsun ki, biz hələ elə dövrdə deyilik. Hələ sıralar aydındır. Hələ prinsip və həqiqətlərin çoxusu aydın və bəllidir. Amma əmin olmayın ki, həmişə belə olacaq. Siz sayıq olmalısınız. Sizin bəsirət gözünüz olmalıdır. Siz bilməlisiniz ki, əlləriniz Allahın ixtiyarındadır, yoxsa yox. Bu, bəsirət istəyir. Buna əhəmiyyətsiz yanaşmayın.[1]

**Məmləkətin gələcəyi dindar və mütəfəkkir gəncin əlində**

Bu günün gənci əgər dindar, mənəviyyatlı, mərifətli, düşünən və bu mənada təqvalı olsa (yəni hesabla, diqqətlə və düşüncə ilə fikirləşsə, qərar versə və addım atsa), ölkənin gələcəyi ona məxsusdur.

Əksinə, əgər ölkənin gənci avaralıqla, dinin və inqilabın prinsiplərinə və həqiqi şüarlarına etinasızlıqla, xəbərsizliklə, ölkənin və dünyanın müxtəlif məsələlərinə dair təhlildən uzaq inkişaf etsə, əgər dərs oxusa da, bu, ölkənin xeyrinə tamalanmayacaq və ölkənin uğurlu gələcəyi təmin olunmayacaq [2].

**Gənclərin əzəmətinin lazımi xislətləri**

---

[1] Fəqih Rəhbərin Keşikçilər Korpusundakı nümayəndəliklərinin məsul şəxslərinin və korpus komandirlərin dördüncü iclasında çıxışdan; 1991

[2] Tehran şəhəri universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1999

İndiki nəsli ucalığa və əzəmətə çatdıra biləcək aşağıdakı xislətləri öyrənmək lazımdır: dindarlıq, elm öyrənmək, işçi və intizam vicdanı, şücaət, iffət, alicənablıq, siyasi agahlıq, inqilabçı ixlas, əmanətdarlıq, məhəbbət, qardaşlıq, müstəqillik və azad təbiətlilik.[1]

## Azadlıq

### Səadət və azadlıq bayrağını ucaltmaq

Bu dövrdə müsəlmanlıq - səadətdən, azadlıqdan, xeyir-bərəkətdən və əsarət zəncirlərini qırmaqdan ibarət olan bayrağı ucaltmaqdır. Bu qədər faydaları olan bir bayrağı ucaltmaq asan deyil, müqavimət lazımdır.

Bizim xalqımızın müxtəlif təbəqələrində, xüsusən də gənclərimizdə olan bu şücaət ruhiyyəsi ilə, Allaha təvəkküllə, bu qəhrəmanlıq və coşqunluqla bu xalq qalib olacaq, öz məqsədlərinə çatacaq və düşmənlərini diz çökürdəcək.[2]

### Müharibə və əsarətin çətin imtahanı

Hövzənin bəzi gənc tələbələri elmi hövzələrdən müharibə meydanına getdilər, ağır müharibə dövründən sonra əsirlik sınağını da uğurla başa çatdırdılar, ruhaniliyə eşq və ümidlə özlərinin uca yurdlarına döndülər. Bu çox əzəmətli, möhtəşəm və tarixi bir hadisədr. Mən deyərdim ki, şiəliyin və dinin fiqh elminin və din alimlərinin min ilə yaxın, yaxud daha artıq sürən faydalı ömrü boyunca belə bir hal görünməmişdir. Odur ki, mən bunu yaxşı əlamət kimi qəbul edirəm, bu toplumu çox əhəmiyyətli toplum sayıram və ümidvaram ki, İslam dünyası və müsəlman xalqlar gələcəkdə sizin bu toplumunuzun faydalarını bütün vücudları ilə hiss etinslər.[3]

---

[1] Rəhbərin cənab Əli Laricaniyə dair sərəncamından; 1999

[2] Həzrət Əlinin (ə) doğum günü münasibəti ilə xalqla görüşdəki çıxışdan; 1992

[3] Əsirlikdən azad olmuş ruhani və hövzə tələbələrilə görüşdəki çıxışdan; 1990

**Gəncin zülmə qarşı çıxması**

Gəncin təbiəti zülmə qarşı çıxmaq və şiddətə qarşı mübarizə aparmaqdır. Gəncin xisləti belədir ki, beynəlxalq səhnədə və varlıq aləmində varlığının əsası zülmdən ibarət olan (sionist rejiminin və quruluşunun əsası zülmdür) bir dövlət görsə, ona qarşı çıxacaq.

...Gəncin xisləti belədir. Gənc zülmə qarşıdır. Gənc quldurluqla, haqsızlıqla, zülm və zorakılıqla müxalifdir. Bizim ölkənin gəncinə heç bir təbliğat olunmasa da, Amerikanın bizim ölkəmizə, Orta Şərq ölkələrinə, inqilaba və bizim keçmişimizə nə etdiyini bilməsi ona qarşı çıxması üçün yetər. Yəni Amerika, sionizm, təcavüzkar və zülmkar qarşısında mövqe seçmək üçün kiminsə gəncə "bunu et" deməsinə ehtiyac yoxdur. Gənci buna vadar etməyə lüzum yoxdur. Gəncin xisləti belədir.[1]

**Bir xalqa ən böyük hörmətsizlik: əcnəbiyə təslim olmaq**

Lakin xalq, xüsusən də gənclər - tələbələr, şagirdlər və digər gənc təbəqələr harada olsalar, bir xalq üçün ən böyük hörmətsizliyin əcnəbinin hegemonçu qüvvəsinə təslim olmaqdan ibarət olduğunu dərk edirlər.[2]

**Amalların keşiyini çəkmək**

**Gəncin real və canlı amalları**

İnsan həyatın adi işində olduqda bəzən hansısa maneələr onun gözünün qarşısını tutur, amalları çox uzaqda və insan üçün əlçatmaz göstərir. Bu böyük bir təhlükədir. Bəzən amallar unudulur. Gənc mühitində amallar hiss olunur, yaşanır, canlı və əlçatandır.[3]

**İxlaslı mömin gənc - inqilab dəyərlərinin müdafiəçisi**

---

[1] Tehran şəhəri universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1999

[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

[3] Şərif Sənaye Universitetindəki görüşdəki çıxışdan; 1999

Dünyaya və şəxsi maraqlarına könül verməyən mömin gənc dayanıb dəyərləri müdafiə edə bilər. Özü bulanıq və əsir olan şəxs dəyərləri müdafiə edə bilməz. İnqilabı, İslamı və İslamın dəyərlərini müdafiə edə bilən bu ixlaslı gəncdir.[1]

**Gənclərin fəallığı və inqilabın heybəti**

Siz əziz gənclər həmişə inqilabın ən səmimi müraciət obyektləri olmusunuz. Sizin gözəl cavab sədanız həmişə inqilabın nəfəsini təzələmiş, fəryadlarını bir-birinə qoşmuş və inqilabın heybətini düşmənə göstərmişdir.[2]

**İnqilabın şüarlarını uca tutmaq**

Əzizlər! Bu ölkənin yüksəlişi, başucalığı və abadlığı yolunda əlamət bayraqları olan inqilab şüarlarını uca tutun, bütün vücudunuzla onu müdafiə edin, bəzən öz libasımızda olan və öz dilimizdə danışan əcnəbilərin ona qarşı səhlənkarlığına dözməyin.[3]

**İnqilabın gənclərə təsiri**

Əgər siz İslam inqilabının bu parlaq ulduzlarına - yəni indi döyüş cəbhələrində şəhidliyi belə qarşılayan gənclərə baxsanız, görərsiniz ki, onların ibadəti, itaətkarlığı və bu gün simalarında görünən bu səcdə əlamətləri keçmişdə belə parlaq və əzəmətli olmamışdır. Bizim İslam inqilabımız bir iksir sayağı bu insanları elə dəyişdirməyə qadir oldu ki, inqilabın rəhbəri və dünya məzlumlarının ümidi uzaqdan bu gənclərin əllərini öpdü və bununla fəxr etdi.[4]

**Düşmən qarşısında müqavimət və ölkəni müdafiə**

---

[1] Bəsic batalyonlarının komandirləri ilə görüşdəki çıxışdan; 1992

[2] Ölkə tələbələrinin birinci şeir və ədəbiyyat konfransına müraciətdən; 1984

[3] Ölkənin İslam birlikləri üzvlərinin Təbrizdə keçirilən toplantısı münasibəti ilə müraciətdən; 1998

[4] Tehranda keçirilən insani resursların yenidən qurulması heyətlərinin seminarına müraciətdən; 1982

İran ölkəsini və İslamı təhdid edən düşmənlər qarşısında siz igid cavanlar güclü iradənizlə, şövq və igidliklə dayanmalısınız. Ölkənin müstəqilliyi sizdən asılıdır. Ölkəni müdafiə sizin kimi qeyrətli və iradəli gənclərin öhdəsinə düşür.[1]

**İslam inqilabını müdafiə**

Məcburən qatıldığımız səkkizillik bu uzun müharibəni bu məmləkətin gəncləri nəticəyə çatdırdılar. Bu gün də gənclər Allah yolunda və İslam yolundadırlar. Əgər bu gün də bu inqilabı hər hansı bir təhlükə təhdid etsə, meydana qoşulan ilk şəxslər bu gənclər olacaqlar; hövzələrin gəncləri, universitetlərin gəncləri, bütün ölkənin və müxtəlif təbəqələrin gəncləri.[2]

**Müqaviməti və birliyi qorumaq, inqilab səhnələrində iştirak etmək**

Bu müqaviməti qoruyun, bu dirənişi faydalı sayın! Müqavimətinizlə, birliyinizlə, ölkənin müxtəlif siyasi, iqtisadi, quruculuq və idarə sahələrində iştirakınızla, işləri irəliyə aparmanızla və məmurların arxasında durmanızla İslama verdiyiniz hörməti davamlı edin! Siz İslamı diriltdiniz.[3]

**Mömin gəncin düşmənin təxribatı qarşısında sayıq olması**

Bu gün inqilabdan zərbə görənlər, İslam Respublikası quruluşunun yaranması ilə bu ölkədən qarət süfrələri yığışılanlar gənclərin üzərində mərkəzləşmişlər. Dəfələrlə demiş və təkrar etmişlər ki, İranda gördükləri iş mədəni işdir, siyasi iş də deyil. Mədəni iş nədir? Yəni elə bir iş görmək istəyirlər ki, bu gün siz gənclərdə mövcud olan bu iman, bu

---

[1] Buşəhr şəhərinin Leylək kəndinin əhalisi ilə görüşdəki çıxışdan; 1992

[2] Müqəddəs məqbərədə İmam Xomeyninin vəfatının ildönümü tədbirində çıxışdan; 1998

[3] Buşəhr vilayətinin hörmətli şəhid ailələri, əlilləri və əsirlikdən azad olunmuş şəxsləri ilə görüşdəki çıxışdan; 1992

şövq və eşq, bu nuranilik və paklıq İranın gənc nəslində məhv olsun. Onların planı budur və mən qətiyyətlə deyirəm ki, onlar müvəffəq olmayacaqlar.

Bizim gəncimiz oyaqdır. Bizim oğlan və qızımız sayıqdır. Şagirdlərimiz, universitet tələbələrimiz və elmi hövzələrdə olan digər gənclərimiz oyaqdırlar. Bu oyanışı da bu ölkəyə və bu gənclərə İslam və inqilab vermişdir. Məktəblərin və universitetlərin içinə girməyə çalışırlar. Onların ilk addımı da budur ki, gənci cinsi özbaşınalığa və fəsada çəksinlər, onda olan həya işığını öldürsünlər. Siz onların məlumatsız və qafil adamları vasitəsilə məktəblərdə nə işlər gördüyünü yəqin ki, məndən yaxşı bilirsiniz. Bugünkü mömin, dindar və sayıq gənc bu təxribatların qarşısında oyaqdır. Harada düşmənin əlamətini və barmağını görsə, onu ayaqları altında tapdayıb əzəcək.[1]

## Tənqidçilik ruhiyyəsi

### Məchul məsələlərə cavab istəyi

Gənc öz gənclik dövründə - istər həddi-büluğun əvvəllərində və istərsə də sonralar çoxlu məchul məsələlərlə qarşı-qarşıya dayanır, onun üçün sual doğuran yeni məsələlər ortaya çıxır, zehnində şübhələr və suallar yaranır. O bu şübhələrə və suallara cavab verilməsini istəyir. Bir çox yerlərdə bunlara zamanında və ürəkaçan cavab verilmir. Odur ki, gənc boşluq və anlaşılmazlıq hiss edir.[2]

### Problemlər qarşısında həssas və nigaran olmaq

Biz sizin problemlərdən nigaran olmanıza sevinirik; bunu bilin. Biz siz gənclərin ümumiyyətlə nigaranlığının

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[2] Aşuraçı gənclərin toplantısındakı çıxışdan; 2000

olmadığını, cəmiyyətdə baş verənlərə qarşı biganə yanaşdığını gördükdə nigaran oluruq.[1]

**Həqiqi və mücadilədən uzaq müzakirə**

Mən əvvəldə bir məqamı deyim. O da budur ki, məncə quruluşun tanınmış məmurlarına və ağır vəzifəni öhdəsinə götürən şəxslərə etimad etmək lazımdır. Baxın, siz bir avtobusa minmisiniz. Təbii ki, bu avtobus bəzən sürətlə gedəcək, bəzən yavaş gedəcək, vəzən dönəcək, bəzən qarşıdakı avtomobili ötəcək, bəzən isə ötməyəcək. Əgər bunların hər birində sürücüyə "cənab, bu dəfə nə üçün ayağını tormoza qoydun?", "nə üçün sürətini dəyişdin?", "nə üçün bu tərəfə getdin?" -  desək, düzgün deyil. Etimad etmək lazımdır. Oturub bir adamı qəbul etdiksə və burada bu məsuliyyəti yerinə yetirməsini istədiksə, təbii ki, etimad lazımdır.

Bizim fikrimizcə eyibli olan bəzi məsələlər barəsində biz tələbələr, biz gənclər, biz xüsusi toplum müzakirə aparaq, yoxsa aparmayaq? Xeyr, mən demirəm ki, müzakirə aparmayaq. Mənim fikrim budur ki, müzakirə aparın, lakin çalışın müzakirəniz obyektiv olsun, yəni zehni olmasın. Reallıqlarla,  xəbərlərlə və həqiqətlərlə uyuşmayan və yalnız təhlilə əsaslanan zehni məsələlər çox azdırıcıdır.

İkinci məqam budur ki, müzakirələrin mücadiləyə çevrilməsinə imkan verməyin. Mücadilə pisdir. İslam təbirlərində bu pis mücadiləyə Mira deyirlər. Mira – daim öz məlumatını gözə soxmaq və mübahisədə mütləq öz sözünü yeritməkdir. Bu iş şəriətdə çox qınanmışdır. Əqli baxımdan da bəyənilmir. Əgər bu iki məqama riayət etsəniz, məncə nə qədər oturub fikirləşsəniz, müzakirə etsəniz, böyük toplantılar təşkil etsəniz və bir-birinizlə mübahisə etsəniz, yaxşıdır. Bu, zehinləri işıqlandırıb təmizləyəcək.[2]

---

[1] Tehran Universiteti tələbələrinin İslam birliyinin üzvləri il görüşdəki çıxışdan; 1996

[2] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

**Beynəlxalq siyasət**

**Siyasi təfəkkür və təhlil**

Mənim ürəyim istəyir ki, bizim bu gənclərimiz, siz tələbələr, oğlanlar və qızlar, hətta məktəb şagirdləri də dünyanın ən xırda siyasi hadisələri üzərində fikirləşib təhlil edəsiniz. İrəli sürdüyünüz təhlil düz olmasa da, eybi yoxdur.[1]

**İmperializmin və mübarizənin mənasını dərk etmək**

Yaxşı olar ki, əziz gənclər həm hegemonluq sözünü, həm də mübarizə sözünü öz tələbə və şagird müzakirələrində araşdırsınlar, inqilabın dünyanın siyasi leksikonuna daxil etdiyi yeni terminin dərinliyinə varsınlar.[2]

**Zehni inkişaf etdirmək üçün siyasi təhlil**

Düzgün formada və zehni inkişaf etdirən siyasi təhlil olduqca mühüm bir şeydir. Zehin inkişaf etdirilməlidir.[3]

***Mədəniyyət və sivilizasiya sahəsi***

**Milli və dini birlik**

**Xalq və hökumət bir-birinin yanında**

Bu gün gənci, inqilabın məsul şəxslərindən, öncüllərindən və ölkənin rəhbərlərindən ayrı olduğunu duymağa düçar edən hər bir fikir, təlqin edilən yanlış siyasi təfəkkürlərdəndir. Bu gün xalq və iqtidar əl-ələ verib və bir-birinin yanında dayanıb bütün gücləri ilə müstəmləkəçiliyin və imperializmin bütün tilsimlərini qırmaq və məhv etmək üçün çalışmalıdırlar. Bu çox əhəmiyyətli və həssas bir səhnədir.[4]

**Söz birliyini qorumaq, imamı və şəhidləri yad etmək**

---

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1993

[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

[3] Fəqih Rəhbərin Keşikçilər Korpusundakı nümayəndəliklərinin məsul şəxslərinin və korpus komandirlərin dördüncü iclasında çıxışdan; 1991

[4] Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1989

Söz birliyini qoruyun! İmamın xatirəsini, inqilab öncüllərinin xatirəsini, böyük şəhidlərin xatirəsini, inqilabın və müharibənin möhtəşəm səhnələrinin xatirəsini universitetdə, hövzədə, iş və yaşayış yerlərinizdə dirçəldin! Əgər belə olsa, Allahın lütfü ilə gələcək illərdə və onilliklərdə burada və çoxlu digər yerlərdə uca sivilizasiyanın təməli elə qoyulacaq, İslam və müsəlmanların əzəməti elə aşkar olunacaq ki, daha beynəlxalq imperializm üçün heç bir həqiqət və gerçəklik qalmayacaq. Daha heç bir imperializm olmayacaq.[1]

**Söz birliyi qələbənin rəmzi kimi**

Söz birliyi hər bir xalqın qələbə rəmzidir. Bizim iniqlabımızın qələbə rəmzi də həqiqətən söz birliyi idi. Müharibədə qələbə rəmzi də söz birliyi idi. Müharibə bitdikdən bu günədək olan dövrdə, yəni quruculuq dövründə də qələbə rəmzi söz birliyi olmuşdur. Əgər bizim söz birliyimiz olmasa, əgər əzəmətli milli razılaşma nöqtəsi olmasa, bu xalqın bütün nailiyyətləri əldən çıxacaq. Xoşbəxtlikdən bizdə bu var və xalq onun ətrafında birləşmişdir. Siz baxın, nümayişlərdə, möhtəşəm xalq toplantılarında, xalqın müştərək şüarlarının və ümumi arzularının irəli sürüldüyü yerlərdə bütün təbəqələr necə aktiv iştirak edirlər və bir-biri ilə heç bir ixtilaf hissi keçirmirlər.[2]

**Məşhurlar və alimlər**

**“Bizim din alimlərimiz müxtəlif elmlərdə mütəxəssis idilər!”**

Bizim İbn Sinamız da belə idi. İbn Sina bir din alimidir. O müəyyən mənada ümumiyyətlə bir arifdir. Biruni də din

---

[1] Tələbələr, şagirdlər, müəllimlər və nümayəndəlik orqanının başçıları ilə görüşdəki çıxışdan; 1996

[2] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

alimidir. O, "Hindistan həqiqətləri" kitabını yazmışdır. Bilirsiniz ki, bu kitabın adı bir şeir beytindən götürülmüşdür.

O öz dövründə riyaziyyatda, astronomiyada və müxtəlif elmlərdə mütəxəssis idi. Kamil bir axund olan Şeyx Bəhai də belə idi. Şeyx Bəhainin dövründə din fənləri ruhani təbəqəsinin yoluna çevrilmişdi. Keçmişdə bu formada bir təbəqə olmamışdır. Bütün elmlərdə alim olan bir ruhani olmuşdur. Misal üçün, İbn Sinanın özünün fəlsəfə şagirdi də olmuşdur, tibb şagirdi də. Lakin Şeyx Bəhai ruhaniliyin sinif formasına düşdüyü bir dövrə aiddir. Yəni elə elmlərlə yanaşı, peşəkar bir minbər və mehrab axundudur.[1]

**Xalqların elmi keşmişinin və sivilizasiyasının inkarı**

Bu gün elm onların əlindədir. Bunda heç bir şübhə yoxdur. Lakin onlar xalqların elmi keçmişini də inkar etmək istəyirlər. Bəzi yerlərdə sivilizasiyaları da inkar edirlər. Bu qərblilər və avropalılar dünyanın bəzi nöqtələrinə, o cümlədən Latın Amerikasının bəzi bölgələrinə getdikdə bütün sivilizasiyanı inkar etdilər.[2]

**Bugünkü nəslin İranın elmi keçmişindən xəbərsiz olması**

Təəssüf ki, yeni nəsil bizim keçmişdə olan elmi nailiyyətlərimizdən xəbərsizdir. Siz hamınız elm adamlarısınız, bəlkə də bu məsələləri məndən daha yaxşi bilirsiniz. Bilirsiniz ki, İranın elmi keçmişi necə fəxrli bir keçmiş olmuşdur. Bəzən nəyinsə orta əsrlərə aid olduğunu deyirlər, amma bilmirlər ki, orta əsrlər Avropa üçün xəcalət əsridir. Bu, bizim üçün nur dövrüdür.

Siz hicrətin dördüncü əsrinə baxın. Adam Mitsin “Dördüncü hicri əsrində İslam mədəniyyəti” kitabı göstərir ki, bütün İslam məmləkətləri dünyanın elm bazarı idi və onun

---

[1] İran İslam Respublikası radiosunun Elm qrupunun üzvləri ilə görüşdəki çıxışdan; 1992

[2] İran İslam Respublikası radiosunun Elm qrupunun üzvləri ilə görüşdəki çıxışdan; 1992

əsas mərkəzi də İran idi, yəni İsfahan, Rey, Fars, Xorasan, Hərat, Mərv və s. Bu şəhərlər dünya elminin mərkəzi və onun zirvəsi olmuşdur. Amma təəssüf ki, bugünkü nəsil bunları bilmir. Əlbəttə, nəinki mənim dediyim bu sözləri bilmirlər, yox, bunları yüz dəfə eşidiblər, bütün kitablarda oxuyublar, hamı kitabında yazıb, hər yerdə danışılıb, amma buna inam yoxdur. Dillə deyilməsə də, bugünkü və bundan qabaqkı nəsildə İranın keçmişinə dair inamsızlıq haləti var. Səbəbi də budur ki, Qərb sivilizasiyası və bu nəhəng texnologiya hər yeri o qədər bürüyüb ki, heç kim öz şəcərənaməsinə baxmağa belə cürət etmir [1].

**Ölkənin elmi keçmişini xatırlatmaq**

İranda bu işləri görmək mümkün deyildi. Çünki bu qədər kitab, bu qədər elmi əsər, bu parlaq tarix mövcuddur. Bir iş görə bilməzdilər, amma təsirini beyinlərdən silmişlər. Siz bir iş görüb bunu qaytarmalısınız.[2]

**Xalqlar və firqələr**

**Qərbli gəncin əxlaq fəsadı, İranlı gəncin paklığı, saflığı və dindarlığı**

Gənc məsələsi hər bir cəmiyyətdə ən əhəmiyyətli məsələlərdəndir. Qərb ölkələrinin də bəzən dedikləri və bəzən gizlətdikləri problemlərdən biri onların gəncləridir.

Siz elə düşünməyin ki, istər qız, istər oğlan olan gənc məsələsi Qərb cəmiyyətlərində həll olunmuşdur. Xeyr, oranın min cavanı arasında bəlkə də bu qədər səfalı, nurani və pak olan bir nəfər də tapmaq olmaz.

Maddiyyata, pul və kapitalın dəyərinə və ehtirasın azadlığına söykənən quruluşların vəziyyəti bu gün görüb

---

[1] İran İslam Respublikası radiosunun Elm qrupunun üzvləri ilə görüşdəki çıxışdan; 1992

[2] İran İslam Respublikası radiosunun Elm qrupunun üzvləri ilə görüşdəki çıxışdan; 1992

təcrübə etdiklərindən başqa bir şey ola bilməz. Xalqların süqutu həmişə qəfildən olmur, tədricən həyata keçir. Bu tədrici məsələni qərbli mütəfəkkirlərin iti gözləri Amerikada və Avropada müşahidə edirlər. O cəmiyyətlərdə cavanlar pozğunçuluğa meyllilikIə, həyadan uzaq, cinayətkar və təcavüzkar ruhda tərbiyə alırlar, adətən əxlaqi pozğunluqlarda qərq olurlar.

Belə bir gənc nəsil elmin və sərvətin hansı səviyyədə olmasından asılı olmayaraq, yaşadıqları cəmiyyətin və quruluşun bünövrələrini qarışqatək çeynəyib məhv edəcək.

Bunun qarşı tərəfini siz bu gün öz ölkəmizdə müşahidə edirsiniz. Cavanların şövqü, paklığı, saflığı, onlarda olan iman və dindarlıq inqilabın ilk günlərindən indiyədək həmişə axmaqda, coşmaqda olan təmiz və coşqun çaya bənzəyir. Bizim ölkəmizin gənc və yeniyetmələri müharibə dövründə və ondan sonra öz saflıqlarını qoruya bildilər. Bunun əksini göstərən bəzi statistikalar düzgün deyil. Mən cavanlar arasında olan azğın cərəyanlardan xəbərsiz deyiləm, nə baş verdiyini bilirəm. Lakin bu köpüklərin, bu bulanıq lilin altında nəcibliyin və dindarlığın, təmizliyin və nuraniliyin əzəmətli və qüdrətli cərəyanını da müşahidə edirəm.[1]

**Qərbin xəstə gəncləri**

Siz gənclərin dünyada necə olduğunu bilirsiniz; rep qrupları və min cür əxlaq və fikir bəlaları. Dünya gəncləri doğrudan da min cür bəlalara düçar olmuşlar. İndi mövcud olan rep qrupları və bu kimi insanlar bizim dövrümüzdə də vardı. Bizim dövrümüzdə bitellər məşhur idi. İndi eşitmişəm ki, qocalıblar... Həmin psixoloji sıxıntı və problemlər onları belə işlərə çəkirdi. İndi geri qalmış və uzaq ölkələrdə onları yamsılayan şəxslər o yazıqların hansı xəstəliyə düçar

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

olduqlarını anlamırlar. Elə bilirlər ki, inkişafdır, halbuki bu bir tənəzzül və süqutdur.[1]

**Asiya və Afrikanın gənc nəslini fəsada çəkmək**

İslam ölkələrində gənc nəsli korlamaq üçün hərtərəfli proqram başlanıldı. Bilirsiniz ki, müstəmləkəçilik dövrü, yəni qərb ölkələrinin Asiya və Afrika ölkələrinə əl uzatması təxminən iki yüz il qabaqdan başlanıldı. Onlar bilirdilər ki, bu vəziyyət davam etməyəcək və əgər gənclər inkişaf edib mədəniyyətli və iradəli olsalar, əcnəbilərin və qarətçilərin boğazından su keçməsinə qoymayacaqlar. Buna görə də gənc nəsli korlamaq üçün proqram hazırladılar.[2]

**Gəncləri dəyərsiz işlərlə məşğul etmək**

Bu gün İslam adlanan ölkələrin bəzisində bir neçə milyon gənc əllərini ciblərinə salıb fit çalır və dünyanın böyük hadisələrinə etinasız halda küçələrdə yol gedir, addımlayırlar. Bu gün bir neçə milyon gənc şəxsi həyatda xırda məsələlərlə məşğuldurlar, insaniyyət düşmənlərinin, onların düşmənlərinin, xalqların şərəfinin düşmənlərinin xalqlarla nə etdiyini bilmirlər. Dünyada belə gənclər var.[3]

**Gənc nəslin laqeydliyi və əldən çıxması - xalqın süqut əlamətləri**

Hər bir cəmiyyətin və ölkənin cavanlarının necə düşünmələri, işləməli və duymaları o cəmiyyət üçün çox əhəmiyyətlidir. Hər bir ölkənin cavan nəsli əslində təyinedici qüvvədir. Əgər hər hansı bir ölkə maddi, elmi, sənaye, iqtisadi və müxtəlif sərvətlər cəhətindən tərəqqinin ən uca zirvəsində olsa belə, amma öz cavanlarını düzgün idarə edə bilməsə,

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

[2] 4 Noyabr - Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

[3] 4 Noyabr - Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

cavan nəsil əlindən çıxsa, heç şübhəsiz çətin bir gələcəyi gözləməli olacaq.

Bu məsələ bu gün Qərb dünyasında, xüsusən də bəzi Qərb ölkələrində baş verməkdədir. Unutmaq lazım deyil ki, belə ictimai və tarixi tufanlar özünü tədricən göstərir. Diqqətsiz adamlar sona yaxınlaşmayınca nə baş verdiyini anlamırlar. Eqoist, şəxsi mənfəətini və öz cibini güdən adamlar da ya ümumiyyətlə nə baş verdiyini anlamır, yaxud anlasa da, bu, onlar üçün heç bir əhəmiyyət kəsb etmir. Lakin hər bir cəmiyyətin uzaqgörən və qayğıkeş insanları cavan nəslin əldən getməsi təhlükəsini hiss edirlər. İndi bu hadisə baş vermişdir. Yəni dediyim Qərb cəmiyyətlərindəki uzaqgörən və qayğıkeş insanlar onlar üçün necə bir faciənin baş verdiyinin fərqindədirlər. Cavanları çox ciddi şəkildə narkomaniya və bu kimi ictimai bəlalara düçar olmuşlar. Çoxları azdırıcı həyəcanların təsirindən adam öldürməyə, oğurluğa, qarətçiliyə, cinayətə və çox çirkin şəhvətpərəstliyə üz tutmuşlar. Bunların bir çoxu da laqeyd hala düşmüşlər, seçkilərdə və ümumi tədbirlərdə iştirak etmirlər. Onlardan bunun səbəbini soruşduqda deyirlər ki, bunun bizim üçün əhəmiyyəti yoxdur. Bunların laqeyd halı məhv olmalarının əlamətlərindəndir [1].

**Gəncin üsyankarlığı**

Mənəviyyatdan xəbərsiz, həqiqi və ruhi məhəbbətin ən az göründüyü, hər bir şeyin yalançı qayda-qanun və zahiri gözəllik olduğu sənaye sivilizasiyasının çox sıxıcı mühitində cavan üsyan edir. Bir mağazaya girişin səliqəli olmaqla, qalstuk taxmaqla və ya hər hansı bir xüsusi paltarın geyimilə şərtləndiyi bir cəmiyyətdə cavan, ənənələrə qarşı inadkarlığından, onlarla zidd olan ən pis formanı seçir və ümumi yerlərdə görünür. Bu, üsyan xarakteri daşıyan təbii

---

[1] Könüllü keşikçilərdən olan (bəsici) tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

reaksiyadır. O cavan filosof olduğundan belə etmir, xeyr, o, adi bir insandır. Lakin maddi və sənaye mədəniyyətinin insanın qanını sorduğu və ətini sümükdən ayırdığı mühitdə bir cavan öz etirazını necə göstərə bilər? O, bu formada üsyan edir, lakin üçüncü dünyanın təqlidçi cavanı bunun bir mod olduğunu düşünür və yamsılayır.[1]

## İranın dəyərli gənc nəsli - cəmiyyətin hərəkətinin ən əsas amili

İnkişaf vasitəsi hər şeydən çox insani iradənin sağlamlığı və ümumi bir məqsədə malik olmasıdır. Bu zaman hamı o məqsədə diqqət yetirir, onu ürəkdən qəbul edir və qüdrətlə ona sarı hərəkətə başlayır.

Bu iş cəmiyyətin bütün fərdlərindən gözlənilir. Lakin hər bir cəmiyyətdə bu mühüm hərəkətin ən əsas amili gənclərdir. Baxın, gənc nəsil bu qədər əhəmiyyətə malikdir. Öz ölkəmizdə inqilabın nəticəsində, İslam imanının nəticəsində, pak və nurani qəlblərlə Allah və Allah rəngi görünən hər bir şey arasında olan qəlbi bağlılıqlara görə ölkəmizdə dəyərli bir gənc nəsil formalaşmışdır[2].

## Mədəni mübadilə və mədəni qarşıdurma

## Mədəni hücum

Bizim dəfələrlə təkid göstərdiyimiz mədəni hücum məsələsi aydın bir həqiqətdir. Onu inkar etməklə hücumun özünü dəf edə bilmərik. Mədəni hücumu inkar etmək lazım deyil; bu var. Əmirəl-mömininin (ə) sözü ilə desək, kimsə qafildirsə, bu o demək deyil ki, ondan da qafil olublar. Əgər səngərdə sizi yuxu tutmuşsa, mənası bu deyil ki, qarşı səngərdəki düşməni də yuxu tutmuşdur. Səni yuxu tutub, çalış yuxudan oyan. Biz diqqət yetirməliyik ki, mədəni inqilab

---

[1] Ölkənin tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1995

[2] Könüllü keşikçilərdən olan (bəsici) tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

təhdid altındadır; necə ki, bizim milli və İslam mədəniyyətimizin özü də düşmənlərin təhdidi altındadır.

Biz açıq-aydın olan bir məsələni inkar etməməliyik. Universitetdə, universitet xaricində, hətta bizim kütləvi informasiya vasitələrində, yazılan kitablarda, tərcümələrdə, şeirlərdə, dünyada zahiri baxımdan bizimlə əlaqəsi olmayan və yəqin ki, mədəni qüvvələr kimi siz cənabların eşitdiyi mədəni proqramlarda - hər yerdə inqilab əleyhinə çox təhlükəli hərbi-mədəni bir cəbhə yaradılmışdır.[1]

**Mədəni mübadilə**

Mədəni hücum mədəni mübadilədən fərqlənir. Mədəni mübadilələr lazımdır. Heç bir xalq hər hansı bir sahədə, o cümlədən mədəniyyət adlanan məsələlər kompleksində başqa xalqlardan ehtiyacsız deyil. Tarixdə həmişə belə olub. Xalqlar get-gəl nəticəsində yaşayış tərzini, əxlaqı, elmi, geyimi, davranış tərzini, dili və dini bir-birindən öyrənmişlər. Bu, xalqların bir-biri ilə ən mühüm mübadiləsi olmuşdur. Bu, hətta iqtisadi mübadilələrdən də əhəmiyyətlidir. Çox zaman bu mədəni mübadilələr bir ölkənin məzhəbinin dəyişilməsi ilə nəticələnmişdir. Məsələn, İslamı Şərqi Asiya ölkələrinə, o cümlədən İndoneziyaya, Malayziyaya və Hindistan yarımadasının mühüm hissələrinə aparan ən böyük amil təbliğatçıların təbliğatı yox, İran xalqının get-gəli olub. İranlı tacir və səyyahlar yola düşdülər, gedib-gəldilər və bunun nəticəsi olaraq görürsünüz ki, bu gün Asiyanın ən böyük müsəlman xalqı olan indoneziyalılar İslamı qəbul etmişlər.

İslamı ilk dəfə oraya nə din təbliğatçıları apardı, nə də qılınc və döyüş. İslamı bu get-gəllər apardı. Bizim xalqımız da tarix boyu digər xalqlardan çox şey öyrənmişdir. Bu, bütün dünyada mədəni təlimlərin və mədəni həyatın canlı qalması üçün zəruri olan bir prosesdir. Bu, mədəni mübadilədir və yaxşıdır.

---

[1] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1991

Mədəni mübadilədə başqa xalqlardan bir şey götürmək istəyən xalq sevdiyi gözəl elementləri axtarır. Məsələn, onlardan elm öyrənir. Fərz edin İran xalqı Avropaya gedir və görür ki, onlar çox çalışqan və işgüzar xalqlardırlar. Əgər onlardan bunları öyrənsə, çox yaxşıdır. Uzaq Şərqə gedir, görür ki, oradakılar vicdanlı insanlardırlar, işə həvəskardırlar. Əgər bunları onlardan öyrənsə, çox yaxşıdır. Başqa bir ölkəyə gedir, görür ki, onlar vaxtlarının qədrini bilən, nizam-intizamlı, mehriban və nəzakətli insanlardırlar. Əgər bunları öyrənsə və götürsə, çox yaxşıdır. Mədəni mübadilədə məsələ belədir. Öyrənən xalq axtarıb öz mədəniyyətini təkmilləşdirəcək elementləri tapır və öyrənir; eynilə aclıqdan zəifləyib münasib qida axtaran insan kimi. O, münasib qida və dərman istifadə edir ki, sağlam olsun və bədəninin nöqsanı aradan qalxsın.

Mədəni hücumda isə hücuma məruz qalan xalqa verilən elementlər yaxşı deyil, pis elementlərdir. Avropalılar bizim ölkəyə mədəni hücuma keçdikdə, xalqımız arasında vaxtın qədrini bilməyi, qorxmazlığı, təhlükəli məsələlərə həssas yanaşmağı, elmi diqqəti və incəliyi yaymağa başlamadılar, təbliğat və tədqiqatla İran xalqının işdə və elmdə düzgün olmasına çalışmadılar. Onlar bizim ölkəmizə cinsi pozğunluq idxal etdilər.

Əgər mədəni mübadilədə başqa mədəniyyətdən bir şey öyrənən xalqı küçə və bazarda münasib qida və dərman axtaran bir adama bənzətsək, mədəni hücumda bu hücuma məruz qalan xalqı da gərək acınacaqlı vəziyyətə düşmüş və əlindən bir şey gəlməyən xəstəyə oxşadaq. Bu zaman düşmən ona bir iynə vurur, düşmənin vurduğu iynənin nə olduğu da bəllidir. Bu onun özünün tapdığı, öz iradəsi və seçimi ilə bədəninə daxil etdiyi dərmandan fərqli bir şeydir. Deməli, mədəni mübadilə bizim seçimimizlədir, amma mədəni hücum düşmənin seçimi ilə və bizim yerli mədəniyyətmizi məhv etmək üçündür. Mədəni mübadilə yaxşıdır, mədəni hücum isə

pisdir. Mədəni mübadilə bir xalqın iqtidarlı dövründə baş verir, mədəni hücum isə xalqın zəif vaxtında.[1]

## Ehtiras yolu ilə gəncləri dindən ayırmaq

Növbə İslam ölkələrinə çatdıqda bu fikrə düşdülər ki, bu ölkələrin inkişaf etməkdə olan nəsillərini dindən ayırmalıdırlar. Bu iş üçün iki yol keçilməli idi: Biri şəhvətlərin yayılması və onun yollarının açılması idi. Təkcə İslam dini yox, bütün dünya dinləri (lakin İslam dini digər dinlərdən daha intizamlı və daha dəqiq şəkildə) insanların şəhvətlərinin özbaşına buraxılmasına qarşıdırlar. Dinlər şəhvətlər üçün qayda və hədd müəyyənləşdirib. İnsan ruhunun yetişdirilməsi şəhvətləri məhdudlaşdırmadan mümkün deyil. İnsanın ehtirası heç bir sərhəd tanımasa, heyvan kimi olub insani tərəqqiyə nail olmayacaq. Buna görə də dinlər şəhvətpərəstliyə qarşı çıxırlar.

Hər bir cəmiyyətdə dinlərə qarşı sadə və asan mübarizə yolu budur ki, şəhvətlərin özbaşına buraxılması üçün yolları açsınlar. İranda bu işi başladılar. Onun yollarından və bu sahədə görülən ən mühüm işlərdən biri hicabın qadağası idi. Onun yollarından biri spirtli içkilərə aludəliyi yaymaq idi; onlar bu işi gördülər. Başqa birisi bu idi ki, qadınla kişi arasında olan məhdud rabitəni sındırsınlar. Bu, sınaqdan keçirilmiş işlərdəndir. Yeni elmi cihazlar və sivilizasiyanın inkişafı, məsələn, kinoteatrlar, radio, televiziya və sair vasitələr də onlara cəmiyyətdə bu işləri asanlıqla görmək imkanı verirdi.[2]

## Pozğunluq dalğaları

İslam cəmiyyətlərinin, xüsusən də gənclərin sağlamlığını təhdid edən başqa bir bəla Qərbin mədəni hücumudur. Özü ilə

---

[1] Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışdan; 1992

[2] Hövzə və universitetin birlik günü münasibəti ilə elmi hövzə və universitet tələbələri ilə görüşdəki çıxışdan; 1990

pozğunluq gətirən səsli və görüntülü dalğalar hərbi gəmilərdən və təyyarələrdən daha pis və daha təsirli şəkildə İslamın beynəlxalq düşmənlərinin yenidən hökmranlığı üçün şərait yaradır. Onlar yalançı dəyərləri yaymaqla müsəlmanların rəzilliyinə və əsarətinə səbəb olan qərbpərəstliyi təbliğ edirlər.[1]

**Gənc nəslin tədricən tələf olması**

Sözün qısası budur ki, cənablar, gənc nəsil düşmənin vasitəsi ilə tədricən tələf olmaqdadır. Biz buna imkan verməməliyik. Biz gənc nəsli qorumalıyıq ki, müharibə olsa, müdafiə etsin, daxildə bir hadisə baş versə, iştirak etsin, elmin, elm və tədqiqatın növbəsi çatdıqda dərs oxusun və özünü islah etsin, gələcəkdən söhbət düşdükdə özünü hazırlasın. Etimad və ümid səbəbi olan bu gənc nəsil üzərində müxtəlif forma və üslublarla tədricən işləyirlər. Bu fəaliyyət də əsasən mədəni fəaliyyətdir. Düzdür, gəncləri aparıb fəsada qurşatmaq üçün mərkəzlər var. Bu qeyri-mədəni və praktiki tərəfidir. Lakin hamısından təhlükəli olan gənclərin zehni, fikri və ruhiyyəsidir. Bununla məşğul olmaq lazımdır.[2]

**Mədəni qırğın**

Düşmən yanlış mədəniyyəti, fəsadı və pozğunluğu yaymaqla gənclərimizi bizdən almaq istəyir. Mədəni baxımdan düşmənin gördüyü iş təkcə mədəni bir hücum yox, hətta demək olar ki, bir mədəni qırğın, mədəni qarət və mədəni qətliamdır. Bu gün düşmən bizə qarşı bu işləri görür.[3]

**Qərb mədəniyyətinin əsas təməlləri**

Qərb mədəniyyəti insanın fəsadına hesablanmış, bəşəri dəyərlərlə zidd, güc sahiblərinin və qüdrət imperatorlarının əlində alət olmuş bir mədəniyyətdir. Bu mədəniyyətlə Adəm

[1] İslam Məclisləri Komitəsinin təsis konfransına müraciətdən; 1999
[2] Cümə imamlarının toplantısındakı çıxışdan; 1991
[3] Bəsic batalyonlarının komandirləri ilə görüşdəki çıxışdan; 1992

övladlarını bütün insani fəzilətlərdən ayırmaq, insanları əxlaqsız, itaətkar, təslimçi, Allahdan və mənəviyyatdan xəbərsiz məxluqlara çevirmək istəyirlər. Onların maraqları bu mədəniyyəti yaymaqla təmin olunur. Bu çılpaqlıq mədəniyyəti və qadınla kişinin qeyd-şərtsiz qarışması Qərb mədəniyyətinin əsaslarından biridir və ilk gündən insanların fəsadı və bəşəriyyətin humanitar dəyərlər sistemindən ixrac edilməsi üçün düşünülüb. Onların bəşəriyyətə ürəkləri yanmır.[1]

**Andalus faciəsinin təkrarı**

Mədəni hücumun yollarından biri budur ki, mömin gəncləri sivilizasiyanın keşikçisi olan imana təəssüblü bağlılıqdan daşındırmağa çalışırlar; ötən əsrlərdə Andalusda gördükləri iş kimi. Orada gəncləri fəsada, ehtiraslara və şərabxorluğa qərq etdilər. Hal-hazırda bu işlər görülməkdədir.[2]

**Mədəni hücumu anlamaq**

Bu mədəni hücum siz gənclər tərəfindən düzgün duyulmalı və dərk olunmalıdır. Çünki bu hücumun hədəflərindən biri sizin özünüzsünüz. Sizi hədəf seçmişlər.[3]

**Qərb mədəniyyətinin inkarı - istismarçılığın inkarı**

Qərbi inkar etmək - onun texnologiyasını, elmini, inkişafını və təcrübələrini inkar etmək demək deyil. Heç bir ağıllı insan bunu etməz. Qərbi inkar etmək – onun istismarçılığını inkar etməkdir; istər siyasi istismarçılıq olsun, istər iqtisadi və yaxud mədəni. Mən bu qısa vaxt ərzində Qərbin mədəni istismarçılığı haqqında bir neçə cümlə demək istəyirəm. Bu, sizin üçün faydalı ola bilər.

---

[1] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələri, həkimlər, feldşerlər və ölkə klinikaları işçilərilə görüşündəki çıxışından; 1989

[2] Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışdan; 1992

[3] Kəhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdəki çıxışdan; 1994

Qərb mədəniyyəti gözəlliklərin və çirkinliklərin kompleksindən ibarətdir. Heç kim Qərb mədəniyyətinin bütünlüklə çirkin olduğunu deyə bilməz. Xeyr, bütün mədəniyyətlər kimi, onun da gözəl cəhətləri olmamış deyil. Heç kim öz qapılarını bu və ya digər əcnəbi mədəniyyətin üzünə mütləq şəkildə bağlamaq istəməz. Qərb mədəniyyəti Şərq mədəniyyəti və dünyanın digər mədəniyyətləri kimi, həm yaxşı, həm də pis ünsürlərdən təşkil olunub. Ağıllı bir xalq və toplum yaxşı ünsürləri götürüb öz mədəniyyətinə əlavə edər, onunla öz mədəniyyətini zənginləşdirər, pis ünsürləri isə rədd edər. Dediyim kimi, bu məsələdə Avropa, Qərb, Amerika, Latın Amerikası, Afrika və yaxud Yapon mədəniyyətləri arasında heç bir fərq yoxdur; hamısı bərabərdir. Biz hər hansı bir mədəniyyətlə rastlaşdıqda, təbii olaraq bacardığımız qədər onun gözəlliklərini götürməli, bizə münasib olmayan pis və zərərli cəhətləri və bizim baxışımızdakı gözəlliklərlə ziddiyyət təşkil edənləri rədd etməliyik. Bu, ümumi bir prinsipdir. Qərb mədəniyyəti barəsində isə mühüm bir məqam var, sizin buna diqqət yetirmənizi istəyirəm. Qərbin, yəni avropalıların mədəniyyətinin, bizim bildiyimiz qədər, başqa mədəniyyətlərdə olmayan bir eybi var. Bu, istismarçılıqdır. Bu, humanitar, coğrafi və tarixi olan qəti dəlillərə əsaslanır. Onlar dünyada elmi üstünlüyə malik olan kimi, özlərinin siyasi və iqtisadi qüdrətlərilə, 19-cu əsrdə isə birbaşa müstəmləkəçilik formasını alan bir gedişlə öz mədəniyyətlərini yeritməyə çalışdılar. Onlar xalqların mədəniyyətlərilə mübarizə apardılar. Bu, pis haldır. Hər hansı bir xalqın başqa bir ölkədə öz mədəniyyətini icra etməyə qalxması əsla qəbuledilməzdir. Əgər o çox yaxşı da olsa, xalq ona sırınan mədəniyyəti qəbul etməz. Siz yəqin ki, öz meylinizlə yediyiniz qatıq-çörəyi zorla ağzınıza qoyulan kabab-plovdan üstün tutarsınız. Hər hansı bir iş zorla olduqda, güc göstərildikdə, amiranə və təkəbbürlü şəkildə yeridildikdə, hər bir xalq ona qarşı çıxacaq. Bu, belə də olmalıdır. Misal

üçün, qalstuk bir qərb elementidir. Qərblilər bunu istəyirlər, sevirlər, öz ənənələrilə uyğundur. Amma siz ayrı bir ölkənin vətəndaşı ola-ola, əgər təsadüfən kostyum geyinməyi seçmisinizsə və qalstuk taxmırsınızsa, mədəniyyətsizmi hesab olunmalısınız?! Niyə? Bu sizin mədəniyyətinizdir, mənim günahım nədir? "Əgər kostyum geyinmisinizsə, bant və ya qalstuk da taxmalısınız, yoxsa filan məclisdə iştirak edə bilməzsiniz, mədəniyyətsiz, nəzakətsiz və səliqəsiz adam sayılacaqsınız!" Bu, Qərb mədəniyyətinin güclə qəbul etdirilməsidir. Qərbli qadının öz adət-ənənəsi var. Onların qadın məsələsinə, qadının geyiminə, kişilərlə əlaqəsinə və cəmiyyətdə iştirakına dair xüsusi normaları var. İndi bunların yaxşı, ya pis olmasından danışmırıq. Məsələ burasındadır ki, onlar bu mədəniyyəti zorla dünyanın digər xalqlarına qəbul etdirmək istəyirlər. Bu, çox pis haldır.

Mən bir dəfə bir misal vurub dedim ki, siz bəzən özünüz öz seçiminizlə kalorili bir qidanı, yaxud hər hansı bir dərmanı qəbul edirsiniz. Lakin bəzən sizi huşsuz edir, yaxud yatırırlar, əl-ayağınızı tutub sizə bir ampul vururlar. Fəsadlı rejim və ölkə başçılarının vasitəsi ilə Qərb mədəniyyətini xalqlara köçürməyə çalışmışlar. Fəsadlı Pəhləvi rejimi - İran xalqına etdiklərinə görə Allah bunların günahından keçməsin! - bu qəbildən idi. Onlar müxtəlif üsul və yollarla Qərb mədəniyyətini bizim ölkəmizə hakim etməyə çalışdılar. Bundan ötrü İran xalqını təhqir edirdilər, milli mədəniyyəti təhqir edirdilər, milli inamları təhqir edirdilər.

Qacarların hakimiyyətinin sonlarında qərblilərin İrana hücumu başlandı. Pəhləvilərin dövründə bu öz zirvəsinə çatdı. O dövrdə yetişənlər İran xalqını özünü idarə etməyə, işləməyə, bir şey düzəltməyə, dünyaya nə isə təqdim etməyə və yaxud əldə edilmiş məlumatları artırmağa layiq bilmirdilər. Bu, nəyə görə idi? Bu, xalqın mədəniyyətinin, milli mənliyinin təhqirinə və əcnəbi mədəniyyətin qəbul etdirilməsinə görə idi. Milli mənlik mədəniyyətlə formalaşır. Hər bir xalqın mənliyi

və qüruru onun mədəniyyətidir. Bunu yaralamaq olmaz. İran xalqının Qərb mədəniyyətinə qarşı çıxması buna görədir. Qərb mədəniyyətinin gözəllikləri də var. Onların mədəniyyətinin gözəlliklərini öyrənib götürməyin eybi yoxdur. Amma öncə o gözəlliklərin nədən ibarət olduğu müzakirə obyekti olmalıdır.[1]

**İmam Xomeynini düzgün tanımaq**

Bizim ölkəmizin sabahının ümidi olan gənc və yeniyetmə nəslin mədəni ehtiyacları əsasən aşağıdakılardan ibarətdir:

Etiqadi və dini təməlləri möhkəmlətmək, İslamın və Quranın elmi əsasları ilə tanış olmaq, ölkənin tarixini və xalqının nailiyyətlərini, xüsusən də günümüzə yaxın dövrlərdəki nailiyyətlərini tanımaq, müasir tarixin uca zirvəsi olan İmam Xomeynini (ə), onun parlaq siyasi düşüncələrini və əzəmətli inqilab hərəkətinin təməllərini düzgün tanımaq, iranlıların inqilabın qələbəsi və müqəddəs müdafiə dövründə dünyaya verdiyi dərsə görə izzət və başucalığı duymaq.[2]

**İmam Xomeyni ecazı**

Uzun zaman boyunca bu böyük insanın bir şagirdi və ardıcılı olaraq hiss etdiyim, gördüyüm və bütün vücudumla anladığım dərki siz əzizlərə, xüsusən də gənclərə çatdırmaq istəyirəm. İmamın barəsində çox danışmışıq. Hamı - dostlar, düşmənlər, iranlılar, qeyri-iranlılar, müsəlmanlar və qeyri-müsəlmanlar bu böyük insanı tərifləyiblər. Bunlara dair sözümüz yoxdur. Onun əzəməti, məqamı və ucalığı hamıya aydındır. Lakin bu ümumi bir sözdür. Mən düşünürəm ki, bu böyük insanın bizim qarşımızda açdığı iftixar və izzət yolunu bu gün qüdrətlə və həvəslə keçən gənc nəslimiz öz imamı haqda daha artıq bilmək istəyir. Mən öz təsəvvürlərimi deyəcəyəm. Yəni təxminən otuz il müddətində imamı

[1] Böyük Rəhbərin İslam inqilabı və cavanlar günündə cavanlarla sual-cavab toplantısındakı çıxışından; 1999

[2] Rəhbərin cənab Əli Laricaniyə dair sərəncamından; 1999

yaxından tanımışam və hər bir dövrdə bu əzəmətli şəxsiyyətin bir cəhətini müşahidə etmişəm. Mənim gənclik dövrümdən o həzrətin vəfatına qədər sürən bu 31 ildən 14 ilində o, sürgündə idi və biz zahirən ondan uzaq olmuşuq, lakin onda da imamın beyin mühitində və yolunda idik, ondan ayrılmamışdıq, həmin 14 ildə də əslində imamla idik.

Siz əzizlərə bir məsələni deyim. Düzdür, imamın şagirdləri və imamı tanıyanlar onu olduqca çox sevirdilər. Lakin imam barəsində deyilənlər sevgidən qaynaqlanmır. Sevginin də qaynağı imamda olan həmin xüsusiyyətlər idi. İkinci məsələ budur ki, müxtəlif cəhətlərə malik olan bu şəxsiyyət öz vücudunun üstünlüklərini kiməsə göstərməyə əsla israr etmir və tələsmirdi. Nə zaman və harada şəriət vəzifəsi onu bir hərəkətə vadar edirdisə, onun bir cəhəti aşkarlanırdı.

Mən 58-ci ildən başlayıram. Həmin ildə mənim özüm Quma getdim və ilk dəfə olaraq imamı yaxından gördüm. Ondan öncə Məşhəddə eşitmişdik ki, Qumda gənclərin bəyəndiyi görkəmli və böyük bir müəllim var. Quma daxil olan gənc tələbə müəllim axtarır. Elmi hövzələrdə müəllimin seçimi məcburi deyil. Hər bir şəxs öz zövqünə uyğun olan və bəyəndiyi müəllimi seçir. İlk anda gənc və həvəskar tələbələri özünə cəlb edən müəllim, şagirdlərinin arasında Hacı ağa Ruhullah kimi tanınan kişi idi. Əxlaqlı, dərs oxuyan və həvəskar gənclər onun dərsinə toplaşmışdılar. Biz belə bir şəraitdə Quma daxil olduq.

O, fiqh və üsulda mütəxəssis və elmi yenilikçi idi. Mən ondan öncə Məşhəddə böyük bir müəllimi, yəni görkəmli fəqihlərdən olan mərhum Ayətullah Milanini görmüşdüm. Həmin zaman da Qumda Qum Elmi Hövzəsinin rəisi, həm də imamın müəllim olan mərhum Ayətullah Bürucerdi vardı. Digər böyüklər də var idilər. Lakin gənc, həvəskar, çalışqan və yaxşı istedadlara maraqlı qəlbləri cəzb edən dərs imamın fiqh və üsul dərsi idi. Yavaş-yavaş köhnə tələbələrdən eşitdik ki, bu insan həm də böyük filosofdur. Qumda onun fəlsəfə dərsi

birinci fəlsəfə dərsi olmuşdur. Lakin indi fiqhi tədris etməyi tərcih edir. Eşitdik ki, bu insan həm də əxlaq müəllimi olmuşdur. Bəzi şəxslər onun əxlaq dərsində iştirak edirdilər və o gənclərdə əxlaqi dəyərlərin gücləndirilməsinə çalışırdı. Uzun illər boyunca dərsin arasında biz bunu yaxından da müşahidə etdik. Lakin buraya qədər, daxili naməlum xüsuiyyətlərlə dolu olan bu böyük şəxsiyyət o zaman xalqın əksəriyyəti üçün yalnız bir alim, şagird yetişdirən müəllim, tələbə və şagirdlərin əxlaq ustadı kimi tanınırdı. 1961-ci ildə təqlid müctəhidi olan Ayətullah Bürucerdi vəfat etdi. Təqlid müctəhidliyi irəli sürülən böyük alimlər vardı. Hər birinin dostları onların adlarını çəkirdilər. Bu zaman bu kişi üçün verdiyi əxlaq dərsinin təkcə dildə və digərlərinə öyrətməkdən ibarət olmadığını hamıya göstərməkdən ötrü bir şərait yarandı. Onun özü nəfsi paklama dərslərinə ilk əməl edən olmuşdur. Hamı gördü, anladı və təsdiq etdi ki, bu kişi məqama, şöhrətpərəstliyə, hətta təqlid müctəhidliyindən ibarət olan ruhani və mənəvi bir rəsiliyə də arxa çevirir, məqam, vəzifə, dərəcə və şəxsiyyət üçün əsla çalışmır. Hətta digərləri çalışmaq istədikdə də bacardığı qədər mane olur. Mərhum Ayətullah Bürucerdinin vəfatından təxminən il yarım ötdükdən sonra İslam hərəkatı başlandı. 1962-ci ilin sonlarında bu şəxsiyyətin başqa bir cəhəti aşkar oldu. O, sayıqlıq, iti baxış və adətən diqqətdən kənarda qalan məsələlərə diqqət, digər tərəfdən isə dini qeyrət idi. Çoxları eşitdilər ki, o zaman dövlət bir qərar qəbul edərək seçilmiş şəxsdə müsəlman olmaq şərtini və Qurana andı götürmüşdür, lakin bunun əhəmiyyətinə çox da diqqət yetirmədilər; halbuki çox əhəmiyyətə malik idi. Səbəbi bu idi ki, Milli Şura Məclisi təyinatlı bir məclis olsa və onu özləri təşkil etsələr də, təkcə qəbul etdikləri namizədlər oraya gedirdisə və əslində xalqın seçkisi mövcud deyildisə də, o rejim birliklərə aid qərarları və bu İslam məsələsini həmin məclis zamanı irəli sürməyə cürət etmədi, reaksiyadan qorxub, saxladılar məclis olmayan

zamana. O zaman məclisi buraxmışdılar, məclis yox idi. Qapalı bir şəraitdə bunu qəbul etdilər. Bu, məsələnin arxasında çoxlu işlərin və çoxlu məqsədlərin durduğunu göstərirdi. Bunu heç kəs anlamırdı, lakin imam anladı və qarşısında dayandı. Dini qeyrəti onu bu məsələdə önə keçməyə və zahirən kiçik olan bu antiislam bucağı üçün mübarizəyə başlamağa vadar etdi; o bu işi gördü.

Burada mühüm bir məqam var: Böyük İmam hətta mübarizə meydanında da önə keçmək istəmədi. Onun özü bizə danışırdı ki, hərəkat başlayan zaman həmin dövrün məşhur təqlid müctəhidlərindən və onunla bir səviyyədə olan alimlərdən biri ilə birgə mərhum Ayətullah Hairinin evində söhbət etmişdilər. Ona demişdilər ki, siz qabağa düşün, biz də arxanızca hərəkət edəcəyik. İmamın məqsədi bu idi ki, vəzifə yerinə yetirilsin, üzərində hiss etdiyi vacib əməli yerinə yetirsin, irəliyə keçmək barədə fikirləşmirdi.

Əlbəttə, digərlərində bu işə qoşulmaq üçün yetərli bacarıq və cürət yox idi, onlar imama çatmazdılar. İmam təbii şəkildə bu hərəkatın rəhbərliyini öhdəsinə götürmüşdü. O bu mübarizəni başladı və xalqa arxalandı. O zamana qədər elmi hövzə böyüklərindən və təqlid müctəhidlərindən heç kəs güman etməzdi ki, elə qapalı bir dövrdə dini bir hərəkət bu şəkildə xalqın dəstəyini qazana bilsin. Amma imam həmin gün dedi ki, mən bu xalqın dəstəyi ilə hərəkət edirəm, xalqı Qumun bu çölünə dəvət edərəm. O bilirdi ki, xalqı dəvət etsə, bütün İrandan toplaşıb, o zamanın hökuməti və mənfur rejim üçün qarşısıalınmaz əzəmətli bir izdiham yaradarlar.

Burada bu insanın şəxsiyyətinin yeni bir cəhəti aşkarlandı: rəhbərlik qabiliyyəti, siyasi qorxmazlıq, düşmənin işlərinin xırdalıqlarından xəbərdar olmaq, düşmənlərin məqsədlərinə qarşı sayıqlıq. Bu cəhət əməldə açkarlandı. 63-cü il, yəni mübarizənin ikinci ili çatdı. Bu il kəskin tədbirlər, təzyiqlər və qətllər ili idi. Orada imam İran xalqının ümid səmasındakı bir günəş kimi göründü; fədakar bir insan və bir vulkan sayağı;

elə bir şəxs ki, onda bir ümumdünya adam, bir vətən adamı və bir İslam adamı üçün lazım olan bütün hisslər toplanmışdı: lazımi şücaəti var, xalqı səfərbər etmək qabiliyyəti var, açıq mövqeyi var. İstər komandosların Feyziyyə mədrəsəsinə və Qum Elmi Hövzəsinə hücum etdiyi 63-cü ilin əvvəlində, istərsə də imamın əzəmətinin aşkar göründüyü 63-cü ilin yayında İran xalqı qəfildən hiss etdi ki, arxası və dayağı var, ümid bəsləyə biləcəyi və diqqət göstərə biləcəyi bir əzəmətli zirvə var. İmam 5 iyunda (15 xordadda) səhnədə belə göründü.

Bu hadisədən sonra həbs, sürgün və çoxlu təzyiqlər oldu. İmam o zaman gənc deyildi. Biz o zaman gənc olduğumuzdan bizim üçün həbsə düşmək və çətin hadisələr çox da ağır deyildi, daha çox bir əyləncəyə bənzəyirdi. Lakin imam mübarizənin başlandığı zaman 63 yaşında idi. Bu kişi 63 yaşında özünün coşqun hissləri ilə bir xalqın hisslərini coşdura bilirdi. O yaşda olan bir şəxs üçün həbsə düşmək və sürgün olunmaq asan iş deyildi. Lakin onda bu fədakarlıq və təhlükələri qəbul etmək duyğusu aşkarlandı. Bu da yeni bir cəhət idi. Yəni böyük amalları və dini vəzifəsi yolunda heç bir problem ona mane ola bilmirdi. Bu cərəyan imamın 14 ilə qədər əvvəl Türkiyəyə, sonra isə İraqa sürgünü ilə nəticələndi.

İmamın sürgün dövründə zamanımızın həqiqətən müstəsna və bənzərsiz adamının şəxsiyyətinin yeni bir cəhəti aşkarlandı; elə şeylər ki, insan böyük şəxsiyyətlərin həyatında onların bəzisini nadir hallarda müşahidə edir.

Əvvəla o bir düşüncə ideoloqu - siyasi ədəbiyyat termini ilə desək, bir nəzəriyyəçi mövqeyində durur, bir hökumətin, bir quruluşun və yeni bir sistemin layihəsini hazırlayır; özü də heç bir real anoloqu olmayan layihəni. O, yeni dünyanın ehtiyaclarını və dünyada irəli sürülən məsələləri nəzərə almaqla bir İslam quruluşu təqdim edir və bu məsələlərin sintezi bir quruluş layihəsi olur. İkincisi isə bu insan İranda olmasa da, 14 il boyunca uzaqdan İrandakı İslam

mübarizələrinə və İslam hərəkatına sözün həqiqi mənasında rəhbərlik etdi. Bu 14 ildə, xüsusən də son bir neçə ildə - yəni 70-71-ci illərdən 75-76-cı illərə qədər çoxlu təzyiq, nəzarət və qorxu vardı. Müxtəlif gizli, mübariz, siyasi və qeyri-siyasi qruplar, qruplaşmalar və siyasi partiyalar yaranır və hamısı rejimin təzyiqləri altında dağılıb gedir, yaxud təsirsiz olurdu. Onların bəzilərinin beynəlxalq siyasi dayaqları da vardı, Şərq və Qərb blokuna, xüsusən də Şərq blokuna bağlı idilər, oradan idarə olunur və yardım alırdılar. Lakin imamın hərəkatı partiya təşkilatına söykənmirdi. Ölkə daxilində imamın heç bir partiyası yox idi. Onun şagirdləri, dostları, fikri ilə tanış olanlar və xalq vardı. İmam da bəyanat yayanda xüsusi dostlarına və tanışlarına müraciət etmirdi. O bütün xalqa müraciət edirdi. O, xalqla və kütlələrlə danışırdı, onları yönəldirdi. 14-15 il boyunca uzaqdan İslam fikrinin və İslam hərəkatının bu mənbəyini əvvəlcə beyinlərdə dərinləşdirə, sonra isə cəmiyyət səviyyəsində genişləndirə bildi, gənclərin qəlbini, beyinləri və imanları ona yönəltdi və belə əzəmətli bir inqilab üçün şərait yarandı. Çoxları ölkə daxilində böyük, ixlaslı və fədakar işlər görürdülər. Lakin əgər imamın mərkəzliyi olmasaydı, bu işlərin heç biri olmayacaqdı, onların hamısı məğlubiyyətə uğrayacaqdı, bu insanların hamısı yorulacaqdılar. Yorulmayan şəxs o idi, digərləri də ondan güc və qüvvə alırdılar.

Sonra 14 il müddətində bir inqilabi hərəkətin və böyük bir hərəkatın həqiqi hidayəti və onu bütün dolanbaclardan keçirmək onun vasitəsi ilə baş tutdu. Elə oldu ki, qeyri-dini və antidin fikirləri təcrid olundu, kənara qovuldu, İslam fikri, bu məntiqli, möhkəm və güclü təfəkkür digər fikirlər üzərində öz qələbəsini günbəgün möhkəmləndirdi. Bütün mühüm hadisələrdə imamın rolu duyulurdu. 1968-ci ildə imam fiqhin mərkəzi olan Nəcəfdə güclü fiqh dəlillərinə əsaslanan Fəqih hakimiyyəti nəzəriyyəsini irəli sürdü.

Əlbəttə, Fəqih hakimiyyəti prinsipi şiə fiqhinin qəti məsələlərindəndir. İndi bəzi savadsızlar deyirlər ki, imam Fəqih hakimiyyəti nəzəriyyəsini yaratdı və digər alimlər onu qəbul etmirdilər. Bu məlumatsızlıqdan irəli gəlir. Fəqihlərin sözləri ilə tanış olan şəxs bilir ki, Fəqih hakimiyyəti məsələsi şiə fiqhində aydın məsələlərdəndir. İmam bu fikri bugünkü dünyada, bugünkü siyasətlərdə və bugünkü məktəblərdə mövcud olan yeni və əzəmətli üfüqlərə əsasən tənzim edib, onu köklü, möhkəm, dəlilli və keyfiyyətli formaya saldı; elə şəklə saldı ki, günün siyasi məsələləri, siyasi məktəbləri ilə tanış olan və nəzər sahibi olan hər bir insan üçün dərk və qəbul ediləsi olsun.

Mənim əzizlərim! Həmin 14 illik dövrdə, xüsusən də son illərdə İranda İslam mübarizləri tənhalıq hiss etmirdilər; həmişə hiss edirdilər ki, imam onlarla əlaqədədir. Övladının vəfatı zamanı bu əzəmətli şəxsiyyətin başqa bir cəhəti aşkara çıxdı. Çoxları böyükdürlər, alimdirlər, şücaətlidirlər, lakin bu əzəmətlərin onların duyğuları daxilinə və ürəklərinin dərinliyinə qədər uzandığı şəxslər çox deyillər. Dəyərli və alim övladı dünyadan köçərkən (onun oğlu da əslində dəyərli bir oğul, görkəmli alim və gələcəyin ümidi idi) səksənə yaxın yaşı olan qoca bir kişidən eşidilən cümlə bu oldu: “Müstafanın ölümü Allahın gizli mərhəmətlərindəndir”. O bunu ilahi mehribanlıq və Allahın gizli lütfü sayırdı, Tanrının ona mərhəmət göstərməsi kimi qəbul edirdi; özü də gizli mərhəmət. Görün bir insanda nə qədər əzəmət lazımdır. İnqilab dövründə bu böyük insanın bu müsibətləri, bu çətinlikləri və əziyyətləri çəkməsinin və möhkəm dağ kimi dözməsinin kökü həmin ruhi əzəmətdədir; bir əzizinin ölümü zamanı belə rəftar edir. Sonra da onun İraqdan sürgün olunması və Küveytə, sonra isə Fransaya mühacirəti başlandı. Buyurdu ki, əgər mənə hansısa bir ölkədə qalmaq icazəsi verməsələr, bir-bir hava limanlarını gəzib sözümü bütün dünyaya çatdıracağam. O əzəmət, o şücaət, o dözümlülük, o

bənzərsiz möhkəmlik, o ilahi və peyğəmbərcəsinə rəhbərlik qabiliyyəti burada yenə özünü göstərdi. Bu da o həzrətin şəxsiyyətinin yeni bir cəhəti idi. Sonra onun İrana gəlişi, bəlli hadisələrlə qarşılaşması və İslam Respublikası quruluşunu təşkil etməsi baş verdi.

İslam quruluşunun təşkil edilməsindən sonrakı dövrdə imamın şəxsiyyətinin müşahidə olunan cəhətləri, mənim fikrimcə, əvvəl görünəndən dəfələrlə əhəmiyyətli və əzəmətli idi. Bu dəyərli və üstün şəxsiyyət, yəni imam bu dövrdə iki cəhətlə və iki simada müşahidə olunur: hökumət dövründə bir sima rəhbər simasıdır, bir sima isə zahid və arif siması. Bu iki xüsusiyyətin sintezi yalnız Davud kimi, Süleyman kimi, son Peyğəmbər (s) kimi bir peyğəmbərdə müşahidə edilə bilər. Bunlar İran xalqının uzun illər boyunca bütün vücudu ilə dərk etdiyi həqiqətlərdir. Biz də yaxından şahid olduq və gördük. İslam və Quran tərbiyəsi budur. İmam hamını belə bir vəziyyətə dəvət edirdi. İslam quruluşunu bu qəbildən olan insanlar yetişdirmək üçün istəyirdi; necə ki, onun özü bunun uca təzahürü idi.

Bir hakim, başçı və rəhbər məqamında olan Böyük İmam sayıq, qorxmaz, ağıllı, təşəbbüsçü və genişürəkli bir insan idi. Ağır dalğalar onun qarşısında əhəmiyyətsiz bir şey sayılırdı. Onu sındıra biləcək, qarşısında kiçilməyə vadar edəcək heç bir ağır hadisə yox idi. İmam özünün onillik rəhbərliyi dövründə qarşıya çıxan və olduqca çox olan acı və çətin hadisələrin hamısından böyük idi. Bu hadisələrin heç biri – müharibə, Amerikanın hücumu, çevriliş planları, dəhşətli terrorlar, iqtisadi blokada, böyük və nəhəng işlər bu böyük insanı zəiflədə və uğursuzluğa düçar edə bilmədi. O bunların hamısından güclü və böyük idi. O xalqa inanırdı, xalqın səsinə həqiqətən etiqad bəsləyirdi. O, xalqın fikrinə və səsinə inanırdı. Mən ikinci xütbədə bu barədə bir qədər danışacağam. O səmimi-qəlbdən xalqı sevirdi, xalqa eşq bəsləyirdi, onları çox istəyirdi. Biz dünyanın müxtəlif rəhbərlərində onlar üçün

üstünlük sayılan xüsusiyyətlərin əksəriyyətinin (mənim araşdırdığıma və yadıma düşən qədərincə) imamda toplandığını görürdük. O həm ağıllı idi, həm uzaqgörən idi, həm ehtiyatlı idi, həm düşməni tanıyırdı, həm dosta etimad göstərirdi, həm də düşmənə vurduğu zərbə qətiyyətli zərbə idi. Belə həssas və əhəmiyyətli bir mövqedə vəzifəsini yerinə yetirə bilmək, öz Allahını və vicdanını razı sala bilmək üçün bir insana lazım olan bütün xüsusiyyətlər bu kişidə cəm olmuşdu.

İmam xalqa etimad bəsləyirdi. İnqilab qələbə çalanda imam elan edə bilərdi ki, bizim quruluşumuz bir İslam Respublikası quruluşudur. Xalqın fikrini soruşmaya bilərdi, heç kəs də etiraz etməzdi. Lakin o bunu etmədi. Quruluşun özü və necəliyi barəsində referendum keçirib xalqın fikrini soruşdu. Xalq da İslam Respublikası istədiyini bildirdi və bu quruluş quruldu. Konstitusiya təyin etmək üçün imam bir konstitusiya təqdim edə bilərdi, xalqın hamısı, yaxud böyük əksəriyyəti də şübhəsiz, qəbul edərdilər. Bir qrupu təyin edib konstitusiya yazmalarını istəyə bilərdi, heç kəs də etiraz etməzdi. Lakin imam bu işi görmədi. İmam Dini Ekspertlər Məclisinə seçkilər keçirdi. O bu işin daha tez baş tutmasına tələsirdi də. Dünya inqilablarında iş başında olan şəxslər və inqilabın rəhbərləri (əlbəttə, çox zaman da çevrilişdir, inqilab deyil) özləri üçün bir-iki il fürsət ayırıb deyirlər ki, seçkilərə hazırlıq üçün bu müddət başa çatmalıdır və çox zaman həmin müddəti uzadırlar da. İmam isə inqilabın qələbəsindən iki ay ötməmiş ilk seçkiləri – yəni İslam Respublikasının referendumunu keçirdi, bir-iki aydan sonra konstitusiya ekspertləri seçildilər, bir neçə aydan sonra prezident seçkiləri keçirildi, bir neçə aydan sonra parlament seçkiləri keçirildi. İnqilabın birinci ilində imam müxtəlif məsələlərdə dörd dəfə xalqın rəyini soruşdu: quruluşun özü üçün, quruluşun konstitusiyası üçün, (bir dəfə konstitusiyanın ekspertləri seçildilər, bir dəfə də

konstitusiyanın özü üçün referendum keçirildi), prezident üçün və İslam Şurası Məclisi üçün.

İmam sözün həqiqi mənasında xalqın fikrinə inanırdı; yəni xalqın istədiyinə və səslərinin mərkəzləşdiyi məsələyə. Əlbəttə, belə yerlərdə heç zaman işin idarəsini siyasətbazların əlinə vermirdi. Xalq siyasətbazlardan fərqlənir, siyasət iddiaçılarından fərqlənir, xalqın tərəfdarlığını iddia edənlərdən fərqlidir. İmam xalqa etimad göstərirdi. Çoxlu qruplar, partiyalar, iddiaçılar, siyasətbazlar və partiyabazlar vardı. İmamın bunlarla işi yox idi. Onlara meydan da vermirdi ki, gəlib artıq imtiyazlar istəsinlər, xalqın adından danışsınlar və xalqın əvəzinə qərar versinlər. Lakin xalqın səsinə hörmət göstərirdi.

Müharibə başladı. O, silahlı qüvvələrin Ali Baş Komandanı kimi göründü. İqtisadi blokada məsələsi qarşıya çıxdı. İmam tam dəstəkçi idi; hökumət qurumlarının mənəvi dəstəkçisi. İnqilabın əvvəlində imam müxtəlif işlər üçün, məzlum və məhrumları müdafiə üçün çoxlu göstərişlər verdi, çoxlu işlər görüldü, xalqa kömək göstərmək üçün Quruculuq Cihadı, Mənzil Fondu, İmdad Komitəsi, Məhrum və Əlillər Fondu, 15 Xordad Fondu kimi müəssisələr təşkil olundu. İmam üçün hakimiyyətdə və ölkə idarəsində əsas sayılanlar bunlar idi. Bu imamın bir iqtidarlı və iradəli insan mövqeyində hakim və rəhbər olmaq cəhəti idi; elə bir insan ki, müharibə baş versə, qərar verə bilir, sülh də olsa, qərar verə bilir, bir ölkənin idarəsi və düşmənlərlə müharibə üçün qərar verə bilir. Lakin özünün şəxsi və xüsusi həyatına baxdıqda insan onu zahid, arif və dünyadan uzaq bir insan simasında görür. Sözsüz ki, məqsəd pis dünyadır. Onun özü deyirdi ki, pis dünya sizin daxilinizdə olandır. Bu təbiət – yer, ağac, səma, ixtiralar və sair - pis dünya deyil. Bunlar Allahın nemətləridir. Bunları abadlaşdırmaq lazımdır. Pis dünya sənin daxilində olan xudpəsəndlik, artıqtamahlıq və bağlılıq hissidir. İmam bu pis dünyadan tamamilə uzaq idi. O özünə heç bir şey istəmirdi.

İmam üçün ən əziz insan onun oğlu olan mərhum Hacı Əhməd ağa idi. Biz dəfələrlə imamdan eşitmişdik ki, deyirdi mənim üçün ən əziz insan odur. Onillik hakimiyyətində və böyük rəhbərlik dövründə bu yeganə oğlu üçün bir ev almadı. Biz dəfələrlə gedib görmüşdük ki, imamın ən əziz adamı onun evindəki hüseyniyyənin arxasında yerləşən bağçadakı 2-3 otaqda yaşayır.

O həzrətin özü üçün dünya zinətləri, sərvəti və artıq bir şeyi yox idi və istəmədi. Hətta əksinə, imam üçün gətirilən çoxlu hədiyyələri Allah yolunda verirdi. Onun özünə məxsus olanı və beytülmala aidiyyəti olmayanı da beytülmal üçün xərcləyirdi. Hətta öz şəxsi malından olsa belə, oğlu üçün 10 milyona, 15 milyona yaxşı bir ev almayan bu şəxs özünün şəxsi malı olan yüz milyonlarla sərvəti müxtəlif bölgələrə - abadlıq işlərinə, yoxsullara yardıma, seldən zərər çəkənlərə yardıma və digər yerlərə xərcləyirdi. Bizim xəbərizim vardı ki, bəzi yerlərdə xərcləmək üçün insanlara verilən pullar imamın şəxsi pulları idi. Bunlar müridlərinin, sevənlərinin və dostlarının ona gətirdiyi hədiyyələr idi.

O xəlvət və ibadət adamı, gecə yarısı ibadətində ağlayan, dua, münacat, Allahla rabitə, şeir, mənəviyyat, irfan, zövq və mənəvi hal adamı idi. Elə bir şəxs idi ki, siması İran xalqının düşmənlərini qorxudurdu, titrədirdi. Elə möhkəm sədd və güclü dağ, belə duyğusal və insani məsələlər qarşıya çıxdıqda zərif, kamil, mehriban bir insan olurdu. Mən bu hadisəni danışmışam: Bir dəfə səfərlərimin birində bir xanım özünü mənə çatdırdı. Dedi ki, oğlum müharibədə əsir düşmüşdü. Bu yaxınlarda onun ölüm xəbərini verdilər. Mənim oğlum öldürülüb, lakin mənim üçün mühüm deyil. Mənim üçün mühüm olan imamın sağlığıdır. O xanım həyəcanla və duyğu ilə danışdığı bu sözləri imama çatdırmağımı istədi. Mən imamın yanına gəldim. O, ayaq üstə dayanmışdı. Mən həmin sözü ona danışdım. Gördüm ki, bu möhkəm, vüqarlı və uca dağ qəfildən bir tüfan səbəbindən əyilən böyük bir ağac kimi

büküldü. Qəlbi sınmış bir insan kimi onun ruhu, canı və bədəni bu şəhid anasının sözlərinin təsirinə düşdü və gözləri yaşla doldu.

Bir gecə xüsusi bir məclisdə iki-üç nəfərlə birgə mərhum Hacı Əhməd ağanın evində oturmuşduq. O da oturmuşdu. Bizlərdən biri dedi ki, ağa, sizin mənəvi məqamınız var, irfani məqamınız var, bir neçə cümlə ilə bizə nəsihət edin. O şəkildə mənəviyyat sahibi olan bu əzəmətli insan bir şagirdinin (təbii ki, bizim hamımız imamın şagirdləri və övladları kimi idik; bizim rəftarımız ata qarşısındakı övlad rəftarı kimi idi) qısa tərifi qarşısında utanıb elə xəcalət çəkdi və təvazökarlıq etdi ki, bu, onun rəftarında, cismində və oturuş tərzində aydın şəkildə hiss olundu.

Biz bu sözü deyib imamı utandırdığımıza görə xəcalət çəkdik. O şücaətli insan və o əzəmətli qüvvə duyğusal, mənəvi məsələlərdə təvazökar və həyalı idi.

Demək istədiyim son məqam budur ki, imam bunların hamısına dinə əməllə, dinə boyun əyməklə, təqva ilə və Allahın əmrinə itaətlə sahib olmuşdu. Onun özü də müxtəlif sözlərində dəfələrlə bu məzmunu söyləyib deyirdi ki, nə varsa, Allahdandır. O hər şeyi Allahdan bilirdi. Allahın iradəsində həll olunmuşdu, ilahi hökmdə həll olunmuşdu: "İnqilabı Allah qalib etdi"; "Xürrəmşəhri Allah azad etdi"; "Xalqın qəlbini Allah bir yerə topladı". O hər şeyi Allahın baxışından görürdü və hökmlərə əməl edirdi. Allah-Taala da rəhmət qapılarını onun üzünə açdı.[1]

### Şəhid Fəhmidə mifi

Bu gün Gənc və Yeniyetmə Günüdür. Bu gün Bəsic üzvü olan bir yeniyetmənin, yəni Şəhid Hüseyn Fəhmidənin şəhidlik xatirəsi ilə bağlıdır. Bu, fiziki şəxsiyyətlərin simvola və əfsanəvi həqiqətlərə çevrildiyi nümunələrdəndir. Bizim öz tariximizdə bu nümunələrdən çoxdur. Elə hadisələr var ki, bu

---

[1] Tehranın cümə namazı xütbələrindən; 1999

gün deyilsə, çox qəribə olduğundan hamı əfsanə olduğunu düşünər, lakin həqiqətdir. Biz öz dövrümüzdə bunun nümunələrini dəfələrlə görmüş və eşitmişik. Onların ən gözəllərindən biri bu könüllü yeniyetmənin şəhidliyidir.

Onun 13 yaşı vardı. Amma yetkinliyinə, şüuruna, iradəsinə və qərarına görə öz ölkəsini tanıyırdı, öz imamını tanıyırdı, öz düşmənini tanıyırdı, öz varlığının və fəaliyyətinin əhəmiyyətini bilirdi. O gedib bu sərvəti ölkənin başucalığına, inqilabın gələcəyinə və xalqın maraqlarına təqdim etdi. Onun cismi getdi, lakin ruhu sağ qaldı, xatirəsi əbədiləşdi və əfsanə formasına düşdü. Bu örnəkdir.[1]

## İbrət almaq

### Tarixdən ibrət almaq; xüsusi və avam insanların rolu

Siz diqqət yetirin, İslamın ilkin dövründən vücuda gələn dərdli və qəmli tarixi boyunca mövcud olan problemlərin ən mühümü budur ki, 10-cu ilə qədər Peyğəmbərin (s) əlində olan bu hakimiyyət ondan sonra Yezidin əlinə düşür. Nə zaman? Hicrətin 60-cı ilində. Yalnız 50 il, yarım əsr sonra bu hakimiyyət görün haradan haraya gedir. Doğrudan da dünyada bundan ağlamalı bir hal varmı?! Bu, İmam Hüseynin (ə) qətlə yetirilməsindən də ağlamalıdır. Bütün Aşura hadisələrindən daha ağlamalı olan budur ki, keçmişi Peyğəmbərə (s) və Əmirəl-mömininə (ə) qayıdan, onların hakimiyyətdə olduğu bir cəmiyyət bir neçə onillikdən sonra Yezid kimi birisinə çatsın; sonra da Mərvana, Əbdülməlikə və digərlərinə. Təxminən 500-600 ilə yaxın belə ünsürlər din adı ilə hökumət etsinlər. Düzdür, sonra rza xanlar, nasirəddin şahlar və digərləri hökumət etdilər. Onların hər biri də özləri üçün bir Yezid, yaxud Müaviyə idilər. Onları da əhəmiyyətsiz saymaq olmaz. Onlar da elədirlər. Lakin onlar din adı ilə hökumət edirdilər. Qısası, dünyada çox az müsibət bu qədər böyük olur.

---

[1] Tehranın 1000-ci cümə namazı xütbələrindən; 1998

İndi bu müsibəti təsəvvür etdiniz. Bu müsibət iki amilin birləşməsindən vücuda gəlmişdir. Tarixə müraciət edən hər bir kəs bunu təsdiqləyəcək. Bizim avam və xüsusi insanlar mövzumuzun xülasəsi budur ki, bəzi xüsusi insanlar xəyanət edir və avam insanların çoxu diqqət yetirmədən onların ardınca hərəkət edirlər. Bu, baş verməsi həmişə mümkün olan bir problemdir.

Mənim əzizlərim! Bəzi xüsusi insanlar bilərəkdən və anlayaraq xəyanət edirlər, yolu əyirlər, öz nəfsi istəklərinin, şəxsi həyatlarının, pulun, malın, sərvətin, hakimiyyətin, qüdrətin, təəssüblərin və digər istəklərinin ardınca gedirlər; özləri də xüsusi insanlardırlar. Avam insanların çoxu da onları yamsılayır. Bu onların bəxtinə qalıb. Əgər yolunu azmış bu xüsusi şəxs bəzi xarizmalara malik olsa, o zaman vay xalqın halına, vay avam insanların halına![1]

**Keçmişdəkilərdən ibrət almaq**

Mən həmişə gənclərə, şagirdlərə, tələbələrə və digərlərinə deyirəm ki, tarixi ciddi sayın, ona diqqətlə baxın, görün nə baş vermişdir. Keçmişdəkilərdən ibrət almaq Quranın dərsi və təlimidir.[2]

**Qərbli gənclərdən ibrət almaq və zərərli əyləncələrin qarşısında dayanmaq**

Gəncləri dünya gənclərinin daha öncə məşğul olduğu və bu gün altını çəkdiyi məsələlərlə məşğul etmək bu ölkənin gənc nəslinə kömək deyil. Bəziləri müxtəlif bəhanələrlə iranlı gənci əyləncəli məsələlərə, zərərli musiqilərə, cinsi həvəslərə və bu qəbildən olan işlərə sövq etmək istəyirlər. Bu, qərbli gənci, amerikalı və avropalı gənci özündə qərq etməkdə olan

---

[1] Tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1996

[2] Keşikçilər Korpusunun komandirləri və sıravi üzvləri ilə görüşdəki çıxışdan; 1995

bataqlıqdır. Bu, təqlid etməli bir şey deyil. Bunun qarşısında dayanın.[1]

## İmansızlıq - Pəhləvi rejimi gəncinin azğınlıq amili

Gənclər! Özünüzü islah edin. Bir xalq inkişaf və təkamül yolunu keçmək istəsə, gərək fikir imanı baxımından möhkəm bir yerə arxalansın. Məzhəbsiz, imansız, əxlaqi, dini və mənəvi təməllərə etiqadı olmayan bir topluma bağlanmaq və onların sözü ilə irəliləmək istəyən bir xalqın, bir nəslin, bir cavanın ayağı sürüşəcək. Gənc nəsil Pəhləvi rejimi dövründə olan nəsil olacaq: ümidsiz, faydasız, fəsada meylli, azğınlığa hazır. O zaman kiminsə onları yenidən düzgün yola istiqamətləndirməsi üçün çoxlu imkanlar lazım olacaq, İslam inqilabı kimi bir hərəkət lazım olacaq, amma o, bu ölkədə bir əsrdə, yaxud bir neçə əsrdə asanlıqla meydana gəlmir [2].

## Dəyərlərin hakimiyyəti

## İslam dəyərlərinə eşq

Siz mömin və pak gənclərin hər birinin qəlbində İslam düşmənlərinin nifrəti, İslam dəyərlərinə, böyük İslam vətəninə, İslam qardaşlarına və İslam arzularına eşq dalğalanır. Biz müsəlman və iranlıyıq. Bizim müsəlmanlığımız nəinki iranlı olmağımızla ziddiyyətdə deyil, hətta bir-birini təkmil edib uyğunlaşırlar da. Bu gün İslamın zirvəsi, uca ilahi fikirlərin və İslam dəyərlərinin mərkəzi bu qanlı və qəhrəman vətəndir. Silahlı qüvvələrin gəncləri və xalqın hər bir fərdi fəxrli xalq səfərbərliyi sıralarında uzun illər onu müdafiə etdilər. Bu iki xüsusiyyət sizə məxsusdur.[3]

## İslam dəyərlərini müdafiə imkanı

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[2] Tehran universitetinin tələbələri ilə görüşdəki çıxışdan; 1998

[3] İmam Əli (ə) Hərbi Universitetində çıxışdan; 1991

Pərvərdigarın əzəmətli dərgahına sonsuz şükür və sənalar olsun ki, inqilabın ən yaxşı övladlarının bir hissəsinə müasir dövrdə ən uca ilahi həqiqəti müdafiə etmək kimi mühüm vəzifəni yerinə yetirməyi nəsib etdi. Allahın biz xalqa ən böyük neməti budur ki, bizi böyük İslam amalları yolunda cihad edib çalışa bildiyimiz və müvəffəqiyyətə ümidvar, hətta arxayın olduğumuz bir dövrdə yaratdı.

Bir zaman doğruçu möminlər Allah yolunda müdafiə edə bilmələrini arzu edirdilər, lakin bacarmırdılar, yollar bağlı idi, mühit tağutların şahlığının və hakimiyyətinin qara buludları ilə dolmuşdu. İslam amalları yolunda hər hansı bir düşüncə, elmi, fiziki və ruhi baxımdan zəhmət çəkmək mümkün deyildi. Qəm-qüssə içində yaşayır, qəm-qüssə içində də dünyadan köçürdülər. Bu gün isə yollar bizim və dövrün övladlarının üzünə açılmışdır, səma aydınlaşmışdır, gələcək ümidlidir, məzlum olan ilahi və islami dəyərləri müdafiə üçün imkan mövcuddur. Bu, Allahın böyük nemətidir. Onun qədrini bilməliyik və bu dövrdə keçən ömrün hər bir anını bütün dövrlərdə qafil insanların bəzilərinin batillikdə keçən ömürlərinin illərinə bərabər bilməliyik.[1]

## İslam dəyərlərinin mütləq dəyərlər sayılması

Gərək cəmiyyətin Allaha iman mehvəri ətrafında toplaşmaqdan ibarət olan səadət sirrini öz ictimai həyatımızda və quruluşumuzda hər an gücləndirək və qabardaq, xalqı daha artıq və daha dərin İslam tərbiyəsinə sarı sövq edək, cəmiyyətin gənclərini İslam tərbiyəsi ilə yetişdirək. Bizim universitetlərimiz öhdəsində təkcə alim yox, həm də müsəlman olan mütəxəssis və alim gənc yetşdirmək vəzifəsi hiss etməlidir; ibtidai məktəblər də həmçinin. Elə iş

[1] Keşikçilər Korpusunun Quru Qoşunlarının komandanlıq qərargahına baxış keçirdikdən sonrakı çıxışdan; 1991

görməliyik ki, cəmiyyətdə İslam dəyərləri mütləq dəyərlər hesab olunsun və digər dəyərlər onun qarşısında zəifləsin.[1]

### *Ailə və nikah sahəsi*

**"Ömrün bu şirin dövrünün qədrini bilin!"**

İbadət və həddi-büluğ bayramı münasibəti ilə siz əziz uşaqları və ata-anaları təbrik edirəm. Sizin bu şirin və gözəl ibadət bayramınızda iştirak etməyimə çox şadam.

Əziz uşaqlar! Siz bu gün ibadət bayramınızı qeyd edirsiniz. Əslində bu gündən etibarən Allah-Taala özünün bütün əzəmətinə və calalına rəğmən, sizinlə danışır, sizə müraciət edir, öhdənizə vəzifə qoymaqla sizi şərəfləndirir. Bu gün siz əziz qızlar uşaqlıq dünyasından çıxıb böyüklərdən sayılırsınız. Çünki namaz sizə vacibdir. Gərək namaz qılasınız, ibadət edəsiniz və böyük Allahla danışasınız. Ömrün bu şirin dövrünün qədrini bilin. İnşaallah namazınızı kamil şəkildə öyrənin. Elə olmasın ki, bu gün həddi-büluğa çatan əziz qız balalarımız namazı bilməsinlər. Düzdür, bilirəm ki, siz namazı bilirsiniz, amma onun xırdalıqlarını da öyrənməlisiniz. Sizin hamınız namazın sözlərini, namazda dediyiniz zikrləri, etdiyiniz hərəkətləri, dəstəmazı, təharəti və namaza lazım olan işləri öyrənin.

Bu gündən siz namaz qıldıqda öz Allahınızla danışacaqsınız. Allah sizin sözünüzə qulaq asacaq, sizin sözünüzü eşidəcək, sizin duanızı inşaallah qəbul edəcək. Gərək valideynləriniz üçün, müəllimləriniz üçün, əziz döyüşçülərimiz üçün və bu məmləkətin gəncləri üçün dua edəsiniz, Allah-Taaladan ölkənizə abadlıq, azadlıq və bütün yaxşılıqları istəyəsiniz. İnşaallah sizin pak ürəklərinizin və təmiz ruhlarınızın qəbul olunmuş duaları olacaq.

Mən bu gün sizin bu bayramınızda iştirak etməyimə çox şadam. Qız məktəblərinin xanım müəllimlərinə və

---

[1] Prezident və Dövlət Şurası ilə görüşdəki çıxışdan; 1990

validеynlərinə də təşəkkür edirəm ki, zəhmət çəkib bu əziz uşaqlara dərs öyrətmiş və onları bu gün üçün hazırlamışlar; xüsusən də bizim üçün nəğmə oxuyan və deklamasiya deyən bu gül balaları. Onların həm deklamasiyası, həm də nəğmələri çox yaxşı idi. İnşaallah hamınız müvəffəq olasınız.[1]

## Nikah mədəniyyəti

### Nikahı asanlaşdırmaq

İnqilabın sayəsində nikahlar asanlaşdı. Çünki dəbdəbəçilik və çətinləşdirmələr azaldı. Qoymayın yenidən qabaqkı vəziyyətə qayıdaq. Ata və analar izdivaca lazım olmayan işlərdə çətinlik yaratmasınlar. Gənclər çətinlik yaratmırlar. Qoyun İslam nikahı baş versin. Qoyun İslam cəmiyyətində yaşayan müsəlman qız və gənc qadının izdivacı Fatimeyi-Zəhranın (ə) izdivacı kimi olsun; mənəvi və ilahi eşqin birləşməsi ilə, mömin və müsəlman qadın və kişi arasındakı bənzərsiz şövqlə, iki ilahi və şərafətli tərəf arasında sözün həqiqi mənasında həmkarlıq və yoldaşlıqla bir izdivac baş versin; amma bütün təşrifatdan, puç, mənasız və zahiri bərbəzəklərdən uzaq halda. Müsəlman qadının düzgün nikahı, övlad tərbiyəsi, evin idarəsi və sözsüz ki, cəmiyyətin hər bir işi, din, elm, ictimai və siyasi fəaliyyətlər barəsində düşünmək və məşğul olmaq budur. İslam budur.[2]

## Ailə hüququ

### Qadın ailəni təşkil edən əsas element kimi

Ailə elə bir yerdir ki, orada duyğu və hisslər inkişaf etməlidir, uşaqlar məhəbbət və nəvaziş görməlidirlər. Ər kişi olduğundan, onun xarakteri qadına nisbətən daha xam, bəzi meydanlarda zəifdir və daha tez sınır. Onun yarasının

---

[1] Buşəhrdə keçirilən şagird qızların həddi-büluğ bayramı tədbirindəki çıxışdan; 1992

[2] Tehran, Təbriz və İsfahan şəhərlərinin qadınları ilə görüşdəki çıxışdan; 1990

məlhəmi yalnız və yalnız həyat yoldaşının nəvazişidir; hətta ananın nəvazişi də yox. Bu həyat yoldaşı böyük bir kişi üçün, ananın öz kiçik uşağına gördüyü işi görür. Diqqətli xanımlar bu məsələni bilirlər. Əgər bu duyğular evin əsas mərkəzinə, yəni evdar xanıma ehtiyaclı olmasa, ailə mənasız bir formaya çevriləcək.[1]

**Ailəni unutmamaq**

Sizin işiniz də var, həm də bayırdasınız, cərrahiyyə əməliyatı da aparırsınız, xəstənizi də görürsünüz, elmi iş də görürsünüz, layihə də yazırsınız, universitetdə dərs də deyirsiniz. Bunların hamısı öz yerində, amma evin payını da nəzərə almalısınız. Əlbəttə, evin payında digər bütün məsələlər kimi kəmiyyəti keyfiyyətinə qurban vermək olar. Yəni qadının evdə 24 saat olması kəmiyyətini azaltmağın bir mənası var. Amma o 24 saatı azaltdıqda, keyfiyyətini yüksəltsəniz, o zaman başqa bir məna kəsb edəcək. Əgər o işinizin bu məsələyə zərər yetirdiyini görsəniz, onun üçün bir şey düşünməlisiniz. Bu əhəmiyyətli və əsaslıdır. Məcbur qaldıqda isə, heç. Bütün məsələlərdə qayda həddindən xaric olan zəruri işlər olur. Mən ümumi qaydanı deyirəm, istisnalarla işim yoxdur.[2]

**Valideyn və övladların qarşılıqlı hüquqları**

Müxtəlif fəaliyyətlər gənclərdə şəxsiyyət yaradır, onların şəxsiyyətini möhkəmləndirir, gələcəklərini təmin və daha aydın edir. Mənim ailələrə tövsiyəm budur ki, övladlarının münasib fəaliyyətlərdə iştirak etməsinə kömək göstərsinlər. Xanım qızlara da tövsiyə edirəm ki, ailənin istəyini birdəfəlik maneə saymasınlar. Siz mənim övladım yerindəsiniz. Mən sizə bir ata kimi nəsihət edirəm. Siz bunu qəbul edin ki, gəncə, yaxud yeniyetməyə nəyin məsləhət olmasını və nəyin

[1] Qadınların mədəni-ictimai şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1992

[2] Qadınların mədəni-ictimai şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1992

məsləhət olmamasını təyin etməkdə ata və anaların seçimi çox zaman onların özlərinin seçimindən daha yaxşı və daha aydın olur. Bilin ki, onlar sizə ürək yandırırlar.

Əlbəttə, öz ata və ananızla söhbət edin. Mən tövsiyə edirəm ki, ata və analar övladlarının onlarla söhbət etməsinə şərait yaratsınlar. Ata və analar övladlarının istəyinə və onların dəlillərinə hörmətlə yanaşsınlar. Əgər məqbul dəlillərinin olduğunu görsələr, qəbul etsinlər. Mən belə düşünürəm ki, bu, münasib yoldur.[1]

### Ailənin örnəyi

### Fatimeyi-Zəhra (ə) və Zeynəb-Kübra (ə) - İslamın nümunə qadınları

Onun anası Fatimeyi-Zəhra (ə) başqa bir qadın idi. Onun məqamı Zeynəb-Kübradan (ə) da uca idi. Bunlar İslamın örnək və nümunə qadınlarıdırlar. Dünyanın bugünkü qadını örnək istəyir. Əgər onun örnəyi Zeynəb (ə) və Fatimeyi-Zəhra (ə) olsa, işi düzgün anlamaqdan, mövqeləri dərk etməkdə sayıqlıqdan, Allahın insanların öhdəsinə qoyduğu böyük vəzifəni yerinə yetirmək üçün fədakarlıq göstərməklə və hər şeyindən keçməklə birgə olsa da, ən yaxşı işləri seçməkdən ibarət olacaq. Örnəyi Fatimeyi-Zəhra (ə), yaxud Zeynəb-Kübra (ə) olan müsəlman qadın belədir. Əgər qadın dəbdəbəçiliyə, eyş-işrətə, ötəri həvəslərə, köksüz və təməlsiz duyğulara təslim olmaq fikrində olsa, o yolu gedə bilməz. Gərək hörümçək toru kimi yolçu bir insanın ayağına dolaşan bu bağlılıqları özündən uzaqlaşdırıb, o yolu gedə bilsin. İranlı qadının inqilab və müharibə dövründə bu işi gördüyü kimi, bütün inqilab dövründə də bu işi görməsi gözlənilir. Bu yolda

[1] Şəfəq ongünlüyündə gənclərlə görüşdəki çıxışdan; 1999

iranlı qadının örnəyi - haqqında danışılan örnəkdir; Zeynəb (ə) örnəkdir.[1]

**İslam dəyərləri səngərinin keşikçisi**

Bu gün siz qadınlar Qərb dünyasının cahil vəziyyəti qarşısında İslam dəyərləri səngərinin keşikçilərisiniz. İslam mədəniyyətinin bu möhkəm qalasını qoruyan sizlərsiniz. Elmdə, mədəniyyətdə, siyasətdə, hər bir şeydə qadın İslam əsasında yetişməlidir, ictimai, iqtisadi və siyasi meydanlara - hər yerə gedib öncül olmalıdır. Lakin ehtiraslı və cinsi məsələlərdə onun-bunun oyuncağı olmamalıdır. Bizim sözümüz budur.[2]

**İslam İnqilabında mömin qadınların rolu**

Əgər qadınlar inqilaba qoşulmasaydılar, inqilab qələbə çalmayacaqdı, gənclər inqilabın sıralarına qoşulmaq üçün evdən çıxmayacaqdılar, anaları qoymayacaqdı, anaları ən azı, onları həvəsləndirməyəcəkdi. Əgər qadınlar inqilaba könül verməsəydilər, kişilər belə azad şəkildə inqilab sıralarında canfəşanlıq göstərməzdilər. İnqilabda qadının rolu həm birbaşa, həm də dolayısı ilə dəyərli və ümumilikdə birinci dərəcəli roldur. Müharibədə də belə idi.

Mənim hörmətli şəhid ailələri ilə çoxlu görüşlərim olub. Az ailələrdə ananın ruhiyyəsi atanın ruhiyyəsindən yüksək olmayıb. Ailələrin əksəriyyətində şəhid anasının ruhiyyəsi şəhid atasının ruhiyyəsindən yüksək olmuşdur. Bu möhtəşəm bir haldır. Bu, mömin qadınların bu inqilabdakı rolunu göstərir; inqilabın qələbəsi və inqilab məqsədlərinin əldə

---

[1] Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə feldşerlərlə görüşdəki çıxışdan; 1991

[2] Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə feldşerlərlə görüşdəki çıxışdan; 1991

edilməsi üçün dayanan, hər şeyini öz ilahi və İslam məqsədlərinə və amallarına fəda edən qadınların.[1]

**İslam inqilabında mömin qadınların rolu**

Qadın üçün bu rol düzgündür. Qadının qərbli və avropalı örnəyi bunun qarşı tərəfidir. Bunların ikisi bir yerə sığmaz. Qadının avropalı modelində məsələ belə deyil ki, onlar qadının alim olmasını istəyirlər, İslam isə istəmir; onlar qadının ictimai səhnədə olmasını istəyirlər, İslam isə yox. Məsələ belə deyil. İslam böyük alim qadınlar yetişdirmişdir. Əgər bu gün də bizim cəmiyyətimizə baxsanız, görərsiniz ki, qadın mütəxəssislər, alimlər, doktorlar, tədqiqatçılar və böyük incəsənət xadimləri az deyillər. Onların arasında dəyər yaradan, düşüncə və ideologiya sahibi olan insanlar var. Siyasi səhnədə, icraçı və qanunverici orqanlarda da məsələ belədir. Qadınlar ölkənin bütün sahələrində fəal surətdə iştirak edirlər. Bizimlə onların arasında, İslamla Qərbin dəyərlər sistemində məsələ bunlar deyil. Mübahisə başqa bir məsələ haqqındadır.

Bugünkü Avropanın qadın modeli qədim Roma və Yunan modelindən qaynaqlanır. O zaman da qadın kişinin kef çəkməsi üçün alət idi və hər bir şey bu qaydaya tabe idi. Bu gün də bunu istəyirlər. Qərblilərin əsas sözü budur.[2]

**Ailəni möhkəmləndirmək**

**Ev və ailədən bayırda hicabı qorumaq**

İslam məktəbində qadın və kişi arasında bir qoruyucu və hicab vardır. Bunun mənası o deyil ki, qadınların kişilərdın fərqli bir aləmləri var. Xeyr, cəmiyyətdə birgə yaşayırlar, iş yerində birgə yaşayırlar, hər yerdə birgədirlər. İctimai problemləri qadınlar və kişilər birgə həll edirlər. Müharibəni

---

[1] Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə feldşerlərlə görüşdəki çıxışdan; 1991

[2] Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə feldşerlərlə görüşdəki çıxışdan; 1991

qadınlar və kişilər birgə edirlər və etdilər. Ailəni birgə idarə edirlər və övladları tərbiyə edirlər. Lakin ev və ailədən bayırdakı qoruyucu və hicab mütləq qorunur. Bu, İslamın model qurmasında əsas məqamdır. Əgər bu məsələyə riayət olunmasa, bu gün Qərbin düçar olduğu pozğunluq qarşıya çıxacaq. Əgər bu məsələyə riayət olunmasa, qadın İslam İranında görünən vəziyyətdən, yəni dəyərlərə sarı hərəkətdə öncüllükdən qalacaq. Qərblilər bütün gücləri ilə bu məsələyə təsir göstərmək istəyirlər; hər bir yerdə və hər bir kəsə qarşı bir yolla.[1]

## Modabazlığa təmayül cəmiyyətin və qadınların azğınlıq amili kimi

Məncə modabaqzlığa və dəbdəbəçiliyə meyl göstərmək, hər şeyin yenisini istəmək və kişilərin qarşısında bəzənməkdə ifratçılıq bizim cəmiyyətimizin və qadınlarımızın yoldan sapmalarının ən böyük amillərindən biridir. Qadınlar bunun qarşısında müqavimət göstərməlidirlər.

Qərblilər qadını öz istədikləri məxluqa çevirmək üçün daim yenilənən modalar düzəltməyə, gözləri, ürəkləri və düşüncələri belə zahiri və aldadıcı məsələlərlə qarışdırmağa ehtiyaclıdırlar. Bunlarla məşğul olan insan həqiqi dəyərlərə nə zaman qovuşa bilər?! İnsan bunlar haqqında düşünməyə macal tapmaz. Özünü kişilərin diqqətini cəlb etməkdə alətə çevirmək istəyən qadın mənəvi saflıq haqqında düşünməyə macal taparmı?! Məgər bu mümkündür?!

Qərblilər istəmirlər ki, üçüncü dünya cəmyyətlərində qadınlar amal istəyən aydın təfəkkürə və böyük məqsədlərə malik olsunlar. Buna görə bizim cəmiyyətimizdə gənc qadınlar Qərb mədəniyyətinin və təfəkkürünün bu

---

[1] Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə feldşerlərlə görüşdəki çıxışdan; 1991

gözəgörünməz və çox təhlükəli kəməndi sarıdan ehtiyatlı olmalı və ondan uzaqlaşmalıdırlar.[1]

**Qərbdə ailələrin dağılması**

Bir çox ölkələrdə gənc nəslin təngə gəlməsinin, intiharların artmasının, ailələrin dağılmasının və gənclərin dərbədər olmasının səbəbi mənəviyyat boşluğudur.[2]

**"Cəmiyyətdə qadınların islahının ardınca kişilərin islahı gəlir!"**

Bu gün İslam xalqının, xüsusən də böyük və şücaətli İran xalqının öndə tutduğu bu yol – İslam amallarının reallaşması yolu, insanların nicat yolu, zülmün dəf edilməsi yolu, dünyada qızıl və güc bütlərinin qırılması yoludur. Bu yolu düzgün tanımaq, onun keşiyini çəkmək və onu qorumaq lazımdır. Bunun güclü iradələrə, möhkəm ürəklərə və yüksək istedadlara ehtiyacı var. Bu bizim kişi və qadınımızın ilahi və islami tərbiyəsindən başqa bir yolla mümkün deyil. Cəmiyyətdə qadınların islahının ardınca kişilərin islahı gələcək. Bu işdə qadınların rolu dəyərli rollardan və bəlkə də birinci roldur.[3]

**Qərbin bulaşıq həyatı və dağılmış ailələri**

Bu gün əgər ölkə daxilindəki bəzi iranlı ailələrin o ənənələrə, işvələrə, geyim və davranışa təmayül göstərdiyini görürsünüzsə, həmin rəzil və xəyanətkar qərbli müəllimlərin təlimlərinin nəticəsidir. Bu proses bu ölkədə on illər boyunca davam etmişdir. İnqilab baş verib xalqın mədəniyyətində və təsəvvürlərində əzəmətli dəyişiklik vücuda gətirsə də, hələ də ürəkləri Qərbin həyat tərzinin ab-havasında olan bir çox

---

[1] Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə feldşerlərlə görüşdəki çıxışdan; 1991

[2] İmam Xomeyninin vəfatının alltıncı ildönümü tədbirindəki çıxışdan; 1995

[3] Həzrət Zeynəbin (ə) doğum günü münasibəti ilə feldşerlərlə görüşdəki çıxışdan; 1991

şəxslər təəssüf ki, bulaşıq və çirkin bataqlıq olan Qərb mədəniyyətinin fəsadlarından, ailənin, qadın və kişinin insani şəxsiyyəti kimi prinsipial bəşəri özüllərin heç birinin sağlam qalmadığı fəsadlardan xəbərsizdirlər.

Baxın, bu gün Amerika və İngiltərədə homoseksualizm rəsmi və qanuni olmuşdur. Onlar bundan xəcalət çəkmirlər də. Elə bir iş görürlər ki, biz onu danışmağa utanırıq. Bizim xalqımız bilsin: iki həmcinsin evlənməsinin qanunla mümkun olduğu bir ölkədə ailənin təməli qalarmı?!

Bu gün iqtidar sahiblərini və onların təbliğatçılarını çıxmaq şərti ilə, Amerika və Avropa xalqının adi təbəqəsi ailə təməllərinin sarsılmasından narahatdırlar. Qadın və kişilər ailə institutunun məhv olunmasından eyni dərəcədə əziyyət çəkirlər. Bu günü-gündən artır və əlbəttə, axırıncı zərbədir. Ailə insanın hüzur yeridir. Rahat və dinc ailə olmadan heç bir insan həyatın həqiqi ləzzətini dada bilməz. Onlar bu təməlləri dağıdıb məhv edirlər. Bu, Qərb mədəniyyətidir. Belə azadlığın, pozğunluğun, çılpaqlıq mədəniyyətinin və qadın-kişi qarışmasının nəticəsi məhz budur.[1]

### *İnsani münasibətlər sahəsi*

**"Məhəbbət imanı yararlı edir!"**

İman məhəbbətlə, dərin eşqlə, duyğusal bağlılıqla birgə olmasa, lazımi təsiri olmayacaq. Əməl və fəaliyyət məqamında, özü də yüksək həddə imana təsir bəxs edən məhəbbətdir.[2]

**Dövrün imamının gənclərin pak qəlbinə diqqəti**

Allahın lütfü ilə şərait din şəraiti, inqilab şəraiti və İslam şəraitidir və bu siz gənclərin paklığına görədir.

---

[1] Böyük Rəhbərin xalqın müxtəlif təbəqələri, həkim və feldşerlər və ölkə klinikaları işçilərinin görüşündəki çıxışından; 1989

[2] Mübariz Ruhanilər Cəmiyyətinin üzvləri ilə görüşdəki çıxışdan; 1989

Allah-Taaladan istəyirəm ki, həzrət Bəqiyyətullahın (ə) diqqətini sizin hamınıza şamil etsin! Mənim şübhəm yoxdur ki, siz gənclərin çoxusu dövrün imamının müqəddəs nəzərindəsiniz.

Bilirəm ki, sizin pak qəlbləriniz o həzrətin diqqət mərkəzindədir. İnşaallah o Fatimə (ə) övladı və Allahın saleh bəndəsi sizin üçün dua etsin! O həzrətin hamı üçün duası qəbul olunacaq.[1]

**Düşməni tanımaq**

**Birinci addım: siyasi mütaliə və siyasi iş vasitəsi ilə düşməni tanımaq**

Universitet və hövzə tələbəsi ayıq olmalıdır. Şagirdlər, lisey uşaqları, qızlar və oğlanlar gərək ayıq və sayıq olsunlar.

Bu gün sizin hamınızdan gözləntilər var. Siz bu ölkənin seçilmiş nəslisiniz. Düşmən tanınmalıdır. Bu birinci addımdır. Bu baxış sizə lazımdır. Əgər sizin siyasi çalışmanız, işiniz, mütaliəniz və mübahisəniz olmasa, bu bacarığı əldə edə bilməzsiniz.[2]

**Gənclərin sayıqlığı və düşmənin məqsədlərini tanımaq**

Siz gənclər çox ayıq-sayıq olmalı, düşmənin məqsədlərini tanımalısınız. Bu gün Amerikanın hegemonçu qüdrətinin məqsədi dünyaya hakim olmaqdır. Bu gizli bir şey deyil. Hətta Avropa ölkələri də Amerikanın mədəni hücumundan, Amerika pulunun müdaxiləçi təsirindən gileylənirlər. Məsələ ələ keçirmək məsələsidir.[3]

**Düşməni və onun (şüarları dəyişdirmək) işini tanımaq**

Düşməni tanımaq hər bir işdən mühümdür. Düşmən özünü dost kimi göstərmək, xalqların şüarlarını dəyişdirmək istəyir.

---

[1] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[2] İslam Respublikası qəzeti; 1995

[3] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

Necə ki, bəzi ərəb rəsmiləri arasında sionizmlə mübarizə şüarını başqa bir şüara çevirdilər. Onların işlərindən biri şüarları dəyişdirməkdir. Elə xalq və dövlət təslim olar ki, düşməni tanımasın, yaxud fəsada və bədbəxtçiliyə düçar olsun. Amma əgər düşməni tanısa (mən gənclərə bunu tövsiyə edirəm), o zaman şüarlar aydın və agah şüarlar olacaq, Allahın lütfü ilə, düşmən öz istədiyini İran xalqından ala bilməyəcək.[1]

**Gənclərin tənəzzülü üçün düşmənin çeşidli üsulları**

Əziz gənclər, düşmən sizin üzərinizdə çoxlu sərmayə qoymuşdur. Diqqətli olun, onlar bir qrupu laqeydliyə dəvət edir, bir qrupu ümidsiz və məyus edirlər. Ümidsizlik gəncin ən böyük təhlükəsidir. Gənclər, təəssüf ki, məyusluğun gəncin ruhuna daha tez yol açdığını bilsinlər. Ümid də belədir. Düşmənin gənclərə təlqin etmək və sırımaq istədiyi ümidsizliyin qarşısında özünüzü möhkəm saxlayın. Düşmən paklıq və səmimiyyət tərənnümü olan gənci fəsada, müxtəlif növlü natəmizliyə və napaklığa çəkmək, eləcə də yanlış siyasi təfəkkürləri təlqin etməklə bir qrupu doğru yoldan sapdırmaq istəyir. ...Bu gün gənci, inqilabın məsul şəxslərindən, öncüllərindən və ölkənin rəhbərlərindən ayrı olduğunu duymağa düçar edən hər bir fikir, təlqin edilən yanlış siyasi təfəkkürlərdəndir.[2]

**Gəncləri fəsada çəkmək üsulu**

Əgər bizim müharibədə iştirak etmiş bir gəncimizi mühasirəyə alıb, əvvəlcə ona bir video, sonra pozğun seksual filmlərin tamaşa cihazını versələr, ehtirasını təhrik etsələr və sonra da bir neçə məclisə aparsalar, o zaman biz nə etməliyik? Kiminsə gənclik enerjisinin zirvəsində olan bir gənci fəsada çəkməsi çətin deyil; xüsusən də əgər fəsad törədənlərin təşkilatı olsa. İndi düşmən bu işi görür. Mənim ölkənin

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

[2] Tələbələr və universitet mənsubları ilə görüşdəki çıxışdan; 1989

müxtəlif şəhərlərindən xəbərim var. Belə xəbərləri bizə çatdırırlar. Elə bir gün yoxdur ki, biz belə xəbərlərdən eşitməyək. Düşməndən başqa kim bu işləri görür?! Gənc şəhvətbazlığa düçar olub öz imanını əldən verir. Əvvəldə bu gənc hətta ağlayır da, lakin tədricən onu yoldan çıxarırlar.[1]

**Düşmənin səyi: məyusluğun, etimadsızlığın və qaranlıq gələcəyin təlqini**

Mənim əzizlərim, xüsusən də bu məmləkətin sahibləri olan əziz gənclər! Sizin əlləriniz bu gün bu ölkəni və sabahı saxlamalı və irəliyə aparmalıdır. Bilin ki, bu gün düşmənin əsas xətti sizi öz gələcəyinizə ümidsiz və məyus etməkdir. O, gələcək üfüqü qaranlıq göstərir, gələcəyə güvəninizi qırmaq üçün sizi bu gün malik olduqlarınıza inanmamağa, İran xalqının əzəmətli nailiyyətini kiçik göstərməyə, İran xalqının bu bir neçə ildə əldə etdiyi böyük inkişafları görməzdən gəlməyə, bu məmləkətin gənclərinin müxtəlif səhnələrdə əldə etdiyi düşüncə, elm, tədqiqat hərəkatını, iqtisadi və siyasi hərəkəti və böyük aktivliyi zəiflətməyə çalışır; özü də dünyada misli az olan belə bir xalq quruluşunda - bizim öz tariximizdə də heç zaman mövcud olmayan quruluşda.[2]

**Gənclərlə ruhanilik arasında ayrılıq yaratmaq**

Bu, universitetlərə də aiddir. Bəzən bu iş təəssüf ki, özümüzünkülərin vasitəsilə görülür. Biz misal üçün, siyasi mühitdə, yaxud universitetlərdə ruhaniliyin şəxsiyyətinin və dəyərinin sıradan çıxarılmasına dair bir sıra işlərin başlandığını görürüksə, bu, sadə və yalnız qrup işi deyil.[3]

**İnqilaba imanı və öhdəliyi məhv etmək**

---

[1] İncəsənət və mədəniyyət qurumlarının məsul şəxsləri və əməkdaşları ilə görüşdəki çıxışdan; 1992

[2] Xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan; 1998

[3] Mədəni İnqilab Ali Şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1991

Bu gün ölkə müstəqilliyinin, başucalığının və inkişafının inqilab prinsiplərinə iman və öhdəlikdən ibarət olan əsas qaynaqlarını gənclərin zehnindən və əməlindən çıxarmaq üçün İranın və İslamın düşmənləri tərəfindən geniş təbliğat və mədəni fəaliyyət aparılır.[1]

**Düşmənin vasitəsi ilə fəsadın, dinsizliyin və bəyənilməz işlərin yayılması**

Hegemonluq istəyir ki, bu ölkədə və bu xalqda dərin iman olmasın, şəhvətlərə qurşansın. İslamın bəyəndiyi işlər olmasın, İslamın baxışında pis sayılanlar yayılsın. Hegemonluq istəyir ki, ölkə daxilində tənbəllik və işsizlik olsun, xalqın iqtisadi, ictimai və mədəni işlərdə quruculuğu, yeniliyi və islahatı olmasın. Hegemonluq istəyir ki, ölkədə elm inkişaf etməsin, tədqiqat olmasın, dərs sinfi olmasın. Bəzi şəxslərin hiyləgər şüarlar verməsi ilə hegemonluğun istədiyi işi görməsi mümkündür. Siz tamamilə sayıq olmalısınız. Bizim gənc nəsildən gözlədiyimiz budur.[2]

**İşçi qüvvəsini tələf etmək**

Düşmən işçi qüvvəsini tələf etməyə çalışır. Necə? İki amillə: əxlaq fəsadı və narkomaniya ilə... Buna iş yerində, dərs mühitində, səyahət, idman və istirahət yerlərində ən yaxşı nəzarətçilər siz xalqın özü, ata və anaların özləri, gənclərin özləridir.[3]

**Gənclərin əleyhinə təhdidlər**

Sağlamlığa, imana, əzmkarlığa və aktivliyə zərbə vuran, gənclərin işini, fəaliyyətini və təhsilini gecikdirən hər bir amil təhdiddir: veyllik təhdiddir, cinsi özbaşınalıq təhdiddir, narkotik maddələr təhdiddir, elmə, dərsə və işə əhəmiyyətsiz

---

[1] Tələbələrin İslam birlikləri üzvlərinin iclasına müraciətdən; 1998

[2] Beynəlxalq imperializm və hegemonluqla mübarizə günü münasibəti ilə tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1996

[3] Qüds qəzeti; 1998

yanaşmaq təhdiddir, əbəs ictimai münaqişələrə qoşulmaq təhdiddir, daxili çəkişmələr təhdiddir, quruluşa və məmurlara qarşı etimadsızlıq təhdiddir. Əlbəttə, məmurların diqqətsizliyi də təhdiddir, xarici düşmənin proqramları da təhdiddir. Bizim xalqımız kimi ayıq bir xalq, məlumatlı bir xalq, canlı bir xalq, gənc bir xalq və inqilabçı bir xalq bütün bu təhdidləri dəf etməlidir.[1]

**Gəncin zehnində iki mühüm amilin təsiri**

Gəncin zehninə ən çox təsir edən iki amildir: Biri düşmənin müxtəlif təbliğatıdır; gənci inqilabda qəti məsələlərdən və əsas etiqadi təməllərdən sayılan həqiqətlərə və İslamın müqəddəs həqiqətlərinə biganə edən təbliğat. İkinci amil isə bu həqiqətləri və prinsipləri düzgün izah və müdafiə etməməkdir.[2]

**Doğma libasda olan özgə**

Mənim tələbələrə sözüm budur ki, düşməndən ehtiyatlı olsunlar, onu yaxşı tanısınlar. Düşməni tanımaqda əsla qəflət etməsinlər. Özünü doğma adamların libasında hər yerə daxil edən özgələri tanıyın, gizli əlləri görün. Heç kəsi qafilliyinə görə tərifləmirlər. Heç kəs gözlərini yumduğuna görə mədh olunmur. Əgər qafil bir insana zərbə vurulsa, məsuliyyət daşıyan və qınanan birinci şəxs onun özüdür. Ehtiyatlı olun. Tələbə qiymətli və dəyərli bir təbəqədir. Düşmən tələbəni hədəf seçmişdir. Bir neçə ildir tələbələri quruluşun qarşısında qoymağa çalışırlar, lakin müvəffəq olmurlar. Bundan sonra da müvəffəq olmayacaqlar. Əgər onların bir qrup adamı fürsətdən istifadə etmək və bulanıq sudan balıq tutmaq istəsə, tələbələrin içinə daxil olub bəzi şüarlar səsləndirsə, bəzi sözlər desə də, elə bilməsinlər ki, biz səhv edəcəyik. Xeyr, biz səhvə yol verməyəcəyik. Biz öz tərəf-müqabillərimizi tanıyırıq. Tələbə

---

[1] Aşuraçı gənclərin toplantısındakı çıxışdan; 2000

[2] Cümə imamlarının toplantısındakı çıxışdan; 1991

bizim övladımızdır, bizimdir, bu ölkəyə məxsusdur. Tələbə adı ilə, yaxud tələbələrin arasına girmək adı ilə fəsad törətmək istəyən düşməndir. Tələbələrin özü sayıq və diqqətli olmalıdırlar [1].

**Gənclərin imanını və quruluşa sevgisini zəiflətmək**

Əvvəla ölkənin başucalığını və müstəqilliyini qorumağın indiki nəslin bütün elmi, dini və siyasi meydanlarda yetkinləşməsindən asılı olduğu üçün, ikincisi isə bu gün bu xalqın düşmənlərinin yenidən gənc nəsli, xüsusən də tələbələri özlərinin dağıdıcı planlarının hədəfi seçdiklərinə görə, əcnəbi siyasi nəzəriyyəçilərin 20 illik təcrübələrinin məhsulu olan güclü bir təhlil İslam İranının bütün düşmənlərini bu nəticəyə çatdırmışdır ki, İslam Respublikasının təməllərini ələ keçirməyin və bu möhtəşəm quruluşun möhkəm sütunlarını yarmağın yeganə yolu gənc nəslin dini inancını zəiflətmək, onların quruluşun əsas mərkəzləri ilə düşüncə və duyğu bağlılıqlarını və təlim-tərbiyə maraqlarını zəiflətməkdir. Bu gün imperializmin və sionizmin xərcli təbliğat maşınlarının bütün təbliğat və nəzəriyyələrinin əsas məqsədi yalnız budur. Bu mənfur və inşaallah uğursuz olan səyin əlamətlərini hər bir kəs İslam Respublikasının tanınan və tanınmaz düşmənlərinin mədəniyyət, xəbər və təbliğat fəaliyyətlərində müşahidə edə bilər. Bu şəraitdə sizin vəzifəniz ağır, həyəcanlı və savablıdır.[2]

**Gənclərin qəlbini ələ almaq**

Bu inqilabın düşmənləri, din düşmənləri həmin məsələni (İranda cavanların əksəriyyət təşkil etdiyini) nəzərə alaraq uzun müddətdir gənclər üçün proqram hazırlayırlar. Bizim unutmağımız mümkündür, lakin düşmənimiz unutmamışdır. Radiolarla, broşürlərlə, gəncin təbiəti və gənc təbəqələrinin

---

[1] Tələbələrin və xalqın müxtəlif təbəqələrinin iştirakı ilə keçirilən toplantıdakı çıxışdan; 1999

[2] Tələbələrin İslam cəmiyyətinin ikinci konfransına müraciətdən; 1998

ehtirasına uyğun olan vasitə və üsullarla onların ürəklərini və fikirlərini yönəltməyə, ələ almağa və onlara təsir göstərməyə çalışırlar.[1]

**Gəncləri ümidsiz etmək**

Mənim siz gənclərdən gözlədiyim və hamınızın ciddi şəkildə unutmamasını istədiyim budur ki, səhnədə olun, ümidinizi əldən verməyin. Bilin ki, bu gün düşmənin İslam Respublikası əleyhinə apardığı bütün bu xərcli təbliğat – Amerika radiosu, qəzetlər, jurnallar, sionistlər və sair - sizi öz gələcəyinizdən ümidsiz etmək üçündür. Gənclərə təlqin etmək istəyirlər ki, bu ölkədə İslamın gələcəyi uzunömürlü olmayacaq və bir iş görmək də mümkün deyil. Bunlar o qədər anlamırlar ki, bu vəziyyətdən daha pisini 19 il öncə təsvir edirdilər. Lakin bu xalq öz müqaviməti, öz qüdrəti, özünün düzgün hərəkəti və Böyük İmamın rəhbərliyi ilə bütün bu maneələri keçməyi bacardı.[2]

**Gəncləri səhnədən çıxarmaq**

İslam İranının gəncləri bilsinlər ki, imperializm onları qələbə və zəfərin mütləq xalqlara nəsib olacağı bu mübarizə səhnəsindən çıxarmaq üçün pul xərcləyir və müxtəlif planlar cızır. Bu planların hədəfi ayaq üstə dayanıb inqilabın və imamın məqsədlərini sonuna qədər həyata keçirmək və bu yoldakı bütün maneələri dəf etmək istəyən siz mömin, inqilabçı və igid gənclərsiniz [3].

**Düşmənin üsulu: ehtirasları, bəyənilməz işləri, tənbəlliyi və bikarlığı yaymaq**

Düşməni tanıyın. Düşmənin ölkə daxilindəki sıralarını tanıyın. Düşmənin üsullarını öyrənin. O üsulların ölkə

---

[1] Alimlər və din təbliğatçıları ilə görüşdəki çıxışdan; 1998

[2] Əsirlikdən azad olanlarla və xalqın müxtəlif təbəqələri ilə görüşdəki çıxışdan; 1998

[3] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

daxilindəki ekvivalentini və formasını da öyrənin. Universitet daxilində, lisey daxilində, cəmiyyətdə, ölkənin fəaliyyətlərində, mətbuatda və təbliğatda hegemonluğun işlərini öyrənin. Hegemonluq istəyir ki, bu ölkədə və bu xalqda dərin iman olmasın, şəhvətlərə qurşansın. İslamın bəyəndiyi işlər olmasın, İslamın baxışında pis sayılanlar yayılsın. Hegemonluq istəyir ki, ölkə daxilində tənbəllik və işsizlik olsun, xalqın iqtisadi, ictimai və mədəni işlərdə quruculuğu, yeniliyi və islahatı olmasın. Hegemonluq istəyir ki, ölkədə elm inkişaf etməsin, tədqiqat olmasın, dərs sinfi olmasın.[1]

**Düşməni tanımaq**

Yaxşı olar ki, əziz gənclər tələbə və şagird müzakirələrində həm hegemonluq sözünü, həm də mübarizə sözünü özləri üçün düzgün araşdırsınlar və inqilabın dünyanın siyasi leksikonuna daxil etdiyi bu yeni terminin dərinliklərini öyrənsinlər.[2]

**Gəncləri qorumaq**

Sözün qısası budur ki, cənablar, gənc nəsil düşmənin vasitəsi ilə tədricən tələf olmaqdadır. Biz buna imkan verməməliyik. Biz gənc nəsli qorumalıyıq ki, müharibə olsa, müdafiə etsin, daxildə bir hadisə baş versə, iştirak etsin, elmin, elm və tədqiqatın növbəsi çatdıqda dərs oxusun və özünü islah etsin, gələcəkdən söhbət düşdükdə özünü hazırlasın. Etimad və ümid səbəbi olan bu gənc nəsil üzərində müxtəlif forma və üslublarla tədricən işləyirlər. Bu fəaliyyət də əsasən mədəni fəaliyyətdir. Düzdür, gəncləri aparıb fəsada qurşatmaq üçün mərkəzlər var. Bu qeyri-mədəni və praktiki tərəfidir. Lakin

---

[1] Tələbələr, şagirdlər, müəllimlər və nümayəndəlik orqanının başçıları ilə görüşdəki çıxışdan; 1996

[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1999

hamısından təhlükəli olan gənclərin zehni, fikri və ruhiyyəsidir. Bununla məşğul olmaq lazımdır.[1]

## Düşmənin səyi: gənclərin məhvi

Ölkə məsələlərində, xüsusən də iqtisadi məsələlərdə gənclərin işləməsinə, onların düşüncə istiqamətlərinə, psixoloji və mədəni istiqamətlərinə diqqət yetirmək çox əhəmiyyətlidir. Bu gün ölkədə bizim əsas dinləyicilərimiz gənclərdirlər. Xoşbəxtlikdən, bu ölkənin əzəmətli qüvvəsi gənclərin qüvvəsindən irəli gəlir. Bu bir fürsətdir və müsbət cəhət kimi işlədilə bilər. Əlbəttə, düşmən sizin istədiyinizin tam əksinə çalışıb bu müsbət cəhəti mənfi cəhətə çevirməyə, gəncləri fəsada çəkməyə, siyasi düşüncə, ictimai rəftar və fərdi rəftar baxımından təbliğat aparıb bunları yoldan çıxarmağa çalışır. Daxildə də təəssüf ki, bu sahədə işləyənlər var. Onlar eynilə düşmənin istədiyi işi görürlər; gənclərin imanını zəiflədir, quruluşla və ölkə məmurları ilə bağlılıqlarını zəiflədir, onları gələcəyə bədbin, yaşadıqları mühitə inamsız edirlər. Təəssüf ki, bu işlər görülür. Düşməndən ədavətli fəaliyyətdən başqa bir şey gözlənilmir. Bizim özümüzdən gözlədiyimiz budur ki, səyimizi düşmənlərin məqsədlərini zərərsizləşdirmək üçün toplayaq.[2]

## Yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək

## Fəsad qarşısında sayıqlıq

Hizbullahçı gənc sayıq olmalıdır, gözlərini açmalıdır, kiminsə sıralara daxil olub yaxşı işlərə dəvət etməklə və pis işlərdən çəkindirməklə fəsad törətməsinə və hizbullahçıların adını ləkələməsinə qoymamalıdır. Ehtiyatlı olmalısınız və bu öz öhdənizə düşür.[3]

---

[1] Cümə imamlarının toplantısındakı çıxışdan; 1991

[2] Prezident və Dövlət Şurası ilə görüşdəki çıxışdan; 1998

[3] Vilayət baxışında vüsal yolu, səh. 19

**Yaxşı işlərə dəvət etməyi və pis işlərdən çəkindirməyi təbliğ etmək**

İnqilabı, İslamı və İslam dəyərlərini müdafiə edə bilən qüvvə bu ixlaslı gəncdir. Buna görə mən bir müddət öncə dedim ki, hamı yaxşı işlərə dəvət etməli və pis işlərdən çəkindirməlidir. İndi də deyirəm ki, pis işlərdən çəkindirin. Bu vacibdir. Bu gün yaxşı işlərə dəvət etmək və pis işlərdən çəkindirmək həm şəriət vəzifəsi, həm də sizin inqilabçı və siyasi məsuliyyətinizdir.[1]

**Dil silahı – günahın bitməsinin amili**

Gənclər öz mühitlərində yaxşılıqlara dəvət edib, pis əməllərdən çəkindirsinlər. Nə üçün yaxşılıqlara, yaxşı işlərə dəvət olan bu vacib iş müsəlman cəmiyyətində hələ də bərqərar olmayıb? Deməyin ki, mənə nə; o da deyə bilməz ki, sənə nə. Əgər desə də siz etina etməyin. Bəziləri elə bilirlər ki, pis bir iş görünən kimi yumruqla tədbir görmək lazımdır. Xeyr, bizim yumruqdan da işlək olan bir silahımız var. O nədir? Dil silahı. Dil yumruqdan çox işlək, təsirli və keçərlidir. Yumruq bir iş görmür.

Bəzi gənclər bizə məktub yazırlar ki, icazə verin biz bu pis əməllərlə mübarizə aparaq. Çox yaxşı, mübarizə aparın, amma necə? Götürüb qarşı tərəfi doğrayasınız? Xeyr, bu deyil. Söz deyin, danışın. Bir kəlmədən artıq danışmaq lazım deyil, çıxış etməyiniz lazım deyil. Pis bir iş görən - yalan, qeybət, böhtan, mömin qardaşa qarşı kin saxlamaq, dinin haramlarına etinasızlıq, müqəddəslərə etinasızlıq, xalqın qəbul etdiklərini təhqir, münasib olmayan geyim və hər hansı bir çirkin hərəkətə düçar olanı görsəniz, sadəcə bir sözdən artıq bir şey lazım deyil. Deyin ki, sizin bu işiniz yanlışdır, bunu etməyin. Qəzəbli halda olması da lazım deyil. Siz deyin, başqaları da desinlər. Günahın kökü cəmiyyətdə quruyacaq.

---

[1] Ölkənin Bəsic müqavimət qüvvələrinin komandirləri ilə görüşdəki çıxışdan; 1992

Nə üçün bəziləri deməkdən imtina edirlər? Bir qrup insan iradəsinin zəifliyinə görə deməkdən imtina edir. Bir qrup insan da elə bilir ki, deməyin faydası yoxdur, əllə işləmək lazımdır. Xeyr, dil əldən çox əhəmiyyətlidir. Yaxşılıqlara dəvəti və pis işlərdən çəkindirməni dirçəldin. Gənc mühitlərdə - istər məktəblərdə, istərsə də universitetlərdə işin fəsada çəkilməsinə qoymayın.[1]

## Cihad və şəhadət

### Şəhidlərin yolunu davam etdirmək

Siz gənclərin, yeniyetmələrin, oğlanların və qızların məqsədi atalarınızın yolunu davam etdirmək olmalıdır. Onlar bu yolda şəhid oldular. Siz inşaallah sağ qalın, çalışın və bu yolda izzətli ömür yaşayın. İslamın sizə ehtiyacı var. Siz İslamın övladlarısınız. İslamın əsgəri olmalı və İslam yolunda cihad etməlisiniz.[2]

### Gənclərin iman qüvvəsi

Dünyada heç bir yerdə görünməyib ki, bir ölkənin gəncləri iman qüvvəsindən başqa heç bir yerə və heç bir qüvvəyə arxalanmadan tarixin ən böyük güclərinin qarşısında dayansınlar.[3]

### İnqilabın gənclərə təsiri

Əgər siz İslam inqilabının bu parlaq ulduzlarına - yəni indi döyüş cəbhələrində şəhidliyi belə qarşılayan gənclərə baxsanız, görərsiniz ki, onların ibadəti, itaətkarlığı və bu gün simalarında görünən bu səcdə əlamətləri keçmişdə belə parlaq və əzəmətli olmamışdır. Bizim İslam inqilabımız bir iksir sayağı bu insanları elə dəyişdirməyə qadir oldu ki, inqilabın

---

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

[2] Şahid məktəblərinin nümunə uşaqları, müəllimləri, direktorları və şəhid ailələri ilə görüşdəki çıxışdan; 1991

[3] Şəhidlərin, əsirlərin və itkin düşənlərin ailələri ilə görüşdəki çıxışdan; 1988

rəhbəri və dünya məzlumlarının ümidi uzaqdan bu gənclərin əllərini öpdü və bununla fəxr etdi.[1]

**Şagird şəhidlərin qəhrəmanlığı**

İkinci xatirə[2] həmin hərəkatın davamında vücuda gələn şəhid şagirdlərin xatirəsidir. Təxminən on beş il ondan əvvəl tağut rejimi elə bilirdi ki, imamı sürgün etməklə bu hərəkat məhv olacaq. Lakin onların istəklərinin əksinə olaraq günbəgün gücləndi və cəmiyyətin üfüqlərini əhatə etdi, kişini, qadını, qocanı, gənci, yeniyetməni səhnəyə çəkdi. Bizim şagirdlərimiz küçələrə çıxdılar və Amerikanın muzdurları (biz qətiyyətlə şahın və onun aparatının cinayətlərini onların hesabına yazırıq) bu əzizləri şəhid etdilər. Bu da həmin gündə amerikalıların bizim İran xalqına vurduğu ikinci zərbə idi.[3]

**Mömin gənclər müharibədə**

Ondan sonra müharibə dövründə müharibəni düşmənin zərərinə bitirən yenə də gənclər idilər. Bu gənc şəhidlər, bu gənc döyüşçülər, müharibə dövrünün bu gənc işçiləri elə bir şey deyil ki, müharibə kimi taleyüklü bir hadisədə gənc nəslin əhəmiyyətini nəzərdən qaçırmaq mümkün olsun. Bu hadisə baş verdi. Beynəlxalq imperializmin ideoloqlarının gözləri bütün səhnəni gördü və anladı ki, bu ölkədə mömin gənc inqilabçı İslamın tərbiyəsi altında nə möcüzələr edir [4].

**Agah surətdə cihad və şəhadət meydanına daxil olmaq**

Bizim tələbə şəhidlərimiz məlumatlı şəkildə şəhadət və cihad meydanına qoşulan, mövqeyi dərk edən, fədakarcasına

---

[1] Tehranda keçirilən insani resursların yenidən qurulması heyətlərinin seminarına müraciətdən; 1982

[2] 4 Noyabr xatirələri və bu gündə Amerikannın İran xalqına vurduğu zərbələr.

[3] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1989

[4] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

fiziki fəaliyyətin vaxtı çatdığını bilən, gedib mübarizəyə qoşulan və çoxları şəhid olan gənc nəslin danışan dilidirlər.[1]

**Şəhidlərin böyük dərsi: İslam yolunda canı fəda etmək**

Əziz şəhidlərin bir an da unutmamalı olduğumuz böyük dərsi odur ki, lazım olduqda canımızı və bizim üçün əziz olan hər bir şeyi İslam dəyərlərinin sipəri etməli və bütün vücudumuzla izzət, şərəf və azadlıq səbəbi olan İslam hakimiyyətini müdafiə etməliyik.[2]

**Şəhid gənclər – xalqın ucalıq və səadət amili**

Bir xalqın ucalığı və səadəti üçün şəhadətin təsiri nə qədər ucadır! Dəyəri olan bunlardır. Belə kişilərin, qadınların və gənclərin varlığı bir xalqın dünya və axirətini təmin edir; həm dünyalarını abadlaşdırır, həm də axirətlərini.[3]

**Gənclərin hərtərəfli mücahidliyi**

Heç bir xalq və ölkə ən yaxşı övladlarının mücahidliyi olmadan özünü bir xalq üçün ən pis rəzillik və xarlıq olan əcnəbi hökmranlığından xilas edə bilməmişdir. Bu gün də gənclərin və seçilmişlərin digər meydanlarda mücahidliyi lazımdır; quruculuq meydanında, düşmənlərin hiyləsini bilmək meydanında, elmi və əxlaqi özünüislah meydanında, xalqda ümid yaratmaq və məyusluq divi ilə mübarizə aparmaq meydanında, hegemonçu düşmənlərin təbliğatlarına qarşı mübarizə meydanında, vəhdət, həmkarlıq və milli birlik meydanında.[4]

**Xalqla münasibətlər**

**Xalqdan ayrılmamaq**

---

[1] Təbriz Universitetinin tələbələri və məsul işçiləri ilə görüşdəki çıxışdan; 1999

[2] Fədakarların və şəhidlərin anım günü münasibəti ilə müraciətdən; 1992

[3] Silahlı qüvvələrin və Quruculuq Cihadının hörmətli şəhid ailələri ilə görüşdəki çıxışdan; 1998

[4] Şəfəq ongünlüyü münasibətilə müraciətdən; 1994

Gənc təbəqəsi həmişə inqilab məsələləri barəsində məsuliyyət hiss etməli və özünü bu işlərdən kənara çəkməməlidir. Bu gün inqilab onun üzərinə hansı vəzifəni qoyur, ondan nə istəyir? İnqilabı irəliyə aparmaq üçün o hansı rolu ifa edə bilər, vəzifəsi nədir? Gənc təbəqəsi Allahın lütfü ilə həmişə inqilab səhnələrində hazır olan əzəmətli xalqdan ayrılmamalı və onların inkişafına, savadlanmasına və məlumatlanmasına kömək etməlidir [1].

**İran xalqının əziyyətlərini dərk etmək**

Siz əziz gənclər bizim bir ömür yaşadığımız və onun İran xalqına qarşı çətinliklərini, əziyyətlərini və təhqirlərini bütün vücudumuzla hiss etdiyimiz dövrü görməsəniz də, onu öyrənə bilərsiniz; o zaman İran xalqının hansı vəziyyətdə olduğunu öyrənə bilərsiniz.[2]

**Elmlə məşğul olan gənclərlə həmsöhbət olmağın ləzzəti**

Bütün əziz qardaş və bacılara, xüsusilə uzaq yollardan və digər şəhərlərdən təşrif buyurmuş qardaş və bacılara xoş gəldin deyirəm. Məclis çox şirin və ürəkaçan məclisdir; çünki elmi işlərin ön sırasında dayanan gənclərin - yəni tələbələrin, şagirdlərin, müəllimlərin, nümayəndəlik orqanı üzvlərinin, elm və maariflə məşğul olan insanların məclisidir [3].

**İctimai işlərdə fəallıq**

Mən gənclərə tövsiyə edirəm ki, ictimai fəaliyyətlərdə iştirak etsinlər. Lakin ehtiyatlı olsunlar ki, bu ictimai fəaliyyət onları dərs oxumaqdan uzaqlaşdırmasın. İctimai fəaliyyətlərdə də dini cəhətləri daha çox olanlara üstünlük versinlər. Bu çox əhəmiyyətli bir məsələdir. Bir ictimai fəaliyyətin dini və

---

[1] Hövzə və Universitetin Birlik Günü münasibəti ilə elmi hövzə və universitet tələbələri ilə görüşdəki çıxışdan; 1990

[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1998

[3] Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə günü münasibəti ilə çıxışdan; 1996

mənəvi cəhətinin çox olduğunu görsəniz, şübhəsiz, o, zərərsiz, yaxud az zərərli, bundan əlavə, ictimai fəaliyyətin və kollektiv tədbirdə iştirakın faydalarına da malik olacaq. Misal üçün, fərz edin iki ekskursiya təşkil olunur və siz hər hansı birinə getməkdə ixtiyarlısınız. Onların biri dini cəhətləri daha artıq olan qrupa məxsusdur. Siz dini cəhətləri daha artıq olanı tərcih edin. Düzdür, ola bilsin həmişə fərqlər bu şəkildə aydın olmasın. Şübhəsiz, sizin dəqiq seçiminiz və ata-analarınızın köməyi lazımdır.[1]

**Cəmiyyətdə xüsusi insanlardan olmağın məsuliyyəti**

Mənim əzizlərim! Siz bu xalqın seçilmişlərisiniz. Mən 3-4 il bundan əvvəl xüsusi və avam insanlar barədə danışdım, orada xüsusi və seçilmiş insanların rolunu bəyan etdim. Tarixdə, istiqamətlərdə və cəmiyyətdə baş verən bütün yaxşı və pis hadisələrdə xüsusi insanların rolu önəmlidir. Əgər cəmiyyət öz yolunu cənnətə, Allahın razılığına və həqiqi səadətə sarı açsa, o cəmiyyətin xüsusi və seçilmiş insanlarının Allah yanında ən böyük savabı olacaq.

Əgər Allah eləməmiş, cəmiyyət azğınlığa, geriliyə və zəlalətə düçar olsa ("zəlalət" Quranın təbiridir və çox düzgün təbirdir), Allah o cəmiyyətin xüsusi insanlarından hesab soracaq. Siz istəsəniz də, istəməsəniz də, xüsusi və seçilmişlərsiniz, bu gənclik dövründə xüsusi insanlardansınız. Çalışın öz mühitlərinizdə təsirli olun.[2]

## *İş və quruculuq sahəsi*

**İş və təşəbbüsçülük**

**Yolu davam etdirmək üçün gəncliyin imtiyazı**

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[2] Məşhəddə ölkə tələbələrindən bir qrupu ilə görüşdəki çıxışdan; 1998

İkinci imtiyaz budur ki, siz gəncsiniz. Gənc işin tapşırıldığı yaşdır. Yolu davam etdirmək üçün qalanlar gənclərdirlər; bu bağı çiçəkləndirmək üçün qalanlar gənclərdirlər.[1]

**Şövq və təhlükəyə atılmaq**

Gəncin təcrübəsi olmasa da, təcrübəyə bərabər bir şeyi var. Bu, həvəskarlıqdan, şövqdən, cəsarətdən və təhlükəyə atılmaq hissindən ibarətdir. Bunlar çoxlu düyünləri açırlar.[2]

**İslam cəmiyyətində boş vaxtın olmaması**

Nümunələri indi də müşahidə olunur ki, İslam cəmiyyətində doğrudan da gənclər üçün boş vaxt yoxdur. Gənclər işləmək istədikləri gün çox asanlıqla Cihadda, orduda, Bəsicdə və müxtəlif komitələrdə işləyə bilərlər. Gənclər üçün o qədər iş var ki, heç sayı-hesabı yoxdur.[3]

**Gənc – işdə yenilik, təşəbbüsçülük və inkişaf amili**

Mənim təcrübəm budur ki, əgər biz gəncə etimad göstərsək - sözsüz ki, ləyaqətli bildiyimiz və səlahiyyəti olan gəncə, hər bir gəncə və hər bir məsuliyyəti yox - işi gənc olmayandan daha yaxşı və daha məsuliyyətli yerinə yetirəcək; həm sürətlə yerinə yetirəcək, həm işi daha yeni və daha artıq yaradıcılıqla bizə təhvil verəcək. Yəni işdə inkişaf prosesi qorunacaq.[4]

**İş və təşəbbüsçülüyün tərənnümü**

Gənc nəsil işdə təşəbbüsçülüyün, düzgünlüyün və saflığın tərənnümüdür.[5]

**Gəncdən aktivlik, həvəskarlıq, iş, yaradıcılıq və təqva gözləntisi**

---

[1] İslam Respublikası Partiyasının tələbə qanadı ilə görüşdəki çıxışdan; 1983

[2] Cihad jurnalına müsahibədən; 1985

[3] Radio və televiziyanın İdman və xalq qrupuna müsahibədən; 1982

[4] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

[5] Kərbəla yolunun şagirdliyi konfrasına müraciətdən; 1998

Bu gün bizim gənclərdən gözlədiklərimiz eynilə inqilabın birinci günündə və inqilabdan öncə gəncdən gözlədiklərimizdir. Biz gəncdən istəyirik ki, paklıqla, zahidliklə və dindarlıqla yanaşı aktiv olsun, həvəskar olsun, kreativ olsun, təşəbbüsçü olsun, işləsin, tənbəllikdən və işsizlikdən çəkinsin, təqvanı özünün şüarı seçsin və doğrudan da təqvanı istəsin.[1]

**Allahın və Peyğəmbərin (s) işsiz gəncdən narazı olması**

O (əziz Peyğəmbər (s)) müxtəlif üsullarla xalqda iş və çalışmaq ruhiyyəsini canlandırırdı. Bəzən işsiz bir gənc gördükdə buyururdu ki, Allah bikar gənci sevmir, Allah öz ömrünü tələf edən və işsizliklə keçirən gəncdən razı qalmır.

Rəvayətdə göstərilir ki, əziz Peyğəmbər (s) bir gənci görüb onun cüssəsindən, sağlamlığından və gəncliyindən xoşu gəldikdə soruşurdu ki, evlənmisənmi, işin-peşən varmı. Əgər həmin gənc "evlənməmişəm və işim yoxdur" - deyə cavab versəydi, Peyğəmbər (s) buyururdu ki, bu gənc gözümdən düşdü. O belə üsul və rəftarlarla xalqın diqqətini iş və çalışmağın əhəmiyyətinə yönəldirdi.[2]

**Fəaliyyət və quruculuq üçün həvəskarlıq və digərlərini ümidləndirmək**

Əziz qardaşlar! Öz vücudunuzda İslam fəaliyyətləri və islami quruculuq üçün maraq və həvəs müşahidə etdikdə gələcəyə nikbin gözlə baxın. Nigaranlıq yaxşıdır, lakin ümidsizlik pisdir. Gənc ümidin tərənnümüdür. Siz bizə də ümid verməlisiniz. Siz gənclik dövründən çıxmış qabaqkı nəslə ümid verməlisiniz. Sizin hərəkətiniz, addımınız, sözünüz, baxışınız və mühakiməniz ümidverici olmalıdır.[3]

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[2] Tehranın cümə namazı xütbələrindən; 1989

[3] Tehran Universiteti tələbələrinin İslam birliyinin üzvləri il görüşdəki çıxışdan; 1996

**Həvəsin, hövsələnin və ümidin olmaması**

Əgər bizim gəncimiz zahirən və yaş baxımından gənc, lakin ruhiyyədə qoca, həvəzsiz, hövsələsiz, təşəbbüssüz və ümidsiz olsa, bu çox pis haldır.[1]

**Gənclərin işi və ölkənin yüksəlişi**

Sonda bir məqamı da xatırlatmaq istəyirəm. Gənclərin gördüyü bu işlər kiçik deyil. Mənim dediyim bu dərs oxumaq, bu tədqiqat işi, sənət işi, idman işi – bunlar kiçik deyil. Mən xahiş edirəm bu işləri görən şəxs onun kiçik olduğunu düşünməsin. Xeyr, bu iş ölkə miqyasında təyinedici bir ünsürə çevrilir. Fərz edin bir sənətkar təklikdə dəyərli bir sənət işi yaratmaq qərarına gəlir. O deyə bilməz ki, mən fərdi bir iş görürəm, özüm tənhayam və bu iş kiçikdir. Xeyr, əgər siz işinizi yaxşı görsəniz, əgər yüz nəfər də sizin kimi fikirləşsə, həmin əzəmətli yüksəliş və həmin böyük iş baş verəcək... Mən təkidlə təkrar etmək istəyirəm ki, bu gənclərin hər birinin işi - harada və hansı sahədə işləsələr - mühüm və inşaallah ölkəni ucaldacaq işdir.[2]

**Bəsic mədəniyyəti**

**Bütün ictimai meydanlarda iştirak etmək**

Bu gün bizim ölkəmizdə üsamə ibn zeydlərimiz çoxdur, gənclərimiz çoxdur. Əzəmətli qız və oğlanlarımız və bu toplumlardan bütün fəal meydanlarda - dərsdə, siyasətdə, ictimai fəaliyyətlərdə, yoxsulluğu aradan qaldırmaq və quruculuq üçün görülən müxtəlif işlərdə, onlar üçün proqram hazırlanan və imkan yaradılan hər bir səhnədə iştirak etməyə hazır olan izdihamlı gənclərimiz var. Bu, ölkə üçün çox mühüm mövqedir. Bu nəsil bu ölkənin ən böyük

[1] Qum Elmi Hövzəsinin alim və tələbələrinin nümayəndələri ilə görüşdəki çıxışdan; 1991

[2] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

təcrübələrindən birini – yəni məcburi müharibə təcrübəsini qüdrətlə və uğurla başa çatdıran nəslə bənzəyir.[1]

**Mücahidlik üçün meydan**

Əgər Allah yolunda mücahidlik meydanından başqa bir şey istəməyən könüllü keşikçi, mömin və ixlaslı gənci kənarda saxlayıb üzlü, tamahkar, gözləntili, səfasız və mənəviyyatsız bir adamı hakim etsək, necə? Bu zaman hər şey dəyişiləcək...

İnqilab ruhunun və inqilab övladlarının cəmiyyətdən təcrid olunmasına qoymamalıyıq.[2]

**Bəsic Allahın bizim ölkəmizə, inqilabımıza və imamımıza verdiyi nemətlərdən biri kimi**

Bəsic üzvü olan əziz qardaşlar və bacılar, çox xoş gəldiniz. Ümidvaram ki, Allahın lütf və mərhəməti həmişə sizə şamil olsun!

Bəsic Aləmlərin Rəbbinin bizim ölkəmizə, inqilabımıza və Böyük İmamımıza verdiyi nemətlərindən biri idi. Əgər hər bir ölkədə silahlı qüvvələr tam hazırlıqlı olsalar, lakin xalqın könüllü qüvvələri dayaq olmasa, şübhəsiz, onların gücü kamil olmayacaq. Bizim ölkəmizdə və xalqımızda əgər Bəsic qüvvələri – inqilabın məqsədlərinə imanlı və ixlaslı olan bu könüllülər keçmişdə müharibə meydanlarının dayağı olmasaydılar və bundan sonra olmasalar (bundan Allaha sığınırıq), şübhəsiz, inqilabı müdafiə işi ləngiyəcək. Əsas xalqın qüvvəsi - yəni Bəsicdir. Məhz buna görə siz əziz gənclər – universitet tələbələri, hövzə tələbələri və digər təbəqələr Allah yolunda cihadın əzəmətli toplumuna qoşulmusunuz. Bu məqama diqqət yetirməlisiniz ki, əsas məsələ inqilabın silahlı müdafiəsidir və bunu bacardıqca gücləndirmək lazımdır.[3]

---

[1] Aşuraçı gənclərin toplantısındakı çıxışdan; 2000

[2] Bəsic batalyonlarının komandirləri ilə görüşdəki çıxışdan; 1992

[3] Bəsicin nümunəvi müqavimət qruplarının komandirləri ilə görüşdəki çıxışdan; 1991

**Bütün səhnələrdə ixlas və fədakarlıq**

Müharibədə gözünü komandirin ağzına dikən, özünün ixlası, fədakarlığı və məftunluğu ilə komandirini heyran qoyan həmin vurğun və aşiq gənc universitetə daxil olanda da öz müəllimini heyran qoyur. Elmi laboratoriyaya daxil olanda da belədir; siyasi təhlil meydanında da həmçinin.[1]

**Təqva - möhkəm qala**

Təqvanın mənası budur ki, insan Allah-Taalanın ona vacib etdiyi işi görsün, vacib əməlləri yerinə yetirsin, haramlardan çəkinsin. Bu, təqvanın birinci dərəcəsidir. Allahın haramlarını tanımaq və onun ətrafına hərlənməmək lazımdır. Şeytan vəsvəsə edir. Hövzə, yaxud universitet tələbəsi və ya digər bir təbəqədən, şəhərli, yaxud kəndli olan bu mömin və könüllü keşikçi gəncin qəlbində təqva, Allaha könül vermək, Allahla bazarlıq etmək, onu xatırlamaq, diqqət göstərmək, zikr, dua və təvəkkül ruhiyyəsi yerləşib inkişaf etdikdə elə möhkəm və sarsılmaz sıra yaranır ki, heç bir qüdrətin onu tərpətməyə qüvvəsi çatmır. Bu, İslam və inqilab məqsədlərinin inkişafının zəmanətçisidir. Bunun qədrini bilmək lazımdır.[2]

**Təqvanı və Allah yolunda fədakarlığı qorumaq**

Əziz və könüllü keşikçi olan, imamın sevdiyi və inşaallah İmam Mehdinin (ə) müqəddəs vücudunun diqqət yetirdiyi, o həzrətin xeyir-dualarının şamil olduğu siz gənclərin işinin ən böyük cəhəti bu təqvanı qorumaqdır; Allah yolunda fədakarlıq və Allah-Taalanın iradə etdiyi yerdə olmaq üçün hazırlıq.[3]

**Bəsic və sülh dövrü**

---

[1] Ölkə məmurları və İslam ölkələrinin siyasi nümayəndələri ilə görüşdəki çıxışdan; 1998

[2] Bəsic üzvü olan universitet və hövzə tələbələri və nümunəvi komandirlərlə görüşdəki çıxışdan; 1991

[3] Bəsic üzvü olan universitet və hövzə tələbələri və nümunəvi komandirlərlə görüşdəki çıxışdan; 1991

Mən söhbətimin birinci hissəsində sizə dedim ki, gənc enerji ilə doludur, gənc həyəcanlıdır. Ölkə silahlı bir müharibəyə məruz qaldıqda gənc könüllü şəkildə və rəğbətlə gedir. Ölkə sabit və sülh şəraitində olduqda gənclərin həyəcanının sağlam təmini üçün Bəsicdən yaxşı nə ola bilər?! Bu, imamın təşəbbüsü idi. Gəncin həyəcanlı ruhiyyəsi əgər quruculuq yolunda, iman yolunda, sağlam yolda, ölkə üçün faydalı ola biləcək bir yolda işlədilməlidirsə, hansı təşkilat Bəsic qurumundan daha mühüm və daha etimadlı ola bilər?![1]

## Milli cihad

### Tərəqqi üçün çalışmaq

Bizim gənclərimizin səyi bu ölkəni tərəqqi və iftixarın zirvəsinə çatdıra bilər.[2]

### Hərtəfəli milli rolun ifası

Mənim əziz gənclərim! Yeniyetmələr! Sizin hamınız ölkənizdə rol ifa edə bilərsiniz. Bir zaman rol Hüseyn Fəhmidənin rolu idi, bir zaman isə başqa rollardır. Dini məsələlərdə, mədəni məsələlərdə, siyasi məsələlərdə, əxlaqi məsələlərdə, gələcəyə baxışda, ümid yaratmaqda, öz ətraf mühitini həvəsləndirməkdə, fərdin və cəmiyyətin başucalığına səbəb olan ibadətdə, dindarlıqda və İslam şəriətinə bağlılıqda mücahidlik etmək olar. Düzdür, onlarda canını verməkdən söhbət getmir, lakin iradə, əzmkarlıq və qərar lazımdır. Hamınız məktəblərdə, universitetlərdə, iş yerlərində və digər yerlərdə rol ifa edə bilərsiniz.[3]

### Ölkənin abadlığı

---

[1] Aşuraçı gənclərin toplantısındakı çıxışdan; 2000
[2] Kermanşah əhalisi ilə görüşdəki çıxışdan; 1989
[3] Tehranın 1000-ci cümə namazı xütbələrindən; 1998

Ölkəni lazımi səviyyəyə qaldırmalısınız. Bu, ölkənin təhsilli və ziyalı olan gənc nəslinin əzəmətli məsuliyyətidir.[1]

**Özünə güvənmək**

**İnqilab gənclərinin əzəmətli işləri**

Xoşbəxtlikdən biz ölkədə su və elektrik enerjisi sahələrində nisbi özünütəminə çatmışıq. Bu gün bizim mühəndislərimiz elə sədlər düzəldir, elə işlər görürlər ki, keçmişdə ölkədə belə bir potensialın olması təsəvvür də olunmurdu, buna ümumiyyətlə icazə verilmirdi.

Bu gün öz uşaqlarımız, mühəndislərimiz, inqilabın gəncləri, ölkənin gəncləri bu əzəmətli işləri görməkdədirlər.[2]

**Gənclərin qeyrəti və səyi ölkə müstəqilliyinin rəhni kimi**

Siz şücaətli gənclər güclü iradənizlə, şövq və həvəsinizlə dayanmalısınız. Ölkənin müstəqilliyi sizdən asılıdır. Ölkənin müdafiəsi sizin kimi qeyrətli və iradəli gənclərin öhdəsinə düşür.

Gənclər əvvəla həmişəki kimi cihad meydanında qəhrəmancasına hazır olmalı, döyüş məharətlərini öyrənməli və Bəsic toplumunda olmalıdırlar. İkincisi isə quruculuq meydanında da fəaliyyət göstərməlidirlər. Kəndlərin gəncləri işləməli və çalışmalıdırlar. Allaha şükür olsun ki, yaxşı yer, yaxşı topraq, yaxşı məhsuldarlıq potensialı və çoxlu imkanlar mövcuddur. Gənc işləməli, çalışmalı və dünyanı abadlaşdırmalıdır. Kişi və qadın hamılıqla ölkəni abadlaşdırmağa çalışmalıdırlar, gənclərin öhdəsinə düşən isə daha çoxdur.

Gənclər öz vaxtlarını boş keçirməməlidirlər, öz ömürlərini, öz qüvvələrini – öz zəngin enerjilərini faydalı və qurucu işlərə sərf etməlidirlər.[1]

---

[1] Pedaqoji Universitetin tələbələrinin məzuniyyət tədbirindəki çıxışdan; 1998

[2] Şəhid Abbaspur Universitetinin idarə heyəti ilə görüşdəki çıxışdan; 1998

**Özünəinam hissi**

Doğrudan da İslam Respublikasının ən böyük fəthi bu gəncləri ruhi əzəmətin, din və yüksəlişin bu mərhələsinə çatdırmaq idi. Onlar özlərinə inanıb dayandılar, dünyanın əzəmətli və yekdil hücumu qarşısında öz ölkələrini, varlıqlarını və İslamı müdafiə edə bildilər. Onun nümunəsi məcburi müharibə idi və indiyə qədər də davam edir.[2]

**Mömin gənclərə etimad**

Məsul şəxslər və mədəni qurumlar – Mədəniyyət Nazirliyi, Təbliğat Komitəsi, Teleradio verilişləri şirkəti, Təlim və Tərbiyə Nazirliyi öz kadrlarımıza arxalansınlar. Sözsüz ki, bu digər qüvvələri sıradan çıxarmaq demək deyil, amma öz kadrlarımızın təcrid olunmasına imkan verməməlidirlər.

Gənclər quruluşun bayraqdarı, əsas korpusu və əqəəqsi olduqlarından həmişə səhnədə olmalı, yetişməli, təlim görməli, mübarizə aparmalı, elm öyrənməli və müxtəlif ixtisaslara yiyələnməlidirlər ki, ölkələri ehtiyacsız olsun, müstəqil qalsın, asılı qalmasın, özünü təmin etsin. Gənclər bu diyarın gələcəyini quranlardır. Ümidli və aktiv qüvvə kimi onlara etimad etmək, inanmaq və yol göstərmək lazımdır. Mömin, etiqadlı və ixlaslı gənc Allah yolunda mücahidlik, mübarizə və quruculuq meydanından başqa bir şey istəmir. Gəncləri səhnədə saxlamaq, onların Bəsic ruhiyyələrini qorumaq lazımdır. Ölkə quruculuğunda mühüm məsələ işləri gənclərə tapşırmaqdır. Əgər gənclər elm və iman silahı ilə təchiz olunmasalar, ölkəni idarə etmək kimi ağır yükü öhdələrinə götürə bilməyəcəklər.[3]

**Özünüitirmə**

---

[1] Buşəhr şəhərinin Leylək kəndinin əhalisi ilə görüşdəki çıxışdan; 1992

[2] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

[3] Təlim və Tərbiyə naziri və nazir müavinləri ilə görüşdəki çıxışdan; 1992

Biz öz toplumumuzda özünü itirməyə yer verməməliyik. Mən özümüzünkülərdən bəzi şəxslərin yadlar qarşısında özünüitirmə hissinə malik olmalarını və hər halda özləri üçün bir dəlil də düzəltdiklərini gördüm. Əgər qədim bir yazıçı, yaxud məşhur bir şair, yaxud şöhrətli bir prodüser olsa, bu onun qarşısında özünü itirir və qürbət hissi keçirir. Halbuki bəzi yerlərdə həqəqətən etməməlidir və bu doğrudan da sənətin olmamasından irəli gəlir.[1]

**Peşə məharətləri**

**İş bazarına daxil olmaq**

Çox yaxşı işlərdən biri texniki peşə məktəbləri məsələsidir. Bu işlə məşğul olmaq lazımdır. Uşaqlar doğrudan da gəlib daha tez iş bazarına girsinlər, diplomçuluğun yalançı və məcbur edilmiş üsulu ardınca qaçmasınlar.[2]

***Əməkdaşlıq və ictimai öhdəlik sahəsi***

**İctimai öhdəlik**

**Dini cəhətləri nəzərə almaqla ictimai fəaliyyət göstərmək**

Mən gənclərə tövsiyə edirəm ki, ictimai fəaliyyətlərdə iştirak etsinlər. Lakin ehtiyatlı olsunlar ki, bu ictimai fəaliyyət onları dərs oxumaqdan uzaqlaşdırmasın. İctimai fəaliyyətlərdə də dini cəhətləri daha çox olanlara üstünlük versinlər. Bu çox əhəmiyyətli bir məsələdir. Bir ictimai fəaliyyətin dini və mənəvi cəhətinin çox olduğunu görsəniz, şübhəsiz, o, zərərsiz, yaxud az zərərli, bundan əlavə, ictimai fəaliyyətin və kollektiv tədbirdə iştirakın faydalarına da malik olacaq.[3]

**Müxtəlif sahələrdə iştirak etmək**

---

[1] Ölkənin mədəniyyət məmurları ilə görüşdəki çıxışdan; 1992

[2] Təlim və Tərbiyə naziri, müavinləri, müşavirləri və nazirliyin şöbə müdirlərilə görüşdəki çıxışdan; 1992

[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

Gələcək sizə məxsusdur. Meydan sizin qarşınızda açıqdır. Özünüzü bütün cəbhələrdə və müxtəlif sahələrdə hazırlayın. Hamı bilsin: bu yol elə bir yoldur ki, əgər sizin kimi bir xalq onu uğurla gedib, Allahın lütfü ilə onun səmərələrini əldə etsə, digər xalqlar da ondan dərs götürəcək və yolu tapacaqlar.[1]

**Ən ağır məsuliyyətin gənclərin öhdəsinə düşməsi**

Mən gəncin müraciət tərəfi ola bilmədiyini və məsuliyyətinin olmadığını düşünən və gəncin vücud gövhəri üçün hörmət və dəyər tanımayan şəxslərin əksinə olaraq inanıram ki, bu gün ən ağır məsuliyyətlərdən biri siz gənclərin üzərinə düşür.[2]

**Sədaqət və ixlasla yanaşı olan işgüzarlıq**

İnqilabın işgüzar və sədaqətli insanların işinə ehtiyacı var. Sədaqət və ixlas birinci şərtdir. Əgər biz kimdəsə sədaqət və ixlas görməsək, onun işinin faydasız olması, yaxud bəzi yerlərdə problem yaratması ehtimalı da çox olacaq. Sədaqəti və ixlası olmayan, lakin işgüzarlığı olan insan elə bir maşına bənzəyir ki, əgər ehtiyatla işlətməsələr və onun bir boltunda problem yaransa, bəzən insanın özünə də zərər yetirə bilər.

İnsanın işgüzarlığı budur ki, hər bir fərd ixlas, sədaqət və düzgün niyyətlə öhdəsinə düşən işi yerinə yetirsin və nəticədə insan sayılsın, maşın yox.[3]

**Gənclərin sayıq qərarı və əməli - ölkə abadlığının amili**

Əziz gənclər! Siz inqlabın və İslamın ümidlərisiniz. Sizin rəftarınız bu məmləkəti çiçəklənmə baxımından sürətlə irəliyə apara bilər. Məmləkətin gənci sayıq şəkildə, ağılla, səbirlə,

---

[1] İslam Respublikası qəzeti, 1997.

[2] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

[3] Prezident aparatı işçilərinin vida mərasimindən; 1989

mövqeyə diqqətlə danışsa, qərar qəbul etsə və əməl etsə, ölkə gülüstana çevriləcək.[1]

## Hüquq və vəzifələr

### İnqilabı tanımaq, öncüllük və biganə qalmamaq

Çalışın inqilabı köklü surətdə, onun elmi və məntiqi əsasları ilə düzgün tanıyın. İndi həmin qanlı günlərdən on bir il ötür. İran xalqının gənc nəslinin özündən qabaqkı qara günləri unutmağa haqqı yoxdur. İran xalqının əzəmətli hərəkətində gənc nəsil öncül olmalıdır. Gənc nəsil üçün, xüsusən də gənc tələbə nəsli üçün laqeydlik və soyuqqanlılıq yolverilməzdir.[2]

### Gənclərdən gözləntilər

Bu gün bizim gənclərdən gözlədiklərimiz eynilə inqilabın birinci günündə və inqilabdan öncə gəncdən gözlədiklərimizdir. Biz gəncdən istəyirik ki, paklıqla, zahidliklə və dindarlıqla yanaşı aktiv olsun, həvəskar olsun, kreativ olsun, təşəbbüsçü olsun, işləsin, tənbəllikdən və işsizlikdən çəkinsin, təqvanı özünün şüarı seçsin, doğrudan da təqvanı istəsin, nəfsini saxlasın, gənclik adlı bu əzəmətli qüvvədən özünün təkamülü, inkişafı, ölkəsinə, ailəsinə və ətraf mühitinə xidmət üçün istifadə etsin. Biz gəncdən bunu gözləyirik. Hər zamanın da bir tələbi var. Ölkədə müharibə getdikdə gəncdən bir gözlənti var, ölkə quruculuq və iş dövründə olduqda bir gözlənti var, elm və tədqiqat inkişafı zamanı və ölkə buna ehtiyaclı olduqda gəncdən bu gözlənti var.[3]

---

[1] Tələbələrin və xalqın müxtəlif təbəqələrinin iştirakı ilə keçirilən toplantıdakı çıxışdan; 1999

[2] Beynəlxalq Hegemonluğa qarşı Milli Mübarizə Günü münasibəti ilə tələbələr, şagirdlər, universitet və mədəniyyət mənsubları ilə görüşdəki çıxışdan; 1989

[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

**Səhnədə iştirak etmək**

Bizim müvəffəqiyyətimizin səbəbi bu idi ki, siz gənclər səhnədə idiniz, xalq hazır idi, inqilabçı ruhiyyə qeyri-inqilabçı və inqilab əleyhinə olan cərəyanlara üstünlük edirdi. Nə vaxta qədər belə olsa, düşmənin təhdidləri həyata keçməyəcək. Düşmənin təhdidi, bədniyyəti və təhlükə vardır. Lakin siz səhnəd oluncaya qədər bu təhlükə reallaşmayacaq.[1]

**Gəncə münasib sahələrdə iştirak etmək**

Mənim siz əziz gənclərə, qız və oğlanlara tövsiyəm budur: gənclərə aid fəaliyyətlər sahəsində, elmi fəaliyyətdə, təhsildə, tədqiqatda, siyasi fəaliyyətdə, müxtəlif ictimai fəaliyyətlərdə, mədəni işlərdə, mətbuat, incəsənət, idman və bu kimi işlərdə tam aktivliklə və bütün gücünüzlə iştirak edin, öz paklığınızı, təqvanızı, imanınızı, ixlasınızı (doğrudan da və insafla desək, dünya gəncləri arasında siz bu cəhətlərdən nümunəsiniz) qoruyun. Əgər bu mömin, ixlaslı və səfalı işlər, xüsusən bizim gənclərimizin və xalqımızın digər fərdləri arasında (hər biri öz qədərincə) mövcud olsa, hegemonluq İran xalqı ilə özünün mübarizəsində heç şübhəsiz, bir dəfə yox, dəfələrlə və dəfələrlə diz çökəcək və məğlub olacaq [2].

**Səhnədə daimi iştirak**

Siz gənclər həmişə səhnədə olmalısınız. Həmişə göstərməlisiniz ki, İslam Respublikası məğlubedilməzdir.[3]

**Gənclər cəmiyyətin motoru kimi**

Doğrusu da budur ki, hər bir gəncdən öz istedadına, peşəsinə, istəklərinə və zövqlərinə uyğun gözləntilərin olduğunu deyək. Bu gözləntilərin məcmusu bizim əzəmətli milli hərəkətimizi formalaşdırır və ölkənin hərəkəti üçün motor rolunu oynayır. Gənclər həqiqətən müəyyən mənada

---

[1] Bəsic üzvləri ilə görüşdəki çıxışdan; 1989

[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1996

[3] Bəsic batalyonlarının komandirləri ilə görüşdəki çıxışdan; 1992

ölkənin hərəkətverici motorudurlar; həm gənc olduqları bugünkü gündə, həm də kişilər, qadınlar, ölkənin müdirləri və işçiləri olduqları sabahkı gündə.[1]

**Gəncin fəallığını qorumaq**

Bu fəallığı qorumalıyıq. Əziz gənclər, qadın və kişilər İslamın nəzərdə tutduğu ölkəni inkişaf etdirmək üçün iş görməlidirlər. Xüsusən gənclərin rolu mühüm roldur.[2]

**Özünəinamın güclənməsi - gənclərin elmi fəaliyyətinin nəticəsi**

Əziz İran, İslam inqilabının sayəsində onun qarşısında təsvir olunan böyük məqsədlərə çatmaq üçün gənclərin elm və bilgi sahələrindəki fəaliyyətinə göz dikmişdir. Bu olmasa, inqilabın 20 ili boyunca həmişə çətin keçidlərdə bizim xalqımızın və hökumətimizin bələdçisi olan özünəinam və milli istiqlaliyyət işığı zəifləyəcək.[3]

**Nizam-intizam**

**Geniş və intizamlı fəaliyyət**

Əgər kor həyəcanlar ortaya çıxsa, düşmən tez istifadə edəcək. Dəfələrlə demişəm, yenə də təkrar edirəm ki, mən ölkənin gəncinin bütün meydanlarda iştirakına inanıram, lakin nizam-intizamla. Müşahidə olunan bu hərəkətlər, kimlərinsə universitetə hücum etməsi intizamsızlıqdan qaynaqlanır. Bu hansı adla baş versə, səhv və məhkumdur.[4]

**Məşvərət**

**Fikir mübadiləsinin və müşavirənin zəruriliyi**

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[2] Qum əhalisi ilə görüşdəki çıxışdan; 1995

[3] Universitetlərin yeni təhsil ilinin başlanması münasibəti ilə müraciətdən; 1999

[4] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

Gənc toplum düşüncə cəhətindən həmişə köməyə ehtiyaclıdır. Bu o demək deyil ki, qocaların düşüncə cəhətindən köməyə ehtiyacı yoxdur. Xeyr, bütün insanlar bu sahədə kömək istəyirlər. Gənclərin düşüncə fəaliyyəti və yenilikçiliyi daha artıq ola bilər. Lakin gənc mühitin ətrafdan düşüncə köməyinə ehtiyaclı olması labüddur. Təkcə qocalardan yox, gənclərin öz arasında da fikir mübadiləsi olmalı və məsələlər haqda düşünməlidirlər. Çünki gəncin təbiəti hərəkətli və aktivdir. Bəzən bu hərəkətliliyin və aktivliyin ətafında daha artıq mütaliə və araşdırma aparılmasına ehtiyac yarana bilər. Bu, gənc mühitlərini xüsusi şəkildə, öz aralarında olsa belə daimi müşavirəyə ehtiyaclı edir. Daha yaxşısı da budur ki, bu onların öz aralarında baş versin.[1]

### Birlik və həmrəylik

### Valideynə və müəllimlərə hörmət

Burada bu aktiv, çalışqan, inkişaf edən və araşdıran nəslə - qızlara, oğlanlara, şagirdlərə, tələbələrə və digərlərinə bir məqamı xatırlatmaq istəyirəm. Sizin müstəqil, vəzifəli və məsuliyyətli şəxsiyyət tapmanız atalara, analara, müəllimlərə və tərbiyəçilərə hörmət və dəyərlə yanaşı olmalıdır. Bu iki məsələ təlim-tərbiyə qurumlarının və siz əzizlərin inkişaf və tərəqqisinin əsas sütunudur. Böyüyün və qabaqkı nəslin hörmətini saxlamaq yeni nəslin istedadından, ağlından, dərkindən və fikir yetkinliyindən irəli gəlir. Əksinə, digərlərinə etinasızlıq özünü böyük saymaqdan qaynaqlanır. Bu, fikir və ağıl baxımından böyük bəlalardandır.[2]

### İran xalqının cihadına qoşulmaq

---

[1] Ölkənin tələbə nəşriyyələrinin ilk toplantısının məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1998

[2] İslam inqilabında gənc və yeniyetmə məsələlərinin araşdırma mərkəzinə müraciətdən; 1987

Üçüncüsü budur ki, öz əziz vətəninizin vəziyyətindən və bizim rəşadətli, imanlı və aydın xalqımızın məşğul olduğu böyük işlərdən qafil olmayın. Bu zehni rabitə şübhəsiz, hər bir azad və şərəfli insanın İran xalqının uca gələcəyini qurmaq yolundakı cihadına qoşulmaq əzmini möhkəmləndirəcək. Siz və yolda olan mömin və işgüzar gənc nəsil Allahın istəyi ilə İran İslam Respublikasının müstəqilliyini və azadlığını hədəf seçən bədxahlıqların hamısına qələbə çalacaqsınız.[1]

## Xidmət və fədakarlıq

### Gənc tələbələr - düşüncə və elm adamı, ölkə üçün fəxr yaradan amil

Digər təbəqələrin yanında tələbələr məlumatlı və ziyalı bir təbəqə kimi, yalnız hissləri ilə idarə olunmayan, düşüncələrinin, ağıllarının və elmlərinin qərarlarında rol oynadığı gənclər olaraq, müharibədə ölkə üçün iftixar yarada bildilər [2].

### Xalqın işlərini yoluna qoymaq

Mən dəfələrlə demişəm ki, gənc nəsil çətin dövrlərin və böyük problemlərin açarıdır. Meydana daxil olduqda (Allaha həmd olsun ki, bu gün də meydandadır) xırda və çətin düyünlər açılacaq. Bizim gənclərimiz mömin və dindardırlar, ölkələrini və İslamı sevirlər, Amerikanın və əcnəbinin hökmranlığına qarşıdırlar.[3]

### Müxtəlif sahələrdə mücahidlik

Mənim əziz gənclərim! Yeniyetmələr! Sizin hamınız ölkənizdə rol ifa edə bilərsiniz. Bir zaman rol Hüseyn Fəhmidənin rolu idi, bir zaman isə başqa rollardır. Dini

---

[1] Avropada təhsil alan iranlı tələbələrin İslam Birlikləri İttifaqının illik iclasına müraciətdən; 1999

[2] Təbriz Universitetinin tələbələri və məsul işçiləri ilə görüşdəki çıxışdan; 1999

[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

məsələlərdə, mədəni məsələlərdə, siyasi məsələlərdə, əxlaqi məsələlərdə, gələcəyə baxışda, ümid yaratmaqda, öz ətraf mühitini həvəsləndirməkdə, fərdin və cəmiyyətin başucalığına səbəb olan ibadətdə, dindarlıqda və İslam şəriətinə bağlılıqda mücahidlik etmək olar. Düzdür, onlarda canını verməkdən söhbət getmir, lakin iradə, əzmkarlıq və qərar lazımdır. Hamınız məktəblərdə, universitetlərdə, iş yerlərində və digər yerlərdə rol ifa edə bilərsiniz. Aktiv, həvəskar və ümidli gənc bir tarixi sığortalaya bilər. Birinci şərti də budur ki, imanlı olun, sayıq olun, fikirləşin, dostu tanıyın, düşməni tanıyın, İslam təlimlərinin düzgün dərkinə, dini və əxlaqi vəzifələrə əməl etməyə çalışın.[1]

### İctimai ədalət

### Ədalətin elmlə inkişafı

Elm rifahın, səadətin və ədalətin səbəbi ola bilər. Nə yaxşı olar ki, ədalət tərəfdarı olan bir xalq kimi sizin elminiz olsun və ədalətin bayrağını ələ alasınız, elmlə ədaləti yüksəldəsiniz... Elm sahəsində bizim geriliyimiz olduğundan çalışın yeni yollar açın. Yəni araşdırın, qaranlıq məqamları açmağa çalışın.[2]

### İnqilabın sözü

Bizim inqilabımızın mesajı elə bir cəmiyyət yaratmaq mesajıdır ki, onda xalq həqiqi idarəçilər, iman təyinedici, İslam əxlaqı və hamının ilahi və mənəvi nemətlərdən bəhrələndiyi ictimai ədalət ən böyük məqsəddir.[3]

## *Elm sahəsi*

### Elmlərin tarixi

---

[1] Keyhan qəzeti, 1992

[2] Kəhgiluyə və Buyer Əhməd vilayətinin universitet mənsubları və mədəniyyət işçilərilə görüşdəki çıxışdan; 1994

[3] Şəhid yetişdirən Nəcəfabad şəhərinin əhalisi və məscid imamları ilə görüşdəki çıxışdan; 1984

**İranın elmi keçmişi**

Siz cənablar və xanımlar oturub doğrudan da fikirləşin, görün bu elmi keçmişi yeni nəslə xatırlada bilmək üçün bu proqramların hər birində bəyan və təlqin növünə dair hansı tədbiri düşünə bilərsiniz. Bizim elmi inkişafımızda bu xatırlatmanın doğrudan da təsiri var. Bu nəsil əgər belə bir istedadı və keçmişi olduğunu bilsə, gələcəyə bir cür baxacaq, amma olan-qalan nə varsa, hamısının avropalıların əlində olduğunu və bizim həmişə onların arxasınca düşdüyümüzü təsəvvür etsə, bu bizim elmi inkişafımızda başqa cür təsir qoyacaq.[1]

**Gənclik dövründə elm öyrənmək**

Gənclik dövrü elm, xüsusən də xarici dilləri öyrənmək üçün çox münasib dövrdür. Sizin faydalı gənclik qüvvəsindən və gənclik sərvətindən istifadənizin özü bu iş üçün fəlsəfə sayılır. Belə bir qüvvədən ağıllı şəkildə istifadə eləmək ilahi şükrün kamil nümunəsidir. Allahın nemətinə şükür etmək odur ki, bu nemətdən istifadə olunsun.[2]

**Müasir elm və texnologiya**

**Elm öyrənməyə və elmi inkişafa çalışmaq**

Təhsil tədqiqata və elmi işlərə də şamil olur. Gənclərdə bu qüvvə olduğundan elmi işdə çox çalışmalıdırlar. Eşitdiyimə görə universitetlərdə gənclər çox da ağır elmi işlərə girişmirlər. Bu çox yaxşı hal deyil. Necə olur ki, biz elm öyrənməyən və orta məktəb səviyyəsində qalıb universitetə getməyən bir gəncə gedib dərs oxumasını tövsiyə edirik, amma universitetdə çətin elmi işdən qaçan tələbəyə elmi işi tövsiyə etməyək? Doğrudan, universitetə nə üçün gəlməlidir? Universitetə gəlməlidir ki, elm inkişaf etsin. Düşünürəm ki,

---

[1] Teleradio şirkətinin Elm qrupu ilə görüşdəki çıxışdan; 1992

[2] Haqq yolunda müəssisəsinin tələbə və müəllimləri ilə görüşdəki çıxışdan; 1984

gənclər elm öyrənməkdə həqiqətən gənclik enerjilərindən xərcləməlidirlər.[1]

**Elmi inkişaf - bir növ mübarizə**

(Bizim gənclərimiz) həmçinin elmə üz tutdular. Elmin inkişafı, tələbə işlərində dəyişiklik və ölkədə tələbələrin sayının artması bizim düşmənlərimiz üçün əsla xoşagələn deyil. Onlar ölkədə elmin bu qədər istənildiyini və onun vasitəsi ilə vətənin gələcəyinin təmin olunduğunu görə bilmirlər. Hətta elmi yarışlarda da bizim gənclərimizin yaxşı nailiyyətlər əldə etdiyini gördük. Bunların hamısı hegemonluqla mübarizə sayılır və ölkənin gələcəyinə kömək edir.[2]

**Elmi inkişaf izzət və iqtidar amili kimi**

Əziz gənclər! Görün elmi işin əhəmiyyəti nə qədərdir; əhəmiyyəti birinci dərəcəlidir. Əgər biz bir ölkə üçün izzət, hörmət, rifah, beynəlxalq iqtidar və elmi inkişaflar istəyiriksə, elm yolu ilə getməliyik.[3]

**Elmi cihad**

Tələbə və şagirdlər elm öyrənməkdən ibarət olan vacib əməli peşə və təcrübə öyrənməklə birgə etməli və onların məqamına uyğun olaraq inqilab hərəkətlərinin öncülü olmalı, İslamın uca məqsədləri istiqamətində, beynəlxalq hegemonluğun və Amerika, sionizm və mürtəcelik üçbucağının təxribatları qarşısında ürəkdən mücahidlik etməlidirlər.[4]

### *Yaradıcılıq sahəsi*

**Xilqətin qəribəlikləri**

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998
[2] Novruz bayramı münasibəti ilə müraciətdən; 1996
[3] Ölkənin nümunə tələbələri və şagirdləri ilə görüşdəki çıxışdan; 1999
[4] İmam Xomeyninin vəfatının qırxıncı günü münasibəti ilə müraciətdən; 1989

**Gənc - ilahi yaradılışın gözəlliyi**

Gənci az olan ölkələr (bu gün bəzi ölkələr nəslin və ailənin tənzimi və digər bu kimi bəzi siyasətlərə görə gənc nəslin azlığına düçar olublar) elm, texnologiya və tərəqqi baxımından öndə olsalar da, işləri ləng gedir, başqa ölkələrdən gənci borc almağa məcburdurlar. Gənc və gənclik ilahi yaranışın gözəlliklərindən biridir.[1]

## Parlaq istedadlar

### Yüksək elmi məqam kəsb etmək üçün iranlı gənc nəslin istedadı, ağlı və bacarığı

İran dünyanın həssas bölgəsində yerləşir. Əzəmətli mənbələri, köklü mədəniyyəti var. Bu xalqın parlaq istedadı var. Bu ölkə bir gün dünyada həm maddi, mənəvi, üstün sənaye, üstün elm və uca mədəniyyət baxımından, həm də dini cəhətdən parlaya bilər. Bu sizin əlinizdədir.

Düzdür, bu gün Yaponiya, Almaniya, və bəzi Avropa ölkələri elmi, texnoloji və sənaye inkişafı baxımından, humanitar elmlərin müxtəlif sahələrində, idarəçilikdə və digər sahələrdə inkişaf baxımından öndədirlər. Bu nailiyyətlərdən hamı istifadə etməlidir. Bizim istifadə etməyimizi istəməyənlərin acığına, biz bütün bunlardan istifadə edəcəyik.

Bir gün Qərb və Avropa biz müsəlmanların elmindən, bizim elmi inkişaflardan, kitablarımızdan, yazılarımızdan və mədəniyyətimizdən maksimum istifadə edib özünü irəliyə çəkdi. Biz fəsad içərisində olan hökumətlər, çirkin səltənətlər, eqoist və tamahkar hakimlər üzündən, xalqa etinasız yanaşan diktatorlar səbəbindən 250 il geri qaldıq. İndi Allahın lütfü ilə bəşəriyyətə məxsus olan elmdən istifadə etməyə çalışacağıq. Elm heç bir xalqın inhisarında deyil. Bizim elmimiz də bəşəriyyətə məxsus idi. Hicri tarixi ilə üç, dörd, beş və altıncı

---

[1] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991

əsrlərdə bütün dünya bizim elmimizdən istifadə edib. Bu gün də Avropanın, Amerikanın və digərlərinin elmi var. Bu da bəşəriyyətindir.

Əlbəttə, onlar gizlədirlər, bunu bilin. Bəlkə də xaricə səfər edən bəzi müəllimlərinizdən eşitmisiniz ki, onlar qoymurlar. Elm təbəqələrə bölünüb. Onların nəzərində əcnəbi olanları müəyyən bir təbəqədən artığını öyrənməyə qoymurlar. Özləri ondan daha yuxarısını öyrəndikdən sonra aşağı təbəqələrə yol verirlər.

Lakin bizim uşaqlarımız istedadlı və zirəkdirlər, inşaallah gedib onlardan istifadə edəcəklər. İndi də istifadə edirlər. Dünya elmindən də istifadə edəcəklər. İstedadları yaxşıdır. Bizim mədəniyyətimiz də dərin və əsaslı mədəniyyətdir. Dinimiz də bizə kömək edəcək ki, buna daha artıq ümidlə çalışaq.

Bu ölkə maddi, elmi və sənaye baxımından bu gün üstün elmə və texnologiyaya sahib olan ölkələrin yerində dayana bilər; bu fərqlə ki, onlarda mənəviyyat yoxdur, onlar ruhi böhrana düçar olmuşlar, daxillərində fəsad var, xalqlarının müxtəlif təbəqələri mənəvi böhrandadırlar, başçıları tamamilə mənəviyyatdan uzaqdırlar, nəfsi istəklərində və həvəslərində qərq olmuşlar. O gün inşaallah bizim ölkəmiz bu cəhətdən də günəş kimi parlayacaq; həm mənəviyyatı, həm maddiyyatı olacaq. Bu gələcək reallaşa biləcək və o sizin əlinizdədir, gənc nəslin əlindədir.

Gərək yaxşı dərs oxuyasınız, özünüzü yaxşı gücləndirəsiniz, yaxşı təqvalı olasınız, ölkə və dünya məsələlərinə əhəmiyyət verəsiniz. Hadisələri təhlil etməyi bacarın, ucalan müxtəlif səsləri eşidin, barələrində düşünün, fikirləşin və seçin. Bu mühümdür [1].

---

[1] Tehran şəhəri universitetlərinin müxtəlif tələbə birlikləri ilə görüşdəki çıxışdan; 1999

**Parlaq istedadların meydana çıxması və inqilabın gələcəyinə müjdə**

İndi bizim təxminən 10 qat artıq tələbəmiz var. Elmi səviyyə yüksəkdir, elmi iş yaxşıdır, tədqiqat yaxşıdır, fənlərin müxtəlifliyi çox yaxşıdır. Bu hərəkət başlanmışdır. Parlaq istedadlar həm tələbələr arasında, həm də şagirdlər arasında özlərini göstərir. Ölkənin gələcəyi, inqilabın və İslam quruluşunun gələcəyi bunu özü üçün müjdə hesab edə bilər [1].

**İstibdad istedadın qarşı tərəfi kimi**

İstibdad istedadın əksidir. Harada istibdad olsa, istedad çiçəklənməz. İslam insanların çiçəklənməsini istəyir. Əzəmətli insani mənbələr təbii mənbələr kimi çıxarılmalıdır ki, dünyanı abadlaşdıra bilsinlər... İslam azadlığı insanın fitri hissi bilir. Bəli, azadlıq bir haqdır, lakin yaşamaq və həyat haqqı kimi bir haqdır, digər haqlardan yüksəkdə durur... Din azadlıq mesajını gətirən ən böyük məktəbdir.[2]

**Yaradıcılıq və yenilik**

**Gənclərin yeniliyə həvəsləndirilməsi**

Bu gün ümumiyyətlə yeniliyə həvəsləndirmək bu cəmiyyətin və bu quruluşun davamlı şüarlarındandır. Buna əsasən, gənclərdən yenilik və yaradıcılıq etmələri gözlənilir. Əlbəttə, göz və qulaqları çox bağlı olan bəzi şəxslər var. Mən bunu da inkar etmirəm. Qapalılıq və durğunluq var. Lakin həmin qapalı insanları da düzgün məntiq üsulları ilə maarifləndirmək olar.[3]

**Gənclərin yenilikləri**

---

[1] Təbriz Universitetinin tələbələri və məsul işçiləri ilə görüşdəki çıxışdan; 1999

[2] Pedaqoji Universitetin tələbələrinin məzuniyyət tədbirindəki çıxışdan; 1998

[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

Gənc yenilik yaratmaq istəyir. Bu zəruri olaraq qeyri-məntiqi və absurd yeniliklərə şamil olmur. Odur ki, düzgün yenilik nəzərdə tutulur. Mən tamamilə razıyam ki, yenilik yaradılmalıdır. Lakin deyirsiniz ki, bizim cəmiyyətimiz qəbul etmir. Mən bununla çox da razılaşmıram. Ya siz gənc olduğunuzdan, öz ailənizin daxilində, yaxud başqa bir yerdə olduğunuzdan məlumatınız var və mənim yoxumdur. Ya da mənim daha çox təcrübəm və daha artıq məlumatım var və sizin bilmədiyiniz bir şeyi bilirəm. Hər halda, bunların biridir... Ola bilsin ailə gənclərin bəzi hədd aşmalarına qarşı çıxsınlar. Bu da məntiqlidir.[1]

**Elmi mühitin yeniliyi və yaradıcılığı**

Elmi mühit dünyanın inkişaf etmiş elmindən maksimum bəhrələnməklə yanaşı, özünə güvənməli, kreativ və araşdırıcı olmalıdır. Beynəlxalq istismarçı quruluş özünün təbliğat vasitələri ilə həmişə çalışıb ki, elm və texnologiya karvanından geri qalmış xalqlarda həqarət, bacarıqsızlıq və ehtiyac hissini gücləndirsin, onları həmişə özünə möhtac saxlasın.[2]

**Gənclikdə təqva və yaradıcılığın möcüzəsi**

Ölkənin ən mühüm işlərindən biri üçün seçilmiş əziz hərbçi gənclər əgər sözdə və əməldə olan təqvanı yaradıcılıq və gənclik istedadının aşkara çıxması ruhiyyəsi ilə yanaşı etsələr, möcüzə baş verəcək.[3]

**Gənclərin yaradıcılığı üçün şəraitin yaradılması**

Əgər bu gənclərin elm və tədqiqat meydanında inkişaf etməsini istəyiriksə, həm onların yaradıcılıq qüvvəsinə

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[2] Tələbələrin ümumrespublika toplantısına müraciətdən; 1999

[3] Noşəhr şəhərinin Dənizçilik Universitetinin səhər tədbirindəki çıxışdan; 1999

meydan verməli, fikirləşməyə və işləməyə vadar etməliyik, həm də inkişaf edə bilmələri üçün şərait yaratmalıyıq.[1]

**Gənclik dövründə istedadın çoxluğu**

Gənclik insan ömrünün elə bir xüsusi dövründən ibarətdir ki, o dövrdə insan özünün bir çox istedadlarının çiçəklənməsinə və aktuallaşmasına nail olur. Yəni insanda olan istedadların aşkara çıxması, gözəlliklərin zirvəsi, istedad və bacarıqların qaynaması dövrüdür. Normal olaraq bu dövr insanda həddi-büluğ zamanından, yaxud ondan bir qədər öncədən başlayır, davamı isə müxtəlif insanlarda fərqli olur. Yəni bəziləri 30 yaşdan sonraya qədər də gəncdirlər. Bəziləri isə gəncliyi tez arxada qoyurlar. Bu fiziki və pisxoloji istedadlardan, yaşayış mühitindən, tərbiyənin və işin növündən asılıdır. Bəziləri elə bilirlər ki, insanın gənclik dövründəki çiçəklənməsi və istedadının qaynaması fiziki və maddi cəhətlərə məxsusdur. Lakin bu səhvdir. Çünki bu dövr insanların hərtərəfli çiçəklənməsi dövrüdür. Yəni bu dövrdə insanın mənəvi istedadları, elm və dərin düşüncə istedadı da çiçəklənir. Hətta bəndəlik, mənəvi zövq, islah olmaq, təqva, zikr, Allah-Taalaya diqqət və Ona yaxınlıq kimi mürəkkəb mənəvi məsələlərin çiçəklənməsi də gənclik dövründə baş verir. Daha aydın desək, gənclik dövründə daha yaxşı idman etməyin mümkün olduğu kimi, daha yaxşı da öyrənmək, qavramaq və işi öyrənmək mümkündür; necə ki, daha yaxşı ibadət etmək, özündə gözəl əxlaqi xüsusiyyətləri və mənəviyyatı yaratmaq da mümkündür. Odur ki, biz həddi-büluğ dövründən, misal üçün, 30 yaşından bir qədər artıq zamana qədərki dövrü - yəni gəncliyin orta həddində bir gəncə baxsaq, görərik ki, hər cəhətdən həyatının bahar fəslidir...

Biz bunu belə kompleks şəkildə dərk etdikdə təbii ki, bizim bir gənc haqqında təsəvvürümüz xüsusi təsəvvür olacaq. Yəni əgər misal üçün, bir gəncin gənclik dövrü iyirmi ilə qədər

---

[1] Şərif Sənaye Universitetinin müəllimləri ilə görüşdəki çıxışdan; 1999

çəkirsə, 20 yaşa yaxın dövründə onun üzərində ən çox sərmayə qoyulmalıdır. Hər bir insandan ən çox bu dövrdə istifadə edilməlidir; istər şəxsi baxımdan, istər ictimai baxımdan.[1]

**Gənc - ölkə hərəkətinin mehvəri**

Gənc hər bir cəmiyyətdə və ölkədə hərəkətin mehvəridir. Əgər inqilabçı hərəkət və siyasi qiyam olsa, gənclər başqalarından daha tez səhnədə hazır olurlar. Əgər quruculuq hərəkəti, yaxud mədəni hərəkət olsa, yenə də gənclər digərlərindən öndədirlər və onların əli digərlərinin əlindən daha təsirlidir. Hətta Allah peyğəmbərlərinin, o cümlədən erkən İslam çağının hərəkətində da hərəkət mehvəri və işlərin mərkəzi gənclər idilər [2].

**Gənclər cəmiyyətin mühərriki kimi**

Həqiqətən gənclər cəmiyyətdə müsbət və mənfi olmasından asılı olmayaraq, böyük hərəkətlərin təşkilatçısı və mühərrikidirlər. [3]

**Yaxşılıqların dairəsini genişləndirmək üçün dərin elmi iş**

Səthi və zahiri işlər əgər səhv olmasa, faydalıdır, lakin bir həddə; səhv və azğın formalara malik olduqda isə zərərlidir. Xoşbəxtlikdən ölkə universitetlərində baş verən bu yaxşı işlər – dinə diqqət, ibadətlərə maraq, Allahın lütfü ilə universitetlərdə günbəgün genişlənməkdə olan məsələlər, misal üçün, camaat namazları, dua və etikaf məclisləri və sair – çox yaxşıdır. Lakin onların təsir dairəsi və təsirinin müddəti məhduddur. Əgər bu dairəni genişləndirmək, tədqiqat adamlarının ürəklərinə də özündə yer vermək, onun təsirini heç bir tufan və qasırğanın qopara, yaxud hətta tərpədə

[1] Nümunə gənc seçimi barəsində Gənclər jurnalına müsahibədən; 1986
[2] Tələbə və şagirdlərlə görüşdəki çıxışdan; 1991
[3] Tələbələr və universitet mənsubları ilə görüşdəki çıxışdan; 1989

bilməyəcəyi səviyyədə dərinləşdirmək istəyirsinizsə, dərin elmi iş görməlisiniz. Siz bu işi görə bilərsiniz.[1]

## Fəal beyinlər və parlaq istedadlar üçün düşüncə və iş imkanları yaratmaq

Əgər bu gənclərin elm və tədqiqat meydanında inkişaf etməsini istəyiriksə, həm onların yaradıcılıq qüvvəsinə meydan verməli, fikirləşməyə və işləməyə vadar etməliyik, həm də inkişaf edə bilmələri üçün şərait yaratmalıyıq. Kim inkişaf etdiyini hiss etsə, onun üçün bu imkanı yaradan mühiti sevəcək. Əgər biz ölkədə imkanlar yaratsaq, bizim gənclərimiz burada qalmağı üstün tutarlar; ən azı onların əsas hissəsi və əksəriyyəti belədirlər və bu gün mövcud olan vəziyyət yaranmaz. Təəssüf ki, indi fəal və işgüzar beyinlər və parlaq istedadlar beynəlxalq müsabiqələrdə seçilir və asanlıqla ovlanırlar.[2]

## Gənclərdə iman, mənəvi rabitə və güclü bağlılıq vücuda gətirmək

Dünyada xüsusən gənclər üçün gözəlliklər çoxdur. Əgər bu tərəfdə bir iman, bir mənəvi vabitə və güclü bağlılıq olmasa, işlərin çoxu uğursuz qalacaq. Gənclərin dindarlığı və özlərinin bu ölkədəki dəyərlərinə - inqilablarına, şüarlarına, gələcəyə, ölkəyə, tarixə, bilgi və mədəniyyətlərinə bağlılıqları ən çox köməyi edir. Hamı kömək edə bilər. Bu təkcə burada tədris edən, yaxud nümayəndəlikdə işləyən filan əmmaməliyə və ya din müəlliminə məxsus deyil, tam elmi-ixtisaslı bir texnologiya müəllimi də öz dərsi arasında bir kəlmə söz deyə və o söz bu gəncin qəlbində iman və düzgünlük amili kimi qala bilər. Bu çox ağır vəzifədir. Ümidvaram ki, bu iş inşaallah görüləcək.[3]

---

[1] Universitet Cihadının üzvələri ilə görüşdəki çıxışdan; 1999
[2] Şərif Sənaye Universitetindəki görüşdəki çıxışdan; 1999
[3] Şərif Sənaye Universitetindəki görüşdəki çıxışdan; 1999

**İstedadlı qüvvələrin ruhdan düşmə təhlükəsi və onları qorumağın zəruriliyi**

Mən belə hiss edirəm ki, bu ölkə üçün indi və hətta yaxın gələcəkdə bir təhlükə kimi fərz olunan məsələlərdən biri bütün fənlərdə istedadlı qüvvələrin ələ alınması və ruhdan düşməsi təhlükəsidir. Bu gün dünya maddi fəaliyyət və pul dünyasıdır. Pul qazanmaq üçün nə qədər lazımdırsa, pul xərcləyirlər.

Mən eşitmişəm ki, ölkənin bəzi universitetlərində tələbənin öz dissertasiyasını müdafiə etdiyi iclasda böyük şirkətlərin məmurları da iştirak edirlər və bu gənci oradan seçirlər. Həmin iclasda, yaxud ondan dərhal sonra təklif edirlər ki, siz təhsilinizi davam etdirmək üçün bizim tərəfimizdən burs olunursunuz və gələcəyin - işin, mənzilin təmin olunması şərti ilə bizimlə işləyin.

Baxın, belə asanlıqla ovlayırlar. İndi bu böyük həvəsdən keçməyə hazır olan şəxsin burada olduqca böyük vurğunluğu olmalıdır. Əlbəttə, sizin çoxunuz məndən yaxşı bilirsiniz ki, inqilabdan öncə istedadların aşkara çıxması və bilinməsi üçün şərait belə yaxşı deyildi. Bu gün şərait yaxşıdır. Bu gün bizim həmin dövrdən on dəfə artıq tələbəmiz var. Odur ki, o zamandan on dəfə artıq dəyərli istedadların aşkar çıxması imkanımız var. O zaman bəlkə də bunlar müxtəlif iqtisadi və maddi məsələlərin və digər problemlərin arasında itib məhv olurdular. Lakin bu gün aşkara çıxırlar və bu, düşmən üçün çox yaxşı yerdir. Yəni zəngin təbii qaynaqları tapdıqları və hər hansı bir yolla onu sahiblərinin əlindən oğurladıqları kimi, nə üçün zəngin insani qaynaqları da tapıb onları da sahiblərinin, ölkənin və böyük xalq ailəsinin əlindən oğurlamasınlar və aparmasınlar?

Odur ki, bu iş görülməlidir. Mən də məsuliyyət daşıyıram, hökumət də məsuliyyət daşıyır, siz də məsuliyyət daşıyırsınız. İnşaallah bu iş baş tutmalıdır. Ümidvaram ki, Allah-Taala həm

sizə, həm bizə kömək etsin, bu vəzifəni tanıyıb ona uyğun əməl etmək üçün uğur versin.[1]

### *İncəsənət və ədəbiyyat sahəsi*

**İncəsənət zövqünün gücləndirilməsi**

Siz istər incəsənət xadimi kimi, istər Təbliğat Komitəsinin İncəsənət Şöbəsinin işçiləri kimi, incəsənət zövqünün artırılması ilə məşğul olmalısınız. Sizin incəsənət zövqünüz tamaşaçını heyran qoymalı, iddiaçı olan, izah istəyən və sizin nailiyyətinizi gözləyən şəxsi qane etməlidir.[2]

**Müqəddəs bir təfəkkürü bəyan etmək üçün incəsənətin gücləndirilməsi**

Siz istər hövzənin bir bölməsi kimi (Allaha həmd olsun ki, bu bölməyə hər bir sənət növü sığır), istərsə də qeyri bir qurum kimi özünüzdə bir sənət zövqü görüb onu davam etdirdikdə, özünüzdə incəsənətin kökünü və bulağını coşdurduqda, çalışıb (ölkənin) incəsənət potensialını zənginləşdirməlisiniz ki, dünyanın bugünkü pak ruhunu və müqəddəs təfəkkürünü – yəni bizim qaranlıq dövrümüzdə və səhv fikirlərin natəmiz dünyasında məsum bir ruh və düşüncə kimi özünə yer açan İslam inqilabını gücləndirib genişləndirəsiniz.[3]

**İncəsənəti zənginləşdirmək müqəddəs təfəkkürün xidmətində**

Bu sənətkarlıq istedadını işlədib zənginləşdirməliyik. Şair, yazıçı və hər hansı bir sənət adamı bu müqəddəs təfəkkürə xidmət göstərməli, incəsənətdən, sənət zövqündən və sənət alətlərindən maksimum istifadə etməlidir.[4]

---

[1] Şərif Sənaye Universitetindəki görüşdəki çıxışdan; 1999
[2] İslam Təbliğatı Komitəsinin sənət adamları ilə görüşdəki çıxışdan; 1989
[3] İslam Təbliğatı Komitəsinin sənət adamları ilə görüşdəki çıxışdan; 1989
[4] İslam Təbliğatı Komitəsinin sənət adamları ilə görüşdəki çıxışdan; 1989

**Gözəllik və gözəlləşmə**

Sizin dediyiniz bəzənmə, geyim və bu kimi məsələlər isə xırda məsələlərdir. İnsanın, xüsusən də gəncin gözəllikdən və gözəlləşmədən xoşu gəlir. Ürəyi istəyir ki, özü də gözəl olsun. Bunun eybi yoxdur. Bu təbii və zəruri bir haldır, İslamda da qadağan olunmamışdır. Qadağan olunan fitnə və fəsaddır.[1]

**Sənətə pərəstiş - gözəlliyə pərəstiş**

Əgər siz bir yazı, şeir, musiqi, rəsm, yaxud incəsənət məharəti ilə dolu olan yaxşı bir sənət əsəri təqdim etsəniz, heç kəs bunun pis olduğunu deyə bilməz, heç kəs ona qarşı çıxa bilməz. Çünki bu, günəşlə düşmənçilik etməyə bənzəyər.[2]

**"Sənət adamı həqiqəti daha tez dərk edir!"**

Sənət adamı zərifliyinə və həssaslığına görə həqiqəti daha yaxşı və daha tez anlayır, daha yaxşı bəyan edir və ona daha sadiq qalır. Belə deyil ki, həqiqəti digərlərindən daha tez əldə etdiyindən, yaxud daha zərif və daha lətafətli əldə etdiyindən daha asanlıqla əldən versin. Məgər belə bir şey mümkündür?![3]

## İncəsənət meyarları

**Sənət əsərlərinə pərəstiş**

Sənətə pərəstişdən söhbət düşdükdə tarixin müstəsna əsərləri kimi dəyərli sənət əsərləri nəzərdə tutulmur, yetərli incəsənət zövqündən bəhrələnmək nəzərdə tutulur.[4]

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

[2] İslam Təbliğatı Komitəsinin incəsənət şöbəsinin şairləri, yazıçıları, prodüserləri, bəstəkarları, fotoqrofları və digər sənət adamları ilə görüşdəki çıxışdan; 1989

[3] İslam Təbliğatı Komitəsinin incəsənət şöbəsinin şairləri, yazıçıları, prodüserləri, bəstəkarları, fotoqrofları və digər sənət adamları ilə görüşdəki çıxışdan; 1989

[4] İslam Təbliğatı Komitəsinin incəsənət şöbəsinin şairləri, yazıçıları, prodüserləri, bəstəkarları, fotoqrofları və digər sənət adamları ilə görüşdəki çıxışdan; 1989

**Halal və haram musiqinin meyarı**

Musiqi haqqında iki məsələ var: Biri budur ki, görək haram və halal müsiqinin meyarları hansılardır. Digəri budur ki, real nümunədə sərhədləri müəyyənləşdirək. Sizin sözünüzlə desək, gənclər bilsinlər ki, bu haramdır, bu isə halal. Əlbəttə, ikincisi asan iş deyil, çətindir. İnsanın bu müxtəlif musiqi ifalarından - xarici musiqini, İran musiqisini, müxtəlif qisimli musiqiləri, sözlü və sözsüz musiqiləri bir-bir müəyyənləşdirməsi çətindir. Lakin ümumi meyarları demək olar. Baxın, musiqi əgər insanı bikarlığa, pozğunluğa, halsızlığa, həyat işlərindən soyumağa və bu kimi məsələlərə çəksə, bu musiqi halal deyil, haram musiqidir. Musiqi əgər insanı mənəviyyatdan, Allahdan və zikrdən qafil etsə, bu musiqi haramdır. Musiqi əgər insanı günaha və ehtirasa həvəsləndirsə, bu musiqi haramdır. İslama görə belədir. Musiqidə əgər bu zərərli və harama bais olan xüsusiyyətlər olmasa, haram olmaz. Mənim dediyim bu xüsusiyyətlərin bəzisi səssiz musiqilərdə və tarlarda var, bəzisi hətta sözlərdə var. Yəni ola bilsin sadə və zərərsiz bir musiqi ifa etsinlər, lakin bu musiqidə oxunan şeir azdırıcı şeir olsun, cinsi özbaşınalığa, veylliyə, şəhvətbazlığa, qəflətə və bu kimi məsələlərə həvəsləndirsin; bu zaman haram olacaq.

Buna əsasən, musiqidə haramlıq və halallıq göstəricisi və imamın mübarək həyatının sonlarındakı hörmətli fikrinə uyğun olan budur. Ləhv musiqisi də var. Ola bilsin musiqi fiqhi terminlə desək, ləhv musiqi olsun. Ləhv - qəflət deməkdir; yəni Allahın zikrindən uzaq olmaq, mənəviyyatdan uzaqlaşmaq, həyatın işlərindən uzaqlaşmaq, iş və fəaliyyətdən uzaqlaşmaq, pozğunluqda və özbaşınalıqda qərq olmaq. Belə musiqi haramdır. Bunun ifa ilə, yaxud oxunan sözlə hasil olmasının fərqi yoxdur.

Siz deyirsiniz ki, beynəlxalq dil. Sizin öz sözünüzlə desək, sərhədləri aşan və bəzi yerlərdə yayımlanan musiqi zəruri olaraq yaxşı musiqidirmi? Bir musiqinin filan ölkənin sərhədini keçməsi və misal üçün, müxtəlif ölkələrə gəlib bir

qədər tərəfdar toplaması musiqinin yaxşı olmasına dəlildirmi? Xeyr, əsla. Bir musiqinin şəhvətbazlığı, gəncliyin ehtirasını təhrik etməsi və eyni zamanda təbii olaraq, bir qrup qafil gəncin ondan xoşlanması mümkündür. Dünyanın harasında bu kaset əllərinə düşsə, ondan istifadə edəcəklər. Bu, musiqinin yaxşı olmasına dəlil deyil.

Mən ümumi şəkildə deyə bilmərəm ki, əsl İran musiqisi halal musiqidir. Xeyr, belə deyil. Bəziləri elə bilirlər ki, halal və haram musiqinin sərhədi klassik İran musiqisi və qeyri-klassik musiqidir. Xeyr, belə deyil. Din və şəriət dəvətçilərinin keçmişdə həmişə mübarizə apardıqları, haram olduğunu söylədikləri, şahların saraylarında əxlaqsız insanların, ehtiraslara təmayüllü və şəhvətlərdə qərq olmuş insanların yanında haram formada ifa olunan klassik musiqimiz olmuşdur. Bu haram musiqidir. Odur ki, haram və halal musiqinin meyarı iranlı olmasından, klassik olmasından, qədim olmasından, ənənəvi olmasından, qərbli, yaxud şərqli olmasından ibarət deyil. Meyar mənim qeyd etdiyimdir. Bu meyarı sizə verə bilərik. Lakin filan kasetin bunların hansından olmasını mən müəyyən edə bilmərəm.

İndi bəzi qurumlar bunları ayırırlar. Lakin mən bunların yüz fazi düz ayırmalarına əmin deyiləm. Bəzən gəlib bizə deyirlər ki, çox pis, yaxud pozğun bir kaseti icazəli şəkildə yayırlar. Bəzən bunun əksi də baş verə bilər. Mən indi bilmirəm ki, bu seçimlər nə qədər həqiqi və qanun əsasında aparılır. Lakin mən yaxşı gənclər və öz övladlarım kimi sizə nəsihət edə biləcəyim və öz fikrim olaraq deyə biləcəyim budur.

Düşünürəm ki, musiqi azdırıcı ola bilər, insanı ehtiraslara düçar edə bilər, insanı pozğunluğa, fəsada və aşağılığa çəkə bilər. Bunlar olmaya da, bunların əksi də ola bilər. Halal və haramın sərhədi buradır. Mən ümidvaram ki, siz gənclər təqva ehtiyatı ilə meydana atılıb elə məhsullar təqdim edə bilərsiniz ki, sözün həqiqi mənasında yaxşı və səlis musiqinin

xüsusiyyətlərinə malik olsun, sözün həqiqi mənasında müsbət təsir buraxsın və həqiqətən gəncləri və ruhları saflığa, mənəviyyata və həqiqətə yönəltsin.[1]

**Sənəti İslam meyarları ilə öyrənmək və işlətmək**

İncəsənəti faydalı bilin və İslam yolunda işlədin. Sənəti İslam meyarları ilə öyrənin, öyrədin, işlədin ki, xalqa ilahi və dini məfhum və dəyərləri göstərə biləsiniz. Bu gün dünya İslam həqiqətlərinə möhtacdır. Quran məfhumlarının və Quran maarifinin parlaq günəşinə bu gün dünyada xalqların çox ehtiyacı var.[2]

**İncəsənət dili**

**İncəsənət dili ilə insanları hidayət etmək**

Hər bir sənət adamı ölkəni və hətta dünyanı öz sənət əsəri ilə əhatə edə, düşüncələri düzəldə, insanlar üçün hidayətlər yarada, yaxud sənətdən zövq alanlar üçün ruhi və mənəvi zövqlər bəxş edə bilər.[3]

**İncəsənətdən istifadənin ümumi olması**

Ümumiyyətlə dünyada elə bir ağıl sahibi varmı incəsənətdən istifadə etmək istəməsin?! Təbiidir ki, hamı incəsənətdən istifadə etmək istəyir [4].

**Sənət dilinin dəqiq və düzgün məqsədi**

Müəyyən bir fikri daşıyan bütün vasitələr kimi incəsənətin də çox dəqiq, aydın və düzgün məqsədi olmalıdır; məqsəddə səhvə yol vermək olmaz.[1]

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[2] Şəhid ailələri, əlillər, xalqın müxtəlif təbəqələri və İncəsənət Universitetinin tələbə və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1991

[3] Şəhid ailələri, əlillər, xalqın müxtəlif təbəqələri və İncəsənət Universitetinin tələbə və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1991

[4] Şəhid ailələri, əlillər, xalqın müxtəlif təbəqələri və İncəsənət Universitetinin tələbə və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1991

**İncəsənət - əzəmətli həqiqətləri bəyan etmək dili**

İncəsənət bütün mövzular üçün, xüsusən də inqilab kimi mürəkkəb mövzular üçün güclü dildir. Mənim kimilər inqilab barəsində nə qədər danışsaq, onun əzəmətli həqiqətini bəyan edə bilməyəcəyik. İncəsənət dili meydana çıxdıqda isə məsələ dəyişir. İncəsənət dili əzəmətli hadisələri çatdırıb izah edə və zehinləri aydınlaşdıra bilir.[2]

**İncəsənət - mənəvi və dini dəyərləri əks etdirmək üçün ən yaxşı vasitə**

İncəsənət bu məfhumları və bu məsələləri əks etdirmək üçün ən yaxşı vasitədir. Təəssüf ki, İslamın, İranın, bizim şərəf və izzətimizin düşmənləri incəsənətdən də sui-istifadə etdilər, hələ də etməkdədirlər; şeirdən, rəssamlıqdan, hekayədən, filmdən, teatrdan və incəsənətin digər sahələrindən fəziləti əzmək, mənəvi və dini həqiqətləri və dəyərləri məhv etmək, maddəçiliyə və maddi eyş-işrətə sövq etmək üçün sui-istifadə edirlər. Bunu kim düzəltməlidir? Siz gənclər. Əgər İslam inqilabı, İslam cəmiyyəti uca və dəyərli sənətdən bəhrələnməsə, öz qəlbindəkiləri tərəf-müqabillərinə çatdırıb onlarla əlaqə yarada bilməyəcək.

Siz təsəvvür edin, əgər bir cəmiyyətdə danışmaq imkanını – xalqla belə danışmaq və çıxış etmək imkanını dəyər və düzgün fikir sahiblərindən alsalar, danışmağa qoymasalar, görün necə böyük zərər yaranar! Həmin zərər, bəlkə də bir cəhətdən ondan da böyüyü incəsənət vasitələrindən istifadə etməyən toplumun zərəriridir. Çünki sənət elə məsələləri əks etdirir ki, sadə və adi nitq onları əks etdirə bilmir; xüsusən də gələcək nəsillərə və həmçinin indiki nəsilə.[3]

---

[1] Şəhid ailələri, əlillər, xalqın müxtəlif təbəqələri və İncəsənət Universitetinin tələbə və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1991

[2] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[3] Şəhid ailələri, əlillər, xalqın müxtəlif təbəqələri və İncəsənət Universitetinin tələbə və məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1991

## Sənət öhdəliyi

### Sənətkar gənclərin özünəinamı

...Bizim bu məşhur incəsənət xadimlərimizin çoxusu inqilabdan sonrakı gənclərdirlər. Bunlar ya müharibə cəbhələrində, ya inqilab səhnələrində imandan bəhrələnməklə özünəinam əldə etmiş və bir sahəyə yönəlmiş, misal üçün, əlinə fotoaparat götürüb, şəkil çəkmək üçün cəbhələrə gedən şəxslərdirlər. Bu işlər bunları incəsənətə sarı çəkdi. Həmçinin incəsənətin digər növlərində əksəri inqilabın əvvəlindən başlayan gənclər idilər.[1]

### Namazın təbliğində sənətin dili

Namazın fəlsəfəsi, onun sirlərinin və rəmzlərinin təhlili sənət dili ilə hamıya təqdim olunsun ki, hər kəs öz tutumu qədərincə ondan bəhrələnsin.[2]

### Müsbət təsirli bir musiqi təqdim etmək, mənəviyyata və həqiqətə yönəltmək

Mən ümidvaram ki, siz gənclər təqva ehtiyatı ilə meydana atılıb elə məhsullar təqdim edə bilərsiniz ki, sözün həqiqi mənasında yaxşı və səlis musiqinin xüsusiyyətlərinə malik olsun, sözün həqiqi mənasında müsbət təsir buraxsın və həqiqətən gəncləri və ruhları saflığa, mənəviyyata və həqiqətə yönəltsin.[3]

### “Sənət adamının Allaha, inqilaba və insanların xilasına qarşı öhdəliyi olmalıdır!”

Digərləri də sənətkardırlar, lakin onların fikri və ruhiyyəsi başqa cürdür. Onlar bilsinlər ki, o imkanın və sənətin Allahın yolundan, mənəviyyatdan, inqilabdan, insanların xilasından, məhrum və məzlumlara köməkdən başqa bir yolda işlədilməsi həqiqətən heyfdir. Həmçinin dəyəri çox az olan yollarda

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999
[2] Namazın bərpa edilməsi iclasına müraciətdən; 1991
[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

işlədilməsi də heyfdir; amma təəssüf ki, bu yollarda da işlədilir.[1]

**Gənc və dindar sənət adamlarına dəstəyin zəruriliyi**

Mənim şübhəm yoxdur ki, bizim bu sənətkarlarımızın arasında dindar gənclər mövcuddur. Əgər bizim dövrümüzdə yaxşı film varsa, müsəlman uşaqların müharibə barəsində hazırladıqları və müharibənin zərif insani duyğularını əks etdirdikləri filmlərdir.

Bunlar düzgündür, çünki bu dövrün filmləridir. Bunlar bizim tariximizdə qalacaq və əgər bir gün bizim kino tariximizi yazmaq istəsələr, bunları kino mərhələlərimizdən biri kimi qeyd edəcəklər. İnsan görür ki, bunlarda yaradıcılıq var, qorxmazlıq var və sənətkar hissini bir formada göstərə bilirlər. Siz bunları tapıb həvəsləndirməli və yetişdirməlisiniz. Bu, Mədəniyyət Nazirliyinin mühüm işlərindən biridir. Biz mövcud olanlarla kifayətlənməməliyik.[2]

**Kinoda gənclərə meydan vermək**

Hamısından mühüm olan gənc, yeni və inqilabçı qüvvələrə, inqilab dəyişikliyinin hətta kinonu da dəyişdirməyə, film sahələrində də bir növ yenilik vücuda gətirməyə və şəxsiyyətləri dəyişdirməyə qadir olduğunu düşünən şəxslərə meydan verməkdir. Bunlara şərait yaransın, gəlsinlər və bizim daha yaxşı gələcəyimiz olsun.[3]

**Ölkə incəsənətinin mömin və gənc sənətkarların əlilə ucalması**

Mən deyirəm ki, əgər bu ölkənin incəsənətinin inkişaf etməsini və ucalmasını istəyirsinizsə, gənc və mömin

---

[1] İslam Təbliğatı Komitəsinin incəsənət şöbəsinin şairləri, yazıçıları, prodüserləri, bəstəkarları, fotoqrafları və digər sənət adamları ilə görüşdəki çıxışdan; 1989

[2] İslam Mədəniyyəti Naziri və nazir müavinləri ilə görüşdəki çıxışdan; 1992

[3] Mədəniyyəti Nazirliyinin Kino şöbəsinə müsahibədən; 1985

sənətkarlara güvənin. Onlar İslamı, inqilabı və ölkəni müdafiə edə bilərlər.[1]

**İnqilabçı gənclərdən kömək almaq**

İstedadlı şəxsləri və inqilabçı gəncləri oturdun, onlardan ciddi şəkildə istəyin ki, gəlib inqilabın yaddaqalan mənzərələrini çox sənətkərcasına, insani və yazıçı dərkinin zirvəsindən xəbər edən (insan hərdən bəzi xarici ssenarilərdə bunu müşahidə edir) ssenarilərdə təsvir etsinlər. Sonra onları nümayiş etdirin, burada xarici filmlərin boşluğunu doldurun. Mənim fikrimcə bu əsas vəzifədir.[2]

***İdman və bədən tərbiyəsi sahəsi***

**Fiziki sağlamlıq və ruhi təravət**

**Gənclik, idman, sağlamlıq və gümrahlıq**

Gənclər üçün idman etmək bir ehtiyat toplamaqdır. Mən düşünürəm ki, idman etmək hamı üçün vacibdir. Sözsüz ki, məqsədim peşəkar idman deyil. Peşəkar idmanı da rədd etmirik, lakin bütün gənclərin peşəkar idmanla məşğul olmasını tövsiyə etmirik. İdman sağlamlığı və gümrahlığı qorumaq üçündür. Bu da sizin üçün ömrün sonlarına qədər qalan bir sərvətdir. Tənbəllik və passivlik o əzəmətli sərvəti tələf etməkdir.[3]

**Təhsil, mənəvi paklıq və idman**

Gənclik dövrü bacarıq dövrüdür. Bu bacarıq harada işlədilməlidir? Mənim fikrimcə, gərək əsasən elm öyrənməkdə, özündə paklıq və təqva yaratmaqda, özündə fiziki qüvvə yaratmaqda - yəni idman etməkdə işlədilməlidir. Bu üç məsələ əsasdır. Yəni əgər qısa bir cümlədə məndən "siz

---

[1] Maarif müdirləri və kütləvi informasiya vasitələrinin əməkdaşları ilə görüşdəki çıxışdan; 1992

[2] Televiziyanın ikinci kanalının məsul şəxsləri ilə görüşdəki çıxışdan; 1992

[3] İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşdəki çıxışdan; 2001

gəncdən nə istəyirsiniz?" – deyə soruşsalar, cavab verərəm ki, təhsil, mənəvi paklıq və idman.[1]

**İdman - süstlüyün qarşı tərəfi**

İdman insanda özünəinam və arxayınlıq yaradır. Gənci özünə arxayın və inamlı edir. İdmanın təbii xüsusiyyəti budur ki, insanı süstlük və durğunluq halından çıxarır.[2]

**İdmanla sağlamlıq, gümrahlıq və gözəllik**

Mən idmanı gəncləri üçün lazım bilirəm. Çünki əgər onlar da idmanla məşğul olsalar, sağlamlıqları, gümrahlıqları, təravətləri və gözəllikləri olacaq.[3]

**İdmanın məqsədliliyi**

**İdman bir vəzifə kimi**

Mənim gənclərə sözüm budur ki, idmana maraq göstərib onu bir İslam vəzifəsi saysınlar. Çünki bu hisslə və bu inamla olsa, onların idmanı daha sağlam rəng alacaq.

Lakin mənim idmançılara sözüm budur ki, çalışıb öz fiziki güclərindən dini və mənəvi məqsədlərin xidmətində istifadə etsinlər. İdmandan yanlış istifadəni öz şəxsiyyətlərinin tənəzzülü vasitəsi etməsinlər.[4]

**Həyəcan**

Misal üçün, idman, xüsusən də idmanın futbol kimi bəzi növləri həyəcanlı bir işdir. Futbolun xisləti belədir... Oyunun quruluşu elədir ki, onda mübarizə, həyəcan və bu kimi məsələlər çoxdur. İdman ümumi şəkildə həyəcanlı bir şeydir.

Bizim idman mühitimiz iffətli mühit olmalıdır... Onda veyllik, pintilik və hər hansı bir iffətsizlik müşahidə

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

[2] Qum Elmi Hövzəsinin Ali İdarə Şurasının üzvləri ilə görüşdəki çıxışdan; 1998

[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

[4] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998

olunmamalıdır. Biz idman mühitimizdə bu şəraiti yaratmalıyıq.[1]

## Mərdlik və alicənablıq

### Mənəvi və alicənab mühit

Bizim ölkəmizdə idman mühiti mənəvi, alicənab, pəhləvanlıq, təqva, iffət, zahidlik, əxlaqi və ruhi irəliləyiş mühiti olmalı və özünün nurunu ölkənin bütün təbəqələrinə saçmalıdır. Bu bizim ölkə əlillərinin idmanında müşahidə etdiyimizdir.[2]

### Ümumi idman

Ümumi idmanda əsaslı addımlar atmalıyıq. Bu söhbətləri gənclər və bütün xalq eşidəcək. Mən həqiqətən hamını idman etməyə çağırıram. Mən bəzən səhərlər Tehranın şimalındakı yüksəkliklərə gedirəm. Bəzən görürəm ki, ora boşdur. Doğrudan da kədərlənirəm. Bəzən də cümələr qələbəlik vaxtı gedirəm, görürəm ki, çox adam var və sevinirəm. Məncə Allah-Taala tehranlıların idman etməsi üçün Elburs dağının bu yüksəkliklərində pulsuz-parasız bir şərait düzəltmişdir. Lakin əksəriyyət ondan yararlanmır. Bu Elburs yüksəkliyi üçün nə pul vermişik, nə də bir iş görmüşük. Gedib Allahın verdiyi bu nemətdən istifadə edək. Mən hamıya idman etməyi tövsiyə edirəm.[3]

### İdman - hamı üçün qəti bir həyat proqramı

Mənim idman haqqındakı fikrim dəfələrlə dediyimdir. Mən idmanı bütün xalq üçün lazım bilirəm. Mən idmanı gənclər üçün lazım, gənc olmayanlar - orta yaşlılar və qocalar üçün isə vacib bilirəm. Odur ki, idman gənclər üçün lazımdırsa, bizlər üçün vacibdir. Bu, orta yaşlılar üçün ölüm-dirim məsələsidir. Yəni əgər idman etsələr, sağlam həyatları olacaq və

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1998
[2] Ölkə əlillərinin mədəni və idman manevrinin açılış tədbirindən; 1997
[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

yaşayacaqlar. Əgər idman etməsələr, xəstəliyə və ruhdan düşməyə düçar olacaqlar. Əlbəttə, idman gənclər üçün də lazımdır. Çünki əgər onlar da idmanla məşğul olsalar, sağlamlıqları, gümrahlıqları, təravətləri və gözəllikləri olacaq. Mən bütün xalqa, qadın və kişilərə özlərinə uyğun idmanı lazım bilirəm.

Bu idman zəruri olaraq çempionluq idmanı və yarışlarda iştirak etmək mənasında deyil. Bəziləri elə bilirlər idmançı olmaq odur ki, mütləq yarışlarda iştirak etsinlər. Əgər qadınların idman etməsini istəyiriksə, mütləq yarışlarda iştirak etməlidirlər? Xeyr, xörək yedikləri kimi, gündəlik işlərini gördükləri kimi, dərs oxuduqları kimi idman da etsinlər. İdman həyatlarının qəti proqramlarından biri olmalıdır.[1]

**Peşəkar idman - xalqın fəxri**

İdman qaliblərini gənclərin gözü qarşısında göstərmədən onları idmana sövq etmək olmaz. Beynəlxalq yarışlarda peşəkar idman da mühüm və lazımlı bir məsələdir. Çünki iranlı gəncin çempion kürsüsündə durması, ölkə bayrağının ucaldılması və himninin çalınması xalqın fəxrinə və qüruruna bais olur.[2]

**Peşəkar idmanın lazım olması**

Digər tərəfdən mən düşünürəm ki, peşəkar idman da lazımdır. Əgər peşəkar idman olmasa, bu ümumi idman ümumiyyətlə həyata keçməyəcək. Həmişə bir zirvəmiz olmalıdır ki, aşağıda çoxlu insanlar hərəkət etsinlər. Odur ki, peşəkar idman bu baxımdan vacib və lazımdır. Əlbəttə, peşəkar idmanın və beynəlxalq yarışlarda iştirak etməyin digər faydaları da var və o, xalqın başucalığı və şöhrətidir.[3]

---

[1] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999
[2] Ölkənin idman məmurları ilə görüşdəki çıxışdan; 1996
[3] Ölkə gəncləri ilə görüşdəki çıxışdan; 1999

# Əlavələr

### *Əlavə 1*

### Altı yaşdan aşağı uşaqların elm və təhsili seminarına müraciət

**İslam Respublikası qəzeti, 1 iyun 1987**

Ümumdünya Uşaqlar Günü münasibəti ilə gələcəyi quracaq olan bütün əziz balaları, İslam İranının və dünyanın digər azad xalqlarının tərbiyəçilərini, qayğıkeş və öhdəlikli valideynlərini təbrik edirəm və bu toplantını təşkil edənlərə uğurlar arzulayıram.

Dünyanın uşaqları ümidverici tumurcuqlar kimidirlər. Onların həyatdakı sərvətləri pak fitrət toxumu, inkişaf şəraiti, hazırlıqlı ailə və sonra cəmiyyətdir. Lakin bu zərif və həssas tumurcuqlar yalnız qayğıkeş qulluq sayəsində tərbiyə olunur, həqiqətin ümidverici günəşinin şüasında çiçəklənir və yetişirlər.

Şübhəsiz, əlverişli inkişaf şəraitində faydalı və sağlam təlim-tərbiyə uşağın fitrət lövhəsi üzərində gözəl naxış vurub, onun təkamülünə zəmin yarada və bu yolla xalqlar üçün aydın gələcək təmin oluna bilər.

Uşaqların tərbiyəsinin zəruri olması, onların ailə və cəmiyyətdə fikir, duyğu və ictimai inkişafı üçün münasib maddi, psixoloji və mədəni şərait yaratmağın lazım olmasına dair yekdil rəy mövcuddur. Mübahisəli və çox diqqətə ehtiyacı olan məsələ bu danılmaz prinsiplərin icra növü, uşağın kamal istəyən təbiətini formalaşdırmağın, aktivliyini, möhkəmliyini, psixoloji və mənəvi tarazlığını təmin etmək üçün onun inkişaf maneələrini ortadan götürməyin necəliyindədir. Bu hər bir cəmiyyətdə nəinki təlim-tərbiyə üzrə məsul şəxslərin və ekspertlərin, hətta hər bir quruluşun məsul şəxslərinin ən mühüm vəzifələrindəndir.

Bu səbəbdən, məlumatlı və qayğıkeş tərbiyəçilərin, fikir sahiblərinin və mütəxəssislərin daha artıq və daha kompleks araşdırması ümidi ilə bir neçə məqamı xatırlatmaq istəyirəm.

Nəzərə almalıyıq ki, bütün uşaqlar pak və kamillik axtaran fitrət əsasında doğulurlar. Onları uğurlu və ləyaqətli, yaxud ümidsiz və fəsadlı insanlara çevirən ailə və cəmiyyətin verdiyi tərbiyədir. Dünyada bütün öhdəlikli təlim-tərbiyə işçilərinin səyi bu Allah axtaran təbiət əsasında bacarıqlı, normal və qüsursuz nəslin tərbiyəsi ilə nəticələnib, cəmiyyətlər üçün ləyaqətli insani resursun təmin edilməsində aydın gələcəyə müjdəçi ola bilər.

Düzdür, düzgün təlim-tərbiyə üçün maddi imkanlar, ictimai və təhsil şəraiti, yaxud Beynəlxalq Uşaq Hüquqları Konvensiyasının təbiri ilə desək, ictimai təhlükəsizlik lazımdır. Lakin unutmaq lazım deyil ki, bu təhlükəsizlik yalnız bəyanat və şüarla əldə edilmir. İlahi etiqada və məktəbə arxalanan inanc insanların, o cümlədən körpələrin daxili və xarici təhlükəsizliyini təmin edib onların şəxsiyyətinin sabitliyinə və aramlığına səbəb ola bilər. Əks təqdirdə, uşaqların ictimai təhlükəsizliyindən ağız dolusu danışılan cəmiyyətlərdə baş verən faciələr arasında hər gün yeni fərdi və ictimai facia və fəsadların şahidi də olacağıq.

Narkomaniya və əxlaq fəsadının, hətta cinsi fəsadın bəşər bağının pak qönçələrinə sirayət edib onlarda vaxtsız xəzan yaratması, necə deyərlər, mütərəqqi ölkələrin əlaltıları vasitəsi ilə yoxsul xalqların məsum körpələrinin alınıb-satılması və hətta təsəvvürü bizim xalqımız üçün dəhşətli olan daha vəhşi əməllər, misal üçün, bu günahsız körpələrin bədən üzvlərinin satılması böyük faciələrdir.

Təlim-tərbiyə üzrə beynəlxalq ekspertlər bu suala cavab versinlər ki, inkişaf iddiasında olan ölkələrdə ictimai təhlükəsizlik qaradərili və ağdərili uşaqlar üçün eynidirmi?

Ailə və cəmiyyət bir-biri ilə uyğun olan təsirli tərbiyə qurumları kimi uşağın məktəbə getməsindən öncə onun

ictimailəşməsi sahəsində - faydalı və qurucu adət-ənənələri qəbul etməsində və onda yaxşı əxlaqın formalaşmasında öz rollarını ifa etməlidirlər. Bu mühüm vəzifələri təkcə peşəkar tərbiyəçilərə və müəllimlərə tapşırmasınlar. Çünki uşağın həyatının ilk altı ili onun şəxsiyyətinin həm məntiqi və dil istedadlarının inkişafı, həm emosional normallıq, həm də ictimai əlaqələr qurmaq baxımından formalaşması üçün xüsusi əhəmiyyətə malikdir. Deyiblər ki, bir gəncin orta məktəbin axırında əldə etdiyi uğurlarının yarıdan çoxu onun məktəbə girməzdən öncəki illərinə aiddir. Deməli, inanmalıyıq ki, bizim uşaqlarımız bir çox mənəvi məsələləri dərk edirlər və bu yaşda münasib üsulların köməyilə onlara öyrətmək nəinki mümkün və məntiqli, hətta vacib və əsaslıdır.

Tərbiyəvi işlərlə məşğul olan şəxslər uşaqların tərbiyə üsulu barəsində ailələrə daimi təlimatlar verməlidirlər ki, uşağa sevgi və hörmət, övladın dilini bilmək, onunla öz dilində danışmaq, idman və münasib məşğuliyyətlər yolu ilə fiziki və psixoloji sağlamlıq və gümrahlıq şəraitinin yaradılması və nəhayət onlara bağlı olan Allah nemətlərinin və dəyər məfhumlarının köçürülməsi məktəbə getməzdən öncə müqəddəs ailə kursunda lazımi şəkildə baş versin.

Tövsiyə edirəm ki, bu barədə yeni elmi və faydalı tədqiqat və araşdırmadan əlavə, zəngin İslam mədəniyyətinə, Quranın aydınlatmalarına və bu mədəniyyətin böyük övliyalarının davranışlarına daha artıq diqqət yetirilsin. Müşahidə olunsun ki, misal üçün, İslamın əziz Peyğəmbəri (s) və onun davamçıları necə ən kiçik tərbiyə nöqtələrini nəzərdən qaçırmamış və tarixdə ən böyük ictimai vəzifələrə malik olmaqla yanaşı, uşaqlarla səmimi söhbətləri yaddan çıxarmamışlar.

Yaxud təxminən doqquz yüz il bundan öncəyə aid olan tərbiyəvi kitablarda oxuyuruq ki, uşağı hər gün bir saat oyundan çəkindirməsinlər və o özü ilə pis davranıldığına görə darıxmasın.

Qanunverici orqanlar, ictimai və mədəni qanun-qaydaları tənzim edənlər qanun qəbul edərkən müxtəlif yaşlarda olan uşaqların özəl emosional, psixoloji və təhsil məsələlərini nəzərə almalıdırlar ki, istedadların çiçəklənməsi üçün yolları açmaqla yanaşı, bu geniş və pak meydanı ələ keçirmək istəyən mənfəətpərəstlərin əli də kəsilsin.

Uşaqlara məxsus kitab və nəşriyyələr, eləcə də kütləvi informasiya vasitələrində uşaqlara dair proqramlar böyük əhəmiyyətə malikdir. Bu sahədə tərbiyəvi işlər üzrə mütəxəssislər elmi diqqətlə və yetərincə hövsələ ilə onların hamısını araşdırmaları, mənfi və müsbət cəhətlərini dəyərləndirməli, yanlış məqamları tapıb düzəltməlidirlər. Allah-Taaladan bütün əziz uşaqlar üçün inkişaf və təkamül, bu uşaqların inkişafına kömək edən qayğıkeş və öhdəlikli şəxslərin hamısı və pak tərbiyəçilər üçün uğurlar diləyirəm.

***Əlavə 2***

**İslam İnqilabında Gənc və Yeniyetmə Məsələlərini Araşdırma Mərkəzinə müraciət**

**İslam Respublikası qəzeti, 8 iyun 1987**

İslam inqilabında gənc və yeniyetmələrə dair məsələlər üçün araşdırma mərkəzinin təsis edilməsi, şübhəsiz, ölkənin tərbiyəvi işlər üzrə məsul şəxslərinin iradəsi və İslam inqilabının yeni nəslinin həmkarlığı ilə başlanmış ən zəruri və ən məsuliyyətli addımlardan biridir.

Ümidvarıq ki, işdə ciddilik və müntəzəmliklə bu tədqiqat və araşdırma faydalı və əhatəli olacaq, praktiki nəticələrə çatacaq.

Bu mərkəzin öhdəsinə götürdüyü böyük vəzifənin mühümlüyü yalnız ona görə deyil ki, gənc və yeniyetmələr - şagirdlər, tələbələr, oğlanlar və qızlar ölkənin gələcəyini quranlardırlar və inqilabın gələcəyi bu güclü və dəyərli nəslə diqqət yetirməkdən asılıdır. Bu həm də ona görə əhəmiyyətlidir ki, dəyərli İslam inqilabının möhkəm sütunları

bu fəxrli nəslin güclü çiyinləri üzərində ucaldılmışdır. Bu nəsil elə özəl xüsusiyyətlərə sahibdir ki, onu unutmaq İslam inqilabını unutmaq deməkdir.

Təkcə bizim inqilabçı cəmiyyətimizdə yox, bütün bəşər cəmiyyətlərində oğlan və qızlardan ibarət olan gənc və yeniyetmələrin böyük rolu bu əzəmətli təbəqənin aktual vəzifələrinin yanında potensial vəzifələrini və gələcəyini nəzərə alanda daha aydın görünür. Bu səbəbdən, yeni nəslin ictimai, siyasi və mədəni məsuliyyətlərini görməzdən gəlmək, hətta yuxarı həddi-büluğ yaşlarında onları uşaq saymaq qədim ictimai bəlalardandır. Bu mərkəz onu dəyişdirmək və bu uğurlu nəsil barəsində real təsəvvür yaratmaq üçün yeni və əsaslı işlər görməlidir.

Qeyd etmək lazımdır ki, nurlu İslam şəriətində gənc və yeniyetməyə hətta dünyanın müasir hüquq normalarından da artıq əhəmiyyət və dəyər göstərilmişdir.

Ümumi təsəvvürün əksinə olaraq, həddi-büluğ yaşı nikah yaşı yox, fərdi yetkinlik yaşı, hüquqi şəxsiyyətə sahib olmaq və ictimai məsuliyyətləri qəbul etmək yaşıdır.

Formalaşmağın və formalaşdırılmağın ən möhkəm və ən əsaslı dövrü olan bu yaşda gənc və yeniyetmə həm müstəqil şəkildə, həm də gələcəyə hazırlıq və sabaha hazırlıq mərhələlərindən biri kimi xüsusi hökmlərə, məsələlərə və vəziyyətlərə malikdir. Bunlar sosioloji və psixoloji baxımdan diqqətlə araşdırılmalıdır.

Yaşlılar, atalar, analar, tərbiyəçilər və müəllimlər bilməlidirlər ki, bu nəslin təlim-tərbiyəsi nə yalnız rəsmi təlim-tərbiyədir, nə də ümumi təlim-tərbiyədən ayrıdır. Çünki bu iki nəsil bir-birinə bağlı və bir-birindən asılıdır. Yeni nəsil öncəki nəslin bütün siyasi, ictimai, iqtisadi və mədəni fəaliyyətlərinin təbii şərikidir.

Bu baxımdan, birinci mərhələdə gənclərin işlərinə nəzarət və onlar üçün proqram hazırlanmasından ötrü münasib təşkilat yaradılmalıdır. Sonrakı mərhələdə isə bu təşkilat gənc qız və

oğlanların qərar verməsi və vəzifə qəbul etməsi üçün şərait hazırlamalıdır, onlar üçün faydalı istehsal peşələri yaratmalıdır, təhsil fənləri üçün, onların təhsil sahələri və gələcək peşələri ilə uyğun olan, onları veylliyə və bikarlığa sürükləməyən tərzdə boş vaxtlarını keçirmək üçün çarə düşünməlidir, gənclərə məxsus problemlərin həlli üçün onların özlərindən kömək istəməlidir, onları kamilləşmiş ümumi qrup işlərinə sarı yönəltməlidir, onlara işin şərəfliliyini və dəyərini öyrətməlidir, onların yaradıcı qüvvəsini, incəsənət zövqünü, hər şeylə maraqlanmasını, həqiqət axtarmasını və yenilik istəməsini kamillik istiqamətinə yönəltməlidir, insan hüquqları və fərdi azadlıqlar barəsində söhbət və müzakirə məclisləri təşkil etməklə, incəsənət sərgiləri keçirməklə, elm, tədqiqat və istirahət ekskursiyaları təşkil etməklə, kollektiv iş və təcrübə mərkəzləri yaratmaqla, mədəni, dini, ictimai, işçi, yerli və idman birlikləri və klubları yaratmaqla, gənclərin həyatına camaat namazı, ümumi dua və münacat daxil etməklə, puçluq, tüfeylilik, fəsad və aludəliyə qarşı ən kəsərli silah kimi onların inkişafına və tərəqqisinə kömək etməlidir. Bu məsələlərə kütləvi informasiya vasitələrinin köməyi ilə indidən başlamaq lazımdır. Bu həyati işdə hər növ səhlənkarlıq və zəiflik inqilabı məhv etmək deməkdir.

Gənc və yeniyetmələrin təlim-tərbiyəsi onların uşaqlıq dövrünün inam və adətləri ilə sıx bağlıdır. Odur ki, yaşlılar aydın bir proqramla etiqadları öyrənməklə və düzgün adətləri yanlış adətlərdən ayırmaqla yanaşı, bir tərəfdən etiqad və adətlərin müsbət cəhətlərini təkmilləşdirməli və digər tərəfdən onun mənfi cəhətlərinin təsirlərini aradan qaldırmalıdırlar. Bunun özü cəmiyyətin çiçəklənməkdə olan nəslinin ən ixtisaslı tərbiyə mərhələlərindən biridir.

Digər tərəfdən nəzərə almaq lazımdır ki, gənclərə diqqət yetirmək cəmiyyətin düzgün və səhv siyasi, iqtisadi və ictimai cərəyanlarının ümumi prosesindən ayrı olarsa, yanlış və əsassız olacaq. Bu iş üçün proqram yazanlar, o cümlədən gənc

və yeniyetmələrin özləri adətən dayaz və ötəri olan hakim şəraitin təsirindən daha geniş formada öz mühüm və dəyərli işləri ilə məşğul olmalıdırlar.

Burada bu aktiv, çalışqan, inkişaf edən və araşdıran nəslə - qızlara, oğlanlara, şagirdlərə, tələbələrə və digərlərinə bir məqamı xatırlatmaq istəyirəm. Sizin müstəqil, vəzifəli və məsuliyyətli şəxsiyyət tapmanız atalara, analara, müəllimlərə və tərbiyəçilərə hörmət və dəyərlə yanaşı olmalıdır. Bu iki məsələ təlim-tərbiyə qurumlarının və siz əzizlərin inkişaf və tərəqqisinin əsas sütunudur. Böyüyün və qabaqkı nəslin hörmətini saxlamaq yeni nəslin istedadından, ağlından, dərkindən və fikir yetkinliyindən irəli gəlir. Əksinə, digərlərinə etinasızlıq özünü böyük saymaqdan qaynaqlanır. Bu, fikir və ağıl baxımından böyük bəlalardandır.

Bu arada dünyanın müasir sənaye quruluşunda gənc və yeniyetmələrin üsyankarlığına işarə vurmaq və çox əhəmiyyətli olan bu məqamı qeyd etmək zəruridir ki, bizcə gənclərin üsyankarlığı xəstə qərb quruluşunda gənc və yeniyetmələrin amalçı, həqiqətçi və araşdırıcı ilahi fitrətlərinin reaksiyasıdır. Bu yanlış cığırlarla getsə də, kökü şərq və qərbin naz-nemət içərisində olan israfçı və zalım rəhbərlərinin azğınlıqları, zülmkarlıqları, şəhvətpərəstlikləri və sərvətpərəstlikləri qarşısında insani fitrətin qəzəbindədir.

Fəsadlı dünya quruluşu öz növbəsində gənc və yeniyetmələrin fitrət səsini boğmaq üçün onların boş vaxtlarını ona ticarət forması verməklə, cinsi həssaslıqdan bəhrələnməklə, əxlaqi azğınlıqları və aludəlikləri yaymaqla doldurur. Bu iş bu coşqun və uğurlu nəslin insani varlığına çox böyük xəyanətdir.

Burada İslam inqilabının yeni nəsli üzərində böyük bir vəzifə görünür. O, elm, kamal, iman, əxlaq, ixlas və fədakarlıq silahı ilə silahlanıb dünyanın hər bir yerində gənc nəslə nümunə olmalıdır.

Siz dəyərli və əziz bacı və qardaşların hamısı üçün Allah-Taaladan uğur diləyirəm. Sağ olun.

8 iyun 1987

Seyid Əli Xamenei

İran İslam Respublikasının Prezidenti

## *Əlavə 3*

## Ümumdünya Uşaqlar Günü münasibəti ilə müraciət

**Ettelaat qəzeti, 31 iyun 1988**

Bu gün İslam inqilabının qələbəsindən on il ötür. Ölkə əhalisinin təxminən üçdə biri İslam hakimiyyəti dövründə doğulmuş uşaqlardan ibarətdir. İranda İslam inqilabının qələbəsi özünün hüdudsuz cəhətləri ilə bütün bəşəriyyət üçün əsl insani anlayışların və mənəviyyatın üfüqlərini açmışdır. İslam inqilabının nailiyyətlərini qorumaq gələcək nəslin hər cəhətdən ilahi ideallara uyğun şəkildə tərbiyə olunmasını tələb edir.

İndiki materialist dünyada tərbiyə məsələləri dövrümüzün ən dərin məsələlərindəndir. Onu yalnız pulun, təşkilatın və idarəçiliyin köməyi ilə həll etmək olmaz; hərçənd bu amillərin əhəmiyyəti az deyil. Materialist dünya haqlı olaraq mənəviyyatın təsirinin azlığından əziyyət və iztirab içindədir. Tərbiyəvi işlərdə həmin mənəvi amilə xüsusi diqqət yetirilməlidir. Uşaqların tərbiyəsində və dəyər məfhumlarının köçürülməsində bu, ən mühüm vəzifədir.

Bəşərin öz həyatını necə yaşaması və onu hansı tərzdə idarə etməsi elm və texnologiyaya yiyələnməyə ehtiyaclıdır. Lakin elm və texnologiyaya yiyələnmək əxlaqi və mənəvi dəyərlərlə bəzənməyin qarşısında ikinci dərəcəli əhəmiyyətə malikdir. Elm və incəsənət elə adamların əlində olmalıdır ki, inqilabın ilahi və mənəvi məqsədlərini həyata keçirmək üçün ondan düzgün istifadə yolunu bilsinlər. Tərbiyə yalnız o zaman faydalı və təsirli olar ki, daha artıq hikmət və ağıldan bəhrələnməkdə bizə kömək etsin.

İnqilabın qələbəsinin onuncu ildönümü ərəfəsində aşağıdakı məsələlərə diqqət yetirmək yaxşı olar:

Uşağın gələcək nailiyyətlərin səbəbkarı, eləcə də müsbət və mənfi olmasından asılı olmayaraq təbii və mənəvi hadisələrdən ən çox təsirlənən insan olduğuna, bu dəyərli və nəfis varlığın valideynlərin və nəhayət təlatümlü cəmiyyətin əlində zəif və müdafiəsiz əmanət olduğuna görə, xüsusən həyatın ilk illərində uşaqların tərbiyəvi, psixoloji və səhiyyə işləri ilə məşğul olmaq İslam Respublikası quruluşunun məsul şəxslərinin diqqət yetirdiyi humanitar məsələlərin başında durmalıdır.

Uşaqların tərbiyə və sağlamlıq işinə məsuliyyətli şəxslər bu bir neçə il boyunca ölkədə görülmüş işlərə hərtərəfli baxış keçirməli və inqilabdan sonra uşaqların tərbiyəsində və inkişafında İslam məqsədləri istiqamətində nə qədər irəlilədiyimizi bəlli etməlidirlər.

Beynəlxalq hegemonluğun mədəniyyət və təbliğat qurumlarının bizim yeni nəslimizi, əsasən də yeniyetmələri cəlb etməsi üçün uzunmüddətli planla xüsusi sərmayə qoyduqlarına görə, İslam Respublikasına uşaq və yeniyetmələrə məxsus proqramları tənzim etməyə məsuliyyətli qurumlar onların proqramlarına və sərmayə qoyuluşlarına qarşı və onları təsirsiz etmək üçün hansı işləri gördüklərini və hansı nəticələri əldə etdiklərini müəyyən etməlidirlər.

Uşağın inkişafında ailənin sağlam dayaqlarının önəmli olmasından irəli gələrək, ailənin daha da möhkəmlənməsi və uşaqların başsız qalmasına bais olan talağın artmasının qarşısını almaq üçün ictimai və hüquqi sahələrdə hər növ anlaşmalar təmin edilməlidir. Xüsusilə tərbiyəvi məsələlərlə məşğul olan şəxslər uşağın tərbiyə üsulu, onun əhəmiyyəti və birinciliyi barəsində ailələrə davamlı təlimatı yaddan çıxarmamalıdırlar.

Mühitin sağlamlığı, təhlükəsizlik, körpələrin xəstəlik əleyhinə vaksinlənməsi, uşaqların münasib və sağlam qidalanması İran İslam Respublikasında uşaq ölümünün azalmasına və doğuş zamanı həyata ümidin artmasına çalışmaq xüsusi prioritetə malikdir. Keçmiş işlərin nəticələrinin məsuliyyətli şəkildə dəyərləndirilməsi çatışmazlıq və nöqsanların aradan qaldırılmasında sürətin yaranmasına səbəb olacaq.

Kütləvi informasiya vasitələrində uşaqlara məxsus proqramların, uşaq nəşriyyələrinin və kitablarının böyük əhəmiyyətini nəzərə alaraq, onların tənqidinə çox diqqət göstərilməlidir. Bununla faydalı və qurucu inqilabi proqram və əsərlərin həvəsləndirilməsi və istehsalı daha da artırılmalıdır.

Təkcə şüar verməklə və danışmaqla uşaqların problemləri həll olunmur. Bunun üçün işləmək və çalışmaq lazımdır. Bu sahədə icraçıların iradəsi, sədaqəti və qayğıkeşliyi əsasında ümumi iş dosyesi hazırlanmalı və dəyərləndirildikdən sonra gələcək işlərin gücləndirilməsi üçün ondan istifadə edilməlidir.

Ümidvarıq ki, Ümumdünya Uşaqlar Günü münasibəti ilə altı yaşdan aşağı uşaqların elm və təhsil seminarında iştirak edənlər qeyd olunan mühüm məqsədlərə nail olmaq üçün uca və təsirli addımlar ata biləcəklər.

Allah-Taaladan sizin üçün, ölkənin gələcəyini quran bütün əziz uşaqlar, qayğıkeş və öhdəlikli tərbiyəçilər və valideynlər üçün müvəffəqiyyət arzulayıram. Sağ olun.

31 iyun 1988

Seyid Əli Xamenei

İran İslam Respbublikasının Prezidenti

### *Əlavə 4*

**İnqilab rəhbərinin ölkə gəncləri ilə səmimi görüşü**

**Ettelaat qəzeti, 11 may 1998**

**Sual:** Gəncləri görərkən hansı hissləri keçirirsiniz? Onlara dediyiniz ilk söz nədir?

**Cavab:** Gənclərlə olduqda, gənc mühitinə düşdükdə səhər havasında nəfəs alan bir şəxsin hissini keçirirəm, yenilik və təravət duyuram. Gənclərlə görüşəndə adətən yadıma düşən və dəfələrlə üzərində fikirləşdiyim məsələ budur ki, görəsən onların özləri alınlarında hansı ulduzun parladığını bilirlərmi? Mən bu ulduzu görürəm, görəsən özləri də görürlərmi? Gənclik ulduzu çox parlaq və bəxtəvər bir ulduzdur. Əgər gənclər bu qiymətli və bənzərsiz neməti öz vücudlarında hiss etsələr, düşünürəm ki, ondan yaxşı istifadə edəcəklər.

**Sual:** Siz öz gənclik dövrünüzü necə keçirmisiniz?

**Cavab:** O zamanlar indiki kimi deyildi, insafla desək, vəziyyət çox pis idi. Gənclik ürəkaçan deyildi; o zaman dini hövzə tələbəsi olan mənim üçün yox (mən uşaqlıq dövründən, ibtidai məktəbdən tələbə olmuşam), bütün gənclər üçün. Gənclərə diqqət göstərilmirdi, çoxlu istedadlar onların daxilində ölürdü.

Biz öz gözlərimizlə bunu görmüşük. Mən özüm tələbə olduğum mühitdə bunu görürdüm. Sonra tələbəlikdən xaric mühitlərlə, universitet və tələbələrlə əlaqə qurduqda (mən uzun illər tələbələrlə əlaqədə və ünsiyyətdə olmuşam) onlarda da belə olduğunu gördüm. O qədər parlaq istedadlar vardı, o qədər insanlar vardı ki, dərs oxuduqları fəndə çox istedadları olmaya bilərdi, lakin onların vücudunda başqa bir istedadın olması mümkün idi. Amma heç kəs anlamırdı və bilmirdi.

Cənab Mirbaqirinin haqlı olaraq toxunduğu kimi, inqilabdan öncə mənim gənclik dövrümün hamısı çox zaman gənclərlə keçmişdir. İnqilab qələbə çalanda mənim təxminən 39 yaşım vardı. Mənim 17-18 yaşdan həmin tarixə qədər bütün dövrüm gənclərlə keçmişdir; istər elmi hövzənin dini təhsil alan gəncləri, istərsə də bu hövzədən xaricdəki gənclərlə. Hiss etdiyim bu idi ki, Məhəmmədrza Pəhləvi rejimi gənclərin pozğunluğa sarı getməsi üçün işləmişdir.

Pozğunluq təkcə əxlaq pozğunluğu deyildi, həm də kimlik pozğunluğu və şəxsiyyət pozğunluğu idi.

Düzdür, mən iddia edə bilmərəm ki, məmləkətin gənclərini pozğunluğa çəkmək üçün o rejimin özü plan hazırlamışdı. Belə ola da bilər, olmaya da bilər. Lakin qətiyyətlə deyə biləcəyim budur ki, onlar elə proqramlar hazırlamışdılar və məmləkəti elə idarə edirdilər ki, nəticəsi belə olurdu; yəni siyasi məsələlərdən uzaq, həyati məsələlərindən uzaq.

Siz inanırsınızmı, mən və mənim kimilər, misal üçün, iyirmidən artıq yaşımızda iş başında olan hökumətin kimlərdən ibarət olduğunu ümumiyyətlə bilmirdik.

İndi siz bu məmləkətdə Təlim və Tərbiyə nazirinin kim olduğunu bilməyən bir şəxs tanıyırsınızmı? Yaxud misal üçün, İqtisadiyyat və Maliyyə Nazirini və ya prezidenti tanımayan kimsə varmı? Ölkənin ən ucqar yerlərində də hamının xəbəri var. O zaman bütün təbəqələr, o cümlədən gənclər siyasi məsələlərdən tamamilə xəbərsiz idilər. Gənlər ən çox gündəlik məsələlərlə məşğul olurdular; bəzisi çörək fikri çəkirdi, bəzisi bir tikə çörək pulu qazanmaq üçün ağır iş görürdü. Əlbəttə, onların gəlirlərinin bir hissəsi yeməyə sərf olunmurdu, digər kənar işlərə xərclənirdi.

Siz əgər bizim dövrümüzdə Latın Amerikası və Afrika barəsində yazılmış kitabları oxumuş olsanız (Frantz Fanon və o zamanlar kitab yazan şəxslərin əsərlərini; onların kitabları indi də mötəbər sayılır), bilərsiniz ki, bizim vəziyyətimiz də elə idi. İran barəsində yazmağa heç kim cürət etmirdi, lakin misal üçün, Afrika, Çili, yaxud Meksika barəsində asanlıqla yazırdılar. Mən bu kitabları oxuyarkan görürdüm ki, bizim vəziyyətimiz də eynilə belədir. Yəni o fəhlə gənc də ağır işlər görüb bir şahı qazandıqdan sonra bu pulun yarısı əyyaşlığa, veylliyə, avaralığa və bu kimi işlərə sərf olunurdu. Biz bunları o kitablarda oxuyurduq və görürdük ki, öz cəmiyyətimizin reallığı da belədir. Doğrudan da çox pis idi. Gənclik mühiti yaxşı deyildi. Əlbəttə, gənclərin qəlbində və gənc mühitin

daxilində ayrı cür idi. Çünki gənc əsas etibarilə fəaliyyət, ümid və həyəcan adamıdır. Şəxsən mənim özümün çox həyəcanlı gəncliyim olmuşdur. İnqilabın başlanmasından öncə ədəbi və digər fəaliyyətlərə görə mənim həyatımda həyəcan vardı. Sonra 1962-ci ildə mübarizələr başlayanda - mənim o zaman 23 yaşım vardı - təbii ki, biz daha ölkənin əsas həyəcanlarının mərkəzində yerləşdik. Mən 1963-ci ildə iki dəfə həbs olundum; həbs, zindan, istintaq. Bilirsiniz ki, bunlar insana həyəcan verir. İnsan çıxdıqdan sonra belə məsələləri sevən xalqın böyük izdihamını, bunları hidayət edən, işləri, düşüncələri və yolları düzəldən imam kimi bir rəhbəri müşahidə etdikdə həyəcanı daha da artırdı. Odur ki, belə yaşayan və düşünən mənim kimilər üçün həyat çox həyəcanlı idi. Amma hamı belə deyildi.

Əlbəttə, gənclər bir yerə toplaşdıqda ürəkləri isti olduğundan – yəni təbiətlərində bir növ gümrahlıq və şadlıq olduğundan, hər şeydən ləzzət alırlar. Gənc xörəkdən ləzzət alır, danışmaqdan ləzzət alır, güzgüyə baxmaqdan ləzzət alır, istirahətdən ləzzət alır. Siz inanmazsınız ki, insan gənclik illərini ötürdükdən sonra sizlərin, misal üçün, təbii bir xörəkdən aldığınız ləzzəti bizim yaşlarımızda daha almır. O zaman hərdən böyüklər - yəni mənim indiki yaşımda olanlar bəzi sözlər deyirdilər, biz təəccüb edirdik ki, bunlar necə belə fikirləşirlər. İndi görürəm ki, xeyr, o yazıqlar çox da yanlış düşünməyiblər. Əlbəttə, mən özümü gənclikdən tamam qırmamışam. Hələ də özümdə gənclikdən nəsə duyuram və o hala düşməyə qoymuram. Allaha həmd olsun ki, indiyədək qoymamışam, bundan sonra da qoymaram. Lakin özlərini qocalığın əlinə buraxanlar zəruri olaraq gəncin öz həyatının bütün sahələrindən aldığı ləzzəti duymurdu. O zaman belə idi. Demirəm ki, qəm-qüssə hakim idi, bunu iddia etmirəm. Lakin qəflət, məlumatsızlıq və heysiyyətsizlik şəraiti hakim idi.

O zaman mübarizə barədə ciddi və dərindən düşünən bizlər bacardığımız qədər gəncləri rejimin mədəni nüfuz dairəsindən

çıxarmağa çalışırdıq. Mən özüm misal üçün, məscidə gedirdim, təfsir dərsi deyirdim, namazdan sonra söhbət edirdim, bəzən rayonlara gedib söhbət edirdim. Mənim əsas diqqətim gəncləri rejimin mədəni kəməndindən çıxarmağa yönəlirdi. Mənim özüm o zamanlar bunu gözəgörünməz tor adlandırırdım. Deyirdim ki, gözəgörünməz bir tor var; hamını bir tərəfə çəkir. Mən istəyirəm bu gözəgörünməz toru imkan daxilində parçalayım və bacardığım qədər gənci bu torun kəməndindən və tələsindən çıxarım. Kim o fikir kəməndindən xaric olurdusa – onun xüsusiyyəti bu idi ki, əvvəla dindarlığa, ikinci növbədə isə imamın təfəkkürlərinə sarı yönəlirdi – bir növ qorunurdu. O zaman belə idi. Həmin nəsil də sonralar inqilabın əsas sütunları oldular. Mən indi də öz cəmiyyətimizə baxdıqda o nəslin çoxlu şəxslərini – istər mənimlə əlaqədə olanları, istət hətta əlaqədə olmayanları seçə bilirəm.

Hər halda, indi sizin dövrünüz daha yaxşıdır, şərait yaxşı şəraitdir. Əlbəttə, demirəm ki, gənc üçün hər şey hazırdır və hər şey lazımi formadadır. Lakin o zamanla müqayisə məqamında bu gün vəziyyət çox yaxşıdır. Əgər bir gənc yaxşı yaşamaq, özünün insani kimliyini və şəxsiyyətini tapmaq istəsə, mənim fikrimcə, bu gün bacarar.

**Sual:** Bir müsəlman gənc və onun xüsusiyyətləri haqda sizin tərifiniz nədir? Bir cavan necə həyat yolunu keçib məqsədlərinə çata bilər?

**Cavab:** Sözsüz ki, asanlıqla keçmək olmaz. Sizin qoyduğunuz bu şərt mənim cavab işimi çox çətinləşdirir. Heç bir mühüm və ciddi işi doğrudan da asanlıqla görmək olmaz. Hər halda, insan əgər dəyərli bir şey əldə etmək istəyirsə, bir qədər zəhmət çəkməli və çalışmalıdır. Bu qaçılmazdır. Lakin baxın, mən əsasən gənclərin malik olduğu bu mühüm xüsusiyyətlər arasında üçünün çox bariz olduğunu düşünürəm. Əgər onlar müəyyən olunsa və əgər onlar düzgün istiqamətə yönəldilsələr, belə nəzərə çarpır ki, sizin bu sualınıza cavab vermək olar. Həmin üç xüsusiyyət bundan ibarətdir: enerji,

ümid, yaradıcılıq. Bunlar gəncdə olan üç qabarıq xüsusiyyətdir. Əgər media qurumları həqiqətən bizə etdiyi mədəni köməklərdə - istər dini natiqlər, istər fikir və mədəni məsələlərin natiqləri, istər radio və televiziya və istər məktəblər - bu üç əsas xüsusiyyəti düzgün yönəldə bilsələr, mən düşünürəm ki, bir gənc çox asanlıqla İslamın yolunu tapa bilər. Çünki İslamın bizdən istədiyi də öz potensiallarımızı aktuala çevirməkdir.

Quranda çox əsaslı bir məqam var. Bunu siz əziz gənclərə demək yaxşı olar. Bu məqam təqvaya diqqət yönəltməkdir. İnsanlar təqvanı təsvir etmək istəyəndə yadlarına namaz, oruc, ibadət, zikr və dua düşür.

Bunların hamısı təqvada ola bilər, amma heç biri təqvanın mənası deyil. Təqva - yəni özündən ehtiyatlı olmaq; təqva - yəni insan nə iş gördüyünü bilsin və özünün hər bir hərəkətini iradə, fikir və qərarla seçsin. Sanki bir insan ram bir at üzərində oturub atın cilovunu əlində tutub və haraya getdiyini bilir. Təqva budur. Təqvası olmayan şəxsin hərəkətləri, qərarları və gələcəyi isə öz əlində deyil, Nəhcül-bəlağənin bir xütbəsinin təbiri ilə desək, nadinc bir at üzərinə atılmış şəxs kimidir; özü ona minməyib, yaxud əgər minibsə də, at sürməyi bilmir, cilov əlindədir, amma ata necə minməyin lazım olduğunu bilmir, haraya getməli olduğunu bilmir. At onu haraya çəksə, o da getməyə məcburdur. Şübhəsiz ki, onu qurtuluş gözləmir. Bu at da dəcəldir.

Əgər biz təqvanı belə izah etsək, mənim fikrimcə, yolu asanlıqla getmək olar; əlbəttə, yenə də çox asanlıqla yox, amma hər halda, mümkün olar. Bir gəncin islamçı yaşamaq yolunu tapması doğrudan da bir işdir. Əgər dindardırsa, görsün nə edir: bu addım, bu söz, bu dostluq, bu dərs, bu iş və dərk düzgündür, yoxsa düzgün deyil; onun fikirləşdiyi düzgündür, yoxsa düzgün deyil? Bu təqvadır. Əgər dindar olmasa, bu halət onu dinə yönəldəcək. Qurani-kərim buyurur ki, o, təqvalılar üçün hidayətdir. Demir ki, möminlər üçün

hidayətdir. Yəni əgər bir şəxsin dini də olmasa, təqvası olsa (kiminsə dini olmaya, lakin dediyim mənada təqvası ola bilər), o şübhəsiz, Qurandan hidayət alıb mömin olacaq. Lakin əgər möminin təqvası olmasa, güman ki, imanda da möhkəm olmayacaq. Bu onun bəxtindən aslıdır. Əgər yaxşı şəraitdə olsa, imanı qalacaq; yaxşı şəraitdə olmasa, imanda qalmayacaq.

Buna əsasən, əgər o üç təqvalı xüsusiyyəti işlədib düzgün yönəldə bilsək, mənim fikrimcə, çox yaxşı olar. Gənclər İslamın bəyəndiyi formada yaşasınlar. Xüsusən də xoşbəxtlikdən bu gün bizim ölkəmiz İslam ölkəsidir. Bu çox əhəmiyyətli məsələdir. Hökumət – yəni milli iqtidar İslamın əlindədir. İşləri idarə edən şəxslər İslama dərindən etiqadlıdırlar. Xalqın da canının dərinliyində iman yer almışdır. Odur ki, müsəlman olmaq və müsəlman yaşamaq üçün şərait çox yaxşıdır.

Mən qısa bir misal vurub sizin sualınızı sona çatdırım. Sizlər təəssüf ki, müharibə dövrünün yüksəlişini görməmisiniz. Əlbəttə, müharibəni görməməyiniz üçün təəssüfə yer yoxdur. Lakin siz o bənzərsiz xüsusiyyəti dərk etmədiyinizə görə insan təəssüflənir. Sizin yaşlarınızda olan 18-20 yaşlı gənclər mənəvi zəriflik və paklıq baxımından bəzən qırx il Allah yolunda irəliləmiş bir arifin həddinə çatırdılar. İnsan bunu onların vücudunda hiss edirdi; az da deyildilər, çox idilər. Mən o zaman belə gənclərin qarşısında həqiqətən kiçiklik hiss edirdim. Təvazökarlıq üçün belə etmirdim. Bilirsiniz ki, insan bir böyüyün qarşısında durduqda, onun üstünlüklərini gördükdə öz zəifliyini anlayır. Mən Bəsic üzvü olan bir gəncin, döyüşçü bir gəncin qarşısında həmin hissi keçirirdim. Şərait belə idi. Adi bir gənci belə dəyişdirə bilirdi.

Siz gənclərin dünyada necə olduğunu bilirsiniz; rep qrupları və min cür əxlaq və fikir bəlaları. Dünya gəncləri doğrudan da min cür bəlalara düçar olmuşlar. İndi mövcud

olan rep qrupları və bu kimi insanlar bizim dövrümüzdə də vardı. Bizim dövrümüzdə (“The Beatles” adlı) bir qrup məşhur idi. İndi eşitmişəm ki, qocalıblar. Bir müddət öncə xarici jurnalların birində onların barəsində yazdıqlarını gördüm; harada olduqlarını və nə iş gördüklərini yazmışdılar. Həmin psixoloji sıxıntı və problemlər onları belə işlərə çəkirdi. İndi geri qalmış və uzaq ölkələrdə onları yamsılayan şəxslər o yazıqların hansı xəstəliyə düçar olduqlarını anlamırlar. Elə bilirlər ki, inkişafdır, halbuki bu bir tənəzzül və süqutdur. Dünya belə bir vəziyyətə düçar olanda bizim gənclərimiz elə vəziyyətdə idilər. İranda gənc ehtiyacsız, başıuca, öz qəlbində dərin şadlıq hissinə, vəzifəni yerinə yetirmək hissinə, məqsədin aydın olması hissinə malik idi, nə iş gördüyünü və kimin üçün işlədiyini bilirdi. O, Allahın lütfü ilə qalib və Allah-Taalanın ona verdiyi həqiqi və mənəvi yüksəlişə malik idi.

**Sual:** Tələbə bir qız kimi həzrət Zəhranın (ə) həyatını necə örnək seçə bilərik? Gənclikdə sizin örnəyiniz kimlər olmuşlar?

**Cavab:** Yaxşı sualdır. Əvvəla deyim ki, kimsə bizə örnək göstərib "sizin örnəyiniz budur" deməməlidir. Təyinatlı və zorla sırınan bu örnək yaxşı örnək olmaz. Örnəyi özümüz tapmalıyıq. Yəni baxıb görək gözümüzün qarşısında olan simaların hansını daha çox bəyənirik.Təbiidir ki, bizim örnəyimiz o olacaq. Məncə müsəlman cavan üçün, xüsusən imamlarımızın, Peyğəmbər (s) ailəsinin və erkən İslam çağı müsəlmanlarının həyatı ilə tanış olan müsəlman üçün örnək və model tapmaq çətin olmaz. Belə örnəklər az deyil. İndi sizin özünüz xoşbəxtlikdən həzrət Zəhranın (ə) adını çəkdiniz. Mən Fatimeyi-Zəhranın (ə) müqəddəs vücudu barəsində bir neçə cümlə demək istəyirəm. Bu, başqa imamlar və böyüklər haqqında da düşünmək üçün sizə ipucu olar bilər.

Elm, sənaye və texnologiyanın inkişafı dövründə, böyük aləmdə, maddi sivilizasiyalar dünyasında və bütün bu yeniliklər əsrində yaşayan siz xanımlar, məsələn 1400 il

bundan əvvəl yaşamış örnəyinizdən nə götürə bilərsiniz? Onun hansı sahədə sizin bugünkü vəziyyətinizə bənzədiyini düşünürsünüz ki, ondan yol öyrənəsiniz. Fərz edin istəyirsiniz biləsiniz ki, o universitetə necə gedib, yaxud məsələn, dünyanın siyasi məsələləri haqqında necə düşünüb? Təbii ki, bunlar deyil.

Hər bir insanın şəxsiyyətində təməl xüsusiyyətlər vardır. Onları müəyyən etmək və nümunəni onlarda axtarmaq lazımdır. Məsələn fərz edin, müxtəlif hadisələrlə bağlı məsələlərə rast gəldikdə insan necə davranmalıdır. Bu məsələlər bəzən metro, qatar, reaktiv təyyarə və kompüter olan dövrə aiddir, bəzən də bunların mövcud olmadığı bir dövrə. Lakin sözügedən müxtəlif hadisələr həmişə insanı əhatə edir.

İnsan bu məsələlərlə bağlı iki növ mövqe sərgiləyə bilər: biri məsuliyyətli, biri isə laqeyd. Məsuliyyətli yanaşmanın da müxtəlif növləri var: hansı ruhiyyə ilə, gələcəyə hansı növ baxışla? İnsan ona örnək ola biləcəyini düşündüyü insanda bu əsas xətləri tapmalı və öz həyatında icra etməlidir.

Mən bu məsələni bir dəfə çıxışımda da demişəm. Bizim söhbətlərimizdə bəzən yaxşı sözlər də var. Lakin çox zaman diqqət yetirilmir və beləcə itib məhv olur. Həzrət Zəhranın (ə) doğum tarixi məsələsində ixtilaflar vardır. O, altı, yaxud yeddi yaşında olarkən Əbu Talib dərəsi məsələsi qarşıya çıxdı. Əbu Talib dərəsindəki dövr erkən İslam çağında çox çətin bir dövrdür. Yəni Peyğəmbərin (s) dəvəti başlanmışdı, dəvəti aşkarlamışdılar. Məkkə xalqı, xüsusən cavanlar və qullar tədricən Peyğəmbərə (s) iman gətirirdilər. Əbu Ləhəb, Əbu Cəhl və digər tağut böyükləri gördülər ki, Peyğəmbəri (s) və ətrafındakı insanları Mədinədən ixrac etməkdən başqa çarə qalmayıb. Onlar belə də etdilər. Onların onlarla ailədən, Peyğəmbərdən (s), onun qohumlarından və Əbu Talibin özündən (Əbu Talib də böyüklərdən idi) ibarət olan çoxunu uşaqlı-böyüklü Məkkədən çıxardılar. Bunlar Məkkədən

çıxdılar, amma haraya getsinlər? Təsadüfən, cənab Əbu Talibin Məkkənin yaxınlığında, məsələn bir neçə kilometrliyində bir dərədə mülkü vardı. Oranın adı Əbu Talib dərəsi idi. Ora dağ yarığı və kiçik bir dərə idi. Məkkədə gündüzlər hava isti, gecələr isə olduqca soyuq idi. İndi siz fikirləşin ki, nə qədər dözülməz bir vəziyyət yaranmışdı. Onlar üç il bu çöldə yaşadılar. Nə qədər aclıq çəkdilər, çətinlik gördülər, Allah bilir. Peyğəmbərin (s) çətin dövrlərindən biri orada idi. Bu dövrdə əziz Peyğəmbərin (s) məsuliyyəti təkcə bir cəmiyyəti idarə etmək mənasında olan rəhbərlik deyildi. O, çətinliyə düşmüş bu insanların yanında öz işini müdafiə etməyi bacarmalı idi.

Bildiyiniz kimi, vəziyyət yaxşı olanda bir rəhbərin ətrafına yığışan insanlar da vəziyyətdən razı olurlar. Deyirlər Allah atasına rəhmət eləsin ki, bizi belə yaxşı vəziyyətə çıxarıb. Amma çətinlik görəndə hamı tərəddüdə düşüb deyir ki, o bizi gətirdi, biz bu vəziyyətə düşmək istəmirdik.

Əlbəttə, güclü imanlılar dayanırlar. Hər halda, bütün çətinliklər Peyğəmbərin (s) çiyninə düşürdü. Bu əsnada, çox çətin ruhi vəziyyətində onun arxası və ümidi olan cənab Əbu Talib və həmçinin Peyğəmbərə (s) ən böyük ruhi kömək göstərən Xədiceyi-kübra bir həftənin içində dünyadan köçdülər. Çox qəribə bir hadisə idi. Yəni Peyğəmbər (s) tək-tənha qaldı.

Mən bilmirəm siz indiyədək bir işçi qrupunun başçısı olmusunuzmu, bir toplumun məsuliyyətinin nə demək olduğunu biləsiniz. Belə bir şəraitdə insan doğrudan da çarəsiz qalır. Bu şəraitdə Fatimeyi-Zəhranın (ə) rolunu görün. İnsan tarixə baxdıqda künc-bucaqda bu məqamları tapmalıdır. Lakin təəssüf ki, belə məsələlər üçün fəsil ayırmırlar.

Fatimeyi-Zəhra (ə) Peyğəmbərə (s) bir ana, müşavir və təbib kimi olub və burada ona "ümmü əbiha", yəni atasının anası demişlər. Bu, o zamana aiddir, yəni altı-yeddi yaşlı bir qızın belə olduğu bir dövrə. Əlbəttə, ərəb mühitlərində və isti

yerlərdə qızlar fiziki və ruhi cəhətdən daha tez inkişaf edirlər; məsələn, bizim indiki 10-12 yaşlı qızlarımızın inkişafı qədər. Bu, məsuliyyət hissidir. Bu, bir gənc üçün örnək ola bilməzmi: böhran zamanı tez məsuliyyət hiss edib, fəaliyyətə başlamaq, vücudunda olan əzəmətli potensialı xərcləmək, yaşı, misal üçün, 50-i ötmüş və təqribən qocalmış atasının üzündən qəm-kədəri silmək? Bu, bir cavan üçün nümunə ola bilməzmi? Bu, çox əhəmiyyətlidir.

Növbəti nümunə həyat yoldaşı olmaqdadır. Bəzən insan elə bilir ərlilik odur ki, qadın evdə və mətbəxdə xörək bişirsin, otağı təmizləsin, döşəkləri səliqəyə salsın və qədimdə olduğu kimi, döşəkcəni qoyub kişinin idarədən, yaxud dükandan gəlməsini gözləsin. Ərlilik təkcə bunlar deyil. Siz baxın, görün Fatimeyi-Zəhranın (ə) ərliliyi necə olub. Peyğəmbərin (s) Mədinədə olduğu 10 ilin təxminən 9-unda həzrət Zəhra və həzrət Əmirəl-möminin (ə) ər-arvad olmuşlar. Bu 9 ildə kiçikli-böyüklü təqribən 60 müharibə baş vermişdir. Həzrət Əli (ə) onların əksəriyyətində iştirak edib. İndi siz baxın, bu xanım evdə oturub, əri isə daim cəbhədədir. Əgər cəbhəyə getməsə, işlər axsayar. Döyüş məsələləri ona bu qədər bağlıdır. Məişət baxımından da vəziyyətləri yaxşı deyil. Eşitdiyimiz kimi, "onlar öz iştahaları çəkdiyi halda yeməyi yoxsula, yetimə və əsirə yedirərlər" [1], yəni doğrudan da çox kasıb şəkildə yaşayırdılar. Halbuki o, həm də rəhbərin qızıdır, Peyğəmbərin (s) qızıdır. Bu baxımdan da bir növ məsuliyyət hiss edir.

Görün belə bir ərə kömək göstərmək üçün xanımın necə güclü ruhiyyəsi olmalıdır. O, ərinin ürəyini ailə nigarançılığından və həyatın problemlərindən arxayın etməlidir, ona ürək-dirək verməlidir, onun uşaqlarını belə gözəl şəkildə tərbiyə etməlidir. Siz deyə bilərsiniz ki, İmam Həsən və İmam Hüseyn (ə) imam idilər. Axı Zeynəb imam

---

[1] İnsan/8,9

deyildi. Fatimeyi-Zəhra (ə) onu bu 9 ildə tərbiyə edib. Çünki o həzrət Peyğəmbərdən (s) sonra çox yaşamayıb.

Belə evdarlıq və belə ərlilik etdi və bununla tarixin unudulmaz ailəsinin həyatında mehvərə çevrildi. Məgər bunlar bir cavan qız üçün, bir evdar xanım üçün nümunə ola bilməzmi? Bunlar çox mühumdur.

Peyğəmbərin (s) vəfatından sonra məscidə gəlməsi və o xütbəni oxuması da çox əzəmətli hadisədir. Bizlər bədahətən nitq söyləyənlər olduğumuz üçün bu sözlərin nə qədər əzəmətli olduğunu anlayırıq. 18 yaşlı, 20 yaşlı, ən çoxu 24 yaşlı bir qız, bütün müsibətlərinə və çətinliklərinə rəğmən, məscidə gəlir və izdiham qarşısında hicabla çıxış edir. Əlbəttə, o həzrətin yaşı dəqiq məlum deyil. Çünki doğulduğu il barəsində fikir ayrılıqları mövcuddur. Bu çıxışın bütün sözləri tarixdə qeyd olunmuşdur.

Ərəblər yaddaşın güclülüyü ilə məşhurdurlar. Bir nəfər gəlib 80 beytlik bir qəsidəni oxuyurdu, məclis bitdikdən sonra 10 nəfər onu alıb yazırdılar. Dövrümüzədək gəlib çatan bu qəsidələr çox zaman belə qalmışdır.

Şeirlər ictimai yerlərdə oxunurdu və qeyd olunurdu. Bu çıxışlar və bu hədislər də çox zaman belə olub. Oturub yazıblar, əzbərləyiblər və onları günümüzədək saxlayıblar. Əbəs sözlər tarixdə qalmayıb, hər söz qalmır. O qədər söz deyilib, o qədər çıxışlar edilib, o qədər mətləblər bəyan olunub, şeirlər söylənilib, amma qalmayıb və heç kəs onlara etina etməyib. Lakin tarix bu çıxışı öz ürəyində saxlayır və üstündən 1400 il keçəndən sonra onu oxuyan hər bir insan ona təzimlə yanaşır. Bu, bir əzəməti göstərir. Məncə bu, gənc bir qız üçün örnəkdir.

Siz doğru deyirsiniz. Təqsir bu işlərin idarəçiləri olan bizlərindir. Əlbəttə, məqsədim dövlət işləri deyil, mənəvi və dini işlərdir. Biz bu cəhətləri lazım olan şəkildə gənc nəslə göstərməmişik. Lakin sizin özünüz də bu sahələrdə işləyə bilərsiniz. İmamların bütün həyatında bu məsələlər var.

İmam Cavadın (ə) həyatı da örnəkdir. Elə uca dərəcəli, elə əzəmətli İmam Cavad (ə) 25 yaşında dünyadan köçdü. Bunu biz demirik, tarix deyir, qeyri-şiələrin yazdığı tarix. O həzrət gənclik, uşaqlıq və yeniyetməlik dövründə Məmunun və digərlərinin yanında əzəmət qazandı. Bunlar çox mühüm məsələlərdir. Bunlar bizim üçün örnək ola bilər.

Əlbəttə, öz zamanımızda da örnək var. İmam Xomeyni örnəkdir. Bizim bu könüllü keşikçilərdən olan cavanlarımız örnəkdirlər: həm şəhid olanlar, həm də bu gün yaşayanlar. İnsanın təbiəti elədir ki, dünyadan köçmüş və şəhid olmuş insanlar barəsində daha asan danışmaq olur. Görün necə örnəklər tapmaq olar. Biz müharibədə elə adamlar görmüşük ki, öz şəhərlərindən, yaxud kəndlərindən çıxmışdılar, tamamilə adi bir adam kimi nəzərə çarpırdılar. Qeyd etdim ki, o rejim istedadları inkişaf etdirə, yaxud aşkara çıxara bilmirdi. Bunlar o rejimdə adi bir insan idilər. Amma bu quruluşda əməl meydanı olan müharibəyə gəldilər, birdən-birə istedadları aşkarlandı, böyük bir komandir, sonra da şəhid oldular. Beləleri bizdə çox olmuşdur.

Bir neçə il öncə "Mənim komandirim" adlı broşürlərdə bunların bioqrafiyasını yazırdılar. Gənclərin cəbhədəki komandirləri barəsində xatirələri idi. Bilmirəm bunlar davam edir, ya yox. Qısa bir əhvalatı, kiçik bir xatirəni danışırdılar. O xatirə insana bu şəxsiyyətin əzəmətini göstərir. Bunlar örnək ola bilərlər. Öz elmi şəxsiyyətlərimiz, öz idman şəxsiyyətlərimiz, öz ədəbi şəxsiyyətlərimiz, öz incəsənət xadimlərimiz arasında da örnəklər tapmaq olar; həqiqətən üstün cəhətləri olan şəxsiyyətlərdə.

Söz yox ki, insan örnəyi öz meyarları çərçivəsində seçir. Mən xahiş edirəm seçmək istədiyiniz hər bir örnəkdə izah etdiyim təqva meyarını mütləq nəzərə alın. Təqva, üstündən keçiləsi məsələ deyil. Təqva həm dünya həyatı üçün lazımdır, həm də axirət həyatı üçün.

Mənim üzərimdə hansı şəxsiyyətlərin təsir qoyduğuna gəlincə isə, deməliyəm ki, çoxlu şəxsiyyətlər olmuşdur. Gənclikdə mənə çox təsir göstərən şəxs ilk növbədə mərhum Nəvvab Səfəvi idi. O Məşhədə gələndə mənim təxminən 15 yaşım vardı. Mən güclü şəkildə onun şəxsiyyətinin təsiri altına düşdüm. Sonra Məşhəddən getdi və bir neçə aydan sonra çox acınacaqlı vəziyyətdə şəhid edildi. Bu da bizdə onun təsirini daha da dərinləşdirdi. Sonra imam məndə təsir qoymuşdur. Mən Quma gəlməzdən və mübarizələrin başlanmasından öncə imamın adını eşitmişdim, lakin onu görməmişdim. Onu sevir, ona hörmət bəsləyirdim. Səbəbi də bu idi ki, Qum hövzəsində bütün gənclər onun dərsinə rəğbət göstərirdilər. Onun dərsləri gənclərin bəyəndiyi dərslər idi. Mən də Quma getdikdə onun dərsinə getməkdə tərəddüd etmədim, əvvəldən onun dərsinə getdim və Qumda olduğum müddətdə sona qədər ardıcıl surətdə onun bir dərsinə gedirdim. O da mənə çox təsir göstərdi. Əlbəttə, atam məndə təsirli olub, anam çox təsirli olub. Mənim üzərimdə çox dərin təsirlər qoyan şəxsiyyətlərdən biri də anamdır. Çox təsirli bir xanım idi.

**Sual:** Sizin incəsənətə və ədəbiyyata marağınızı nəzərə alaraq, bilmək istərdik ki, müasir şairlərdən kimin əsərlərini daha çox mütaliə etmisiniz və hansını daha çox sevirsiniz.

**Cavab:** Mən müasir şairləri qəzəl şairləri, qəsidə şairləri və yeni üslubda yazan şairlər qruplarına bölürəm. Hər birində mənim sevdiyim bir neçə nəfər var. Qəzəldə mərhum Əmiri Firuzkuhidir. Mən onunla həm də dost idim. O da məni çox istəyirdi. İnqilabdan illərlə sonraya qədər bir-birimizlə get-gəl edirdik. Mən prezident olarkən o, dünyadan köçdü.

Əmiridən başqa bir-iki qəzəl şairi də vardı. Mən onların şeirlərini sevirdim. Biri mərhum Rəha Müiri idi. Mən onu yaxından görməmişdim. Biri mərhum Şəhriyar idi. Onun şeiri mənim çox xoşuma gəlirdi. Onunla da tanış idim. Əlbəttə, mən onunla inqilabdan sonra tanış oldum. İnqilabdan öncə bir-birimizlə heç bir əlaqəmiz olmayıb.

Qəsidə şairləri arasında birinci yerdə Məliküş-şüəra Bahar idi. Onun qəsidələri məni çox cəlb edirdi. Mərhum Əmiri Firuzkuhi də Xaqani üslubunda bir növ qəsidə deyirdi. O da öz növündə çox yaxşı və dəyərli qəsidə idi. Ondan da çox xoşum gəlirdi.

Yeni şeirdə şeirlərini çox bəyəndiyim iki-üç nəfər vardı. Onların biri İxvan idi. Biz İxvanla tanış idik. Onun şeiri çox dəyərli idi. Başqa bir-iki nəfər də var, lakin onların adlarını çəkmək istəmirəm. Bunlar bizim gənclik dövrümüzdə yeni şeirin ustadlarından və korifeylərindən idilər. Mənim fikrimcə, bunlar Nima Yuşicin özündən daha yaxşı yeni şeir deyirdilər. Hərçənd bu yolu başlayan o idi. Lakin mənim fikrimcə, bunlar ondan daha yaxşı, daha sanballı və daha gözəl deyirdilər. Əlbəttə, Nima Yuşicin paklığı heç birində yox idi; nə İxvanda vardı, nə də adını çəkmədiyim digər bir-iki nəfərdə.

Nima Yuşic dediyinin əksinə olaraq dindar bir kişi idi. Mərhum Əmiri Nima Yuşiclə yaxın dost idi. O mənə deyirdi ki, Nima Yuşic dindar adamdır. O klassik şeiri də sevirdi, lakin bu üslubu da bəyənirdi. Əlbəttə, bilirsiniz ki, o bu üslubu da avropalılardan götürmüşdü. Ümumiyyətlə bizim yeni şeir üslubumuz həqiqi mənada yaradıcılıq üslubu deyil, Avropa şeiri üslubudur, o şeirlərin malik olduğu çoxlu xüsusiyyətlərə malikdir. Hətta ingilis cümlə quruluşu da bizim yeni fars şeirində təqlid olunmuşdur. İndiki şairlər arasında bir neçə yaxşı şairimiz var. Həm yaxşı qəzəl şeirimiz var və deyənlər də doğrudan da yaxşıdırlar, həm də yeni şeirimiz var. İnqilab şairləri arasında bəziləri həqiqətən gözəldirlər. Mənə icazə verin müasir və sağ şairlərin adlarını çəkməyim.

**Sual:** Bu gün ədəbiyyat birbaşa siyasi cəhətlərlə qarışmışdır. Odur ki, müasir ədəbiyyata qarşı sevgisiz rəftar olunur. Bunun nəticəsində də gənc nəslin yazıçıları sərgərdan qalmışlar. Bu barədə sizin fikriniz nədir?

**Cavab:** Ədəbiyyatın siyasətlə qarışması haqda məqsədinizin nə olduğunu bilmirəm. Yəni məzmunu

siyasidirmi? Misal üçün, belə deyək, siyasi baxımdan indi bizim mövcud məntiqimizlə pisdir, amma görkəmli şairdir. Əgər onun şeiri universitetə gəlsə, diqqət mərkəzinə çevrilsə, bundan istifadə olunması mümkündür. Buna əsasən, ondan istifadə etmək olmaz. Əlbəttə, mən bilmirəm ki, universitetlərdə şeirlərlə necə rəftar olunur. Əgər bizdə doğrudan da səviyyə baxımından yüksək bir şair olsa, tələbə onun şeirindən həqiqətən də istifadə edə bilsə, lakin o, misal üçün, inqilab əleyhdarı olsa da, mən onun şeirinin sinfə gəlib diqqət göstərilməsinə etiraz etmirəm. Lakin doğrudan da və həqiqətən deyirəm ki, mən indi belə bir əvəzolunmaz şair tanımıram.

Siz indiki şeirin və nəsrin özündən qabaqkı dövr şeiri ilə ayrılığından danışırsınız. Misal üçün, filan görkəmli şairin bu şeiri dediyi dövrdə bizim on başqa şairimizin olması da mümkündür. Onlar da onun qədər görkəmli, yaxud daha görkəmli ola bilərlər. İndi mənim nəzərdə tutduğum və adını çəkmədiyim bir şairin şeiri universitetə gəlməsin, lakin İxvanın şeiri gəlsin. Mən düşünürəm ki, qabaqkı dövr şeirinin dərəcəsini göstərmək baxımından bu hamısından üstün olar. İxvan mənimlə dost idi. Prezident olarkən mənimlə bir növ zəif əlaqəsi vardı. Prezidentlikdən sonra da səhv etməsəm, Avropaya birillik səfərdən qayıtdıqdan sonra mənə bir məktub yazıb bir şeir dedi. Sonra da dünyadan köçdü. Odur ki, İxvanın eybi yoxdur. Doğrudan da nə lüzumu var ki, biz kamil şəkildə istifadə edilməli olanın ardınca getməyək. Yəni belə demək istəyirəm ki, indi zərurət yoxdur. Baxmayaraq ki, əgər həqiqətən bizim indi böyük şairimiz varsa, şeirinin tələbə tərəfindən istifadə olunmasına və elmi baxımdan üzərində iştənilməsinə heç bir etirazım yoxdur. Mən bunu əsla qadağan etmirəm. Ən azı mənə görə qadağan deyil. Lakin proqramların necəliyindən xəbərim yoxdur. Ancaq mən doğrudan da bu formada belə bir şair tanımıram.

Siz bunu da bilin ki, bəzilərinin adları böyükdür, özləri isə çox böyük deyillər, şeirlərinin çox da əhəmiyyəti yoxdur. Əgər tənqid olunsalar və şüar cəhətlərini çıxmaqla bütün xırdalıqlarda təmiz və qarışıq yerlər araşdırılsa, o zaman bəlli olacaq ki, bəzilərinin yalnız iddiası var. Mən əksər hallarda müasir şeirlərdən xəbərsiz qalmıram. Bəzi şair həzrətləri şeir deyir və böyük iddialar edirlər. Deyirlər ki, biz bu ölkədə şeirin özülüyük, halbuki biz bilirik ki, belə deyil. Onlar parlaq dövrlərində ikinci dərəcəli, bəziləri isə üçüncü dərəcəli idilər. Bu ölkədə bunlardan yaxşıları çox olmuşdur.

Müasir şeir üzərində işləmək lazımdır. Siz qəzəldə öz dövründə Rəha Müiridən yaxşısını tapmazsınız. Rəha indiki dövrə bitişik nəsildəndir; mərhum Əmiri Firuzkuhi də həmçinin. Bunlar dəyərli şairlərdirlər; yaxud mərhum Qulamrza Qüdsi, yaxud indi Məşhəddə olan və çox yaxşı qəzəl şairi olan cənab Qəhrəman, yaxud misal üçün, Məşhəddə qeyri-məşhur şair, amma qəzəlləri yaxşı və dəyərli olan cənab Sahibkar, yaxud misal üçün, Kermanşahda cənab Behzad. Bunlar bu dövrün dəyərli şairləridirlər. Bugünkü şair gənc doğrudan da bunlardan yaxşı şair tapa bilməz.

Bizim dəyərli şairlərimiz var. Təəssüf ki, gənc nəsil bunları tanımır. Onların hamısı da yaxşı insanlardırlar, inqilabın, quruluşun və İslamın xəttində - bu gün İran xalqının izlədiyi xətdə olanlardırlar. Müxalifət və etiraz yoxdur. Onlardan tam şəkildə istifadə edə bilərlər. Lakin bizim gənclərimiz tədqiqat və araşdırma işində bir qədər tənbəllik edirlər. Əgər gənclərə hörmətsizlik sayılmasa, belə deməliyik. Əgər bəzi işlərini bir qədər davam etdirsələr, ciddi şəkildə getsələr, yaxşı qaynaqlar tapa bilərlər. İndi Tehranda öz universitetmizdə də dəyərli şairlər var. Onlara az diqqət yetirilir.

**Sual:** Biz ictimai və siyasi məsələlərdə bəzən ifratçı və təfritçi mövqelər müşahidə edirik. Bunun zərərləri də olur. Bu xüsusda gənclərə tövsiyəniz nədir?

**Cavab:** Üslub fərqlərindən çox da qorxmaq lazım deyil. Üslub fərqləri pis bir şey deyil. İndi misal üçün, iki siyasi üslub mövcuddursa, eybi yoxdur ki, bir gənc buna inansın, o biri gənc o birisinə. Zərərli olan fikir və mütaliəsiz addım atmaq, cəld qərarlar vermək, coşmaq və mütaliəsiz işləməkdir. Mən əziz gəncləri bundan çəkindirirəm. Gənclik zəruri olaraq cəld qərar vermək demək deyil. Düzdür, gənclik addım atmaqda qorxmazlıq deməkdir. Mənası budur ki, insan görmək istədiyi işin dolanbaclarına çox da düçar olmasın. Lakin coşmaq, biçimsiz addım atmaq və üsulsuz hərəkət etmək mənasını ifadə etmir. Gənc biçimsiz iş də görə bilər, biçimli iş də; yəni tamamilə düşüncə və fikirlə işləyə bilər. Əgər bu xüsusiyyəti, yəni fikirləşmək, düşünmək, araşdırmaq və haqqı axtarmaq xüsusiyyəti mövcud olsa (bütün bu xüsusiyyətlərin gəncdə olması tamamilə mümkündür. Onların bəziləri, misal üçün, haqqı, həqiqəti axtarmaq ümumiyyətlə gənclərin xüsusiyyətlərindəndir), üslub fərqlərinin heç bir eybi yoxdur və azğınlığa bais olmaz. Ən azı ciddi zərərlər yaranmaz.

Ayrısını inkar etmək haləti - yəni insanın ictimai məsələlərdə bir mövqe seçib "yüz faiz budur və bundan başqası düzgün deyil" – deməsi düzgün deyil. Bu yaxşı hal deyil. Düzdür, bəzi etiqad üsulları belə olmalıdır. Yəni düşüncə ilə araşdırmaq və möhkəm bir nöqtədə dayanıb qətiyyətlə demək lazımdır ki, budur və bundan ayrısı düzgün deyil. Burada belə bir halət pis deyil, yaxşıdır. Lakin ictimai məsələlərdə, siyasi məsələlərdə, müxtəlif ictimai münasibətlərdə uyğun deyil. Mənim fikrimcə, insan qarşı tərəfin fikirlərinə dözməli və öz fikrinin ondan təsirlənib-təsirlənməməsində müqayisə edib ölçməyi özünün meyarı seçməlidir. Əgər belə olsa, mənim fikrimcə, heç bir problem yaranmayacaq.

**Sual:** İndiyədək göstərdiyiniz faəliyyətlərdə nə qədər gənclərə vəzifə tapşırmısınız və bu işdən hansı təcrübəni əldə

etmisiniz? Sizin fikrinizcə, ölkənin elmi yüksəlişi üçün gənclərin vəzifəsi nədir?

**Cavab:** İnqilabın əvvəllərindən mənim səlahiyyətimdə olan işlərdə gənclərə məsuliyyət verirdim; həm silahlı qüvvələrdə, həm dövlət işlərində, həm prezidentlik dövründə. Mənim təcrübəm budur ki, əgər biz gəncə etimad göstərsək - sözsüz ki, ləyaqətli bildiyimiz və səlahiyyəti olan gəncə, hər bir gəncə və hər bir məsuliyyəti yox - işi gənc olmayandan daha yaxşı və daha məsuliyyətli yerinə yetirəcək; həm sürətlə yerinə yetirəcək, həm işi daha yeni və daha artıq yaradıcılıqla bizə təhvil verəcək. Yəni işdə inkişaf prosesi qorunacaq. Qeyri-gənc isə belə deyil. O işi aktual olaraq yaxşı yerinə yetirə bilər, lakin onda inkişaf prosesi dayanacaq.

Əksərən belədir. İnqilab Şurasında olanda bu məsələyə qarşı bizə və o şurada olan digər dostlara etiraz olunurdu. Əsasən 60, 70 və 75 yaşlı insanlar da o şurada vardı. Onlar gənclərə çox da inanmırdılar. Deyirdilər ki, siz nə üçün gənclərə üz verirsiniz, bunları əbəs yerə əsas işlərə daxil edirsiniz. Onlar gənclərə çox imkan yaradılmasını istəmirdilər. İstəyirdilər ki, gənclər onlara qulaq assınlar, onların ardınca getsinlər. Deyirdilər ki, onlar gəncdirlər, biz qocayıq, gərək bizim arxamızca gəlsinlər. Gənclərə çox etimad göstərmək istəmirdilər. Lakin biz etimad göstərirdik. Onlara işin yaxşı getməsini və inkişafın hasil olmasını görmələri ilə əməli surətdə cavab verirdik və verilirdi.

Sualınızın digər hissəsində ölkənin elmi yüksəlişinə toxundunuz. Baxın, gənclik dövrü bacarıq dövrüdür. Bu bacarıq harada işlədilməlidir? Mənim fikrimcə, gərək əsasən elm öyrənməkdə, özündə paklıq və təqva yaratmaqda, özündə fiziki qüvvə yaratmaqda - yəni idman etməkdə işlədilməlidir. Bu üç məsələ əsasdır. Yəni əgər qısa bir cümlədə məndən "siz gəncdən nə istəyirsiniz?" – deyə soruşsalar, cavab verərəm ki, təhsil, mənəvi paklıq və idman. Düşünürəm ki, gənclər bu üç xüsusiyyətə malik olmalıdırlar.

Təhsil tədqiqata və elmi işlərə də şamil olur. Gənclərdə bu qüvvə olduğundan elmi işdə çox çalışmalıdırlar. Eşitdiyimə görə universitetlərdə gənclər çox da ağır elmi işlərə girişmirlər. Bu çox yaxşı hal deyil. Necə olur ki, biz elm öyrənməyən və orta məktəb səviyyəsində qalıb universitetə getməyən bir gəncə gedib dərs oxumasını tövsiyə edirik, amma universitetdə çətin elmi işdən qaçan tələbəyə elmi işi tövsiyə etməyək? Doğrudan, universitetə nə üçün gəlməlidir? Universitetə gəlməlidir ki, elm inkişaf etsin. Düşünürəm ki, gənclər elm öyrənməkdə həqiqətən gənclik enerjilərindən xərcləməlidirlər.

Soruşdunuz ki, bizimlə inkişaf etmiş ölkələrin arasında olan məsafə bitəcək, yoxsa yox? Mənim fikrim budur ki, bəli, tamamilə bitəcək. Ola bilsin biz onların getdiyi yollarla gedib məsafəni bitirə bilməyək. Lakin dünyada istədiyin qədər kəsə yollar mövcuddur. Biz Allahın yaratdığı bu təbiəti yaxşı tanımamışıq. Minlərlə yol vardır. Bir yol indiki sənaye sivilizasiyasının getdiyi, hər bir addımdan sonra növbəti addıma səbəb olan yoldur. Biz nə üçün dünyada yeni bir bacanın açılmasına, yeni kəşfin edilməsinə ümidsiz olmalıyıq? Bir zaman elektrik enerjisi kəşf olunmamışdı. Yəni dünyada mövcud idi, amma onu tanımırdılar. Birdən tanıdılar və əldə edildi. Bəli, buxar qüvvəsini tanımırdılar. Ondan öncə odu tanımırdılar. Amma sonra tanıdılar. Nə üçün biz bu dünyada tanınmaz bir şeyi tanımağa məyus olmalıyıq? Necə ki, hər gün tanınmaz şeylər tanınmaqdadır. Biz bu sahədə işləməli və bizi sürətli elmi inkişafa tam hazır edən yola çatmalıyıq. Çarəsi də təkcə budur ki, gənclər, xüsusən də elm, təhsil və tədqiqatla məşğul olan gənclər çətin işlərlə məşğul olsunlar.

Gənclikdə nə istəsəniz, etmək olar. Yəni hər üç sahədə - həm elm sahəsində, həm mənəvi paklıq sahəsində, həm də idman sahəsində gənclik dövründə işləyin. Hamı bilir ki, qocalıqda idmanın gənclik dövründəki qədər təsiri olmur. Lakin mənəvi paklıq barəsində əksərən bunu bilmirlər. Elə

bilirlər ki, insan qalıb qocaldıqda ibadət etməli və mənəvi paklığa nail olmalıdır. Halbuki o zaman nəfsi paklamaq çətin, bəzən də qeyri-mümkün olur. Qocalıqda nəfsi paklamaq çətindir. Lakin sizin vaxtınızda - gənclikdə nəfsi paklamaq çox asandır. Hər halda, gənclər bu üç işə ciddi yanaşsınlar.

**Sual:** Yeniliyə təmayülün insan xüsusiyyətlərindən biri sayıldığını və əsasən bəzək və geyim kimi məsələlərdə təzahür olunduğunu nəzərə alaraq, bunlara qarşı tədbir növü haqda sizin fikriniz nədir? Dövlət qurumları indiyədək hansı işləri görmüşlər? Uğurlu olmuşdurmu, yoxsa yox?

**Cavab:** Sizin cavabınızda indi deyə biləcəyim budur ki, gözəlliyə, gözəlləşməyə və gözəlliyi sevməyə təmayül fitri bir şeydir. Əlbəttə, bunun yeniliyə təmayül məsələsi ilə bir qədər fərqi ola bilər. Yeniliyə təmayül daha geniş bir məfhumdur, sizin dediyiniz bəzənmə, geyim və bu kimi məsələlər isə xırda məsələlərdir. İnsanın, xüsusən də gəncin gözəllikdən və gözəlləşmədən xoşu gəlir. Ürəyi istəyir ki, özü də gözəl olsun. Bunun eybi yoxdur. Bu təbii və zəruri bir haldır, İslamda da qadağan olunmamışdır. Qadağan olunan fitnə və fəsaddır.

Bu gözəllik və gözəlləşmə cəmiyyətdə süqutun və fəsadın yaranmasına səbəb olmamalıdır, yəni əxlaqi pozğunluq vucüda gəlməməlidir. Necə? Yolları bəllidir; əgər qadın və kişi münasibətlərində qeyd-şərtsiz əlaqə və özbaşınalıq olsa, bu fəsada bais olacaq; əgər ifratçı modabazlıq şəklinə düşsə, fəsadla nəticələnəcək; əgər bu gözəlləşmək - başla, görkəmlə, geyimlə və bu kimi məsələlərlə məşğul olmaq həyatın əsas məşğuliyyəti olsa, azğınlıq və tənəzzül yaradacaq. Tağut dövründə əyan və əşrafın xanımları bəzənmə stolu arxasında otururdular. Sizcə neçə saat otururdular? Altı saat. Bu həqiqətdir. Bizim dəqiq xəbərimiz var ki, altı saat otururdular. Bir insan bəzənmək üçün bu qədər vaxt sərf edir. Misal üçün, toya getmək istəyir, saçını, yaxud üzünü filan formada düzəltmək istəyir. Əgər iş bu formaya düşsə, azğınlıq və tənəzzüldür. Lakin özlüyündə əgər özünü göstərmək və

yadların qarşısında bəzənmək niyyəti ilə olmasa, başa, görkəmə və paltara diqqət yetirməyin eybi yoxdur.

İslamda təbərrüc qadağandır. Təbərrüc, yəni cəlb etmək və fitnə yaratmaq üçün qadınların kişilər qarşısında özünü göstərməsi. Bu bir növ fitnədir və çox eybi var. Eybi təkcə bu deyil ki, bu gənc qız, yaxud gənc oğlan günaha düşəcək. Bu əvvəlidir. Bəlkə də deyə bilərəm ki, ən kiçiyidir, davamı ailələrə çatır.

Ümumiyyətlə qeyd-şərtsiz əlaqə ailənin təməli üçün həlakedici zəhərdir. Çünki ailə eşqlə yaşayır. Əgər bu eşq - gözəlliyə eşq, qarşı cinsə eşq digər yüz yerdə təmin olunsa, ailənin möhkəmliyi üçün lazım olan güclü dayaq məhv olacaq, ailələr dağılacaq, bu gün təəssüf ki, Qərb ölkələrində, xüsusən də Şimali Avropada və Amerika ölkələrində mövcud olan vəziyyət yaranacaq.

Son zamanlar amerikalılar ciddi şəkildə bu problemə düçar olublar. Ailələr dağılır və bu böyük bəlaya çevrilmişdir. Bu bəlanın zərəri ilk növbədə qadınların özünə toxunur. Düzdür, kişilər də çox çətinlik çəkirlər, lakin daha çox qadınlara toxunur, sonra da doğulan nəslə. Dünyanın və Amerikanın indiki fəsadlı nəslini görürsünüz? Bunların hamısı oradan başlanır. Yəni ardınca beləcə dayanmadan şərlər gələn bir şərin hazırlığı və açarıdır.

İslamda gözəllik məsələsinə önəm verilmişdir. Çox eşitmişik ki, deyilir: “Allah gözəldir və gözəlliyi sevir”. Zahiri görkəmi düzəltmək haqda bizim hədis kitablarımızda çoxlu rəvayətlər mövcuddur. Nikah kitablarında kişinin və qadının özlərinə fikir vermələrinə dair geniş söhbətlər açılır. Bəziləri elə bilirlər ki, misal üçün, kişilər saçlarını qırxdırmalıdırlar. Xeyr, şəriətdə gənclər üçün saç saxlamaq müstəhəb əməldir. Hədisdə göstərilir ki, gözəl saç ilahi nemətlərdəndir, onu qiymətli sayın. Yaxud misal üçün, rəvayətdə var ki, əziz Peyğəmbər (s) dostlarının yanına gəlmək istəyəndə su qabına baxır və öz zahirini səliqəyə salırdı. O zaman indiki formada

olan və geniş yayılmış güzgü yox idi. Mədinə cəmiyyəti də yoxsul idi. Peyğəmbərin (s) su qabı vardı, dostlarının yanına gəlmək istəyəndə ondan güzgü kimi istifadə edirdi. Bu onu göstərir ki, səliqəli görkəm, yaxşı paltar və gözəlliyə təmayül İslam şəriətində bəyənilmişdir. Lakin pis və zərərli olan bunun fitnə, fəsad və özünü göstərmək üçün vasitə olmasıdır. Qeyd etdiyim kimi, onun zərərləri ailəyə və sonrakı nəslə qədər davam edir.

Bu yaxınlarda Amerika jurnallarının birində bir mətləb gördüm; öz qəzetlərimiz də onu işıqlandırmışdılar. Yazmışdılar ki, 10-12 yaşlı iki uşaq məktəbdə pusqu qurmuş və avtomatla bir qədər uşaq və müəllimi atəşə tutmuşdular. Əvvəlcə təhlükə siqnalını vurmuşdular ki, uşaqlar toplaşsınlar, sonra da hamını atəşə tutmuşdular. Baxın, bir cəmiyyət üçün belə bir vəziyyət doğrudan da çox pis və acınacaqlıdır. Soyuqqanlı və laqeyd bir cinayət; pis tərbiyəyə görə! Bunların hamısı həmin özbaşınalığın davamıdır.

**Sual:** Gənc həyəcana ehtiyac hissini özündə necə təmin edib ondan yararlana bilər?

**Cavab:** Yaxşı sualdır. Sözsüz ki, həm də çətindir, yəni asan suallardan deyil. Baxın, həyəcan xüsusi zonadadır. Həyəcanın aşkar göründüyü yerlər var. Misal üçün, idman, xüsusən də idmanın futbol kimi bəzi növləri həyəcanlı bir işdir. Futbolun xisləti belədir, voleybol və tennis oyunları ilə fərqlənir. Oyunun quruluşu elədir ki, onda mübarizə, həyəcan və bu kimi məsələlər çoxdur. İdman ümumi şəkildə həyəcanlı bir şeydir. Sənət işləri də həyəcanlıdır. Lakin bunlar həyəcanı aşkar olan yerlərdir.

Həyəcan təkcə bu zonalara məxsus deyil. Əgər gənc nə olur olsun, özünün maraq göstərdiyi zonanı tapa bilsə, asanlıqla o həyəcanı özündə təmin edə bilər. Misal üçün, mən gəncliyimdə, əynimdə tələbə libası olanda, libasın və mühitin yaratdığı məhdudiyyətlər mövcud olanda, eyni zamanda bizim də həyəcanımız vardı və o həyəcan təmin də olunurdu. Necə?

Mən şeiri sevirdim. Buna inanmaq sizin üçün çox çətin ola bilər. Bir şeir məcilsi vardı. Şeiri sevən 4-5 dost iki saat, üç saat oturub şeir barəsində danışır və şeir oxuyurdular. Bunu sevən şəxs üçün bu işin həyəcan ruhiyyəsi bir futbolistin futbol meydançasında oynaması, yaxud bir futbol azarkeşinin futbola tamaşa etməsi kimidir; bu da öz həyəcanını onlar qədər təmin edir. Odur ki, meydanlar məhdud deyil.

Başqa bir misal sizin misal vurduğunuz mühəndislik tələbəsinə aiddir. Siz deyirsiniz ki, o, dərs oxuyur, həyəcanı yoxdur. İnsan dərsin adını çəkdikdə düşünür ki, dərsin həyəcanı yoxdur. Düzdür, dərs sinfinin həyəcanı yoxdur. Amma dərs sinfinin yanında universitetdə, yaxud universitetdən bayırda yaxşı imkanlarla təchiz olunmuş bir praktika otağı fərz etsək - deyəsən indi qayda belədir ki, gənclər mühəndislik təhsilinin bir dövründə gedib zavodlarla əlaqədə olurlar - bu gənc hiss edər ki, bu praktika otağında imkan var, özünün nəzərdə tutduğu yaradıcılığını, düşündüyü fikrini burada yarada və həyata keçirə bilər. Siz elə bilirsiniz ki, bu zaman onun az həyəcanı olacaq? Bunun həyəcanı çoxdur.

Qardaşımıza deyirdim ki, tədqiqat işi görsün. Tədqiqat işi eşq və həvəs üzündən olmalıdır. İnsanı məcbur edib desələr ki, tədqiqat apar, o zaman bu, əlbəttə, quru və həyəcansız bir şey olacaq, faydası da olmayacaq. Lakin sizin sevdiyiniz və maraq göstərdiyiniz, qəbul imtahanlarında iştirak etdiyiniz, universitetdə dərsini oxuduğunuz, yaxşı müəlliminiz də olan bir fəndə əgər imkanınız çatan yerdə təchizatlı bir praktika otağı da olsa, fikrinizin və yeniliyiniz nəticəsini oraya aparıb həyata keçirə bilsəniz, çox yaxşı olar. Mən belə demək istəyirəm ki, gənclərin həyəcanını necə təmin etmək məsələsinə bir sual, bir nigaranlıq kimi yanaşmamalıyıq. Xeyr, əgər müxtəlif sahələrdə meydan açıq olsa, gənc özü maraq göstərdiyi yerə gedib həyəcanını təmin edəcək.

Ölkə məmurları kimi bizim, eləcə də ölkəni sevən bütün şəxslərin – istər dövlət adamlarının, istər qeyri-dövlət adamlarının və gənclərə məxsus sahələrin görməli olduğu iş budur ki, gənclərin düzgün və sağlam fəaliyyəti üçün meydanı açsınlar. İndi misal üçün, bir gənc ədəbiyyata həvəslidir. Yaxud bir gəncin iqtisadiyyata marağı var. Təbii ki, iqtisadiyyatın laboratoriyası yoxdur. Lakin birdən elan olunur ki, ölkənin, yaxud xarici bir ölkənin filan iqtisadçısının filan yerdə dərsi, yaxud seminarı var və çıxış etmək istəyir. Bu uyğun sahəyə marağı olan gənc üçün çox mənalıdır. Bilet alıb tez getsin, özünü çatdırsın, müəllimdən soruşsun. Bunların hamısı həyəcandır. Yəni əgər iş və fəaliyyət meydanı Allahın yardımı ilə inqilabın əvvəlindən irəliləyən proseslə gənclərin üzünə açılsa, gənclər gəncliyin faydalarından olan gənclik həyəcanını təmin edə biləcəklər. Düzdür, qəbul edirəm ki, indiyədək mövcud olan problemlər səbəbindən 19 il qədərincə irəliləməmişdir. Bu 19 ilin 8 ili doğrudan da müharibə olmuşdur. İlk 2-3 ili məmurların məlumatsızlıqları və təcrübəsizliyi olub. Sonra yavaş-yavaş başlanılmışdır. Siz sənət adamısınız. Allaha həmd olsun ki, simanız da tanışdır. Biz sizi televizorda görmüşük. Mənim əzizlərim! Siz sənət adamları xalqa çox xidmət göstərə bilərsiniz. Xalq sizdən öyrənə bilər. Əgər sənət adamı həqiqətən mənim dediyim təqvaya malik olsa, yəni bu hərəkəti etdikdə, bu verilişi icra etdikdə bir qrup gəncin, bir qrup uşağın, bir qrup qadın və kişinin sizə baxacaqlarını, bundan nə isə öyrənəcəklərini xatırlasanız, işinizin yaxşı və yüksək səviyyəli olmasını düşünsəniz, məncə çox xidmət göstərə bilərsiniz.

İncəsənətin güclü dili var. Heç bir dil onun kimi güclü deyil; nə elmin dili, nə adi dil, nə moizə dili. Quranın müvəffəqiyyətinin sirlərindən biri onun sənətkarcasına olmasıdır. Quran sənətin zirvəsindədir, möhtəşəmdir. Doğrudan da o zaman xalqı sehrlədi. Əgər əziz Peyğəmbər (s) sənət dili olmadan oturub xalqla danışsaydı, düzdür, bəziləri

maraq göstərərdilər, lakin o gurultu, o ildırım və o tufan vücuda gəlməzdi. Bu işləri görən incəsənətdir. Sənət əsərləri belədir.

İndi də insan Hafizin şeirini oxuyanda möhtəşəm və təsirli olduğunu görür. Təsviri incəsənətin təsiri isə şeir və ədəbiyyatdan da güclüdür, uzunömürlü olub-olmamasını isə bilmirəm. Ola bilsin insan bəzi yerlərdə daha uzunömürlü olub-olmamasını desin. Amma hər halda, təsiri daha sürətli, daha qəti və daha güclüdür.

Siz yaxşı təsir qoya bilərsiniz. Mən xahiş edirəm bu ssenariləri yazanlar, rol oynayanlar, rejissorluq edənlər, dekorasiya quranlar, geyim hazırlayanlar (sənət işlərində çox mühüm olan və nisbətən az diqqət yetirilən məsələlərdən biri geyim məsələsidir. Çünki sizin geyindiyiniz bu paltar bəziləri üçün örnək olacaq) nə iş gördüklərini bilsinlər, işlərinin nəticəsini düşünsünlər. Hər halda, şərait çox yaxşıdır. İnşaallah müvəffəq olasınız.

**Sual:** Nə üçün idmanda strateji siyasətlər müşahidə olunmur və idmandan mədəni hücum qarşısında güclü bir vasitə kimi istifadə edilmir?

**Cavab:** Sizin idman işindəki çatışmazlıqlar haqda dedikləriniz tamamilə doğrudur. İdman sahəsində iş görülməmişdir. İdmana dair iki çatımazlıq var:

Biri sərmayə qoyulması lazım olan idman seçimində əsaslı qərar və strateji proqram haqqındadır. Hər halda, iranlı cəmiyyətin tələbi var, istedadı var. Hansı idman növünə diqqət yetirilməlidir? Hansı ruhiyyə və ardıcıllıqla? Mən bir-iki öl öncə bu mövzuda ölkənin idmançıları və idman üzrə məsul şəxsləri ilə geniş söhbət etdim. Mənim fikrim budur ki, əgər biz bu sahəyə sərmayə qoysaq, düzgün fikirləşib işlər görsək, şübhəsiz, dünyanın idman meydanlarında, müharibədə bizim dünyanın modern imkanlarından təxminən məhrum olan Bəsic üzvlərimizin və hərbi təşkilatlarımızın vasitəsi ilə görülən iş baş verəcəkdir. Gördünüz ki, müharibədə nə etdilər və necə

fəxr yaratdılar! İndi də əlillərin voleybol yarışında həmin hadisə baş vermişdir. Bu qardaşlar davamlı olaraq uğur qazanırlar. Yaxud misal üçün, güləşdə sizin özünüz, qardaşınız və digər qardaşlar ölkəyə həqiqətən böyük nailiyyətlər gətirdilər. Biz bütün idman sahələrində belə ola bilərik. Heç bir səbəb yoxdur ki, futbolda, voleybolda, atçılıqda, yaxud özümüzün bəzi ənənəvi yarışlarımızda, məsələn, çövkən oyununda, yaxud fərdi döyüş idmanlarında, yaxud üzgüçülükdə dünyanın görkəmli idmançıları ilə yarışa girə bilməyək. İndiki xoşagəlməz vəziyyətin yaranmasına səbəb odur ki, tərbiyə, inkişaf və texniki fənddən istifadə üzərində proqram hazırlanmamışdır. Bu bir nöqsandır.

Bu nöqsanla tamamilə əlaqədar olan ikinci nöqsan idmanda mənəvi və mədəni ab-havanın çatışmazlığıdır. Yəni idmana dini və sağlam mədəni mühitin hakim olmasına çalışılmamışdır. Belə deyil ki, bizim idmançılarımız yaxşı insanlar deyillər. Xeyr, onların arasında çox yaxşı, mömin və təqvalı insanlar var. Lakin bundan da əhatəli olmalıdır. Bizim idman mühitimiz iffətli mühit olmalıdır. İffətin çox qəribə və geniş mənası var. Bir insanın mənəvi saflığı hər bir yerdə özünü göstərir. İdman mühiti iffətli mühit olmalıdır. Onda veyllik, pintilik və hər hansı bir iffətsizlik müşahidə olunmamalıdır. Biz idman mühitimizdə bu şəraiti yaratmalıyıq. Əgər belə olsa, dünyada parlayacaq və bizim idmanımız ulduz olacaq.

Siz baxın, indi bizim beynəlxalq festivallara çıxan bu filmlərimizin hakimlər və tamaşaçılar üçün daha maraqlı cəhəti hələlik farsca filmlərdə olan iffətdir. Bəzi rejissorlar və prodüserlər bunu təbii şəkildə edirlər, bəziləri də məcburən edirlər, qadın-kişi səhnələrini və ailə münasibətlərini indi İslam Respublikası şəraitinin bəyəndiyi formada hazırlamağa məcbur olurlar. Bunlar dünyada gül kimi açır.

Çoxlarının təsəvvürünün əksinə olaraq, dünya bu pozğunluqlardan, tüfeylilikdən və avaralıqdan xoşlanmır,

yorulmuşdur. Bu iffət, nəciblik, sağlamlıq, həya və bu kimi məsələlər iranlıların təbiətində də var, İslam da bunu tövsiyə etmişdir. Biz bunu idman mühitində və digər yerlərdə hakim etməliyik. Bu, idmanın mənəvi mədəni mühiti olacaq; elə bir şey olacaq ki, siz mədəni hücuma qarşı tədbir görmək üçün öz mədəniyyətimizdən istifadə etməyə lazım olduğunu deyirsiniz. Tamamilə düzgündür.

Buna əsasən, əgər idman işi üzrə məsul şəxslər bu iki məsələ ilə məşğul olsalar - yəni bir tərəfdən elmi cəhətdən məşğul olmaq, idman üçün kompleks proqram hazırlamaq, seçim, texnika, tərbiyə, məşq və digər tərəfdən idmanın mədəni mühiti ilə maraqlanmaq işi baş versə, mən düşünürəm ki, bizim idman mühitimiz inkişaf edəcək və çox yaxşı olacaq.

Mən xahiş edirəm ki, bizim gənclərimiz o günü gözləməsinlər. Deməsinlər ki, idman o səviyyəyə çatanda biz gedib idman edərik. Xeyr, gənclər istisnasız olaraq idman etsinlər. Gənclər deyəndə mənası bu deyil ki, gənc olmayanlar idman etməsinlər. Xeyr, gənc olmayanlar da idman etməlidirlər. İdmanın gənc üçün çoxlu xeyirləri var. Mən bunları dəfələrlə dediyimdən daha təkrarlamaq istəmirəm. Qocalar üçün də idman vacibdir. Gənclik yaşları – 40-50 yaşları ötmüş şəxslər üçün idman vacibdir; gərək idman etsinlər.

**Sual:** Nə üçün gənclərə aid işlərin siyasətlərini təyin etmək üçün müəyyən bir mərkəz yoxdur? Nə üçün gənclərin işlərində, misal üçün, nikah məsələsində müxtəlif sahələrin işi bir-biri ilə uyğun deyil?

**Cavab:** Bu müəyyən həddə baş vermişdir. Təşkil edilən Gənclər Ali Şurası bu yolda ilk addım idi. Ümidvaram ki, bu ilk addım bizi növbəti addımlara da çatdırsın. Düzdür, şübhəsiz, Təlim və Tərbiyə Nazirliyi, Ali Təhsil, yaxud Səhiyyə Nazirliyi kimi bəzi orqanlar gənclərlə əlaqədardırlar. Lakin o qərargah gənclərin məsələlərinə hərtərəfli və kompleks şəkildə baxa bilər. Onun əsas sütunu Gənclər Ali

Şurasıdır. Mənim fikrimcə, qardaşlar indiyədək onların öhdəsinə düşən həddə yaxşı işləmişlər. Onlar qərargah işi görməli, icra işlərini isə qurumlar yerinə yetirməlidirlər. Bu cənablar ötən il Gənclər xartiyası hazırlayıb mənim yanıma gətirdilər. Bu çox yaxşı, əhatəli və faydalı idi. İslam Respublikası qurumlarının işləməsi üçün yaxşı və məntiqi əsas ola bilər.

Sizin dediyiniz nikah məsələsi barəsində hökumət, yaxud Gənclər Ali Şurası düşünə bilər. Lakin nikah məsələsi tamamilə fərdi və şəxsi bir məsələdir. Ailələr onun barəsində fikirləşməlidirlər. Dövlət qurumları və ümumi təşkilatlar ümumi tövsiyələr verməlidirlər. Mənim öz tövsiyəm budur ki, nikahı asanlaşdırsınlar, mehrlər çox, cehizlər ağır olmasın, qonaqlıqlarda israfçılığa yol verilməsin. Bu məsələlər üzərində işləmək lazımdır. Çox yaxşı olar ki, mədəniyyət və incəsənət işləri ilə təbliğat aparılsın və xalq bunları öyrənsin. Əgər bunları öyrənsə, mən düşünürəm ki, nikah asanlaşacaq.

Evlənmə yaşları da nə bəzilərinin düşündüyü qədər ağını çıxarıb çox aşağı yaşlarda olmalıdır (mən bunu inkar etmirəm, eybi yoxdur. Əgər kimsə çox tez ailə qurmaq istəsə, heç bir eybi yoxdur, amma bunun üzərində təkid göstərməyimizə lüzum da yoxdur), nə də qərblilərin etdiyi kimi 30-40 yaşlarında ailə qurmalıdırlar. Əlbəttə, mənim fikrimcə, onlara o qədər eqoistlik hakimdir ki, əgər kişi 30, 40 və 50 yaşında olsa da, gənc bir qızla evlənməkdə qüsur görmür. Yəni həmin yuxarı yaşlar kişilərə məxsusdur, yenə o da özündən çox gənc olan bir qadın axtarır. Bunlar oralarda var. Bunlar da nikahların təməlsiz olmasına bais olur. Odur ki, Qərb ölkələrində yalqız insanlar çoxdur. Bəzi insanlar bütün ömürlərini tənha keçirirlər. Xoşbəxtlikdən İranda və digər İslam ölkələrində bu çox azdır.

Hər halda, nikah işini bir qədər asanlaşdırmaq və dəm-dəsgah ardınca qaçmamaq lazımdır. Belə olarsa, gəncləri asanlıqla izdivac mərhələsinə yaxınlaşdıra bilərlər. Gərək

ailələrdə, gənclərin, qız və oğlanların özlərində iradə yaransın. Nikahdan boyun qaçırılmamalıdır. Əgər hökumət də hansısa imkanlar yarada bilsə, çox yaxşı olar. Mən həmişə bunu istəmişəm, həmişə məmurlara gənclərin ev, kredit və digər ehtiyacları barəsində tövsiyələr etmişəm. Biz bunları nəzərə alırıq. Amma demək istəyirəm ki, bu işin məsuliyyəti birinci növbədə ailəvi və şəxsi məsuliyyətdir.

**Sual:** Sizcə dəyərləri qorumaq və müharibə dövrünün mənəvi ab-havasını bugünkü gənclərə köçürmək üçün hansı yollar mövcuddur?

**Cavab:** Sizin dediyiniz sözlərin hamısı düzdür. Mən də sizin dediklərinizə inanıram və sizin kimilərlə fəxr edirəm. Əsas fərdlər deyil, əsas o ruhiyyələrdir, əsas o niyyətlərdir, əsas bu inqilabın və bu çətin sınaqların bizim ölkəmizə verdiyi yeni həyatdır. 81, yaxud 82-ci ildə Bostanın fəthi zamanı imam bir müraciət edib "fəthlər fəthi" təbirini işlətdi. Bəziləri elə bildilər ki, fəthlər fəthi Bostan müharibəsidir. Amma imam onu demirdi. İmam deyirdi ki, fəthlər fəthi bu agah və ayıq canları fəth etmək, yaxud yetişdirməkdir. Doğrudan da İslam Respublikasının ən böyük fəthi bu gəncləri ruhi əzəmətin, din və yüksəlişin bu mərhələsinə çatdırmaq idi. Onlar özlərinə inanıb dayandılar, dünyanın əzəmətli və yekdil hücumu qarşısında öz ölkələrini, varlıqlarını və İslamı müdafiə edə bildilər. Onun nümunəsi məcburi müharibə idi və indiyə qədər də davam edir. İndi də biz dünyanın hücumu qarşısında qalmışıq.

Mən meydana yeni qoşulmuş və hər yerdən bixəbər olan (doğru olduğu təqdirdə bixəbərdir, əks təqdirdə qərəzlidir) bəzi mətbu orqanlarını, qəzetləri və insanları görürəm. Onlar elə bilirlər ki, ölkəni inqilabdan öncəki pozğunluq halətinə çəkmək bir hünərdir. Onlar bu məqsədlə çalışırlar. Nə qədər qafillikdir, nə qədər təəssüflüdür! Bizim gənclərimiz gənclik dövründə özlərini ölkənin düçar olduğu keylikdən xilas edə bildilər; hərəkət edib İranı qurtardılar. İran əldən çıxmışdı. Biz

itmişdik. Biz əl-ayaq altda əzilmişdik. İqtisadi və siyasi istismarçılığın və sözün həqiqi mənasında müstəmləkəçiliyin girişin olan Qərbin mədəni batlağı bizi həqiqətən məhv etmişdi. Yer və göy arasında inqilabın və İslamın qüdrətli əli həmin gənclərin vasitəsi ilə ölkəni xilas etdi. Bəziləri bu fəxrli dövrü unutdurmağa və xalqın qabaqkı keylik halətinə qayıtmasını istəyirlər. Bunu kim istəyir? Bu ölkənin və bu xalqın düşmənləri istəyirlər.

Zənnimcə, bunu bəlkə də bir çıxışımda demişəm. Bu yaxınlarda bayramdan öncə Amerika jurnallarının birində məşhur bir amerikalı yazıçı tərəfindən bir baş məqalə yazılmışdı. Xülasəsi bu idi ki, İran kimi (əlbəttə, o pis təbir işlətmişdi, misal üçün, yağı) ölkələrlə mübarizə aparmaq üçün biz hərbi və iqtisadi yollardan istifadə edə bilmərik. Bunlar sınanmış və məğlubiyyətə uğramış yollardır. Biz mədəni yollardan istifadə etməliyik. Açıq-aşkar deyir. Necə iş görülməsini də deyir. Həmin səhifənin ortasında tamamilə çılpaq bir qadının şəkli çəkib və deyir ki, bu yolla. Deyir ki, onlara qələbə çalmaq üçün bunları yaymalıyıq. Doğru da deyir. Yolu budur. Təəssüf ki, bəziləri ölkədə nə iş gördüklərini anlamırlar. Əlbəttə, Allahın gücü və qüvvəsi ilə qoymayacağıq və bacarmayacaqlar. Biz icazə verməik ki, bu ölkəyə və bu inqilaba xəyanət etsinlər, onu bitirsinlər. Lakin başlarında həvəs var. Xalqı bu ölkənin ozamankı bədbəxtliyinə və fəlakətinə qaytarmaq istəyirlər.

Mənim fikrimcə, bizim gənclərimiz bu gün də allahçı, mömin və pakdırlar. Siz görün bizim universitetlərimiz necədir. Görün bizim laboratoriyalarımız necədir. Görün ölkənin şəraiti necədir. Siz görün inqilabın qələbəsi, yaxud Qüds gününün yürüşündə sel kimi küçələrə axışan bu əhalinin əksəriyyəti kimlərdir. Həmin gənclərdir. Həmin ilahi ruh, həmin ilahi duyğu və şimşək hələ də ölkədə mövcuddur və hələ də təsirlidir. Həmin ruhiyyə yenə də ölkəni qurtuluş sahilinə çatdıracaq. İndinin özündə, şübhəsiz, bizim iqtisadi və

digər sahələrdə problemlərimiz var. Bunlar bir gün bitəcək. Lakin bu problemləri bitirəcək amil mənəvi ruhiyyədən, İslama və inqilaba üz tutmaqdan başqa bir şey olmayacaq. Yenə də ölkəni həmin gənc qız və oğlanlar xilas edəcəklər. Mən dəfələrlə demişəm ki, gənc nəsil çətin dövrlərin və böyük problemlərin açarıdır. Meydana daxil olduqda (Allaha həmd olsun ki, bu gün də meydandadır) xırda və çətin düyünlər açılacaq. Bizim gənclərimiz mömin və dindardırlar, ölkələrini və İslamı sevirlər, Amerikanın və əcnəbinin hökmranlığına qarşıdırlar. Bunun özü işini görəcək. Apardıqları təxribatlar və hazırladıqları hiylələr inşaallah heç bir təsir bağışlamayacaq. Allah da kömək edəcək. Həzrət Bəqiyyətullah (İmam Mehdi (ə)) də inşaallah bu yolun, bu işin və bu gənclərin dayağı olacaq.

Sonda bir məqamı da xatırlatmaq istəyirəm. Gənclərin gördüyü bu işlər kiçik deyil. Mənim dediyim bu dərs oxumaq, bu tədqiqat işi, sənət işi, idman işi – bunlar kiçik deyil. Mən xahiş edirəm bu işləri görən şəxs onun kiçik olduğunu düşünməsin. Xeyr, bu iş ölkə miqyasında təyinedici bir ünsürə çevrilir. Fərz edin bir sənətkar təklikdə dəyərli bir sənət işi yaratmaq qərarına gəlir. O deyə bilməz ki, mən fərdi bir iş görürəm, özüm tənhayam və bu iş kiçikdir. Xeyr, əgər siz işinizi yaxşı görsəniz, əgər yüz nəfər də sizin kimi fikirləşsə, həmin əzəmətli yüksəliş və həmin böyük iş baş verəcək. İdman məsələsində də eynilə belədir, dərs oxumaqda, tədqiqatda da eynilə belədir. Gənclərin xüsusi işlərində də eynilə belədir. Bu eynilə yürüş günü kimidir. Əgər hamı "mən bir nəfərin nə təsiri var?" - desə, o zaman İslam inqilabının qələbəsi günündə, yaxud cümə namazında belə milyonluq izdiham əmələ gəlməz. Lakin hər kəs öz vəzifəsini yerinə yetirdiyini hiss edir. Mən təkidlə təkrar etmək istəyirəm ki, bu gənclərin hər birinin işi - harada və hansı sahədə işləsələr, Quran sahəsində, məlumat sahəsində, maarif sahəsində,

hövzədə, universitetdə və kitab yazmaq işində olsalar - mühüm və inşaallah ölkəni ucaldacaq işdir.

İnşaallah müvəffəq olasınız.

*Əlavə 5*

## İnqilabın Böyük Rəhbərinin İslam birliyinin üzvü olan şagirdlərlə və məktəblərin tərbiyəvi işlər üzrə məsul şəxsləri ilə görüşündəki çıxışı

**Keyan qəzeti, 28 fevral 2001**

Bu gün bizim məclisimiz coşqun və sevgili toplumla və əziz gənclərlə bəzənmişdir. Onların qəlbi işıqlı imanla doludur. Həm 9-11-ci siniflərdə şagird gənclərin tərbiyəvi işlər üzrə məsul şəxsləri, həm də şagirdlərin İslam birliklərindəki gənclər; çox geniş əhatəli və çox böyük məsuliyyətli və çox mühüm iki qurum. Hər iki qurumun - həm İslam birliklərinin, həm tərbiyəvi işlər qurumunun iş predmeti gənclərdir; özü də çox əhəmiyyətli şagirdlik dövrü olan 9-11-ci siniflərin gəncləri.

Gənc çiçəklənməkdə olan yeni ağac və əksər yaxşılıqların, gözəlliklərin və nurluluqların cəm olduğu şəxsdir. Siz əziz gənclərdə müşahidə olunan bu paklıq və məhəbbətin qaynağı pak və nurlu gənclik qəlbidir. Mən sizə deyim ki, mənim əzizlərim, bu məhəbbət qarşılıqlıdır. Qoca atanız kimi mənim də ürəyim siz gənclərə məhəbbətlə doludur.

Gənc məsələsi hər bir cəmiyyətdə ən əhəmiyyətli məsələlərdəndir. Qərb ölkələrinin də bəzən dedikləri və bəzən gizlətdikləri problemlərdən biri onların gəncləridir. Siz elə düşünməyin ki, istər qız, istər oğlan olan gənc məsələsi Qərb cəmiyyətlərində həll olunmuşdur. Xeyr, oranın min cavanı arasında bəlkə də bu qədər səfalı, nurani və pak olan bir nəfər də tapmaq olmaz. Maddiyyata, pul və kapitalın dəyərinə və ehtirasın azadlığına söykənən quruluşların vəziyyəti bu gün görüb təcrübə etdiklərindən başqa bir şey ola bilməz. Xalqların süqutu həmişə qəfildən olmur, tədricən həyata keçir.

Bu tədrici məsələni qərbli mütəfəkkirlərin iti gözləri Amerikada və Avropada müşahidə edirlər. O cəmiyyətlərdə cavanlar pozğunçuluğa meyllilikə, həyadan uzaq, cinayətkar və təcavüzkar ruhda tərbiyə alırlar, adətən əxlaqi pozğunluqlarda qərq olurlar. Belə bir gənc nəsil elmin və sərvətin hansı səviyyədə olmasından asılı olmayaraq, yaşadıqları cəmiyyətin və quruluşun bünövrələrini qarışqatək çeynəyib məhv edəcək.

Bunun qarşı tərəfini siz bu gün öz ölkəmizdə müşahidə edirsiniz. Cavanların şövqü, paklığı, saflığı, onlarda olan iman və dindarlıq inqilabın ilk günlərindən indiyədək həmişə axmaqda, coşmaqda olan təmiz və coşqun çaya bənzəyir. Bizim ölkəmizin gənc və yeniyetmələri müharibə dövründə və ondan sonra öz saflıqlarını qoruya bildilər. Bunun əksini göstərən bəzi statistikalar düzgün deyil. Mən cavanlar arasında olan azğın cərəyanlardan xəbərsiz deyiləm, nə baş verdiyini bilirəm. Lakin bu köpüklərin, bu bulanıq lilin altında nəcibliyin və dindarlığın, təmizliyin və nuraniliyin əzəmətli və qüdrətli cərəyanını da müşahidə edirəm. Bu gənc nəsil bu gün tərbiyəvi işlər üzrə məsuliyyət daşıyan və İslam birliklərində çalışan siz əzizlərin tərəf-müqabilidir.

Gənclər barəsində ifratçı və təfritçi təmayüllər müşahidə olunur. Bəziləri gəncin şəxsiyyətini, iradəsini, dərkini və tükənməz bacarıqlarını görməzdən gəlməyə adət etmişlər. Onu bilməməkdə, yaxud nəzərlərində bəyənilməz olan hər hansı bir məsələdə ittiham edirlər. Bu, səhv tərbiyədir. Gənc fəallığın təzahürü, istedadla dolu və dəyərli ehtiyata malikdir; yəni gənclik fəallığı, gənclik qüvvəsi, gənclik istedadı və gənclik səbri var. O, möcüzələr yarada bilər. Bu etinasızlıq səhv və azğın bir rəftar və təsəvvürdür.

Qarşı tərəfdə bəziləri gənci özlərinin siyasi maraqlarına və məqsədlərinə oyuncaq etməyə və onu alət kimi işlətməyə çalışırlar, onu incidə bilər deyə gənc üçün lazım olanı ona demirlər. Onu onlara qarşı nikbin edəni, onlardan razı salanı -

əgər həqiqətin ziddinə olsa belə - ona deyirlər. Məqsəd siyasi və partiya işlərində müxtəlif və bəzən də müqəddəs olmayan məqsədlər üçün ordu düzəltməkdir. Bu da səhv, yanlış, xəyanət və ilahi neməti tələf etməkdir.

Gənc istedadla dolu və çoxlu hüquqa malik bir insandır: ata-ana üzərində, məktəb üzərində, hökumət üzərində, müxtəlif sahələrin məsul şəxsləri üzərində hüquqlara malikdir. Onun inkişaf və təkamül şəraitini hazırlamaq, düzgün yolu seçə bilməsi üçün ona kömək etmək lazımdır. Bu köməyin böyük bir qismi rəftarla və əməllə mümkün olur. Danışmağın və sözün həmişə təsiri olmur. Bəzən təsirli olması mümkündür, lakin bəzən əməl sözü korlayır. Gənclərlə işləyənlər - o cümlədən İslam birliklərində olan siz əziz gənclər, yaxud tərbiyəvi işlərlə məşğul olan əzizlər çalışıb öz rəftarlarını ağıllı, müdrik, xeyirxah, səmimi və məhəbbətlə dolu etsinlər. Bu, harada və necə olsalar, onların pak duyğuları üzərinə xəta külü oturmuş olsa belə, gənclərin qəlblərini təhlükədən xilas edə bilər.

İndi mənim müraciətim siz əziz gənclərədir. Sizin qarşınızda həyatın dəyərli ehtiyatı var. Gənc həyatın başlanğıcındadır. Fərz edin əkinçi yenicə məhsulu yığıb; anbarı məhsulla doludur. Bu bol və sağlam məhsulla nə edəcək? İki növ əməl edə bilər: Biri budur ki, ağıllı, sayıq və gələcəyi düşünən əkinçi bu məhsulu sağlam saxlamağa, səhlənkarlığa yol verməməyə, onları çürüməyə qoymamağa çalışır. Lazım olan qədərini özünün ehtiyacı üçün saxlayır. Lazım olan qədərini işlədir. Əkin üçün yararlı olanı seçir ki, növbəti illərdə əkinə istifadə etsin. Başqa bir nəfər də bu dolu anbarın qədrini bilməyə bilər. Elə düşünər ki, həmişə dolu qalacaq. Nə onu qoruyub saxlamaq üçün, nə proqramlı şəkildə işlətmək üçün, nə də ehtiyacı olan günlər üçün bir iş görür. Bu ağılsızlıqdır. Əlbəttə, anbarların ehtiyatı tükənmiş şəxslər - yəni qocalar və yaşlılar da bu anbarın tükəndiyini hiss etmirlər. Bu, bəşərin böyük problemidir. Əzizlər, onlar da

ağıllı şəkildə düşünmürlər. Onlar da ağıllı düşünsələr, rəftarlar düzələr, səhvlər düzələr və düzgün yol seçilər. Lakin təəssüf ki, bəzən onlar da düzgün fikirləşmirlər. Biz tarixin təlimində və öz dövrümüzün təcrübəsində dərk etmişik ki, gənclər daha artıq bacarır, daha artıq istəyir və daha artıq əməl edir. Saleh insanların hakimiyyəti dövründə vəziyyət belədir. Bir çox yerlərdə gəncin bacarığının çox olmasından əlavə, iradəsi də yaşlı insanlardan daha yaxşı və daha çoxdur.

Siz gənclik dövründəsiniz. Bu xəzinə hələ doludur. Bu xəzinənin bir hissəsindən əkin üçün istifadə olunmalıdır. O hissə sizin bu gənclik illərinizə aiddir. Bu, gələcəyin toxumudur. Həyatınız üçün düzgün proqramınız olsun. Bəzi şeylər insan ömrünün sonuna qədər faydalı olur. Bəzi şeylər isə insanın ömründən sonra, yəni sonrakı həyatda da faydalı olur. Bəzi şeylər insan üçün mühüm hadisələr zamanı faydalı olur. Siz on illərlə bu dünyada yaşayacaqsınız. Odur ki, özünüzü elm baxımından hazırlayın. Elm insan üçün ömrün sonuna qədər faydalı olan məsələlərdəndir. Əgər bu elmin ardınca yaxşı və həmişəyaşar əməl də olsa, ölümdən sonra üçün də faydalı olacaq. Dərs oxumaq sizin üçün ən vacib əməldir. Gənclər üçün idman etmək bir ehtiyat toplamaqdır. Mən düşünürəm ki, idman etmək hamı üçün vacibdir. Sözsüz ki, məqsədim peşəkar idman deyil. Peşəkar idmanı da rədd etmirik, lakin bütün gənclərin peşəkar idmanla məşğul olmasını tövsiyə etmirik. İdman sağlamlığı və gümrahlığı qorumaq üçündür. Bu da sizin üçün ömrün sonlarına qədər qalan bir sərvətdir. Tənbəllik və passivlik o əzəmətli sərvəti tələf etməkdir. Başqa bir xüsusiyyət də var. Əgər o sizdə olsa, həm sizin həyatınız dövründə faydalı olacaq, həm digərləri üçün faydalı olacaq, həm də axirət və ölümdən sonrakı əbədi dövr üçün faydalı olacaq. O, nəfsin paklığıdır. Özünüzü paklayın. Bizim əziz gənclərimiz dini maariflə, ilahi təlimlərlə, bəşər bilgiləri ilə və düzgün dini əməllə bu işi görə bilərlər. Bu gün ictimai məsələlər meydanı da dini məsələlər

meydanıdır. İslam Respublikasında çox olan əzəmətli mərasimlərdə - cümə namazlarından tutmuş inqilabın qələbəsi gününün yürüşünə qədər bütün mərasimlərdə iştirak etmək həm də dini işdir. Bu üsullarla və bu işlərlə öz nəfsinizi – özünüzün pak və nurlu qəlbinizi daha artıq möhkəmlədin.

Mən gəncin müraciət tərəfi ola bilmədiyini və məsuliyyətinin olmadığını düşünən və gəncin vücud gövhəri üçün hörmət və dəyər tanımayan şəxslərin əksinə olaraq inanıram ki, bu gün ən ağır məsuliyyətlərdən biri siz gənclərin üzərinə düşür. Bu gün inqilabdan zərbə görənlər, İslam Respublikası quruluşunun yaranması ilə bu ölkədən qarət süfrələri yığışılanlar gənclərin üzərində mərkəzləşmişlər. Dəfələrlə demiş və təkrar etmişlər ki, İranda gördükləri iş mədəni işdir, siyasi iş də deyil. Mədəni iş nədir? Yəni elə bir iş görmək istəyirlər ki, bu gün siz gənclərdə mövcud olan bu iman, bu şövq və eşq, bu nuranilik və paklıq İranın gənc nəslində məhv olsun. Onların planı budur və mən qətiyyətlə deyirəm ki, onlar müvəffəq olmayacaqlar.

Bizim gənclik oyaqdır. Bizim oğlan və qızlarımız sayıqdır. Şagirdlərimiz, universitet tələbələrimiz və elmi hövzələrdə olan digər gənclərimiz oyaqdırlar. Bu oyanışı da bu ölkəyə və bu gənclərə İslam və inqilab vermişdir. Məktəblərin və universitetlərin içinə girməyə çalışırlar. Onların ilk addımı da budur ki, gənci cinsi özbaşınalığa və fəsada çəksinlər, onda olan həya işığını öldürsünlər. Siz onların məlumatsız və qafil adamları vasitəsilə məktəblərdə nə işlər gördüyünü yəqin ki, məndən yaxşı bilirsiniz. Bugünkü mömin, dindar və sayıq gənc bu təxribatların qarşısında oyaqdır. Harada düşmənin əlamətini və barmağını görsə, onu ayaqları altında tapdayıb əzəcək.

Tərbiyəvi işlərlə məşğul olan qardaşlara, bacılara və əzizlərə deyirəm: Sizin bütün səyiniz müsəlman, mömin və ayıq gənc yetişdirmək olmalıdır. Allah Şəhid Rəcai və Şəhid Bahünərə rəhmət eləsin! Bu işi təlim-tərbiyə qurumlarında

onlar başlayıblar. Xoşbəxtlikdən bu gün Təlim və Tərbiyə Nazirliyinin yaxşı və imanlı müdiriyyəti var, bu məsələlərə əhəmiyyət göstərilir. Düzdür, bəziləri işləri pozurlar. Biz bunu görürük, xəbərsiz deyilik. Tərbiyəvi işlərlə məşğul olan siz əzizlərin məqsədi ilk növbədə gənci mömin, agah, dini məsələlərdə aydın, İslam maarifinə və İslam əməlinə sadiq yetişdirməkdir. Ölkənin gələcəyi belə təmin olunur. Gənclərin etiqadlarında şübhə yaratmaq istəyən düşmənlərin vəsvəsələrini ədavətli zümzümə sayın, işlərində uğur qazanmalarına qoymayan. Gəncləri dünya gənclərinin daha öncə məşğul olduğu və bu gün altını çəkdiyi məsələlərlə məşğul etmək bu ölkənin gənc nəslinə kömək deyil. Bəziləri müxtəlif bəhanələrlə iranlı gənci əyləncəli məsələlərə, zərərli musiqilərə, cinsi həvəslərə və bu qəbildən olan işlərə sövq etmək istəyirlər. Bu, qərbli gənci, amerikalı və avropalı gənci özündə qərq etməkdə olan bataqlıqdır. Bu, təqlid etməli bir şey deyil. Bunun qarşısında dayanın.

İslam birliklərindən olan siz əziz gənclərə də deyirəm: Sizin hər biriniz bir İslam qüvvəsisiniz. Özünüzü qoruyun, islah edin və inkişaf etdirin. Universitetə, yaxud hövzəyə və ondan sonra İslam Respublikası quruluşunda iş meydanına və cəmiyyətə girmək üçün özünüzü hazırlayın ki, işıq kimi parlaya biləsiniz. Bu ölkənin hər hansı bir yerində olan hər bir İslam birliyi bir səngərdir. 9-11-ci sinif şagirdləri düşmənin hiyləsini və hücumunu zərərsizləşdirmək üçün bu səngərdə dura bilməlidirlər. Bu bir mədəni və fikir səngəridir. Elə bir səngərdir ki, onda silah din, ağıl, elm, fikir və mədəniyyət silahıdır. Əgər bu səngərlər möhkəm olsa, düşmən nə hərbi hücumda, nə iqtisadi hücumda, nə siyasi hücumda, nə də bu hücumların ən təhlükəlisində - yəni mədəni hücumda bu ölkədə uğur qazanmayacaq. Bu günə qədər də düşmənin uğursuzluqları və məğlubiyyətləri bu mömin və yaxşı gənclərin müxtəlif meydanlarda iştirakına görə olmuşdur. Bundan sonra da belə olacaq, günbəgün də genişlənəcək. Sizin

və şagirdlərin hər biri qərar verib özlərini elə düzəltsinlər ki, universitetə, hövzəyə, yaxud hər hansı bir mərkəzə daxil olan gün orada bir çıraq kimi digərlərini yönəltsinlər. Allah-Taala möminlərin dilindən buyurur ki, bizi təqvalılar üçün imam et. Hər bir insan özündə bu səlahiyyəti yaratmalıdır. Hər hansı bir yerdə olsa, digərləri ona iqtida edə bilməlidirlər; təkcə camaat namazında iqtida yox, hətta əməldə iqtida, fikirdə iqtida, rəftarda iqtida. Bu gün Allaha şükür olsun ki, bu iş üçün şərait yaranmışdır. Daxili və xarici düşmənlər tərəfindən ölkənin mədəni və siyasi sahəsində baş verən düşmənçiliklərə və xəbisliklərə rəğmən, Allahın lütfü ilə şərait din şəraiti, inqilab şəraiti və İslam şəraitidir və bu siz gənclərin paklığına görədir.

Allah-Taaladan istəyirəm ki, həzrət Bəqiyyətullahın (ə) diqqətini sizin hamınıza şamil etsin! Mənim şübhəm yoxdur ki, siz gənclərin çoxu dövrün imamının müqəddəs nəzərindəsiniz. Bilirəm ki, sizin pak qəlbləriniz o həzrətin diqqət mərkəzindədir. İnşaallah o Fatimə (ə) övladı və Allahın saleh bəndəsi sizin üçün dua etsin! O həzrətin hamı üçün duası qəbul olunacaq. Ümidvarıq Allah Böyük İmamımızın və şəhidlərin pak ruhlarını bizim hamımızdan razı etsin!

Sağ olun.